# Yaradan varkən yaradılmışdan istəmə

**və yaxud**

**ziyarətgahlarda qəbirlərin üzərində edilən şirkin zərəri haqqında**

Birinci nəşr

"Əbu Hənifənin mirası"
saytının redaksiyası tərəfindən hazırlanmışdır
1440/2019

بسم الله الرحمن الرحيم

**«Şübhəsiz ki, məscidlər Allahındır. Allahdan başqa heç kəsə dua etməyin!»** (Quran: «əl-Cinn» surəsi, 18-ci ayə)

***«Əgər istəyirsənsə, Allahdan istə...»*** (Peyğəmbərin ﷺ nəsihətlərindən)

*"Ancaq Allahın adlarını vəsilə edib istəmək, başqa vasitələrlə istməyə icazə verilmir"* (İmam Əbu Hənifə)

*"Yaradan olduğu halda, yaradılmışdan niyə istəyirsən!"* (Abay)

# GİRİŞ

**Mərhəmətli və Rəhimli Allahın adı ilə**

Həqiqətən şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Allaha sığınırıq. Uca Allah, kimi doğru yola yönəldərsə, heç kəs onu həmin yoldan azdıra bilməz. Və kimi Uca Allah köməksiz qoyarsa, o mütləq azar və onu doğru yola yönəldən tapılmaz.

Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd ﷺ Onun qulu və elçisidir.

Həqiqətən ən doğru kəlam — Allahın kəlamıdır, ən doğru yol isə Muhəmmədin ﷺ yoludur. Ən şər əməllər dinə əlavə edilmiş yeniliklərdir. Dinə əlavə edilmiş hər bir yenilik bidət, hər bidət isə zəlalətdir, hər bir zəlalət isə oddadır.

Daha sonra:

Bu ümmətin ilk və axırıncı nəsillərindən olan, böyük imamların və öndərlərin kitabları ilə tanış olan hər kəs bilir ki, dində yeniliklərin tətbiqi və inkişaf etdirilməsi prosesi, iki şəkildə davam edə bilər: ya yenilik

gizlidir, təhlükə yaratmır və geniş miqyaslı deyil; ya da o çox sürətlə və əminliklə yayılır, getdikcə də daha çox insanı əhatə edir.

Bidətlərin birinci növünə gəlincə, onun mahiyyətini izah etməyə və ondan çəkindirməyə ehtiyac yoxdur, üstəlik, onu izah etmək səhvdir, çünki bunu etmək, lüzumsuz olaraq, insanların diqqətini bu bidətə cəlb edir və onun miqyasının böyüməsi və genişlənməsinə səbəb olur.

Bidətlərin ikinci növünə gəlincə, insanlara onun mənbələrinin, mahiyyətinin və təhlükəsinin izah edilməsi, bunun üçün biliyi kifayət qədər olan hər kəs üçün vacibdir.

Allah buyurub: **"Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. (Hər hansı bir) camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır"** (5:8).

Və həmçinin: **"O zaman Allah Kitab verilənlərlə əhd bağlayıb: "Siz o (Kitabı) mütləq insanlara aydınlaşdıracaqsınız və onu gizlətməyəcəksiniz!" – deyə buyurdu. Onlar isə bu əhdi qulaqardına vurub onu ucuz qiymətə satdılar. Onların bu alveri necə də pisdir!"** (3:187)

Asim ibn Əhəl demişdir: "*Bir dəfə mən, Qatadə ilə oturmuşdum və o, şiddətlə qınayaraq və pisləyərək, Amr ibn Ubeydin adını çəkdi. O zaman mən dedim: "Ey Əbu əl-Xəttab! Niyə bəzi alimlər, başqa alimləri pisləyirlər? Bu zaman Qatadə dedi: "Ey Əhəl! Məgər bilmirsən ki, bir insan dinə bidət daxil edərsə, onun haqqında danışmaq lazımdır ki, insanlar ondan çəkinsinlər*?!"[1]

Təəssüf ki, biz ifrat sufilik ideyalarının, doğma yurdumuzda geniş yayılması ilə və sadə insanların, dini şüurunda mənfi iz qoyması ilə, sınağa çəkildik, hansı ki, regionun sabitliyi üçün, ilk baxışda göründüyündəndə qat-qat böyük təhlükə yaradır. Ancaq dini bilgisi olan, əvvəllər bu ideyaların inkişaf edib, yayıldığı bölgələrdə

[1] Bax: «Tarix Bağdad» 12/179.

baş verənləri təhlil edən şəxs, onların təhlükəsini həqiqi qiymətləndirə bilər.

Uca Allah, bizi bir böyük məqsəd üçün yaratmışdır və bu barədə, Öz kitabında belə buyurmuşdur: **"Mən cinləri və insanları, ancaq Mənə ibadət etmək üçün yaratdım"** (51:56). Hər kim özünü bu məqsədə çatmaqdan uzaqlaşdıracaq yollara üz tutarsa, Uca Allah onun həyatını sıxıntılı edər, onun özünü isə, bədbəxt edər və onu zillət içində buraxar.

Allah buyurub: **"Məndən sizə, doğru yolu göstərən rəhbər gəldiyi zaman, o kəs ki, Mənim doğru yol göstərən bələdçimin ardınca getsə, nə yolunu azar, nə də bədbəxt olar. Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirdəcəyik"** (20:123-124).

Və həmçinin: "**Allahla yanaşı, başqa tanrıya ibadət etmə! Yoxsa zəlil və tənha qalarsan"** (17:22).

Şübhə yoxdur ki, hər hansı bir xalq, tövhiddən uzaqlaşaraq, şirk və bütpərəstliyin müxtəlif təzahürlərini həyata keçirərsə və bunun üzərində sabitləşərsə, onları ağır sarsıntılar gözləyir: təbii fəlakətlər, iqtisadi və siyasi tənəzzül şəklində, həmçinin müharibələr və daxili iğtişaşlar. Bu, Uca Yaradanın, yaradılmışların üzərində, yaratdığı qanundan başqa bir şey deyil və o, dəyişdirilə bilməz. Əfqanistana, İraqa, Qafqaz torpaqlarına, eləcə də bugünkü Misirə, Yəmənə və Liviyaya Uca Allahın göndərdiyi fəlakətlərə nəzər salan hər kəs, şübhəsiz ki, “Niyə müsəlmanların torpaqlarında bu baş verir?” sualını verəcək. Və bu sualın cavabı budur ki, bu torpaqlarda yaşayan insanlar, ifrat sufilik ideyalarını qəbul edirlər. Bu torpaqlar məqbərələr ilə doludur, ölülərdən istəmək, salehlərin qəbirlərində qurban kəsmək və nəzir etmək kimi və həmçinin digər böyük şirkin təzahürləri ilə doludur.

Hənəfi imamı əl-Xucəndinin Buxara haqqında sözləri: “*Uca Allahın bu torpaqlarda Allahsız kommunizmin qələbə çalmasına icazə verməsinin səbəbi odur ki, burada şirk və qəbirlərə sitayiş geniş yayılmışdır*”.[1]

Bugünkü vəziyyətə gəlincə, qəbirlərə ibadət bəlası, mistik inanclar

[1] Bax: “Hukmu Lləhi əl-Əhəd əs-Səməd” səh. 30–31.

və geridə qalmış bütpərəstliyin ayinləri bizim bu torpaqlarımızda qalıblar. Yalanları və hiylələri ilə tanınan sufiliyin nümayəndələri, onları fəal şəkildə həyata keçirirlər və yayırlar. Hənəfi imamı Şükri əl-Əlusi (1342 hicri il) onlar haqqında belə demişdir: *"Şübhə yoxdur ki, hətta xəvariclər və rafizilər, qəbirlərə ibadət edənlər qədər, Allaha və Rəsuluna ﷺ və bütövlükdə ümmətə qarşı belə bir cahillik və yalan dərəcəsinə çatmamışlar"*.[1]

Onların yalanı aşağıdakılarda özünü göstərir:

1. Fikirlərini müvəffəqiyyətlə yaymaq üçün, özlərini və fikirlərini fəal surətdə, Hənəfi məzhəbinə bağlayırlar, hansı ki, əqidə məsələlərində sufilik ilə əlaqəsi yoxdur, necə ki, Yusifin köynəyindəki qanla canavarın əlaqəsi yoxdur. Oxucunun buna əmin olması üçün, bu əsəri Hənəfi məzhəbi imamlarının ifadə və kəlamları ilə doldurmağa çalışdıq və bəzi fəsillərdə, yalnız onlarla məhdudlaşdıq. İmam Əbu Hənifənin özünə, onun tələbələrinə və Hənəfilərin ilk nəsillərinə gəldikdə isə, İslamın ilk əsrlərində, qəbirlərə ibadət olmadığı üçün, onların bu mövzuda açıqlamaları az və nadirdir. Sonrakı nəsillərin hənəfilərinə gəlincə, onların kitabları və əsərləri çox vaxt, ifrat sufilərin səhvlərini, hətta "vəhhabi liderləri" adlandırılanlardan daha sərt, geniş və bəlağətli şəkildə təkzib edirlər.

2. Bölgəmizin sufilərinin alçaqlığı, həm də onda özünü göstərir ki, onlar indi "sələfiyyə" və "sələfilər" ifadələrini aktiv şəkildə işlətməyə başlayıblar, o cümlədən bəyənmədiyi hər kəsi buna daxil edərək deyirlər. Bunu ona görə edirlər ki, çox gözəl başa düşürlər ki, bu gün sələfilərdən başqa, heç kim onlara mane olmağa, haqq sözünü deməyə və onların hiyləgər mahiyyətini ifşa etməyə qadir deyil. Onlar eyni zamanda, bir araya sığmayan şeyləri bilərəkdən qarışdırırlar, kütlənin dəstəyini qazanmağa çalışırlar. Onlar yaxşı bilirlər ki, müsəlmanların ilk nəsillərinin yolu olan, sələfiyyə

[1] "Qayət əl-Əmani" 1/215.

tərəfdarlarının heç bir partiya və hərəkatı ilə əlaqəsi yoxdur və partiyaralardan imtina edirlər, onlardan “Hizb ət-Təhrir”, “Təkfir” (başqa bir adla “Xəvariclər”) partiyalarını, “Cihad və hicrət”, “Təbliğ”, “İxvanul-müslimun”, “Sururilər”, “Səid Nursi” və digər azğın qrup və hərəkatları qeyd etmək olar.

Onlar bilirlər ki, sələfilərin partlayışlar, çevrilişlər, nümayişlər, hakimiyyəti ələ keçirmək cəhdləri, günahsız insanların öldürülməsi, girov götürülməsi və digər iğtişaşlarla, heç bir əlaqəsi yoxdur.

Üstəlik, yuxarıda sadalananların hamısının, haram olması ilə bağlı, sələfilərin əsərləri və yazıları, bütün bu məzhəb və partiyalara qarşı xəbərdarlıqlar, rusdilli müsəlmanlara yaxşı məlumdur və bu da Uca Allahın izni ilə, bir çox müsəlmanın, bu xətalardan çıxmasına səbəb olmuşdur. Bütün bunlar, müsəlman xalqlarının həyatına, lüzumsuz qarşıdurmalara, münaqişələrə səbəb olan müxtəlif ifrat, fanatik baxış və ideyaları daxil etmədən, onların sabit, sakit inkişafı üçün lazımdır.

Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur.

# FƏSİL 1

# TÖVHİDƏ DƏVƏT ETMƏYİN VƏ İNSANLARA TÖVHİDİN MƏHİYYƏTİNİ TƏFƏRRÜATI İLƏ İZAH ETMƏYİN VACİBLİYİ HAQQINDA

**Mərhəmətli və Rəhmli Allahın adı ilə**

Uca Allahın insanlara əmr etdiyi və Onun peyğəmbəri Muhəmmədin ﷺ dəvət etdiyi şeylərin, ən mühümü və ən əhəmiyyətlisi tövhiddir. Uca Allahın öz yaratdıqlarını çəkindirdiyi və onlara qadağan etdiyi və Rəsulunun ﷺ mübarizə apardığı ən dəhşətli şey şirkdir.

Məhz tövhidin vacibliyinə görə, Allah Rəsulu ﷺ tövhidi izah etmədən, insanları heç bir şeyə çağırmazdı və heç nəyi izah etməzdi. Məhz şirkin böyük günah və təhlükəli olduğuna görə, insanlara şirkin zərərliliyinin izahından öncə heçnə izah etməmişdir.

Odur ki, Uca Allah, Öz kitabında, yaxşı əməllərdən bəhs edərkən, onları yerinə yetirməyə sövq edərkən və ya insanlara bir şeyi əmr edərkən, şübhəsiz ki, tövhidə sövqi və əmri irəli sürər və yalnız

bundan sonra, başqa yaxşı əməllərdən və əmrlərdən danışar.

Oxucudan aşağıdakı ayə üzərində düşünməyi xahiş edirik:

Allah buyurub: **"Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, yaxşılıq edin..."** (4:36)

Baxın, Uca Allah necə insanları yaxşılığa təşviq edərək, tövhiddən başlayıb, yalnız bundan sonra valideynlərin, qohum-əqrəbanın, yetimlərin və sairlərin haqqına keçdi.

Həmçinin, Uca Allah öz kitabında, pis əməllərdən və günahlardan bəhs edərkən, bu əməllərin edilməsini pisləyərkən, tərk etməyə çağırarkən və ya insanları hər hansı bir işdən çəkindirərkən, mütləq bütün bunlardan öncə, şirki məzəmmət edir və onun törədilməsinə qadağa qoyur və yalnız bundan sonra başqa, pis əməllərdən və günahlardan danışır.

Oxucudan, aşağıdakı ayələri düşünməyi xahiş edirik:

Allah buyurub: **"De: "Gəlin, Rəbbinizin sizə nələri haram etdiyini oxuyum: Ona heç nəyi şərik qoşmayın, valideynlərə yaxşılıq edin və yoxsulluq ucbatından, uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Murdar əməllərin aşkarına da, gizlisinə də yaxınlaşmayın. Allahın, (öldürülməsini) haram buyurduğu şəxsi, haqsız yerə öldürməyin. Allah, bunları sizə tövsiyə etmişdir ki, bəlkə anlayasınız"** (6:151).

Baxın, necə Uca Allah, insanları günahları tərk etməyə dəvət edərək, şirki pisləməkdən başladı və yalnız bundan sonra, qətlin və digər pis əməllərin, nə qədər böyük günah olduğunu izah etməyə keçdi.

Eyni şeyi "İsra" surəsinin, bəzi ayələrini oxuyanda da görmək olar. Uca Allah, orada haramlarla bağlı, on səkkiz hökmü sadalayır: **"Rəbbin, yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi, sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə!"** (17:22-23) Bundan sonra, Uca Allah, adam öldürmə günahından, zinadan, tərəzidə aldatmaqdan, yetimin malını mənimsəməkdən, təkəbbürlükdən və sair günahlardan danışır.

Allahu Təalə, daha sonra bu qadağaların sadalanmasını, bu sözlərlə bitirir: **"Bunlar Rəbbinin sənə vəhy etdiyi hikmətdəndir. Allahla yanaşı, başqa tanrıya ibadət etmə, yoxsa qınanmış və qovulmuş halda Cəhənnəmə atılarsan"** (17:39).

Tövhid nədir və şirk nədir?

Tövhidin mahiyyəti ondan ibarətdir ki, bütün ibadət növlərinə, yalnız Uca Allah layiqdir və Ondan başqa heç kəs, onlara layiq deyildir. Çünki O, hər şeyin Yaradıcısı və Rəbbidir, ən gözəl Adlara və ən yüksək Sifətlərə malikdir. Hər bir insan Allahın məxluqu olduğu üçün, bunu öz əqidəsi, sözü və əməli ilə tanımağa və təsdiq etməyə borcludur. Belə bir insan, tövhid əhli sayılır.

O kəs ki, Allahla yanaşı, hər hansısa bir ibadət növünə ibadət edərsə, hətta hər şeyin Yaradıcısı və Rəbbinin Tək olan Allah olduğunu bilsə də və heç kəsi, heç bir cəhətdən Allahla bərabər tutmasa da, yenə də müşrik olar.

Bu kitabın ayrı-ayrı fəsillərində, tövhidin mahiyyəti və şirkin mahiyyətinin, ətraflı izahı veriləcəkdir.

Nə üçün Peyğəmbər ﷺ dəvətinin ilk on ilində insanlara tövhidin və şirkin mahiyyətindən başqa birşey izah etmədi?

Bunun bir çox səbəbləri var:

1) Uca Allah insanları və cinləri yaratmış, göylərdə və yerdə olan hər şeyi, onlar üçün yaratmış, onlara ruzi vermiş və onları yalnız Ona ibadət etmələri, tövhidi həyata keçirmələri, müşriklərdən və şirkdən uzaq durmaları üçün yaşatmışdır.

Allah buyurub: **"Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz (heç vaxt) Bizə qaytarılmayacaqsınız? Haqq, Hökmdar Allah (hər şeydən) ucadır! Ondan başqa heç bir ilah yoxdur. O, şanlı Ərşin Rəbbidir"** (23:115-116).

Və həmçinin: **"Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım"** (51:56).

Buna əsasən, bu dünyada yaşayan, çoxlu yaxşılıq edən və başqalarına zərər vurmayan, lakin eyni zamanda tövhid əhli olmayan və şirkdən uzaq durmayan insan, Uca Allahın onu yaratmasına və ona həyat verməsinə görə, onun üzərinə düşən vəzifəsini yerinə yetirmir. O insan, müxtəlif məqsədlər üçün istifadə edilmiş, lakin heç vaxt təyinatı üzrə istifadə olunmamış əşyaya bənzəyir.

2) İnsan tövhidə etiqad etməyənə qədər, Uca Allah ondan yaxşı əməlləri qəbul etməz.

Allah buyurub: **“Onların sərf etdiklərinin, qəbul olunmasına, yalnız o mane olur ki, onlar Allahı və Onun Elçisini inkar edir, ha tənbəlliklə qalxır və (mallarını) könülsüz xərcləyirlər"** (9:54).

Və həmçinin: **"Bil ki, Allahdan başqa (ibadətə layiq olan) heç bir məbud yoxdur. Sən həm öz günahlarının, ... bağışlanmasını dilə"** (47:19).

Bu onu deməyə əsas verir ki, əgər insan, tövhidin mahiyyətini dərk etməsə və ona etiqad etməsə, Uca Allah ondan bağışlanma diləyini qəbul etməz.

3) Uca Allah, məhz insanların tövhidə etiqad edib şirkdən uzaqlaşmaları üçün, öz Kitabını nazil etmişdir.

Allah buyurub: **"Əlif. Ləm. Ra. (Bu,) Müdrik, (hər şeydən) Xəbərdar (olan Allah) tərəfindən, ayələri mükəmməlləşdirilmiş, sonra da ətraflı izah edilmiş bir Kitabdır. (Bu ona görədir) ki, Allahdan başqasına ibadət etməyəsiniz"** (11:1-2).

Hənəfi məzhəbinin, ən böyük imamlarından biri olan, İmam İbn Əbil-‘İzzul-Hənəfi (792-ci hicri il)[1] demişdir: *«Qurani-Kərimin əksər surələri, tövhid növlərinin mahiyyətindən xəbər verirlər, hətta bütün surələri də bundan bəhs edirlər. Qurani-Kərim ya Allah haqqında — Onun adlarından, sifətlərindən və əməllərindən bəhs edir və bu da Uca Allahı tanımaqda tövhid sayılır, yaxud da heç kəsi Ona şərik qoşmadan, yalnız Ona ibadət*

---

[1] Mötərizədə, İslam təqvimi ilə, alimin vəfat ili, hicri il ilə göstərilmişdir.

*etməyə çağırır və Ondan başqa hər şeyə ibadət etməkdən çəkinməyə çağırır. Bu da, artıq ibadətdə tövhid adlanır. Yaxud Quran, yaxşı işlərdən bəhs edir, pis işlərdən çəkindirir ki, bu da tövhidin haqqı və onun bəzəyidir. Yaxud Quranda, tövhid əhlinin, gözəl mükafatı və Uca Allahın, onlara dünya və axirətdə necə xeyir-dua verdiyi barədə, xəbər verilir və bu, tövhidin mükafatı haqqında bir hekayədir. Yaxud bizə, müşriklərdən və onların bu həyatda, hansı əzablara düçar olduqlarından və axirətdə onları hansı əzabın gözlədiyindən xəbər verir və bu, tövhidə etiqad etməkdən boyun qaçıranlardan bəhs edir. Beləliklə, bütün Quran tövhiddən, onun hüquqlarından və mükafatından, yaxud şirkdən, müşriklərdən və onların cəzalarından bəhs edir».*[1]

4) Ona görə də, əgər insan Quranı açıb, onu əvvəldən oxumağa başlasa, oxuyarkən qarşılaşacağı ilk əmr — tövhid əmridir: **"Ey insanlar! Sizi və sizdən öncəkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə (Allahdan) qorxasınız"** (2:21).

Bunun təsdiqini, Hənəfi imamlarının, o cümlədən İmam İbn Əbil-'İzzin (792 hicri il) və Əli əl-Qarinin (1014 hicri il) sözlərində tapırıq. Onların hər ikisi demişdilər ki: "Bütün saleh əcdadlar (sələflər) ittifaq etmişdilər ki, hər bir insanın ilk və son vəzifəsi — tövhid olmalıdır".[2]

---

[1] "Şərh 'əqidə ət-Tahauiya" səh. 31.

[2] Bax "Şərh 'əqidə ət-Tahauiya" səh. 17 və Minah əl-Əzhər səh. 17.

5) Bütün elçilərin göndərilməsi, tövhidin izahı üçün olub.

Allah buyurub: **"Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan**[1] **uzaq olun”– (deyə), elçi göndərdik"** (16:36).

Və həmçinin: **"Səndən əvvəl, elə bir elçi göndərməmişik ki, ona: “Məndən başqa heç bir ilah yoxdur, Mənə ibadət edin!”– deyə vəhy etməyək"** (21:25).

6) Allahın hər bir elçisi, həqiqətən öz qövmünə belə demişdir: **"“Ey qövmüm! Allaha ibadət edin! Sizin Ondan başqa ilahınız yoxdur"** (7:73).

7) İnsanları dəvət etməyə lazım olan ilk şey budur:

İbn Abbas rəvayət edir ki, Allah Rəsulu ﷺ, Muazı (Allah ondan razı olsun), Yəmənə göndərəndə, ona dedi: “Sən, kitab əhli olan insanların yanına gələcəksən, qoy onları çağırdığın ilk şey, Allahdan başqa ibadətə layiq, haqq ilah olmadığına və Muhəmmədin ﷺ Allahın elçisi olduğuna şəhadət olsun! Əgər bu işdə sənə itaət edərlərsə, onlara xəbər ver ki, Allah onlara hər gün beş vaxt namaz qılmağı vacib etmişdir...”[2]

Bu hədisdən də göründüyü kimi, tövhidin həyata keçirilməsi əsasdır və yalnız bundan sonra insanlara namaz qılmağın və zəkat verməyin lazım olduğu izah edilir, həmçinin gözəl əxlaqa təşviq etmək və sair şeylərin də lazımlı olduğunu heç demirik belə. Bunun səbəbi, namazın, zəkatın və gözəl əxlaqın Allah dərgahında, yalnız tövhid əhlindən qəbul olmasıdır.

8) Buna görə də, Peyğəmbərin ﷺ öz qövmünə dediyi ilk şey budur: **“Ey insanlar! Deyin: “Allahdan başqa, ibadətə layiq haqq ilah yoxdur” və o zaman nicat tapacaqsınız”.**[3]

---

[1] “Tağut” — Allahdan başqa ibadət edilən və ilahiləşdirilən hər bir şeydir.

[2] Hədis səhihdir; Buxari 4347; Muslim 30.

[3] Hədis səhihdir; İbn Əbi Şeybə 14/300; İbn Xuzeymə 1/82; İbn Hibban 6562 və s.

Və bu çağırış, təkcə sözlərlə kifayətlənmədi, əksinə Allah Rəsulu ﷺ insanlarla münasibətlərini, bu çağırış əsasında qurdu.

Uqbə ibn Amir əl-Cuhani belə demişdir: «*Bir gün, bir qrup insan, Rəsulullahın ﷺ hüzuruna gəldi. O, onlardan doqquzunun beyyətini qəbul etdi və birini isə saxladı, onun andını qəbul etmədi. Bu zaman onlar dedilər: "Ey Allahın Rəsulu! Sən doqquz nəfərin andını qəbul etdin, birinin andını isə yox?" Onda o, cavab verdi:* ***"Həqiqətən, o, amulet taxıb"****. Sonra bu adam əlini yaxasına saldı və amuleti qopardı, bundan sonra Allah Rəsulu ﷺ onun beyyətini qəbul etdi və dedi:* ***"Kim təmimə (tilsim, hamayıl, amulet) assa, şirk etmiş olur"***»[1].

9) Həmçinin, tövhid — insanları dəvət etdiyin son şeydir.

Allah buyurub: **"Yoxsa siz Yaquba ölüm gəldikdə (onun) yanında idiniz? O zaman o, öz oğullarına dedi: "Məndən sonra nəyə ibadət edəcəksiniz?" Onlar dedilər: "Sənin İlahına, atalarının – İbrahimin, İsmailin və İshaqın İlahı olan Tək İlaha ibadət edəcəyik. Biz yalnız Ona təslim olanlarıq!"** (2:133)

Hənəfi imamlarının, kitablarına baxan hər kəs bu əsasları təsdiq edən, bir çox kontekst görə bilər.[2]

10) Bu, islamda insana verilən son əmrdir.

Əbu Səid əl-Xudri (Allah ondan razı olsun) rəvayət edir ki, Rəsulullah ﷺ belə demişdir: ***«Ölüm ayağında olan ölənlərinizə: "Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur" kəlməsini dedizdirin. Ölümdən əvvəl son sözü "Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur" olan kəs, axirət günlərinin birində, Cənnətə***

---

[1] Hədis yaxşıdır; Əhməd 4/156; əl-Hakim 4/219.

[2] Bax, "Bəhr" Əbu əl-Leys əs-Səmərkəndi 1/486; "Madaris" ən-Nəsəfi 1/90; "Ruh əl-mə'ani" əl-Alusi 1/388 və s.

***daxil olar, hətta o girməzdən əvvəl başına gələnlər başına gəlsələr belə».***[1]

Bütün bunlar və bir çox başqa şeylər, insanları tövhidə dəvət etməyə xüsusi diqqətimizi yönəltməyə məcbur edir. Lakin, burada mühüm bir təfsilata diqqət çəkmək istərdik: Tövhidin mahiyyətinin izahına, təkcə kafirlərin deyil, ilk növbədə müsəlmanların özlərinin, eləcə də özünü müsəlman hesab edənlərin hamısının ehtiyacı var.

"Niyə?" – soruşacaqsınız siz. Buna, sizin üçün aşağıdakı kimi, cavab verəcəyik:

Müsəlmanların əksəriyyəti və ümumilikdə müsəlman xalqların nümayəndələri, tövhidin mahiyyətini anlamırlar, “Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur” (“Lə iləhə illəllah”) sözlərinin, nə demək olduğunu başa düşmürlər. Bu, həmçinin gənclərə də aiddir.

Küçədəki, sadə insanlara gəlincə, onlar: “Biz Allaha inanırıq” deyirlər. Onlardan: “Biz Allaha inanırıq” ifadəsi ilə nəyi nəzərdə tutursunuz?” deyə soruşsanız, sizə cavab verəcəklər: “Yəni, biz Allahın varlığına inanırıq” və ya: “Hər şeyi, Allahın yaratdığına inanırıq”. Əgər onlardan soruşsan ki, “Lə iləhə illəllah” şəhadəti nə deməkdir? Sənə cavab verəcəklər: “Bu o deməkdir ki, Allah kimisi yoxdur”.

Artıq dediyimiz kimi, Allahın izni ilə, tövhidin mahiyyəti və “Lə iləhə illəllah” şəhadətinin mənasının izahı bu kitabda gələcəkdir, lakin qabaqcadan deyə bilərik ki, bu cür, yuxarıda qeyd edilən, tövhid anlayışı natamamdır və insanı müsəlman etmir. Belə bir insan, kafir olaraq qalmağa davam edər və əgər bu görüşlə ölərsə, Od onun əbədi sığınacağı olar.

Çünki əbədi Cəhənnəm vəd edilmiş hər bir müşrik, Allahın var olmasını və hər bir şeyi Uca Allahın yaratdığını bilir. Lakin, buna baxmayaraq o, bəzi ibadət növlərini, Allahla yanaşı başqasına həsr edir. Elə məhz, tək Allaha deyil, Allahla yanaşı başqa məbudlara, ibadət etdiyi üçün, o şəxs “müşrik” (Allaha şərik qoşan) adlanır.

---

[1] Hədis səhihdir; Muslim 916.

Tövhid şəhadətinin "Allah kimisi yoxdur" kimi başa düşülməsinə gəlincə, bu anlayış, kökündən yanlışdır, çünki heç bir müşrik, üstəlik, yer üzündə heç bir insan, bu sözlə mübahisə etməz. Bunun ətraflı izahı, bu kitabda olacaq. Burada (biz), yalnız Hənəfi məzhəbinin, bəzi böyük alimlərinin sözlərini sitat gətirməklə, kifayətlənəcəyik.

İmam Muhəmməd əs-Səhsavani (1326 hicri il) demişdir: "*Bilin ki, Uca Allah məxluqlara, yalnız onları yaratdığını və onlara ruzi verdiyini izah etmək üçün, elçilər göndərməmişdir və kitablar nazil etməmişdir. Çünki bu söz artıq, kitab nazil olana qədər, hər bir müşrik tərəfindən qəbul edilmişdi*".[1]

İmam əl-Xucəndi (1379 hicri il) buyurur: *"Və bilin ki, "Lə iləhə illəllah" ("Allahdan başqa, ibadətə layiq, haqq ilah yoxdur") sözləri, islamla küfrü bir-birindən ayıran sözlərdirlər və burada, bu sözlərin mənasını dərk etmədən, təkcə dillə tələffüzü nəzərdə tutulmur, onların mənalarını dərk edərək, onlara tabe olmaq nəzərdə tutulur". Daha sonra imam, bəzi dəlillər gətirdi və sonra buyurdu: "Və başqa hədislər də var ki, insanların əksəriyyətinin, bu şəhadətin mənası ilə bağlı nadanlığı o hədislərdə aydın olur. Ona görə də, kim bu sözləri, mənasını bilə-bilə və qəlbində əminliklə tələffüz edərsə, islama daxil olar və Cənnət əhlindən olar".*[2]

Bu imamların sözlərini oxuyandan sonra, aydın olur ki, insanların onlara tövhidin mahiyyətini izah edən, şübhələrini aradan qaldıran, bunu onlara daim xatırladan və islah edən kimsələrə ehtiyacları var.

İmam əş-Şəvkani belə buyurur: *"Bu adi insanların, zəlalətə düşməsinin səbəbi odur ki, valideynləri və qohumları arasında yaşayıb, onları bu əqidələrdə görüb, bu əqidələri onlardan mənimsəmişlər. İnsanlar, bu inancları əvvəlki nəsildən mənimsəmişlər — sonuncular da özlərindən əvvəlkilərdən. Məsələnin mahiyyətini bilənlərin, elm sahiblərinin, susması və hərəkətsizliyi və bunu insanlara izah*

---

[1] "Siyanət əl-insan" səh. 164.

[2] "Miftəh əl-cənnət" səh. 38–39.

*etməkdən boyun qaçırmaları, həmin insanların bu baxışlarda qalmasına səbəb olur”*. [1]

Uzun illər, məscidə gedib, namaz qılanlara gəlincə, onlar küçədəki insanlardan daha yaxşı vəziyyətdədirlər. Lakin, onlara bu sualı verin: “Lə ilahə illəllah” şəhadətinin mənası nədir? Onlar cavab verəcəklər: “Allahdan başqa ilah yoxdur”. Bu zaman, onlardan soruşun: “Bəs, Uca Allahın, bu kəlamı nə deməkdir? **"Nəfsinin istəyini ilahiləşdirən şəxsi gördünmü?"** (45:23) Çünkü, bu ayədən aydın başa düşülür ki, Uca Allah «nəfsinin istəyi» adlı bir məbudun olduğunu təsdiqləyir.

Əminəm ki, onların bir çoxunun cavabı sizi məyus edəcək.

[1] “Ədəb ət-tələb” səh. 16.

# FƏSİL 2

# İNSANLARA ŞİRKİN MAHİYYƏTİNİ VƏ ONUN NÖVLƏRİNİ ƏTRAFLI İZAH ETMƏYİN ZƏRURİLİYİ HAQQINDA

Peyğəmbər ﷺ, bütün dəvət illərini, şirkin mahiyyətini və onun növlərini izah etməyə həsr etmişdir. Başqa günahların təhlükəsini izah etməyin vacibliyindən əvvəl, şirkin izahını və ondan çəkindirməyi vacib etmişdir.

Bunun səbəbləri aşağıdakılardır:

1) Əgər insan, şirk əməllərindən hər hansı birini edərsə, amma ölüm ona gəlməzdən əvvəl tövbə etməyə çatmazsa, Uca Allah onu heç vaxt bağışlamaz və onun sığınacağı yer cəhənnəm olar və oradan heç vaxt çıxmaz.

Uca Allah buyurub: **“Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa (günahları) isə dilədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur”** (4:48).

2) Şirk ən böyük günahdır.

Əbi Bakrat demişdir: «*Bir dəfə biz, Rəsulullahın ﷺ yanında idik və o, bizə dedi:* ***“Sizə ən böyük günahlardan xəbər verimmi? Allaha şərik qoşmaq, valideynlərin üzünə ağ olmaq və yalançı şahidlik”***».[1]

[1] Hədis səhihdir; Buxari 2654; Muslim 87.

3) Şirk ən dərin azğınlıqdır.

Uca Allah buyurub: **“Şübhəsiz ki, Allah Ona şərik qoşmağı bağışlamayacaq. Bundan başqa olan (günahları) isə, istədiyi kimsəyə bağışlayacaqdır. Allaha şərik qoşan şəxs əlbəttə ki, dərin bir azğınlığa düşmüşdür”** (4:116).

4) Şirk, insanın əbədi olaraq Odda qalmasının və ondan heç vaxt çıxmamasının səbəbidir.

Allah buyurub: **“Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmiş və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır”** (5:72).

5) Allaha şərik qoşmaq böyük zülmdür.

Allah buyurub: **“Bir zaman Loğman öz oğluna nəsihət edərək demişdi: “Oğlum! (Allaha) şərik qoşma. Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!”** (31:13)

6) Əgər insan, şirkə aid hər hansı bir iş görsə, ömrü boyu etdiyi bütün yaxşılıqlar puç olar.

Uca Allah, peyğəmbərinə ﷺ xitab edərək buyurub: **«Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: “Əgər şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan”»** (39:65).

Bundan əlavə, Uca Allah Öz peyğəmbər və elçilərindən on səkkiz (18) nəfərin adını sadaladıqdan sonra, belə buyurdu: **“Bu, Allahın hidayətidir. Bununla O, qullarından istədiyi şəxsi doğru yola yönəldir. Əgər (Ona) şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı”** (6:88).

Bu ayələr, şirk edənlərdən olmamaq üçün onun mahiyyətini, növlərini və təzahürlərini öyrənməyin vacibliyindən xəbər verir. Axı heç birimiz, uzun illər Allaha itaət edərək, bütün etdiyimiz yaxşılıqların puç olmasını istəmirik.

Məhz buna görə, peyğəmbərlər şirkə aid bir şey etməkdən çox qorxurdular.

Uca Allah, tövhid əhlinin imamı olan İbrahim peyğəmbərin sözlərini bizə bildirdi. Allah buyurdu: **«Bir zaman İbrahim demişdi: "Ey Rəbbim! Bu şəhəri əmin-amanlıq (yurdu) et. Məni və oğullarımı bütlərə tapınmaqdan uzaqlaşdır. Ey Rəbbim! Həqiqətən də, onlar çox adamı azdırıblar"»** (14:35-36).

Görün, Allahın Peyğəmbəri şirk edəcəyindən necə qorxurdu, axı Uca Allah onun haqqında belə buyurub: **«Həqiqətən İbrahim, Allaha müti olan, hənif bir sərkərdə idi. O, müşriklərdən deyildi. O, Allahın nemətlərinə şükür edən idi. Allah onu seçmiş və doğru yola yönəltmişdi. Biz ona, dünyada gözəl nemət verdik. Şübhəsiz ki, o, axirətdə də əməlisalehlərdəndir. Sonra sənə vəhy etdik: "Hənif İbrahim dininə tabe ol. O, müşriklərdən deyildi"»** (16:120-123).

7) Şirk — nəcasətdir (murdarlıqdır), müşriklər isə nəcəsdirlər (murdardırlar).

Allah buyurub: **"Ey iman gətirənlər! Həqiqətən də, müşriklər murdardırlar"** (9:28).

8) Müşrik, şirk üzərində vəfat etdikdən sonra, Uca Allah onun üçün bağışlanma diləməyi bizə qadağan etmişdir. Allah buyurub: **"Müşriklərin, Cəhənnəm sakinləri olduqları, onlara bəlli olduqdan sonra, qohum olsalar belə, Peyğəmbərə və möminlərə, onlar üçün bağışlanma diləmək yaraşmaz"** (9:113).

Bu ayə, qohumlarımıza şirkin mahiyyətini izah etməyin vacibliyindən bəhs edir, çünki onlardan hər hansı biri, şirkə aid bir şey edərək və ya müşriklərin inancından hər hansısa birinə etiqad edib, vəfat edərsə, biz Allahdan onlar üçün bağışlanma diləyə bilməyəcəyik.

# FƏSİL 3

# ŞİRKİN HƏYATA KEÇİRİLMƏSİNİN MƏRHƏLƏLƏRİ

Bil ki, qardaşım, şirk və onun təbliği, bizim torpaqlarımızda sürətlə yayılmaqdadır. Amma bununla belə, biz susuruq və onun qarşısını almaq üçün, insanlara onun mahiyyətini, təhlükəsini və hansı tərəfdən yaxınlaşdığını izah etmək üçün heç bir iş görmürük.

Son illər bəzi müsəlman ölkələrində bütpərəstlik ayinlərinin yavaş-yavaş yenidən canlanması müşahidə olunur. Bu canlanmanın əsl miqyası daim azaldılır, gizlədilir və buna görə də gözə çarpmır. Bütün bunlar, əcdadlara hörmət və xalqı birləşdirmək kimi, zahirən məsum şüarlar altında həyata keçirilir. Lakin şirkin yayılma mənbələri, növləri və mərhələləri haqqında məlumatı olan hər kəs anlayır ki, məsələ heç də ilkin mərhələdə deyil.

Biz burada, imam İbn Qeyyimin, mənzərəni bir az da aydınlaşdıracaq sözlərindən sitat gətirəcəyik. İmam İbn Qeyyim demişdir: *"Şeytan şirkə meyilli olanlara, təlqin etməkdən əl çəkmir ki, qəbir yerlərini ziyarət etmək və onların yanında qalmaq əcdadlara ehtiram və hörmət göstərmək yollarından biridir. O, onları inandırır ki, belə yerlərdə Allaha edilən duaya mütləq cavab veriləcək. Sonra şeytan, onlarla növbəti mərhələyə keçir və bu mərhələ odur ki, insanlar bu saleh əcdadların adı ilə Allahdan istəməyə və bununla da Allaha yaxınlaşmağa başlayırlar. Bu inanclar onlarda möhkəmləndikdə isə, şeytan onlarla birlikdə növbəti mərhələyə keçir, bu isə odur ki, insanlar ölmüş əcdadların özlərinə müraciət etməyə, onlara ibadət etməyə və Allah yanında onlardan şəfaət istəməyə başlayırlar. Qəbirlərin*

*başında ibadət ayinlərini yerinə yetirməyə başlayırlar, üzərində qurbanlıq heyvan kəsirlər, qəbirlərin ətrafında fırlanırlar, onlara toxunurlar, öpürlər, ziyarətə gedirlər və sair kimi ayinlər edirlər. Sonra onlar, daha da irəli gedərək, insanları bu qəbirlərə və bu qəbirlərdə dəfn olunmuş, əcdadlara sitayiş etmək üçün dəvət etməyə başlayırlar. Sonra onlar, elə etiqad edirlər ki, onların bu əməllərini qadağan edən şəxs, əsl tövhid əhli deyil və onun şərəfi-namusu haram olmur. Daha sonra onlar biraz da irəliləyib, düşmənçiliklərini üzə çıxarırlar. Onları şirkdən çəkindirənlərə düşmənçilik edirlər və insanları onlardan uzaqlaşdıraraq, tohvid əhlini böyük günahlarda ittiham edirlər. Eyni zamanda, onlar özlərini Allahın qulları, Onun dini və imanı uğrunda mübarizə aparan hesab edirlər. Lakin:* **"Onlar Məscidulharamın xidmətçiləri olmadıqlarına baxmayaraq (möminləri) oraya buraxmadıqları halda, Allah nə üçün onlara əzab verməsin? Onun xidmətçiləri yalnız müttəqilərdir"** (8:34).[1]

Bilin ki, torpaqlarımızda qəbirlərə ibadət ayinlərinin yayılması, aşağıdakı mərhələlərdən keçib:

1) İnsanlara, öz əcdadlarına hörmət və ehtiram etməyi, öz köklərini bilməyi və şanlı tarixlərini xatırlamağı aşılayaraq. Bütün bunlar, xalqının əzəmətini dirçəltmək, vahid ruhani mərkəz təşkil etməklə, torpaqlarımızda islam dininin dirçəlişi fikri altında, guya bunlar yuxarıda deyilənlərin hamısına təkan olacaq.

2) Bütün bunların, arxeoloji qazıntılarla müşayiət olunması və İslamı qəbul etmiş müsəlman sivilizasiyasının izlərinin mövcudluğunun təsdiqi. İnsanların qəlblərində bu ideyanı daha təsirli şəkildə gücləndirmək üçün, Peyğəmbərin ﷺ səhabələrinin, məzarlarının olduğu iddia edilir ki, bu da əfsanələr və folklorla dəstəklənir.

3) Sonra bəzi ölkələr, camaat üçün toplanma yeri olaraq elan edilir və bunun üçün ilk baxışdan tamamilə məsum görünən, türk

[1] "İqasət əl-Ləhafan" 1/330.

xalqlarının mənəvi paytaxtı statusu ilə adlandırılır və burada “islam” deyilən simpoziumlar, məclislər, camaat namazları və moizələr, hətta islami adlandırılan, lakin İslamla heç bir əlaqəsi olmayan “islam moda nümayişləri”, “islam konsertləri”, “islam aytısları (qazax aşıqların deyişməsi)”, “islam filmləri festivalları” və sair işləri keçirilməyə başlayırlar. Şəriət terminologiyasında, bu baş verənlər “Daimi, vaxtaşırı görüşlər üçün xüsusi vaxt və məkanın ayrılması” adlanır.

4) Bu toplanma yeri, sonra müqəddəs və həm də ziyarət yeri elan edilir. Bu yerlərdə mövcud olan, o tarixi abidələr (dərələr, bulaqlar, məqbərələr və sair yerlər) kəramətli ziyarətgah (müqəddəs yer) statusu alırlar.

Şəriət terminologiyasında, buna “*Müəyyən torpaqların və obyektlərin qanunsuz olaraq müqəddəs yer kimi təyin edilməsi*” deyilir.

5) Sonra yuxarıda göstərilənlərin hamısı, tarixi xatirə abidələri statusunu alırlar. Bu addım çox vacibdir, çünki onun vasitəsilə, bu “abidələri” qorumaq və inkişaf etdirmək məqsədinə nail olunur.

6) Sonra hər il, əcdadların məzarlarını ziyarət etmək üçün, bu yerlərə səfərlər təşkil olunur. Eyni zamanda, gənclərlə də işlər aparılır. Onlara, bu yerlərə sevgini aşılamaq üçün, gənclər düşərgələri, toplantılar, ekskursiyalar və sair şeylər təşkil olunur. Bunun ən zərərli tərəfi isə odur ki, bu səfərlər və ekskursiyalar zamanı, tələbələr və məktəblilər, islamda heç bir əsası olmayan və əslində qəbirlərə ibadət ayinləri olan, ayinlər toplusundan ibarət olan, tədbirlərə cəlb edilirlər. "Zəvvar" məzarları ziyarət etməlidir. Sonra "zəvvar" burada bir şey əldə edir (alır) — burada hər cür satılan muncuqdan, caynaqdan, dişdən, qırmızı parçadan, daşdan, çox miqdarda qurudulmuş üzərlik (cahil insanların fikrincə, onları şərdən, bəd nəzərdən qoruyan və cinləri qovmağa qadir olan çöl otu), çoxlu çeşiddə satılan amuletlər alır və guya onlarda bu yerin bərəkəti var və onları öz ailəsinə və dostlarına aparır.

Həmçinin belə bir məlumat var ki, guya bəzi ocaqlara getməzdən əvvəl, müəyyən hansısa bir yerdən ora piyada getmək lazımdır, əks halda bu ziyarət qəbul olunmaya bilər.

Bu ona görə edilir ki, əgər onları qınayan biri olarsa, onlar desinlər: “Doğrudanmı siz yaxşı işləri pisləyib, qadağan edirsiniz?!”

Şəriət terminologiyasında bu mərhələ “*Qeyri-qanuni yerlərə ibadət məqsədilə səfərlərin təşkili*” adlanır.

7) Sonra insanların qəlbində, məzarlıqlara və qəbirlərə bağlılığı gücləndirmək üçün, insanlara izah edilir ki, müxtəlif ibadət növləri, namaz, qurban, nəzir, dua, tövbə və sair, bu yerlərdə daha böyük savaba layiq görülür və Uca Allah üçün daha çox sevimlidirlər. Həmçinin, insanlara belə bir fikir yeridilir ki, guya Peyğəmbər ﷺ onların məclislərində iştirak edir, bu məclisləri bəyənir və onlara sevinir.

Şəriət terminologiyasında, bu hadisə “*Qəbir başında edilən ibadətin üstünlüyünə inanmaq*” adlanır.

8) Bununla paralel olaraq, Peyğəmbərin ﷺ adı və haqqı ilə, Allahdan istəməyin, eləcə də salehlərin izzəti ilə, Allahdan istəməyin icazəli olması haqqında kitablar nəşr olunurlar.

Şəriətdə buna “*Qanunsuz təvəssül – salehlərin vasitəçiliyi ilə, Allaha dua etmək*” deyilir.

Bu, aşağıdakı sözlərlə ifadə olunur: “Allahım! Burada dəfn edilmiş salehlərin haqqı ilə, Səndən məni bağışlamağını istəyirəm” və sair.

Bu, insanların qəlbində, belə bir inamı gücləndirir ki, guya filan saleh insan, Allah qarşısında xüsusi ehtiramla qarşılanır və Allahdan onun adı ilə diləsən, şübhəsiz ki, O duanı qəbul edər.

Bil ki, qardaşım, sadalanan mərhələlərin hər biri, xüsusi əhəmiyyətə və əsaslara malikdir. Onların hər birinin yaradılması, ayrı bir savaşdır, hansı ki, hər birində qalib gələrək, müxtəlif sufi təriqətlərinin nümayəndələri, şirki torpaqlarımıza daha da yaxınlaşdırırlar.

Yuxarıdakı mərhələlərin hər biri, özü özlüyündə şirk deyil, şirkə aparan bir bidətdir.

Beləliklə, burada acıyla etiraf etmək lazımdır ki, biz bütün bu

səkkiz (8) mərhələni döyüşmədən və müqavimət göstərmədən əldən verdik. Amma daha da təəssüf doğuran və acısı odur ki, "Ak yol", "Sunkar", "Yassauilər" kimi təhlükəli və azğın təriqətlərin şəbəkələrinə düşən soydaşlarımızın, xeyli hissəsi artıq bütün əvvəlki mərhələlərdən daha zərərli, növbəti mərhələyə, doqquzuncu mərhələyə keçib. Əgər bunu başa düşürsünüzsə və qəlbiniz acı və ağrı ilə doldusa, o zaman sizinlə görək qarşıda bizi nələr gözləyir.

Səkkizinci (8) mərhələnin əhəmiyyəti ondan ibarətdir ki, onu başa vurub gücləndirən düşmən, asanlıqla növbəti mərhələyə keçir və buna görə də bu gün, onların ağ bayraqlı avtobuslarını, ölkədə dolaşdıqlarını və böyük qruplar halında, qondarma övliya-auraxam ruhlarına sitayiş edənləri, müəyyən məzarlıqlara sərbəst çatdırdığını görə bilərsiniz.

9) Bu doqquzuncu mərhələdə aşağıdakı ideya hazırda insanlara aktiv şəkildə izah olunur:

Hamımız günahkar və pis insanlarıq. Allaha üz tutduqda dualarımızı qəbul etməz, üzümüzə baxmaz, hələ əməllərimizi qəbul etmədiyi bir yana qalsın. Günahlarımız o qədər böyükdür ki, Allahdan Onun sevimli salehlərinin adı ilə diləsək də, cavab verməz. Çıxış yolu nədir? Vəziyyətdən çıxış yolu isə, çox sadədir — sadəcə şəfaət istəyi ilə, birbaşa bu mərhum saleh insanın özünə müraciət etməlisiniz, çünki o, Allaha daha yaxındır və Uca Allah onun duasını rədd etməz. Bu saleh insana gəlincə, o, səni rədd etməz, çünki o da insandır və onun fitrəti sənə yaxındır, səni başa düşəcək və sənin vəziyyətinə düşəcək. Onlar deyirlər ki, bu şirk deyil, çünki sən bu saleh adamın rizasını deyil, Allahın razılığını qazanmağa çalışırsan.

Həmçinin, onların fikrincə, bu, şirk deyil, çünki sən qəbrin başında bir saleh şəxsdən, səni eşitməsi üçün birbaşa istəmirsən və harada olursan ol, bu salehin səni eşitdiyinə əmin deyilsən.

Uzun illərdir ki, bu anlayışlar və bu məntiq insanların beynində möhkəm oturub. Və bu, həmin bu saleh insanlar vasitəsilə edilən, bir çox duaların həqiqətən də cavab və nəticə alması ilə güclənir.

Bu doqquzuncu addımla bağlı, alimlər arasında, onun şirk olması və ya ifrat bidət qalması ilə bağlı, bəzi ixtilaflar vardır. Etibarlı rəy budur ki,

bu artıq insanı islamdan çıxardan, böyük bir şirkdir.

Qardaşım, soruşsan ki, *"Niyə hər şeyin dediyiniz kimi olacağına bu qədər əminsiniz?"*, biz sizə cavab verərik:

— Əbu Səid əl-Xudri rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurdu: "***Siz, özünüzdən əvvəlkilərin yollarını qarış-qarış, arşın-arşın təqib edəcəksiniz. Onlar bir kərtənkələ deşiyinə girsələr, siz də mütləq arxalarınca girəcəksiniz".*** Biz ondan soruşduq: *"Ey Allahın Rəsulu*ﷺ *! Yəhudiləri və xaçpərəstlərimi deyirsən?"* O dedi: ***"Başqa kim ola bilər?"*** [1]

Düşünürəm ki, əziz oxucu, burada bir vacib məqama diqqət yetirdi ki, xristianlar da dualarında eyni üsuldan istifadə edirlər. Onlar "göydəki şəfaətçilərdən" xahiş edirlər ki, onlar üçün Allaha dua etsinlər ki, Allah onları bağışlasın.[2]

Üstəlik, ərəblər Muhəmməd peyğəmbər ﷺ gəlməmişdən əvvəl, məhz bu şirk yolunu tutmuşdular. Onlar, pak tövhid dinini — İbrahim peyğəmbərin (aleyhissəlləm) dinini qəbul etdikdən sonra, müşrik oldular.

Üstəlik, gözümüzün önündə, bir çox ərəb ölkələrinin və postsovet respublikalarının misalları da var. Bu ölkələrdə, salehlərin məzarlarında baş verənləri, nə bir sözlə izah etmək, nədə ki, qələmlə təsvir etmək olmur.

Xalqlarımızın nümayəndələrini, eyni nəticədən nə qoruya bilər?!

Ümid edirəm ki, oxucu bu paraleli daima ağlında saxlayır və

---

[1] Hədis səhihdir; Buxari 3456; Müslim 2669; Əhməd 11800 və başqaları.

[2] Bu, "möcüzələr törədən" Nikolaya edilən duanın mətnidir:
"Ey müqəddəs Nikolay, Rəbbin ən böyük qulu, bizim mülayim şəfaətçimiz və hər yerdə, kədərlərimizdə tez gələn köməkçimiz! Günahkar və kədərli olana bu dünya həyatında kömək et. Rəbbinə yalvar ki, gəncliyimdən bəri bütün həyatımda, əməllərimdə, sözlərimdə, düşüncələrimdə və bütün hisslərimdə böyük günahlar işlətdiyim bütün günahlarımın bağışlanmasını dilə; və ruhumun çıxışı zamanı kömək et, bütün məxluqatın Yaradanı, Rəbbinə yalvar ki, məni havalı sınaqlardan və əbədi əzabdan qurtarsın: Mən hər zaman Atanı, Oğlu və Müqəddəs Ruhu və Sənin mərhəmətini indi və sonra və həmişəlik tərif edirəm. Əmin".
Diqqət yetirin ki, bu dua Nikolaya heç bir rəblik keyfiyyəti vermir, lakin Nikolayın bütün xidmətləri, yalnız onun Allah qarşısında, insanların şəfaətçisi olması ilə məhdudlaşır.

başa düşür ki, xristianlar bizdən əvvəl, bütün bu doqquz (9) mərhələdən keçiblər.

İndi biz, onların izi ilə gedirik. Xristianlar, bununla kifayətlənməyiblər, sufilər də həmçinin bizi daha da irəli aparacaqlar.

10) İnsanları daim bir şübhə narahat edib: biz hardan bilək ki, bu saleh adam bizə kömək etməyə belə asanlıqla razılaşıb?! Əmin olmaq üçün, bu saleh insanı layiqincə razı salmaq və onun razılığına nail olmağa çalışmaq lazımdır! Sünnə tərəfdarları və tək bir camaat (*əhlus-sünnə vəl-camaa*) arasından olan alimlər arasında, ixtilaf olmadan, şirk deyilən şey buradan başlayır. İnsanlar bu mərhuma qurban kəsməyə, ona dua etməyə, qarşısında ağlamağa, ona baş əyməyə, qəbrinə sürtünməyə və ətrafında dövrə (*təvaf*) etməyə başlayırlar.

11) İnsanlar bu saleh insanın nə qədər hörmətli olduğunu görməyə başlayandan sonra, onun mütləq böyüklüyünə və qüdrətinə əmin olurlar. Müşriklər düşünməyə başlayırlar ki, Uca Allah bu saleh insana xüsusi sifətlər bəxş etmişdir, misal üçün bəzi təbiət hadisələrinin idarə olunması; ona üz tutanların harada olursa olsun dualarını eşitmək bacarığı; müxtəlif dillərdə eyni vaxtda tələffüz olunsa belə, ona müraciət edən insanların dualarını başa düşmək, dinləmək və onlara cavab vermək bacarığı; fayda və zərər gətirmək bacarığı; xəstəlikləri sağaltmaq və xüsusi güc vermək bacarığı və sair.

Bu, öz dinini qısqanan hər bir müsəlmanın bilməli olduqlarının qısa izahıdır.

# FƏSİL 4

# ŞİRKİN YAYILMASININ ƏSAS SƏBƏBİ HAQQINDA

Bil ki qardaşım, şirkin yayılmasının əsas və mühüm səbəbi, sənin susmağın və laqeydliyindir.

İmam əş-Şəvkani belə demişdir: *"Bil ki, bu insanların ölülərlə bağlı olan etiqadları — şirk sayılır. Lakin bunun mahiyyəti hətta elm sahibi olanlar üçün də görünməz olaraq qalır. Bu, onun haqqında elmin gizli olduğu üçün deyil, bu ona görədir ki, əksəriyyət bu barədə susur, həm də ona görədir ki, bu mühitdə qocalar ömür sürüblər və gənclər böyüyüblər. Onlar uşaqlıqdan bu bütpərəst ayinləri görmüşlər və eşitmişlər, eyni zamanda bunu məzəmmət edəni isə görməmişlər və eşitməmişlər. Üstəlik, bu adətləri təşviq edənləri və insanları onlara dəvət edənləri daim eşidirdilər. Bütün bunlar, məzar başında, müəyyən rituallar yerinə yetirən kəslərin, problemlərinin necə həll olunduğu barədə bir-birinə danışdıqları, müxtəlif nağıllarla dəstəklənir və gücləndirililər. Bütün bu hallar, zamanın keçməsi və nəsillərin dəyişməsi ilə birlikdə, insanda qəbirlərin yanında edilən bu ayinlərin, Allaha olan ən böyük ibadətlərdən biri olduğuna inancını gücləndirir. Bundan sonra, bu insan artıq əldə etdiyi elmdən faydalanmayacaq. Hətta, onların əməllərinin həqiqi şirk olduğuna*

*dəlalət edən dəlilləri daim gözardı edər. Kimdənsə bu dəlilləri gətirərək, bu haqda danışdığını eşitsə, şübhəsiz ki, onu rədd edər. Bu ona görədir ki, təsəvvür etmək mümkün deyil ki, o bir anda öz sabit baxışlarını dəyişdirər və ən böyük ibadət və ən yaxşı əməl hesab etdiyi şeyin, əslində haram şeylərin ən çirkin və ən qorxunc əməllərindən başqa bir şey olmadığını anlayar".*[1]

Həmçinin demişdir: *"Elm, dəlil və dərin dərrakə sahibinə gəlincə, əgər o, insanlara hidayət yolunu göstərən, haqq kəlamı söyləyən, Allahın dininə kömək edən və Uca Allahın ona izah etməyi əmr etdiyi şeyləri izah edənlərdən olsaydı, o zaman həmin şəxs, şübhəsiz ki, yolunun düzgün və nəticəsinin xeyirli olduğunu biləcəkdir. Uca Allah, şübhəsiz ki, ona Öz qüdrətinin möcüzələrini, eləcə də, Öz heyrətamiz qoruma və dəstək vermə hallarını görməyə icazə verərdi, həmçinin ona vəd etdiyinin doğruluğunu da*: **"Allah Ona yardım edənlərə, mütləq yardım edər".** (22:40); **"Ey iman gətirənlər! Əgər siz Allaha (Onun dininə) kömək göstərsəniz, O da sizə kömək göstərər və ayaqlarınızı möhkəmlədər"** (47:7). *Bu isə onun ruhunu və qəlbini Haqqa və onun tərəfdarlarına dəstək yolunda daha da gücləndirərdi. Əgər ondan bu həqiqəti qəbul etsələr, o zaman həmin şəxs, Allah Rəsulunun* ﷺ *haqqında dediyi kəslərdən olar:* ***"Allaha and olsun ki, əgər Allah sənin vasitənlə bir nəfəri də olsa hidayət etsə, bu, sənin üçün qırmızı dəvələrə sahib olmaqdan daha xeyirli olar".***[2] *Əgər qəbul etməsələr, o zaman həmin şəxs, Allahın ona vacib etdiyi şeyi yerinə yetirənlərdən olar və bununla da Uca Allahın izah etməyi əmr etdiyi elmi gizlətmək günahından uzaq olar. Bu isə ona dünya və axirətdə ucalıqdan başqa bir şey gətirməz, Allahın bəndələri qarşısında izzətini artırar və Allahın müttəqi bəndələrinə vəd etdiyinə nail olar. Düşmənlərinə gəlincə isə, onu nə qədər yalanlar və ittihamlarla, qisas vədləri və fiziki cəza ilə aşağılamağa çalışsalar da, hər şey onların istədiklərinin və gözlədiklərinin əksi ilə nəticələnəcəkdir, nəticə isə Allahu Təalənın mömin bəndələrinə vəd etdiyi kimi müttəqilərindir*: **"Yaramaz hiylələr isə ancaq**

[1] "İxlas Kəliməti-tövhid" səh. 102–103.
[2] Hədis səhihdir; Buxari 3701; Muslim 1872.

**öz sahiblərini qaplayar”** (35:43).[1]

İbn əl-Qeyyim demişdir: *“Allahın qadağalarının necə pozulduğunu, Onun qoyduğu sərhədlərin aşılmasını, dininin tərk edildiyini və Rəsulunun ﷺ sünnəsindən çəkindiyini görən kəsdə, hansı din və nə xeyir ola bilər? Amma buna baxmayaraq, onun ürəyi soyuq qalır, dili isə susur. Bu lal şeytandır! Batilə çağıran isə, danışan şeytandır. Və dinə bədbəxtlik ancaq o kəslərdən gəlir ki, onlar özlərinə bir yeyinti yeri və şan-şöhrət təmin ediblər, dinin başına gələnlər isə onları maraqlandırmaz. Və əgər kimsə onun vəzifəsini və ya malını alçaltmağa çalışırsa, o adam, alovlanır, səy göstərir və hər üç yolla (əli ilə, sözü ilə, ürəyi ilə) mübarizə aparır. Və beləları, Allahın gözündən düşüblər, Onun qəzəbinə düçar olmaları ilə yanaşı, dünya həyatında ən çətin imtahanla sınanıblar, bu da yalnız özləri bunu fərq etmədikdə baş verir. Bu imtahan isə, qəlbin ölümüdür, çünki insanın qəlbi nə qədər diri olarsa, Allah və Rəsulu ﷺ üçün qəzəbi bir o qədər güclü olar və dinə köməkliyi bir o qədər mükəmməl olar”*.[2]

İmam Şaukani demişdir: *“Əgər mənə desən ki: “Şübhəsiz ki, Haqq kəlməsini danışmaq vacibdir, insanları ona yönəltmək vacibdir, gizlətmək isə haramdır, lakin bunu etsəm, demək olar ki, əminəm ki, bu iş, vəziyyəti dəyişməyəcək, amma eyni zamanda həyatımı və şərəfimi riskə atacağam”, onda mən sənə cavab verəcəm: “Bu fikirlər sənə ancaq ona görə gəliblər ki, sən əvvəllər, sənə təqvalılar üçün xeyirli aqibət və Allahın köməyi haqqında dediklərimi pis başa düşmüsən. Ancaq gəl təsəvvür edək ki, qorxduğun şey həqiqətən baş verir. Başına sınaqlar gələcək, zərər və digər çətinliklərlə qarşılaşacaqsan. De görüm, həqiqətənmi bu həyatda əbədi olduğunu düşünürsən? Başına gələ biləcək ən pis şey odur ki, haqqı müdafiə etmək və elmi yaymaq yolunda öləcəksən. Bununla sən, əbədi səadətə qovuşarsan və qiyamətə qədər elm sahiblərinə örnək olarsan, bidətçilər üçün isə rüsvayçılıq və utanc olacaqsan. Artıq neçə-neçə Allah bəndəsi bu yolda səni*

[1] “Ədəb ut-Talab” səh. 17.
[2] “Ə’ləm əl-muəkki’in” 2/158.

*qabaqlayıb və bu böyük mərhələyə çatıblar — onlar sənin üçün örnəkdirlər. Döyüş meydanlarında qılıncla kəsilən, nizə və oxlarla parçalanan Allah bəndələrinə bax ey bədbəxt şəxs. Onlar ölüm arzulayırdılar, qılınclar və nizələr bədənlərinə sancılırdılar, ölüm gözlərinin qabağında idi. Ölüm onlara qabaqdan və arxadan, sağdan və soldan yaxınlaşırdı. Sən onlara necə çata bilərsən?! Sənə müsəlmanların arasında durub, onları Rəbbinin dininə dəvət etməkdən başqa heç bir şey əmr olunmur!*[1]*"*[2]

---

[1] "Ədəb ut-Talab" səh. 36.

[2] Şeyx Əllamə Saleh əl-Fovzan Allaha dəvətin əsas prinsipləri haqqında belə demişdir: "Allaha dəvət — Muhəmməd Peyğəmbərin ﷺ və onun ardıcıllarının getdiyi yoldur. Bu haqda, Uca Allah buyurur: **«De: "Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar, mötəbər dəlillərə əsasən, (insanları) Allaha tərəf çağırırıq. Allah pakdır, müqəddəsdir. Mən də müşriklərdən deyiləm"»** (12:108).

Hətta, Allaha tərəf dəvət — bütün Allahın elçilərinin və bütün möminlərin üzərində olan vəzifəsidir ki, onlar insanları zülmətdən nura, küfr uçurumundan haqq imana, bütpərəstlik girdabından Tək Allaha ibadətə, cəhənnəmdən cənnətə aparsınlar. Lakin bu dəvət, müəyyən qaydalara uyğun həyata keçirilməlidir və onlardan biri pozulursa, o zaman bu, İslamın yayılmasına mane olur. Və sonra insanlar nə qədər çalışsalar da, nə qədər vaxt sərf etsələr də, onların moizələri istədiyi bəhrəni verməyəcək. Bu gün, bu qaydalara əməl etməyən bir çox müsəlmanın başına gələnlər də məhz budur.

İslami dəvətin bu əsas prinsipləri, Qurani-Kərimdə və Peyğəmbərin ﷺ sünnəsində bəyan edilmiş və aşağıdakı kimi xülasə edilmişdir:

**1. Allaha dəvət edən başqalarını nəyə çağırdığını bilməlidir.**

Savadsız insan, İslam dəvətçisi ola bilməz. Allahu Təalə Öz peyğəmbəri Muhəmmədə ﷺ buyurmuşdur: **«De: "Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar, mötəbər dəlillərə əsasən, (insanları) Allaha tərəf çağırırıq"»** (12:108).

Əqidə — elmdir. Haqqın dəvətçisi, tez-tez yalan tərəfdarları ilə qarşılaşır, hansılar ki, həqiqəti təkzib etmək üçün onun qəlbinə şübhələr salmağa və onun baxışlarını dəyişdirməyə çalışırlar. Buna görə də Uca Allah buyurur: **"(İnsanları) Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır"** (16:125).

Müsəlman bilməlidir ki, haqqın əleyhinə olanlar, müəyyən biliklərə malikdirlər və buna görə də, Muhəmməd Peyğəmbər ﷺ, Muaz ibn Cəbəli Yəmənə göndərərək, onun kitab əhlinin arasına getdiyini xatırlatmışdı. Əgər dəvətçi, möhkəm biliklərlə silahlanmasa, hansı ki, bu

biliklər sayəsində hər hansı şübhəni aradan qaldıra və hər hansı yalanı ifşa edə bilər, o zaman düşmənlə elə ilk görüşdə məğlub olacaq və yolunun lap əvvəlində dayanacaq.

**2. O, dəvət etdiyi şeylərə, özü də əməl etməlidir.** Dəvətçi bununla başqalarına böyük örnək olur. Onun sözləri əməllərindən fərqlənmir, düşmənləri də ona etiraz edə bilmirlər. Allahu Taalə buyurur ki, Şueyb peyğəmbər öz qəbilə yoldaşlarına belə demişdir: **"Sizə qadağan etdiyim şeyləri etməklə, sizin əleyhinizə çıxmaq istəmirəm. Mən ancaq bacardığım qədər islah etmək istəyirəm"** (11:88).

Uca Allah, öz peyğəmbəri Muhəmmədə ﷺ isə buyurdu: **«De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi olan Allaha məxsusdur! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm"»** (6:162-163).

Uca Allah, həmçinin buyurur: **"(İnsanları) Allaha tərəf çağıran, yaxşı iş görən və: "Həqiqətən, mən müsəlmanlardanam!" – deyən kəsdən daha gözəl söz deyən kim ola bilər?"** (41:33).

**3. O dəvətini** şöhrət, əzəmət, izzət, dünya mənfəəti üçün deyil, **Allah rizası üçün, səmimi şəkildə yerinə yetirməlidir.** Əgər dəvətçi bu məqsədlərdən hər hansısa birinin istəkləri ilə hərəkət edirsə, o adam, insanları Allahın adı ilə doğru imana deyil, öz xatirinə və ya öz xeyrinə dəvət edir. Buna görə də Allah, peyğəmbərlərdən birinin öz qövmünə belə dediyini xəbər verdi: **"Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir"** (26:109).

Nuh peyğəmbər isə demişdir: **"Ey qövmüm! Mən bunun əvəzinə, sizdən var-dövlət istəmirəm. Mənim mükafatım ancaq Allaha aiddir"** (11:29).

**4. O ən vacib şeydən başlamalı və yalnız bundan sonra, vacibliyi daha az olana keçməlidir.** O hər şeydən əvvəl, insanların etiqadlarını islah etməli, tək Allaha ibadət etməyin vacibliyini və Ona şərik qoşmağın yolverilməzliyini onlara izah etməlidir. Bundan sonra, onları namaz qılmağa, zəkat verməyə və digər vacib tələbləri yerinə yetirməyə çağırıb, onları günahlardan çəkindirə bilər. Bu, Allahın bütün elçilərinin etdiyi şeydir və Uca Allah bu haqda buyurur: **"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun"– (deyə), elçi göndərdik"** (16:36).

O həmçinin buyurub: **"Səndən əvvəl, elə bir elçi göndərməmişik ki, ona: "Məndən başqa heç bir ilah yoxdur, Mənə ibadət edin!"– deyə vəhy etməyək"** (21:25).

Muaz ibn Cəbəl haqqında gələn hədisdə, Peyğəmbərin ﷺ ona belə dediyi bildirilir: ***"Sən Kitab əhlindən olan bir qövmün yanına gedirsən. Onları ilk olaraq, Allahdan başqa heç bir məbudun olmadığına şəhadət verməyə dəvət et. Əgər bu işdə sənə itaət etsələr, onlara xəbər ver ki, Allah onlara hər gün beş vaxt namazı vacib etmişdir. Əgər bu işdə sənə itaət etsələr, onlara xəbər ver ki, Allah onlara zəkat verməyi — varlıların kasıblara yardım***

***etməsini vacib buyurmuşdur. Əgər onlar bu məsələdə də sənə itaət etsələr, onda onların mallarından ən seçilmiş olduğunu götürməkdən çəkin və məzlumun bəddduasından qorx, çünki o dua ilə Allah arasında heç bir maneə (pərdə) yoxdur"*** (əl-Buxari və Muslim). İslamın yayılmasının ən gözəl və ən mükəmməl nümunəsi, əlbəttə ki, Allah Rəsulunun öz həyatıdır. O, on üç il Məkkədə insanları dəvət edərkən, Tək Allaha ibadət etməyə çağırırdı və şirki ifşa edib, ortaya çıxardı. O, uzun illər insanlara namaz qılmağı, zəkat verməyi, oruc tutmağı və həcc etməyi əmr etmədi, onlara sələmçiliyi və zinakarlığı, oğurluğu hətta qətli belə qadağan etmədi.

**5. O, Allaha tərəf dəvət etdiyi üçün, başına gələn çətinliklərə dözməlidir.** İnsanlar çox vaxt yaxşılığı öyrədəni incidirlər və təhqir edirlər və dəvətçinin yolu gül-çiçək ilə sərilmiş olmur. Əksinə, bu yolda müsəlmanı bəlalar və təhlükələr gözləyir ki, bu da Allahın peyğəmbərlərinin timsalında açıq şəkildə görünür. Onlar öz qəbilələri tərəfindən nə qədər istehza və təhqirlərə məruz qalıb, dözürdülər! Uca Allah Muhəmməd Peyğəmbərə ﷺ buyurdu: **"Əlbəttə, səndən əvvəlki elçilərə də istehza edilmişdi. Amma istehza edənləri, məsxərəyə qoyduqları şey hər tərəfdən bürüdü"** (6:10).

O həmçinin buyurur: **"Səndən əvvəlki elçiləri də yalançı saymışdılar. Lakin Bizim köməyimiz onlara gələnədək, yalançı sayılmalarına və onlara əziyyət verilməsinə səbr etdilər"** (6:34).

Allahın elçilərinin yolu ilə gedən insanları, Allaha dəvət edən möminlər də müsibət və sıxıntılara məruz qalır və insan peyğəmbərlərin yoluna nə qədər bağlı olarsa, onun üçün bir o qədər çətin olar.

**6. O, gözəl əxlaqa malik olmalı və İslamı müdrik və düşüncə ilə təbliğ etməlidir, çünki uğurun əsas səbəbi budur.** Allah, Musa və Harunu yer üzünün ən pis kafiri olan, özünü Rəbb Allah elan edən, Fironun yanına göndərərək, onlara buyurdu: **"Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud qorxsun!"** (20:44).

Uca Allah, Musaya (aleyhissələm) dedi: **"Fironun yanına yollan! O, həddini çox aşmışdır. De: "(Günahlardan) xilas olmaq istəyirsənmi? Səni Rəbbinə doğru yönəldimmi ki, (Ondan) qorxub, çəkinəsən?"** (79:17-19).

Uca Allah, Muhəmməd peyğəmbərə ﷺ üz tutaraq dedi: **"Allahın mərhəməti sayəsində, sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar"** (3:159).

Allah həmçinin buyurur: **"Həqiqətən də, sən böyük əxlaq sahibisən!"** (68:4).

Allah həmçinin buyurur: **"(İnsanları) Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır"** (16:125).

**7. Dəvətçi optimist olmalıdır.** Hətta uzun müddət insanlar arasında İslamı yaysa da, onlar isə ona qulaq asmasalar belə, o ümid etməlidir ki, qövmü onun çağırışına cavab verəcək və düz yol tutacaq və Allahın yardımı və dəstəyindən ümidini kəsməməlidir. Eyni şey Allahın elçiləri ilə də baş verirdi.

Nuh (aleyhissələm) doqquz yüz əlli il qövmünün arasında yaşamış və onları Allahdan başqasına ibadət etməməyə çağırmışdır. Muhəmməd Peyğəmbər ﷺ uzun illər, ərəblər arasında İslamı yaydı, lakin onlar ancaq ona əzab verdilər və dağların mələyi ona görünüb dağları yerindən tərpətmək və Taif sakinlərini onların altında basdırmaq üçün icazə istədikdə dedi: **"Xeyr, mən istəyirəm ki, Allah onların belindən yalnız Ona ibadət edənləri, Ona heç kəsi şərik qoşmadan, ibadət edənləri çıxarsın".**

Əgər dəvətçi, belə xüsusiyyətlərə malik deyilsə, o zaman həmin şəxs, yolunun lap əvvəlində büdrəyəcək və uğursuzluğa düçar olacaq.

Bu mühüm prinsiplərə, Allahın dinini yayan hər kəs əməl etməlidir. Kim bunlarla hidayət olunmaz və peyğəmbərlərin yolu ilə getməzsə, uğursuzluğa düçar olar və bütün zəhmət və səyləri ona yorğunluqdan başqa bir şey gətirməz. Bax: Şeyx Saleh əl-Fəuzanın "Peyğəmbərlərin Allaha dəvət üsullarında hikmət və məntiq" kitabının müqəddiməsi.

FƏSİL 5

# SALEH ƏCDADLARA HƏDDİNDƏN ARTIQ HÖRMƏT — ŞİRKƏ APARAN İLK ADDIMDIR

Şübhə yoxdur ki, əcdadlarımız, saleh insanlardan olublar. Məhz onlar, islamı qəbul edərək, torpaqlarımızda bu dinə dəvət etmək və onun nurunu yaymaq kimi ağır yükü öz üzərlərinə götürdülər. Bir çox tarixi faktlar, onların təqvasına, mərdliyinə və böyüklüyünə şahidlik edir. Biz, pak tövhid dininə uyğun olaraq, onlardan nümunə götürməyə və Allahdan onlar üçün bağışlanma diləməyə borcluyuq. Onlar ancaq bu dinin qanunlarına ciddi şəkildə əməl edərək, tövhid və sünnəyə bağlı olduqları üçün böyüklük və qüdrət qazanmışlar. Onlar, şirk və bidətdən, eləcə də uzaq gələcəkdə ona gətirib çıxara biləcək hər bir şeydən uzaq idilər.

Şirkə aparan ən mühüm və əsas səbəblərdən biri — əcdadlara edilən hədsiz ehtiramdır. Üstəlik də, bu əməl yer üzündə ilk şirkin yaranmasının əsas səbəbi olub.

Hənəfi məzhəbinin imamlarından olan Şükri əl-Əlusi (1342 hicri il) demişdir ki: "*Məxluqlardan hər hansısa birinə ehtiram göstərmək və onu ucaltmaqda həddi aşmaq, bütlərə və salehlərə ibadət etməyə aparan ən böyük səbəbdir. Məhz salehlərin hədsiz dərəcədə ucaldılması, insanların*

*Nuh peyğəmbərin qövmündən olan Nəsr, Suau, Yəqus və başqalarına ibadət etməsinə səbəb oldu. Həmçinin xristianlar da İsaya məhz bu səbəbdən ibadət etməyə başladılar".*[1]

Buna əsasən, insanın öz əcdadlarına qarşı münasibəti, üç istiqamətdə ola bilər:

1) onlara qarşı soyuqluq, laqeydlik və biganəlik göstərmək;

2) onlara qarşı hörmət göstərməkdə, şəriətin qoyduğu hədləri aşmaq;

3) bu məsələdə orta yolu tutmaq.

Dinimizdə soyuqluq göstərmək qadağandır. Əgər insan valideynlərinə, əcdadlarına qarşı borcunu yerinə yetirmirsə, o adam, haqsızlıq edir. Onlara ehtiram göstərməkdə həddi aşmağa gəlincə, bu məsələ daha təhlükəli və qadağan olunan bir əməldir, çünki bu iş özlüyündə qadağan olmaqla yanaşı, həm də şirkə gətirib çıxarır.

Allah buyurur: **"Ey Kitab əhli! Dininizdə ifrata varmayın və Allah barəsində yalnız həqiqəti deyin"** (4:171).

İmam Əbdürrəhman ibn əl-Həsən demişdir: *"İfrata varmaq — ehtiram göstərməkdə həddi aşmaqdır, bu da sözdə və ya etiqadda özünü göstərə bilər. Bu ayənin mənası: "Məxluqatı Allahın qoyduğu məqamdan yuxarı qaldırmayın". Bu müraciət, kitab əhlinə ünvanlansa da, onun mənası və məzmunu ümumidir və qadağa bütün ümmətə şamil edilir".*[2]

Bu imamın sözləri aşağıdakı hədisdə təsdiqlənir:

[1] "Məsail Cahiliyyə" səh. 71–72.
[2] "Fəth əl-Məcid" səh. 341

İbn Abbas[1] rəvayət edir ki, Allah Rəsulu ﷺ buyurdu: **“Heç bir halda, dində həddi aşmayın. Sizdən əvvəlkiləri məhv edən həddi aşmaq oldu”.**[2]

İmam Əbu əl-Abbas əl-Qurtubi [3] buyurur: *“İlk nəsillərdə, saleh insanlar öldükdən sonra, onların nəsilləri, məzarların başına toplaşmağa başladılar ki, bu əməl onlara təqva və yaxşı əməlləri xatırlatma olsun. Bu saleh insanların məzarlarını ziyarət edərək, onların nəsilləri saleh insanların yaxşı əməllərini xatırlamış, sonra onların əməllərinə oxşar əməllər görməyə başlamış və bu işdə bir-birini qabaqlamağa çalışmışlar. Bundan sonra, onların qəbirləri başında, Allaha ibadət etməyə başladılar. Bundan sonra, əcdadlarının bu saleh insanların məzarları başına niyə toplaşdığını bilməyən yeni nəsillər gəldilər. Sonra şeytan, onların yanına gəldi və onlara pıçıldadı ki, əcdadları bu saleh insanlara ibadət etmək üçün və onları ucaltmaq üçün bu məzarlıqlara toplaşıblar”.* [4]

İmam İbn əl-Qeyyim dedi: *“Biz ilk nəsillərin, bir çox imamlarından öyrəndik ki, salehlər vəfat etdikdən sonra, onların nəsli onların qəbirləri başına toplaşmağa, məclislərini və vaxtlarını orada keçirməyə başladılar. Bundan sonra, onların surətlərini çəkdilər, sonra zaman keçdi və sonrakı nəsillər bu saleh insanlara sitayiş etməyə başladılar”.*[5]

---

[1] İbn Abbas dedikdə, Abdullah deyil, Fəzl nəzərdə tutulur. Bunun bir neçə səbəbi var:

1) Buxari və Muslimin məcmuələrində (hədislər toplusunda) qeyd olunduğu kimi, Peyğəmbərin ﷺ həcc ziyarətində onunla eyni heyvanın üstündə oturmuş yoldaşı Fəzl idi.
2) Abdullah bu hədisi oxuyarkən, Peyğəmbərin ﷺ yanında ola bilməzdi, çünki gecə vaxtı Müzdəlifənin zəif zəvvarları ilə Peyğəmbərdən ﷺ və digər zəvvarlardan qabaq yola düşmüşdü.
3) İmam əl-Beyhəki “Sunən əl-Kübra”-da bu isnadı sitat gətirərək, Fəzl adını çəkmişdir.
4) Hafiz əl-Mizzi, Abdullah ibn Abbasın musnədində “Tuhfətul-əşrəf”-də bu hədisi sitat gətirmiş, bundan sonra Hafiz ibn Həcər “Nükat əl-Zirəf”də bu hədisi düzəldərək, Hafiz əl-Mizzinin səhv etdiyini demişdir və düzgün olanı budur ki, bu adam Abdullahın deyil, Fəzlin hədisidir.

[2] Hədis yaxşıdır; Əhməd 1851; İbn Macə 3029; Nəsai 5/268 və sair.

[3] “Səhih-Müslim”in şərhinin müəllifi, məşhur təfsir müəllifi Əbu ‘Abdullah əl-Qurtubi ilə qarışdırılmamalıdır.

[4] Əl-Mufhim 2/127–128.

[5] “İqasət əl-Lyəhəfan” 1/287.

İmamların, yuxarıdakı dediklərinə əsasən məlum olur ki, xalqın saleh insanları dünyasını dəyişdikdən sonra, onların nəsilləri onların xoşbəxt günlərini və xeyirxah əməllərini xatırlamaq üçün, dəfn olunduqları yerə toplaşmaq adətini tətbiq edirdilər.

Bununla onlar imanlarını artırırdılar. Bu arada nəsillər dəyişilirdilər və hər bir növbəti nəsil yeni adət-ənənələr gətirirdi. Beləliklə, salehlərin haqqı və hörməti xətrinə, Allaha dualarla müraciətlər başlandılar. Bundan sonra, insanlar bu əməlisaleh insanları, Allah qarşısında özləri üçün şəfaətçi kimi görməyə başladılar. Sonrakı nəsillər isə, müxtəlif ibadət növlərini, bilavasitə bu saleh insanlara həsr etməyə başladılar. Beləliklə, zaman keçdikcə və nəsillər dəyişdikcə, tövhidi bilən və onun mahiyyətini dərk edən, tövhid əhlindən olan insanlar, müşriklərə çevrildilər. Bunun səbəbi, bu saleh insanlara hədsiz ehtiram və onları ucaltma idi.

Buna görə də, iki anlayışı ayırd etmək çox vacibdir:

1) şəriət həddlərini aşmadan əcdadlara hörmət və ehtiram;

2) onların ucaldılmasında həddi aşmaq.

Pirlərdə, ocaqlarda və digər dəfn yerlərində, məzarları ziyarət edib, toplaşan soydaşlarımıza baxın. Onlar bizə, aşağıdakıları deyirlər:

“Birincisi, bəli, biz qəbirləri ziyarət etməyə gedirik. Bəli, biz orada vaxt keçiririk və Allaha ibadət edirik. Lakin biz orada pis bir iş görmürük.

İkincisi, bizi müşriklərlə necə müqayisə edə bilərsiniz?! Biz yaradılmışı, Yaradandan ayıra bilməyəcək qədər səfeh deyilik.

Üçüncüsü, biz ancaq öz köklərimizə hörmət edirik, onların şanlı tarixini xatırlayırıq və özümüzü ruhən yüksəldirik.

Dördüncüsü, siz isə manqurtsınız! Siz öz köklərinizi bilmirsiniz və əcdadlarınıza hörmət etmirsiniz. Üstəlik, siz həm də insanları dindən uzaqlaşdırırsınız!”

Şeytan beləcə gözümüzün qabağında, insanları şirkə doğru addım-addım sürükləyir, əcdadlara, saleh insanlara hörmət şüarları altında şirki gizlədir. Amma təəssüf ki, bu gün, bunu anlayan və görən nə qədər az insan var!

Allah buyurur: **"Ey Adəm övladları! Məgər Mən sizə buyurmadımmı ki, şeytana ibadət etməyin, o sizin açıq-aydın düşməninizdir, Mənə ibadət edin! Doğru yol budur! Artıq (şeytan) içərinizdən bir çoxlarını yoldan çıxartmışdır. Məgər dərk etmirdiniz?"** (36:60-62)

Buna görə də, sələflər demişlər: *"Fitnə yaxınlaşdıqda, onu ancaq alim bilir, sona çatdıqda isə, onun haqqında artıq hər bir cahil bilir".*

Hənəfi məzhəbinin imamlarından olan İmam əl-Xucəndi (1379 hicri il) buyurur: *"Həm qədimdə həm də müasir dövrdə, şeytanın Adəm övladlarını aldatdığı ən böyük hiylələrdən biri də, salehlərə hörmət və onları ucaltmaq libası altında, insanlar arasında şirki yaymasıdır. O, "şirk" anlayışını "vasitəçilik", "şəfaət" və sair anlayışları ilə əvəz etmişdir. Amma müşrik etiraf etsə də, etməsə də müşrik olaraq qalır, necə ki, zina başqa cür adlandırılsa da, zina olaraq qalır, spirtli içki su adlandırılsa belə, spirtli içki olaraq qalır. Bununla aydın olur ki, insanların çoxu, məhz salehlərə hədsiz ehtiram göstərdiklərinə görə, kafir olmuş və dinlərini tərk etmişlər".*[1]

Ən maraqlısı isə odur ki, əcdadlarımız bu gün sağ olsaydılar və nəsillərinin onların məzarlarında nələr etdiyini görsəydilər, bundan məmnun olmazdılar. Çünki onlar, tövhid əhli idilər və şirkə aparan bütün yolları bağlayırdılar.

Bu fəsildə qeyd edilməli olan son şey budur ki, əcdadların ucaldılması, həmişə kiçik şeylərdən başlayır, sonra illər və onilliklər keçdikcə əcdadların məzarları başında keçirilən, heç bir halda dinin çərçivəsinə sığmayan, adi məclislər və şənliklər yavaş-yavaş onlar haqqında formalaşmış yanlış fikirlərə çevrilirlər. Burada sufi

[1] "Hükmü Lləhi əl-Əhəd əs-Səməd" səh. 26, 33.

təriqətlərinin nümayəndələrinin, öz salehləri ilə bağlı müxtəlif kitablarında yer alan, müxtəlif inancların qarışığını misal gətirmək kifayətdir. Və təbii ki, oxucu unutmamalıdır ki, bu inanclar bir gecədə yaranmayıblar və əksinə məhz ilk baxışdan belə sadə məclis və bayramlardan yayılmağa başlayıb.

Müxtəlif sufi kitabları, öz ölü salehlərini ucaldarkən belə deyirlər: *"Salehlər (övliyalar), ölən insanları və quşları diriltməyə qadirdirlər. Danışmağı bacarırlar, dənizləri bölüb, quruda bilirlər, su üzərində gəzə bilirlər. Onlar üçün, bir yaradılmışı digərinə çevirmək çətin deyil. Məsələn, şərabı bala yaxud piyə çevirə bilərlər; həmçinin, onlar yeri döndərə bilirlər, nəticədə onlardan hər hansısa biri, bir göz qırpımında başqa ölkədə ola bilər; onlar heyvanlarla, bitkilərlə və digər cansız cisimlərlə danışa bilirlər; xəstəlikləri müalicə edir və ağrıları aradan qaldırırlar; yırtıcıları və heyvanları özlərinə tabe edirlər; zamanı uzadır və qısaldırlar; itkin düşən insanların və ya əşyaların harada olduğunu bildirirlər; onlar bu həyatı (kainatı) idarə edirlər və uzaq məsafələri görürlər; müxtəlif şəkillərdə və bədənlərdə özlərini göstərə bilirlər. Bəzi sufi təriqətlərinin nümayəndələri əmindirlər ki, onların ölü və diri salehləri Kəbənin ətrafında təvaf edənləri görürlər. Üstəlik, onlardan bəziləri inanırlar ki, Kəbə özü bu ölü, salehlərin ətrafında dövrə vurur və onlar ziyarətə gələndə onları qarşılamağa çıxır; ölü, saleh insanlar onlara müraciət edənlərin dərd və problemlərini həll etmək üçün qəbirlərindən çıxırlar. Necə ki, bu saleh insanlar onlara müraciət edən hər kəsi görür, eşidir və anlayır, dinləyir və cavab verirlər, hətta bu xitablar müxtəlif dillərdə, eyni zamanda və Yer üzünün müxtəlif yerlərində söylənsə də belə"*.[1]

[1] Bax "əl-Kəvaqib əd-Durriyyə" 1/11–13, "Cami əl-kəramət" 1/30, "əl-Hucac əl-beyinət" səh. 9–10, 151–159, "əl-'Əqaid ən-Nəsəfiyyə" səh. 145–147, "Şərx əl-Məqasid" 5/75, "ən-Nibras" səh. 478–479, "əl-Kəramət" səh. 2, "Nafahat əl-Qurb" səh. 8-14, "Nur əl-Huda" səh. 16–24, "əl-Fətava əl-Hədisiyyə" səh. 297–300, "İrqam əl-Murid" səh. 51, "ən-Nur əs-Safir" səh. 79–80, "Cə əl-Həqq" səh. 154. və s.

Bütün bu inanclar çoxdan, keçmiş Sovet respublikalarında, eləcə də Qafqaz respublikalarında insanlar arasında geniş yayılmışdır.

FƏSİL 6

# ŞƏRİƏTDƏ QƏBİRLƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ (TANINMASI) ARZU OLUNANDIRMI?

Saxta və fərziyyə edilən qəbirlərin mövcudluğunu təsdiqləyən üsullar, çoxdan məlumdurlar və “müqəddəs” adlanan məzarların guya aşkar edilməsi, növbəti dəfə bu aldadıcı üsulların istifadəsindən başqa bir şey deyil.

Bu ümmətin bir çox peyğəmbərlərinin, səhabələrinin və imamlarının, saxta məzarları bütün dünyada yayılmış və hamıya məlumdur. Fərziyyə edilən qəbirlər də çoxdurlar. Bəzi şəxslərin, həqiqətən də orada dəfn olunduğuna dair heç bir tutarlı sübutu yoxdur.

Bunun səbəbi odur ki, hər hansısa bir səhabənin və ya imamın filan müəyyən ərazidə və ya qəbirdə dəfn olunduğunu bilməkdə, heç bir dini fayda yoxdur. Kimin, harada dəfn olunmasının qayğısına qalmağın, dinlə heç bir əlaqəsi yoxdur, Əks halda, Uca Allah peyğəmbərlərinin qəbirlərinin, hansı məskənlərdə yerləşdiyini bizə xəbər verərdi və bu ümmətin imamları bu məlumatları mütləq qeyd edərdilər. Üstəlik, bu barədə məlumatın gizli qalması, şirkə aparan yolun qarşını alır, çünki şirkin əsas növü məhz qəbirlərə həddindən artıq diqqət verməklə formalaşır.

Əbu əl-Həyyac əl-Əsədi rəvayət edir ki, Əli ibn Əbi Talib ona belə dedi: *"Rəsulullahın ﷺ məni göndərdiyi vəzifə ilə, səni də göndərimmi? O məni göndərmişdi ki, silinməyən heç bir şəkil və yerlə bir səviyyədə etmədiyim heç bir yüksək qəbir qoymayım"*.[1]

Qəbrin işarələnməsinə gəlincə isə, bu məsələ iki müstəqil hissəyə bölünür:

1) bu, yerin qəbir olduğunu işarə etməkdədir ki, insanlar orada gəzməsin, üstündə oturmasın və sair.

2) bu, qəbirdə filan adamın dəfn olunduğunu bilmək üçün, qəbri hansısa əşya ilə işarələməkdir.

Bu məsələlərə aydınlıq gətirmək, müxtəlif məzhəblərin dəlil və rəylərinə istinad etmək, bu kitabın məqsədi deyil, ona görə də burada yalnız ümumi nəticəni qeyd edəcəyik.

Müəyyən bir yerin, qəbr olduğu halda, oranın boş yer olmamasını və qəbir olmasını işarələmək, şəriətdə arzuolunandır. Qəbri, orada dəfn olunan şəxsin kimliyini dəqiqləşdirmək üçün, hansısa əşya ilə işarələməyə gəlincə, bu əməl arzuolunan deyil, amma icazəlidir.

Lakin ən maraqlısı odur ki, Hənəfi məzhəbinin alimləri, qəbrin müəyyənləşdirilməsini arzuolunmaz hesab edirlər.[2] Və əgər bu təyin etmə, qəbrin üzərinə yazı tətbiq etməklə olarsa, o zaman bu arzuolunmaz hal daha da artır. Qəbrin üzərinə, onu işarələmək üçün yazı yazmaq, əksər alimlər (cümhur)[3], o cümlədən Hənəfi imam Əbu Yusuf[4] tərəfindən arzuolunmaz hesab edilir.

---

[1] Hədis səhihdir; Muslim 969; Əbu Davud 3218; Tirmizi 1049; Nəsai 2030; Əhməd 1/96, 124.

[2] Bax "Tuhfət əl-fuqaha" 1/256, "Tabyin əl-hakaiq" 1/246, "Bədai' əs-Sənai'" 1/320.

[3] "Arzuolunmaz hal" ifadəsi müxtəlif məzhəblərin terminologiyasında həm arzuolunmaz hal, həm də qadağan mənasını daşıyır. Hənəfi məzhəbinə gəlincə, "arzuolunmaz" həm arzuolunmaz, həm də qadağan deməkdir. Hənəfi imamı İbn Nuceym Kənz əd-Dəqaykda, bütün şərh boyunca bu barədə danışır. Bu o deməkdir ki, hənəfi adlandırılanlardan heç biri, öz baxışlarına dəlil gətirə bilməz ki, hənəfi məzhəbində deyilməyib ki, hər hansısa əməl qadağandır, amma deyilib ki, bu sadəcə arzuolunmazdır.

[4] Bax "Tuhfət əl-füqəhə" 1/256, "Bədai' əs-Sənai'" 1/320.

(Yəqub ibn İbrahim) və Muhəmməd ibn əl-Həsən əş-Şeybani, — İmam Əbu Hənifənin iki ən yaxın tələbəsidir.

Onlar Cabir ibn Abdullahın: *"Peyğəmbər ﷺ qəbri gipslə (kirəclə) örtməyi, onun üzərində yazı yazmağı və ayaq basmağı qadağan etmişdir"* dediyi hədisinə əsaslanırlar. Rivayətlərin birində isə: *"Allahın Rəsulu ﷺ qəbrin üzərində, hər hansı bir şey yazılmasını qadağan etmişdir"*.[1]

Bütün yuxarıda deyilənlərdən, belə nəticəyə gəlmək olar ki, qəbirlərin tanınmasına olan qayğı, şəriətdə arzu olunan bir şey deyil. Eləcə də, pirlər və ziyarətgahlar olan ölkələrdə, kimin harda dəfn olunduğunu, insanlara başa salmağa çalışan adamlar və həmin ölkələrə turlarının təşkilatçıları, özləri nə Qurana, nə Rəsulullahın ﷺ, nə də səhabələrin yoluna əməl etmirlər və hətta öz məzhəblərinin əleyhinə və əksinə gedirlər. Bunu onlara kim öyrədib?! Onlar öz məzhəblərinə tabe olmaqdan daha çox kimə tabe olmağı sevirlər?!

Bu modanı müsəlmanlar arasında ilk dəfə, hicrətin üçüncü yüzilliyin sonunda, Abbasilər xilafətinin zəifliyi dövründə, Übeydiyyə dövlətinin rafiziləri (ifrat etmiş şiələr) tətbiq etmişlər. Sonra bu dəbi, müxtəlif sufi təriqətlərinin ardıcılları onlardan mənimsəyib, müsəlmanlar arasında yaydılar.

Bidətçilər arasında, qəbirlərin müəyyən edilməsi və dəqiqləşdirilməsi dörd (4) dəlilə əsaslanır:

1) yuxular;

2) müəyyən bir ərazidə xoş bir qoxunun hiss edilməsi;

3) Qeyri-təbii, mistik hadisələrin olması (onlardan başqa heç kimin görmədiyi);

4) mötəbər olmayan, yalançı tarixi faktlar.[2]

---

[1] Hədis səhihdir və imam Muslimin şərtlərinə uyğundur; Bax, "Təhqiqul-Xəbir" 2/132; Əbu Davud 3226; Nəsai 2026; Tirmizi 1052; İbn Macə 1563 (son rəvayət ona məxsusdur).

[2] Əl-Fətava 27/457–459.

# FƏSİL 7

# DÜNYADA BİR ÇOX SAXTA VƏ YA EHTİMAL EDİLƏN QƏBİRLƏRİN MÖVCUD OLMASI HAQQINDA

Saxta məzarların tapılması, yeni deyil. Bu hal, bütün müsəlman dünyasına məlumdur. Bu fəsildə biz, belə saxta və ya ehtimal edilən qəbirlərdən, yalnız bir neçəsini qeyd edəcəyik.

1) **Kirk (Livan) şəhərində — Nuh peyğəmbərin qəbri.** Bu qəbir, hicrətin yeddinci yüzilliyində aşkar edilmişdir. Bu iddianın əsası, kiminsə bu ərazidən xoş qoxu hiss etməsi, bundan sonra iri sümüklərin aşkarlanması olub. Və təbii ki, tədqiqatçılar yekdilliklə bu sümüklərin çox güman ki, Nuh peyğəmbərə aid olduğuna qərar verdilər, baxmayaraq ki, ətrafda eyni iri sümüklərə malik daha çox qəbirlər var idilər.[1]

2) **Dəməşqdə — Hud peyğəmbərin qəbri.** Bu qəbir, yalandan Hud peyğəmbərə aid edilir, bu barədə tarixçilər arasında, heç bir ixtilaf yoxdur. Bunun səbəbi, Şamda Hud peyğəmbərin heç vaxt olmamasıdır. O, Yəməndə yaşayan insanların yanına göndərilmişdi, sonra Məkkəyə hicrət etmişdi.[2]

---

[1] "Əl-Fətəva" 27/459.
[2] "Əl-İqtida" 2/651.

3) **Qahirədə — Peyğəmbərin ﷺ nəvəsi, Hüseyn ibn Əli ibn Əbu Talibin qəbri.** Əslində, Hüseynin cənazəsi, Kərbəlada dəfn edilməsində, tarixçilər arasında fikir ayrılığı yoxdur.[1] Çünki Qahirə, ancaq hicrətin dördüncü yüzilliyində tikilmişdir. Şiə-rafiziləri tərəfindən tikilmişdir.[2] Şiələr, Əli ibn Əbu Talibi və onun ailəsini, hədsiz dərəcədə ucaltdıqlarına və ona hörmət etdiklərinə görə, Hüseynin Qahirədə dəfn edilməsi hekayəsini, məhz onlar ortaya qoydular. Elə isə, birinci əsrdə öldürülən Hüseyn, dördüncü əsrdə tikilmiş Qahirəyə necə gedib çıxdı?!

Onun cəsədinin başına gəlincə isə, onun dəfn yeri ilə bağlı səkkiz (8) rəy vardır:

Mədinə, Dəməşq, Qahirə, Kərbəla, Xəlyab, Əskalyan, Mərv, Rəqqa. Etibarlı rəy onun Mədinədə dəfn edilməsidir.[3]

4) **Dəməşqdə — Ubey ibn Kəbin qəbri .** Tarixçilər, onun Mədinədə dəfn edildiyini və heç vaxt Dəməşqə getmədiyini yekdilliklə söyləyirlər.[4]

5) **Mosulda — Abdullah ibn Ömərin qəbri.** Tarixçilər, onun Məkkədə öldüyü və orada dəfn edildiyi barədə yekdil fikirdədirlər.[5]

6) **Misirdə — Uqbə ibn Əmirin qəbri.** Bir cahilin yuxusuna əsaslanaraq, insanlar onun orada dəfn olunduğuna qərar veriblər.[6]

7) **Dəməşqdə — Peyğəmbərin ﷺ zövcələri, Ümmü Sələmə** və **Ümmü Həbibənin qəbirləri.** Peyğəmbərin ﷺ bütün zövcələri Mədinədə vəfat etdikləri üçün, bu açıq-aşkar yalandır. [7]

Və həmçinin **Qahirədə — Seyidət Zeynəbin** (Peyğəmbərin ﷺ nəvəsi) **məqbərəsi.** Bu da, açıq-aydın yalandır, çünki o, nə sağ ikən, nə də öləndən sonra, Misirdə olmayıb. Eyni sözləri, Tantada — Əhməd əl-Bədəvinin, Bağdadda — İmam Əbu Hənifənin, İstanbulda — Əbu Əyyub

---

[1] "Bidayə və ən-Nihayə" 8/203.
[2] "Ən-Nuzum əz-Zahirə" 1/408.
[3] Əl-Fətava 27/450–489.
[4] "Əsna əl-Mətalib" səh. 286–288.
[5] "Əl-İxtiyarət əl-Fixiyyə" səh. 97.
[6] "Əsna əl-Mətalib" səh. 286–288.
[7] "Əl-Fətəva" 4/516.

əl-Ənsarinin, Dəməşqdə — Səlahəddin əl-Əyyubinin və sair məqbərələri haqqında demək olar.[1]

Sadalanan bütün qəbirlər, məqbərələr, türbələr və bir çox başqaları saxta, açıq-aşkar yalan və ya sadəcə ehtimal olunandırlar. Demək olar ki, hamısı daim ziyarət edilir, ətrafında şirk ayinləri keçirilir və qurbanlar kəsilir. Onların bəzilərinin yanında, həcc mərasimləri keçirilirlər. Onlardan bəzilərinin ətrafına, ilin müəyyən günlərində, milyonlarla insan toplaşır. İbn Batuta demişdir: *"Dünyada yüzlərlə, minlərlə müxtəlif növ, oxşar məqbərələr var. Tez-tez, dəstə-dəstə insanlar bu məzarları ziyarət edərkən, güclü izdihamda əzilərək, ölürlər"*.[2]

Görün, müsəlman ölkələrində, insanların əksəriyyətinin, din haqqında məlumatsızlığı və sünnə alimlərinin susması və ya zəif müqaviməti, nələrə gətirib çıxarır. Günümüzdə həmin eyni yolla pirə-ocağa səfərlərin təşkilatçıları da gedirlər və bununda nəticəsində, artıq keçmiş Sovet məkanında, ən böyük bütpərəst məbədlərdən biri yaranıb. Elə isə, öz dininə görə, azacıq da olsa narahat olan bir kəs, bu məsələdə necə susa bilər?! Həqiqətənmi istəyirsiniz ki, sizin dininiz — rəqs, fit çalmaq, əl çalmaq, qəbir ətrafında tullanmaq, dəlilik və coşqu, Allahla birləşmə (vəcd) ideologiyası, xurafat və bütpərəst inancları ilə əvəzlənsin?!

---

[1] "Əl-Fətəva" 27/170.

[2] "Fahris Rihlə İbn Batuta" səh. 783, 789.

# FƏSİL 8

# BƏZİ ƏŞYALARIN, TORPAQLARIN VƏ ZAMANLARIN BƏRƏKƏTLİ OLDUĞUNA DAİR İNSANLARIN İNANCLARI

Aşağıdakı şirk mərhələlərinin bir çoxunun ortaya çıxmasının səbəbi, Quran və Sünnədə buna dair heç bir dəlil olmadığı halda, müəyyən əşyalar, torpaqlar və ya zamanlar haqqında mübarək və bərəkətli olduqlarına insanların inanmalarıdır.

Bir çox insanlar, güman edirlər ki, əgər nə vaxtsa hər hansı bir torpaqda, hər hansısa əlamətdar hadisə baş veribsə (məsələn, mühüm döyüşdə qələbə və ya bütöv bir xalqın İslamı qəbul etməsi və sair), onda bu torpaq sahəsi ilahi lütf qazanır, müqəddəs və bərəkətli olur. Eyni şey bəzi əşyalara, məsələn: daşlara, ağaclara, qəbirlərə, qədim tikililərə və sair aiddir. Bir çox insanlar güman edirlər ki, əgər ağac, saleh və ya böyük şəxs tərəfindən əkilibsə və ya hansısa bir qəbirdə, böyük bir din xadimi dəfn edilibsə, onda bu əşyalar mübarək olurlar, əgər onlara toxunularsa, yanında dayanılarsa və sair, bu ilahi lütfü başqalarına ötürmək qabiliyyətinə sahib olurlar.

Bu inancların əsasını, insanların müxtəlif hekayələri və nağılları təşkil edir, insanların əcdadlarından mənimsədikləri, müxtəlif nağıllar, misal üçün: filan yer və ya ağac möcüzəlidir, yaxud filan çay müqəddəsdir ağır xəstəliklərə şəfa verir və sair. Həmçinin, bu cür inancların çoxu, batil hədislərdən qaynaqlanır. Burada misal olaraq, aşağıdakıları qeyd edə bilərik: "*Sizlərdən biriniz, bir daş haqqında yaxşı fikirləşərsə, Allah onu,*

*sizin üçün faydalı edər*" (hədis batildir, isnadı yoxdur; əl-Əcluni "Kəşf əl-Xəfa"da 2/152).

Hörmətli oxucu, təbii ki, siz də belə hallarla qarşılaşmısınız. Bu cür hallar tez-tez olurlar, misal üçün, bir qohum turist səfərindən qayıdanda, ordan, məsələn, balıqqulağı gətirir və hədiyyə edir sizə. Eyni zamanda, o hətta iddia edir ki, bu balıqqulağı sizin talismanınıza çevrilməlidir, çünki bu balıqqulağı qeyri-adidir! Maraqlıdır, bu balıqqulağı milyonlarla oxşarından nə ilə fərqlənir?!

Yeri gəlmişkən, yəqin ki, bu inancları, ilk yayanlardan biri yunanlar olublar. Çətinliklər baş verəndə, onlar qəbirlərə gedib, misal üçün Aristotelin qəbrinə gedib, onun ətrafında otururdular, qəbirdən onlara xüsusi bərəkətin nazil olacağına əmin idilər.[1]

Sonra özlərini islama nisbət edən və bu fikirləri yunanlardan götürən müxtəlif filosoflar əmələ gəldilər. Onların arasında al-Farabi[2] (339 h.il), İbn Sina[3] (428 h. il), eləcə də onlar kimi başqaları — ər-Razi, Taftazani, ən-Nəbhani və Kəusari. Onların ideyası əsasən belə idi: dahi insanın ruhu, ölümdən sonra da, izzəti və Allaha yaxınlığı səbəbindən Allahdan bərəkət almağa davam edir. Ona görə də kimsə onun qəbrini ziyarət edərsə, bu bərəkət ona da keçər. Bu, güzgünün günəş şüalarını əks etdirdiyi kimi baş verir. Buna görə də diqqəti dəfn edilmiş şəxsə yönəltmək və heç bir şeyə yayınmadan qəlbinizi yalnız ona yönəltmək lazımdır ki, bunun nəticəsində daha çox bərəkət ensin.

Bu filosofların çoxu, özlərini Hənəfi məzhəbinə aid etdikləri üçün (eynən indiki kimi necə ki, ziyarətgahlara səfərlərin təşkilatçıları, yalan və ədalətsiz olaraq, özlərini ona aid edirlər) bu batil fikirləri təkzib etmək vəzifəsini, məhz hənəfi alimləri öz üzərlərinə götürmüşlər. Bunlardan:

[1] Bax "Cuhud ulamə əl-Hənəfiyyə" səh. 1586–1587

[2] Ateistlərin və kafirlərin əsas imamlarından biri olub. O, filosofların peyğəmbərlərdən məqam baxımından daha üstün olduğuna inanırdı. Şeyxül-islam onun haqqında belə demişdir: "*Yolunu azmış, kafir*" (bax: "Məcmuul-Fətava" 2/67).

[3] Kərramit, batinit, qəbirpərəst, ateist, kafir, filosof. Onu Hənəfi məzhəbinə aid edirdilər, lakin Hənəfilər özləri, onu kafir elan etmişlər. Hənəfilər arasında, əl-Qəzali (bax: Təhafut əl-Fələsifə səh. 254), Ənvar əl-Kəşmiri (bax: Feyd əl-Bari 1/166). Onun haqqında İmam İbn əs-Salah dedi: "*O, insan surətində olan, şeytanlardan biri idi*". (Bax: "Fətava İbn əs-Salah" 1/209).

İmam Vəliyullah əd-Dəhləvi (bax: "Xucətu-Llahil-bəliqə" 1/61), həmçinin İmam İbn Əbil 'İzz ("Şərh 'əqidə ət-Tahaviyya" səh. 21-ə bax).

İmam İbn Əbil-İzz demişdir: "*Bu növ vəsilə, ərəblərin və həmçinin hindu, türk və bərbərlərdən olan digər müşriklərin etdiyi şirklərinin əsasını təşkil edir".*

Onların arasında həmçinin İmam Numan əl-Əlusi də var (bax: "Cəla əl-aynein" s. 444), hansı ki, bunu "*müşriklərin dininin əsası*" adlandırmışdır". Eləcə də, Hənəfi məzhəbinin digər imamları.[1]

Bu günümüzə gəlincə isə, bu fikirləri Dübəndiyyə adında, sufi təriqətinin nümayəndələri özlərində daşıyırlar.[2] Onlardan daha çox azmış insanları tapmaq çətin olar. Məsələn, onlar inanırlar ki, saleh insanın məqbərəsi, Kəbədən və hətta Allahın Ərşindən də daha şərəflidir[3]. Lakin ən maraqlısı odur ki, bu sufi təriqəti, digər tariqətlərdən daha çox sünnəyə yaxındır!!![4]

Həm də planetlərə sitayiş edən, bütpərəstlərin dininin əsasını məhz bu ideologiya təşkil edir. Onlar da inanırlar ki, ruhla planetlər arasında sıx əlaqə var və planetlərin lütfü gözəgörünməz kanallarla ruha keçir. Buna görə də, bir çox xalqlarda planetlərə sitayiş edilməsinə, bu planetlərin adlarını daşıyan insanlara, planetlərin heykəllərinə və onların təsvirlərinə rast gəlmək olar. Guya ki, bu heykəllər maqnit kimi planetlərin lütfünü özünə cəlb edən və bununla da bu axını çoxaldan və gücləndirən peyk anteni rolunu oynayır.

---

[1] Bax "Cuhud ulamə əl-Hənəfiyyə" səh. 1281–1309, eləcə də "əl-Qaidə əl-Cəlil" səh. 81–82.
[2] Bax, əl-Saunih əl-Qasimiyyə, səh. 332–333.
[3] Onların bu ideologiyasına "Zübdətul-mənasik" kitabında rast gəlmək olar. 58.
[4] Bax "Təmmət əl-Dübəndiya" səh. 635–662.

Eyni vəzifəni, qəbirlərə sitayiş edənlər üçün, qəbirlər və saleh insanlar yerinə yetirlər. Məhz buna görə də, qəbirlərə ibadət edənlər, həmişə çalışırlar ki, qəbirlər üzərində məqbərələr, məscidlər və başqa tikililər tiksinlər. Bu ona görədir ki, ilahidən gələn bərəkət daha da çox olsun. [1]

Əgər bütün bunlar, səni təəccübləndiribsə qardaşım, bil ki, bunların hamısı Azərbaycanda, Özbəkistanda, Qazaxıstanda, Türkmənistanda, Dağıstanda, ümumiyyətlə, bütün keçmiş sovet məkanında onilliklər, hətta əsrlər boyu çiçəklənirlər. Allah, bu bəlaya qarşı mübarizədə, bizə kömək olsun!

Allah buyurur: **"Biz günahkarlardan intiqam aldıq. Möminlərə yardım etmək Bizim borcumuz idi"** (30:47).

Beləliklə, artıq qeyd etdiyimiz kimi, şirkin həyata keçirilməsinin mərhələləri fəslində (üçüncü (3) mərhələdən yeddinci (7) mərhələyə kimi) izah etdiyimiz, şirkin yolları bu inanclardan əmələ gəlirlər.

Bu mərhələlərin hər birinin, ayrı-ayrılıqda təfərrüatlı izahına keçməzdən əvvəl, hər hansı torpaqlarda, əşyalarda, zamanlarda ilahi bərəkətin olması və keçməsi etiqadları ilə bağlı, ümumi müddəaları aydınlaşdırmaq lazımdır.

## BÖLÜM 1. MƏSƏLƏYƏ AİD OLAN, TERMİNLƏRİN İZAHI

Əvvəlcə bu məsələyə aid olan, bəzi terminləri izah etməyə çalışaq.

1) "Bərəkət" (lütf, xeyir) — çoxlu miqdarda xeyir və faydanın daim artıb-çoxalan və ya heç olmasa azalmayan bir şeydə daimi mövcudluğu və bağlılığıdır.

[1] Hənəfi imam əl-Bərqavinin "Ziyarət əl-kubur" kitabına bax, səh. 27–29.

Həmçinin, bərəkət — yaxşı bəhrələr və nəticələr verəndir.[1]

2) "Təbərik" — şəriətdə iki mənada gəlir:

a) bir nəfər başqası üçün, Allahdan bərəkət dilədikdə.

b) Uca Allah yaratdığı hər hansı bir məxluqa bərəkət bəxş etdiyi zaman.

3) "Təbərrük" — bərəkətin axtarılmasıdır və onu hər hansı bir cism vasitəsilə alınmasına cəhddir.

4) "Mübarək" — nəyinsə və ya kiminsə özündə bərəkətin olması.[2]

## BÖLÜM 2. BÜTÜN NEMƏTLƏR, XEYİR VƏ BƏRƏKƏT, YALNIZ ALLAHIN ƏLİNDƏDİR

Bölümün başlığında qeyd olunan ifadə, bu fəslin ən mühüm əsaslarından birini təşkil edir. Əgər oxucu bunu başa düşsə, o zaman Allahın izni ilə bir çox batil inanclara mane olar.

Allah buyurur: **«De: "Ey mülkün sahibi Allahım! Sən istədiyin kəsə mülkü verir və istədiyindən də onu geri alırsan; istədiyin kimsəni yüksəldir və istədiyini də alçaldırsan. Xeyir (yalnız) Sənin Əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən"»** (3:26).

Və həmçinin: **"Sizə verilən nemətlərin hamısı Allahdandır"** (16:53).

Və həmçinin: **«De: "Şübhəsiz ki, lütf Allahın Əlindədir və onu istədiyinə verir!"»** (3:73)

---

[1] Sonrakı mətndə, bütün bu terminlər, həm ərəb, həm də azərbaycan dillərində istifadə olunacaq.

[2] Bütün bu təriflər İbn Farisin "Mu'zəm məqais əl-Luğə", "Lisanul-'ərəb", "əl-Qamus əl-Muhit" əsərlərindən götürülmüşdür.

Və həmçinin: **“Məgər Allahın göylərdə və yerdə olanları sizə ram etdiyini, Özünün aşkar və gizli nemətlərini sizə bol-bol verdiyini görmürsünüzmü?”** (31:20)

Və həmçinin: **“Əgər Allahın nemətlərini saymalı olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir”** (16:18).

Əli ibn Əbu Talib rəvayət edir ki, Rəsulullah ﷺ gecə, nafilə namazına qalxanda belə deyərdi: ***“Mən üzümü, göyləri və yeri yaradana çevirdim. Budur, mən Sənin hüzurundayam, Sənə xidmət etməkdən məmnunam, bütün yaxşılıq Sənin əlindədir, pislik isə Səndən deyil. Sənin sayəndə yaşayıram və Sənə qayıdıram. Sən Mübarək və Ucasan. Səndən bağışlanma diləyirəm və Sənə tövbə edirəm!”*** [1]

Ona görə də, əgər bütün xeyir və bərəkət yalnız Allahın əlindədirsə, onların insanlar arasında mövcudluğu və davamlılığı da yalnız Ondandır. Allahın bütün yaratdıqları və məxluqatı, ancaq Allahın nemətlərindən və lütfündən (buraya insanlar, cinlər, mələklər, heyvanlar, ağaclar, daşlar və başqa hər şey daxildir) qidalanır və bəhrələnirlər. Şübhəsiz ki, bütün yaradılmışlar daim Allaha möhtacdırlar və O, nemətləri bir anlıq belə dayandırsa, hər şey məhv olar.

Allahın isimlərindən biri də “Təbarək”dir ki, onun mənalarından biri də, bütün faydaların yalnız Ondan olmasıdır.

Elə buna görə də, Quranın hansısa ayəsində və ya hər hansısa hədisdə “bərəkət” (lütf, xeyir) kəlməsi keçərsə, şübhəsiz ki, Allaha aid edilmişdir.

Allah buyurur: **“Ey ev əhli! Allahın rəhməti və bərəkəti sizin üstünüzdə olsun! Həqiqətən, O, Tərifəlayiqdir, Şan-şöhrətlidir”** (11:73).

Və həmçinin: **“Harada oluramsa olum, məni mübarək etdi”** (19:31).

---

[1] Hədis səhihdir; Muslim (771) -201.

Və həmçinin: **“Evlərə daxil olduğunuz zaman, özünüzü Allah tərəfindən mübarək və çox xoş bir salamla salamlayın”** (24:61).

İbn Məsud demişdir ki, bir gün səhabələr, Rəsulullahla ﷺ səfərdə idilər və o zaman onların su ehtiyatları bitdi. Bu zaman, Allah Rəsulu ﷺ, içində biraz su olan, bir qaba əllərini saldı və dedi: ***“Mübarək suya tələsin, bərəkət isə Allahdandır”.*** Bundan sonra, onun barmaqlarının altından su fışqırmağa başladı.[1]

# BÖLÜM 3. ALLAHU TƏALƏ, ÖZ YARATDIQLARINDAN BƏZİLƏRİNİ AYIRIB, SEÇİB ONLARI BƏRƏKƏTLİ EDİR

Beləliklə, biz öyrəndik ki, bütün bərəkət, yalnız Allahın əlindədir. Buna əsaslanaraq, Uca Allahın bəzi məxluqlarına bərəkət bəxş edərək və onları mübarək edərək, seçdiyini başa düşmək çətin olmayacaq. Bu, istənilən insanlara, torpaq sahələrinə, zaman dövrlərinə və sair şeylərə aid ola bilər.

Allah buyurur: **“Allah, Adəmi, Nuhu, İbrahimin nəslini və İmranın nəslini seçib, aləmlərdən üstün etdi”** (3:33).

Və həmçinin: **“Ona əməlisalehlərdən olacaq, bir peyğəmbər – İshaq ilə müjdə verdik. Biz ona və İshaqa bərəkət verdik”** (37:112-113).

Həmçinin Quranda, İsa peyğəmbərin sözləri: **“(Körpə) (dil) (açıb) dedi: “Həqiqətən də, mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılıb, zəkat verməyi əmr etdi”** (19:30-31).

---

[1] Hədis səhihdir; Buxari 4/171.

Və həmçinin: **“Bir zaman, mələklər dedilər: “Ey Məryəm! Həqiqətən, Allah səni seçdi, təmizlədi və seçib, aləmlərin qadınlarından üstün etdi”** (3:42).

Və həmçinin: **“Allah mələklərdən də elçilər seçir, insanlardan da. Həqiqətən, Allah Eşidəndir, Görəndir!”** (22:75).

Və həmçinin: **“O, Öz mərhəmətini, istədiyi kəsə məxsus edir. Allah böyük lütf sahibidir”** (3:74).

Allahu Təalə bu yaratdıqlarını, Öz istəyinə və hikmətinə görə elə seçir. Heç kəs Ona kimisə və ya nəyisə seçməyi əmr edə bilmədiyi kimi və heç kəs Ona kimisə və ya nəyisə seçməyi də qadağan edə bilməz. Allahdan başqa heç kim, heç kimə lütf bəxş etməyə qadir deyil və onlara bərəkət vermək üçün heç bir yer və ya vaxt seçə bilməz.[1]

## BÖLÜM 4. ALLAHDAN BAŞQA HEÇ KİM, HƏR HANSI BİR ŞEYİ BƏRƏKƏTLİ EDƏ BİLMƏZ

Allah buyurur: **“Rəbbin istədiyini yaradır və (istədiyini də peyğəmbər) seçir. Onların isə seçməyə haqqı yoxdur”** (28:68).

Və həmçinin: **“Beləcə, Kitab əhli bilsin ki, onlar Allahın lütfündən heç bir şey əldə edə bilməyəcəklər. Şübhəsiz ki, lütf Allahın Əlindədir, onu istədiyinə bəxş edər. Allah böyük lütf sahibidir”** (57:29).

Bu fəsildən aydın olur ki, Allahdan başqa heç kəs hər hansı bir şeyi mübarək və ya müqəddəs, şəfalı və möcüzəvi edə bilməz. Ona görə də “*sənə bərəkət verirəm*” və ya “*filan imam suya və ya bulağa bərəkət verdi*” və sair kimi ifadələri söyləmək yanlış olar.

[1] Bax, Zad əl-Məad 1/39 və daha çox.

# BÖLÜM 5. MÜQƏDDƏS YAZILARDA GÖSTƏRİLMƏDİYİ HALDA, HEÇ KİM HƏR HANSI BİR ŞEYİN İLAHİ BƏRƏKƏTİNİN OLDUĞUNU İDDİA EDƏ BİLMƏZ

Allah buyurur: **“Allah isə mərhəmətini dilədiyi şəxsə məxsus edir”** (2:105).

Bu ayə, bizə dəlalət edir ki, Allah Öz yaratdıqlarının hər hansı birinə lütf verə bilər. Lakin eyni zamanda, hansı məxluqata bu lütfün xüsusi olaraq verildiyini və müəyyən əşyaların bərəkəti haqqında, Allahın xəbər verməsini, biz ancaq Allahu Təalənın nazil etdiyi müqəddəs yazılardan öyrənə bilərik.

Yuxu və nağıllara, əfsanə və inanclara gəlincə, onlar bu məsələdə dəlil deyillər.

# BÖLÜM 6. TƏBƏRRÜKÜN — İCAZƏLİ OLAN VƏ İCAZƏLİ OLMAYANA BÖLÜNMƏSİ

Deməli, biz dedik ki, “təbərrük”— bərəkətin axtarışıdır və onu hər hansı bir cism vasitəsilə alınmasına cəhddir.

Təbərrük — əslən islamda icazəlidir, lakin bu icazə məhduddur. İcazəli təbərrük — Quran və Sünnədə icazəli və qanuni olduğuna dair, sübut edilmiş hər bir şeydir. Qalan şeylərə gəlincə isə, bu cür şeylərlə təbərrük etmək qadağandır və ya bidətdir, ya da ki, şirk ola bilər.

Əgər insan, hər hansı yerdən və ya bu yerin torpağından lütf əldə etmək, yaxud “müqəddəs qəbrə” toxunmaq üçün hansısa yerə gedirsə, eyni zamanda bütün lütfün Allahın əlində olduğuna və bu lütfü bu torpağa və ya qəbrə verən, Allahu Təalənın olduğuna inanırsa, eyni zamanda, bu qəbrin və ya oradakı saleh şəxsin, onunla Allah arasında vasitəçi olduğuna inanmasa və bu vəfat etmiş, saleh adama heç bir ibadət

etməzsə, onun bu hərəkəti kiçik şirkdir.[1] Çünki bu şəxs, şəriətdə olmayan bir şeyi, lütf alma səbəbi hesab edir. Kiçik şirk, insanı islamdan çıxarmaz, amma böyük şirkə aparan yoldur. Bu əmələ "dində yenilik" (*bid'ət*) də deyilir.

Əgər insan, bu əməlisalehin, yaxud onun qəbrinin, yaxud qəbirin ətrafındakı torpağın özündə, bir lütf olduğuna inanarsa, halbuki Allahu Təalə onlara bu lütfü bəxş etməmişdir, bu şirkdir, islamdan çıxaran böyük şirkdir.

# BÖLÜM 7. BƏRƏKƏT NƏDƏ (HARDA) VAR VƏ ONUN HANSI NÖVLƏRİ VAR.

Bərəkət, müəyyən yerlərdə olur və bəzi vaxtlarda olur.

## 1. Müəyyən yerlərdə bərəkət

### *1.1 Məkkə və Mədinə*

Məkkə və Mədinə haram ərazilərdir. Bu şəhərlərin, sərhədlərinə daxil olan, haram ərazilərdə, hərbi əməliyyatlara icazə verilmir, ov etmək, bitkiləri qoparmaq, ağacları kəsmək olmaz və bir çox şey etmək olmaz.[2]

---

[1] Kiçik şirkin müəyyən edilməsinə gəlincə, əvvəlki alimlərin sözlərində, ona rast gəlinmir. Ona görə də, müasir alimlərin sözlərinə müraciət etmək lazımdır.

"Fatava al-Lajna al-daim" 1/749 deyir: "Kiçik şirk, böyük şirkə səbəb olan şəriət tərəfindən qadağan edilmiş hər şeydir, əgər bu müqəddəs mətnlərdə şirk adlandırılmışsa".

Təxminən eyni şey Şeyx İbn 'Useyminin ("Macmu' Fatava Şeyx ibn 'Useymin" 2/203) sözlərində də var.

Şeyx Abdurrahman əs-Səadi demişdir: "Kiçik — şirk böyük şirkə aparan, bütün söz və əməllərdir" (bax: "Kaul Sədid" səh. 32). (Bütün bunlar Şeyx Məhəmməd ibn Hizam əl-Budaninin "Fəthul-Məcid" təxqiqində, səh. 136).

[2] Bu barədə, səhih hədislər vardır. Bax: Buxari 104; Muslim 1354.

Muhəmməd peyğəmbər ﷺ, İbrahim peyğəmbərdən nümunə götürərək, Allahdan Mədinə şəhəri üçün bərəkət dilədi. Eyni zamanda o, Mədinə üçün bərəkətin Məkkədən iki dəfə çox olmasını istədi. Mədinəyə vəba girməz və Dəccal da ora girə bilməyəcək.[1]

Mədinə əhlinə pislik istəyəni, Uca Allah duzun suda məhv olduğu kimi, məhv edər.[2] Və bu iki şəhərin başqa çoxlu üstünlükləri də var. Uca Allah, orada olanları, bütün pisliklərdən qorusun.

### *1.2 Şam[3] torpaqları*

Allah buyurur: "**Dəlillərimizdən bəzisini, ona (Peyğəmbərə) göstərmək üçün, Öz qulunu gecə vaxtı Məscidulharamdan, ətrafına xeyir-bərəkət verdiyimiz Məsciduləqsaya aparan (Allah) pak və müqəddəsdir**" (17:1).

Və həmçinin: "**(Musa ilə olan), zəif camaatı isə, yer üzünün xeyir-bərəkət verdiyimiz məşriqlərinə və məğriblərinə varislər təyin etdik**" (7:137).

Və başqa ayələr də var buna bənzər. Təfsir alimləri qeyd edirlər ki, bu ayələrdə və həmçinin digər ayələrdə (bax: 21:71; 21:81; 34:18) söhbət Şam torpaqlarından gedir.

İbn Ömər rəvayət edir ki, Rəsulullah ﷺ belə dedi***: "Allahım! Bizim Şamı və Yəməni bərəkətli et"***.[4]

Şamın fəziləti ilə bağlı, çoxlu ayə və hədislər nazil olmuşdur. Şamda əl-Əqsa məscidi, həmçinin Tur dağı var, Uca Allah Musa (əleyhissəlam) peyğəmbərlə danışarkən, Musa (əleyhissəlam) həmin dağın üstündə idi. Mələklər, Şamı qanadları ilə örtürlər. Və onun digər üstünlükləri də məlumdur. Alimlərdən bəziləri, o cümlədən İbn Ömər əş-Şafi, Məkkə və

---

[1] Buxari 2/223; Muslim 1005/2.

[2] Buxari 2/222; Muslim 1008/2

[3] Müasir İordaniya, Suriya, Livan və Fələstinin ərazisi.

[4] Hədis səhihdir; Buxari 8/95.

Mədinədən sonra Şamın ən yaxşı torpaq olması barədə, yekdil rəyin olmasını bildirmişlər.

### *1.3. Yəmən*

Peyğəmbər ﷺ, Yəmən torpaqlarının bərəkətli olması üçün, dua edərək Allaha üz tutdu. Həmçinin Peyğəmbər ﷺ, Yəmənə işarə edərək dedi: ***"İman oradadır"***. [1]

Həmçinin, Peyğəmbər ﷺ, Yəməndə[2] dinin hikmət və anlayışına işarə etdi. Bu yerlərdə bərəkətin növünə gəlincə, bu yerlərə həm dünyəvi (yaşayışa aid olan), həm də dini bərəkət daxildir. Bu, o deməkdir ki, bu torpaqlarda çoxlu məhsul, çaylar, ağaclar var. Başqa ölkələrdə yaşamaq üçün, kifayət etməyəcək qədər ərzaq və mülk, bu yerlərdə yaşayan insanlara, çox vaxt kifayət olur.[3]

**Qeyd:** Bu bərəkət fiziki deyil, fayda, xeyir baxımındandır. Yəni bu yerlərdə torpaq, digər ərazilərdəki torpaq kimi, eyni fiziki xüsusiyyətlərə malikdir. Ona görə də, bu torpaqlara gəlib onu öpən, ya sürtünən, ya da bu torpaqlardan torpaq və ya daşlarını özləri ilə aparanlar, doğru etmirlər. Çünki onlar, öz vətənlərində olan, eyni torpağı aparırlar.

Həm də bu torpaqlardakı bərəkət dinidir. Bu torpaqlarda, peyğəmbərlərin əksəriyyəti yaşayıblar və həmçinin əl-Həram məscidi, Peyğəmbər ﷺ məscidi və Məscidül-Əqsa burada yerləşirlər. Bu torpaqlar, hələ də gecə-gündüz öz elmini bölüşən, islam alimlərinin, böyük əksəriyyətinin məskənidir. Yuxarıda qeyd olunan torpaqlar, şəriətdə xüsusi olaraq qeyd edilib. Digər torpaqlara gəldikdə isə, yalnız səhih bir dəlil gətirildikdən sonra, onlarda xüsusi bərəkət olduğunu iddia etmək olar.

---

[1] Hədis səhihdir; Buxari 5/122; Muslim 1/71.
[2] Buxari 5/122; Muslim 1/72.
[3] "Şərh Səhih Muslim" ən-Nəvəvi 9/142.

## 2. Müəyyən fəsil və vaxtlarda olan bərəkət

İlin aylarına gəlincə, şəriətdə Ramazan ayı xüsusi seçilir.

Ramazan ayı başlayanda, Cənnət qapıları açılır, Cəhənnəm qapıları bağlanır və şeytanlar zəncirlənir.[1] Müqəddəs yazılarda, bu ay mübarək adlanır[2]. Bu ayda, bütün dünya müsəlmanları fərz orucu[3] tutur və onun vasitəsilə insanın keçmiş günahları[4] bağışlanar. Bu ayda, Bədr döyüşü, Məkkənin fəthi və Xittin döyüşü baş verdi.

Həmçinin ilin aylarından, dörd (4) haram ayı vurğulanır: Zilqədə, Zilhiccə, Məhərrəm və Rəcəb.

İlin günlərinə gəlincə, şəriətdə Zilhiccə ayının ilk on (10) günü, həmçinin üç (3) təşriq günü, xüsusi olaraq vurğulanırlar. Bu günlərdə, xeyir əməllər etmək üçün, ilin digər günlərindən daha çox savab vəd edilir.[5]

Zilhiccə ayının doqquzuncu (9) günü — Ərəfə günüdür. Bu gündə, oruc tutan kəs, keçmiş və gələn ilin günahlarının bağışlanmasını qazanar.[6] Lakin bu gün, Ərəfat dağında olanlar, oruc tutmazlar. Bu gündə, Allahu Təalə digər günlərdən daha çox insanı Cəhənnəmdən azad edər.[7] Bu günlərdə, Qurban bayramı vardır. Həm də bu günlərin digər üstünlükləri də məlumdur.

İlin gecələrinə gəldikdə isə, müqəddəs məzmunlarda, Qədr gecəsi (*Leylətul Qadr*) xüsusi vurğulanır.

---

[1] Buxari 2/227; Muslim 2/758.
[2] Bu barədə hədis yaxşıdır; Nəsai 4/129; Əhməd 2/230; (Bax: Mişkat əl-Məsabih 1/612).
[3] 2-ci surə, 183-cü ayə.
[4] Buxari 2/228; Muslim 1/524.
[5] Buxari 2/7.
[6] Muslim 2/819.
[7] Muslim 2/983.

O ilin ən yaxşı gecəsidir və bərəkətinə (fəzilətinə) görə min aydan xeyirlidir.[1] Bu gecə, mübarək bir gecədir.[2] Göylərdə və yerdə, növbəti il ərzində baş verən, hər bir hikmətli iş , o (gecədə) ayırd edilir.[3] Bu gecədə edilən əməllərin savabı, min aydan artıq edilən bu əməllərin savabı qədərdir. Məhz o gecə Quran nazil olub.[4] O gecə Rəbbinin izni ilə, mələklər yerə enirlər.[5] O gecə sübh açılanadək əmin-amanlıq olur.[6] Kim bu gecəni namaz qılarsa, bütün günahları bağışlanar.[7]

Həftənin günlərinə gəlincə, bu günlər arasında cümə, bazar ertəsi və cümə axşamı xüsusilə seçilir. Cümə günü, günəşin doğduğu ən gözəl gündür. Cümə günü Adəm yaradıldı, cümə günü Cənnətə daxil edildi, oradan çıxarıldı və məhz Cümə günü Qiyamət qopacaq.[8] Bu gündə elə bir saat var ki, o vaxt edilən dua, Allah tərəfindən rədd edilmir.[9] Bazar ertəsi və cümə axşamı Cənnətin qapıları açılır və möminlərin günahları bağışlanırlar, yalnız biri-birindən küsən möminlərdən başqa.[10] Bu iki gündə oruc tutmaq müstəhəbdir.[11]

Gecənin hissələrinə gəlincə, gecənin son üçdə biri xüsusi vurğulanır. Bu zaman insanın duası, Allah tərəfindən rədd edilməz.[12] Bu zaman Allahu Təalə yaxın səmaya enir. Bu, Allahın əzəmətinə yaraşan şəkildə baş verir və məxluqların hərəkətləri ilə müqayisə edilə bilməz.

---

[1] 97-ci surə, 2-3 ayələr.
[2] 44-cü surə, ayə 3.
[3] 44-cü surə, ayə 4.
[4] 44-cü surə, 1-3-cü ayələr.
[5] 97-ci surə, 4-cü ayə.
[6] 97-ci surə, 5-ci ayə.
[7] Buxari 2/228; Muslim 1/524.
[8] Muslim 2/585.
[9] Buxari 1/224; Muslim 2/584.
[10] Muslim 4/1987.
[11] Bu barədə hədis yaxşıdır; Tirmizi 3/121.
[12] Muslim1/521.

Bu, vaxtlarla bağlı olan bərəkət haqqında idi. İlin digər vaxtlarına gəlincə, onlar yalnız etibarlı dəlil təqdim edildikdə seçilirlər. Buna görə də, hansısa bir gündə, ibadətlərin digər günlərdən daha fəzilətli olduğuna etiqad edib, ilin hər hansı bir gününü ayırıb, həmin gün xüsusi ibadət növlərini yerinə yetirmək icazəli deyildir. Həmçinin hər hansı bir günü, toplaşmaq üçün və o gün hər hansı hadisəni qeyd etmək üçün, ayırmaq olmaz, və bu barədə Allahın izni ilə bu kitabın ayrıca bir fəslində ətraflı izah ediləcəkdir.

## 3. Məscidlərin bərəkəti

### *3.1 Məkkənin haram məscidi (Məscidül-Həram)*

Bu məsciddə qılınan namaz, başqa məscidlərdə qılınan yüz min namazın savabına bərabərdir.[1] Bu məsciddə, müsəlmanların qibləsi olan — Kəbə yerləşir. Bu məsciddə təvafın edilməsi qanunuiləşdirilib. Bu məscid, yer üzündə tikilmiş ilk məsciddir.[2] Onun içində ibadət etmək üçün, səfərə çıxmağa icazə verilir.[3] Həmçinin, orada İbrahimin məqamı (İbrahim peyğəmbərin Kəbəni bərpa edərkən dayandığı yer) var. Burada Səfa və Mərvə təpələri, həmçinin Zəm-zəm quyusu var.

**Qeyd.** Bilmək lazımdır ki, bu məsciddə bərəkət — fiziki deyil, mənəvidir. Bu o deməkdir ki, insan, Kəbənin bəzi hissələrinə və ya məscidin divarlarına toxunsa, bərəkət onun bədəninə keçmir. Eyni şey bütün məscidlərə aiddir və bunların fəzilətləri haqqında daha sonra izah ediləcəkdir.

### *3.2 Mədinədə, Peyğəmbərin ﷺ məscidi*

Bu məsciddə qılınan namaz, başqa məscidlərdə qılınan min namazın savabına bərabərdir.[4]

[1] Hədis yaxşıdır; Əhməd 4/5.
[2] Buxari 4/136; Muslim 1/370.
[3] Buxari 2/56; Muslim 2/1014.
[4] Buxari 2/56; Muslim 2/1012.

Peyğəmbərin ﷺ evi ilə minbəri arasındakı məscidin ərazisi, cənnət bağlarından bir bağçadır.[1] Orada ibadət etmək üçün səfərə çıxmaq icazəlidir.[2]

### *3.3 Qüdsdəki Əl-Əqsa məscidi*

Bu məsciddə qılınan namaz, başqa məscidlərdə qılınan min namazın savabına bərabərdir.[3] Bu, yer üzərində tikilmiş ikinci məsciddir - onunla Əl-Həram məscidi arasında qırx (40) il var.[4] Məhz bu məscidə Peyğəmbər ﷺ İsra vəl-Mirac gecəsi Haram Məsciddən gətirildi.[5] Orda ibadət etmək üçün yola çıxmaq icazəlidir.[6] Hər kim bu məscidə evindən yalnız namaz qılmaq üçün səfər edərsə, günahlarından təmizlənər və anasından yeni doğulmuş kimi olar.[7]

**Qeyd.** Məscid əl-Əqsa çoxlarının düşündüyü kimi, *haram* məscid deyil.[8]

### *3.4 Mədinəyə yaxın Əl-Quba məscidi*

Bu, Mədinədə tikilmiş ilk məsciddir.[9] Mədinədə və onun ətrafında yaşayanlar üçün, bu məscidə getmək bəyənilir. Orada namaz qılan şəxs, *ümrə* ziyarəti qədər savab qazanar.[10] Lakin Mədinənin sakinlərindən olmayan və ya orada olmayanlar, bu məscidi ziyarət etmək üçün səfərə çıxa bilməzlər, bunun izahı kitabın fəsillərindən birində gələcəkdir.

---

[1] Buxari 2/57; Muslim 2/1011.
[2] Buxari 2/56; Muslim 2/1014.
[3] Bu barədə hədis yaxşıdır. Bax "Kəşf əl-Əstar" 1/213.
[4] Buxari 4/136; Muslim 1/370.
[5] 17-ci surə, ayə 1.
[6] Buxari 2/564; Muslim 2/1014.
[7] Hədis səhihdir; Bax "Mənar əl-Munif" səh. 91–92; Nəsai 2/34; İbn Majah 1/451; Əhməd 2/176; və s.
[8] "Məcmu'ət ur-Rəsail əl-Kubra" 2/64; "İktida" 2/809.
[9] Bax "Təfsir Kəliməti-Tövhid" səh. 338.
[10] Hədis səhihdir; Nəsai 2/37; İbn Macə 1/453; Əhməd 3/487; əl-Hakim 3/12.

### 3.5 Digər məscidlər

Qardaşım bil ki, kimin və nə vaxt tikdirməsindən və orada kimin namaz qılmasından asılı olmayaraq, dünyanın bütün digər məscidlərinin, bir-birindən üstünlüyü yoxdur.

Məhz buna görə də İslamda ibadət üçün üç məsciddən — Məscidül-Həram, Peyğəmbər ﷺ məscidi və Məscidül-Əqsadan başqa, heç bir məscidə səfər etmək icazəli deyil. “Səfər etmək” ifadəsində, insanın yaşadığı yerdən fərqli, başqa bir yerə getməsi nəzərdə tutulur.

***<u>Məscidlərin fəzilətləri</u>***

Məscidlər Allahın evləridir.[1] İbadətlərin əksəriyyəti məscidlərdə olur. Müsəlmanların mühüm işlərinin əksəriyyəti, həmişə məscidlərdə həll olunub (filarmoniyalarda, mədəniyyət mərkəzlərində və ya dəfn yerlərində deyil). Bu mühüm məsələlərə fətva vermək, hökm vermək, qoşun göndərmək və sair aiddir. Kim yalnız Allahın Üzünü diləmək üçün, məscid tikərsə, Allahu Təalə ona cənnətdə bir ev tikər.[2]

Məscidlərin bərəkəti fiziki deyil, mənəvidir. Ona görə də, hər hansı qədim bir məscidin divarlarına toxunduqda, onun bərəkətinin insana keçməsinə inanan hər kəs günahkar və bidətçidir.

Məscidlərin üstünlükləri ilə bağlı bölümü, bu kitaba daxil etdik ki, hörmətli oxucu, sufi qəbirpərəstlərinin törətdiyi cinayətlərin ağırlığını başa düşsün. Onlar, ibadətləri qəbirlərə yönəldirlər, bununla da Allahın məscidlərini boşaldırlar.

Filarmoniyalarda, mədəniyyət evlərində, teatrlarda və digər yerlərdə “dini tədbirlər” təşkil edən “dini rəhbərlərə” gəlincə, onlar bilirlər ki, onların lazer şouları, mahnıları, rəqsləri və konsertləri, islamda böyük günah sayılır və məscidlərdə belə şeylərin keçirilməsi açıq-aşkar

---

[1] Muslim 4/2074.

[2] Buxari 1/116; Muslim 1/378.

küfrdür və buna görə onlar heç adi insanların qarşısında özlərinə haqq qazandıra bilməyəcəklər, nəinki elimli müsəlmanların.

Qoy Uca Allah onlarla layiq olduqları kimi davransın!

## 4. Çayların və bulaqların bərəkəti

Çaylara və bulaqlara gəlincə, müqəddəs yazılarda, Zəmzəm quyusunun suyunun bərəkətli olmasına dəlillər gəlmişdir. Bu mübarək quyu, Məkkədə Haram Məscidinin ərazisində, Kəbənin şərqində yerləşir. Bu suyun üstünlükləri aşağıdakılardır:

**4.1 Zəmzəm suyu, yer üzündə ən yaxşı sudur.**

İbn Abbas rəvayət edir ki, Allah Rəsulu ﷺ buyurdu: "***Yer üzünün ən yaxşı suyu Zəmzəm suyudur"***.[1]

**4.2 Zəmzəm suyu, bədəni qida kimi doydurur.**

Əbu Zər demişdir ki, İslamı qəbul etmək üçün Məkkəyə gəldiyi zaman, otuz (30) gün Məscidül-həramda yaşadı. Rəsulullah ﷺ ondan soruşdu: ***"Bəs sən nə ilə qidalanırdın?"*** Əbu Zər belə cavab verdi: "Mən heç nə ilə qidalanmırdım, ancaq zəm-zəm suyunu içirdim, və o məni o qədər kökəltdi ki, qarnımın dərisi çatlamağa başladı". O zaman Rəsulullah buyurdu ﷺ buyurdu: ***"Bu su bərəkətlidir, doydurucu sudur".***[2]

**4.3 Bu suyu içmək Allahın izni ilə xəstəliklərə şəfadır.**

---

[1] Hədis yaxşıdır; Təbərani əl-Kəbirdə 11/98; Şeyx əl-Albani dedi: "Bu xəbərin isnadı yaxşıdan aşağı düşmür" ("əs-Səhihə" 3/45). Bu hədisi də əs-Suyuti "əl-Cami' əs-Sağir" 2/10-da yaxşı adlandırmışdır.

[2] Hədis səhihdir; Muslim 4/1922.

İbn Abbas rəvayət edir ki, Allah Rəsulu ﷺ buyurdu: ***"Dünyanın ən yaxşı suyu Zəmzəm suyudur. O, su doyumludur, xəstəliklərə şəfadır".***[1]

**4.4 Həcc mövsümündə bu quyuda, suyun miqdarı inanılmayacaq dərəcədə artır.**

Bu barədə İmam Zərkəşi "İ'ləm us-Sacid" səh. 206-da demişdir.

Zəm-zəm suyunun fəzilətinə dəlalət edən yazılardan bəziləri bunlardır. Yer üzündə qalan digər çay, axar və bulaqlara gəlincə, onların bərəkətini təsdiqləmək üçün etibarlı dəlil lazımdır. Ona görə də, heç kəsə icazə verilmir ki, hər hansı bir mənbəni mübarək və ya möcüzəli adlandırsın. Və "dini liderlərin" belə bir şey etməsi əlbəttə ki, yaraşmır.

### 5. Peyğəmbərlərin bərəkəti

İmam İbn əl-Qeyyim demişdir: "*Və Uca Allahın Öz risalətlərini çatdırmaq üçün, onları seçməsi kifayət qədər şərəf və əzəmətdir. O həmçinin onları seçib, onlara müxtəlif möcüzələr bəxş etmişdir. Onlardan, Özünə ən yaxın dost seçdiyi (xəlil), bəziləri ilə danışmış, bəzilərini isə dərəcələrdə digərlərindən üstün etmişdir. Allahu Təalə, bəndələrinə yalnız onların yolu ilə getməklə, Onun rizasına çatmaq imkanı vermişdir. O, məxluqlara yalnız onların arxasınca gedib, cənnətə daxil olmağa icazə verdi. Onlar, Allaha ən yaxın məxluqlardırlar. Onların, Onun qarşısındakı hörməti, başqalarının hörmətindən yüksəkdir. Peyğəmbərlər vasitəsilə məxluqat, Allahı öyrəndi, yalnız Ona itaət və ibadət etməyə başladı*".[2]

## MUHƏMMƏD PEYĞƏMBƏRİN ﷺ BƏRƏKƏTİ

Peyğəmbərin bərəkəti **mənəvi** və **fiziki** olanlara bölünür.

[1] Hədis yaxşıdır; Təbərani əl-Kəbirdə 11/98.

[2] "Tariq əl-Hicrateyn" səh. 613.

Fiziki bərəkət onun əməllərində, bədənində və bədənindən ayrılıb ondan sonra qalan fiziki izlərdə var idi.

Mənəvi bərəkətə gəlincə, bu onun dininin qələbəsində, ardıcıllarının çoxluğunda, çatdırdığı şəriətdə, özündən sonra qoyub, getdiyi yaxşılıqda və faydadadır.

Buna görə də, səhabələr Peyğəmbərin ﷺ sağlığında və vəfat etdikdən sonra, ondan qalanlarla təbərrük edirdilər. Bu növ təbərrük, ona görə icazəlidir ki, Peyğəmbər ﷺ onu bəyənib və məzəmmət etməyib.

## 1. Peyğəmbərin ﷺ sağlığında, səhabələrin onun bədən üzvləri ilə təbərrükü

Aişə (radiyallahu anhə) demişdir: "Rəsulullah ﷺ xəstələndikdə, ovuclarına Quranın son iki surəsini oxuyar, sonra əllərinə üfürər və onunla bədəninə məsh edərdi. Xəstəliyi şiddətlənəndə, mən özüm ona bu surələri oxuyurdum, sonra onun öz əllərinin lütfünün xəstəliyi yüngülləşdirməsi ümidi ilə onun öz əlləri ilə bədəninə məsh edirdim".[1]

Ənəs ibn Malik demişdir ki, "Peyğəmbər ﷺ sübh namazını qıldıqdan sonra, Mədinənin hər yerindən xidmətçilər, onu görməyə toplanardı. Onlar özləri ilə su ilə dolu qablar gətirirdilər. Ona hansı qabın uzadılmasından asılı olmayaraq, səhər çox soyuq olsa belə, əlini mütləq onun içinə salardı".[2]

Əbu Cuheyfə demişdir: "Bir gün günorta saatlarında, Peyğəmbər ﷺ Bəthaya[3] gedib, sonra dəstəmaz aldı, iki rükət zöhr namazını və iki

[1] Hədis səhihdir; Buxari 7/22; Muslim 4/1723.
[2] Hədis səhihdir; Muslim 4/1812.
[3] Məkkə yaxınlığındakı daşlıq yerdir.

rükət əsr namazını qıldı. Namazdan sonra, insanlar onun yanına gəlib, onun əllərini tutub, üzlərinə sürtməyə başladılar”.[1]

## 2. Səhabələrin Peyğəmbərin ﷺ bədənindən ayrılanlarla təbərrük etməsi.

### *1. Peyğəmbərin ﷺ saçları*

Ənəs ibn Malik rəvayət edir ki, Rəsulullah ﷺ Minaya gəldi, sütunlara daş atdı[2], bundan sonra, Minada sığınacağına yaxınlaşıb, qurban kəsdi. Sonra insanların saçını qırxan adama: ***“Əvvəl buranı kəs”*** - dedi və başın sağ tərəfini göstərdi, - ***“sonra buranı”*** - dedi və sola işarə etdi. Sonra saçlarını insanlara payladı.

Rəvayətlərin birində deyilir: “Hər biri üçün bir və ya iki tük”.[3]

İmam Nəvəvi demişdir: “*Bu hədisdə, Peyğəmbərin ﷺ saçı ilə təbərrükün qanuniliyi və onu təbərrük üçün saxlamağın icazəli olduğu izah edilir*”.[4]

### *2. Peyğəmbərin ﷺ tüpürcəyi*

Urvə ibn Məsud əs-Səkafi demişdir: “*Allaha and olsun ki, Rəsulullah ﷺ tüpürsə belə, tüpürcəyi yerə düşməzdi, mütləq səhabələrdən birinin ovucuna düşürdü, bundan sonra bu səhabə onu dərisinə və üzünə sürtürdü*”.[5]

---

[1] Hədis səhihdir; Buxari 4/165
[2] Həcc ayinlərindən biri.
[3] Hədis səhihdir; Muslim 2/947.
[4] Şərh Səhih Muslim 9/54.
[5] Hədis səhihdir; Buxari 3/180.

Hafiz İbn Həcər demişdir: *«Və yəqin ki, səhabələr bunu Urvənin*[1] *hüzurunda ona görə edirdilər ki, belə desinlər: "Başqa kim öz hökmdarını bizim sevdiyimiz kimi sevər və bizim ona hörmət etdiyimiz kimi ona hörmət edər? Və bundan sonra necə düşünmək olar ki, əgər döyüş baş versə, biz üz çevirib, onu dəstəksiz qoyacağıq?"»* [2]

Həmçinin, Peyğəmbərin ﷺ bir vaxtlar geyindiyi paltarlarla, səhabələrin təbərrük etdiyi[3], həmçinin Onun içki içərkən, qablara barmaqları ilə toxunduğu həmin yerlərə, səhabələrin də toxunmaları etibarlı şəkildə müəyyən edilmişdir.[4] Peyğəmbərin ﷺ içdiyi qabdan, içmək növbəsini heç kəs buraxmazdı.[5] Peyğəmbər ﷺ dəstəmaz aldıqdan sonra, səhabələr bu qabda qalan su ilə, özlərini məsh edirdilər.[6]

Bunlar, Peyğəmbərin ﷺ sağlığında, səhabələrin Onun bədən üzvləri ilə necə təbərrük etmələrinə dair qısa nümunələrdirlər. Bu ona görədir ki, Peyğəmbərin ﷺ bədəni mübarək idi. Allahu Təalə onun bədəninə fiziki bərəkət vermişdir ki, bu da ətrafdakı insanlara və ətrafdakı əşyalara keçirdi.

Lakin, burada vacib bir qeyd etmək lazımdır. Səhabələr hər zaman və hər yerdə Peyğəmbərin ﷺ bədəninin üzvləri ilə təbərrük etməmişlər. Onlar bunu ancaq bəzən lazım olanda edirdilər.

Əbdürrəhman ibn Əbi Kirad deyir ki, bir gün Peyğəmbər ﷺ dəstəmaz aldı və səhabələr ondan sonra, qabda qalan su ilə özlərini məsh etməyə başladılar. Bu zaman Peyğəmbər ﷺ onlardan soruşdu: ***"Niyə***

---

[1] O zaman Urvə hələ kafir idi və bütün bunlar Hudeybiyyə müqaviləsi bağlanarkən baş verirdi.
[2] "Fəth əl-Bari" 5/341.
[3] Buxari 7/82, 2/73; Muslim 2/647.
[4] Muslim 3/1623.
[5] Buxari 6/249; Muslim 3/1604.
[6] Buxari 1/55; Muslim 1/360.

***belə edirsiniz?"*** Onlar dedilər: "Çünki biz Allahı və Rəsulunu sevirik". Onda o, onlara dedi: ***"Kim Allahı və Rəsulunu sevməsindən və ya Allahın və Rəsulunun onu sevməsindən razıdırsa, danışarkən düz danışsın, ona əmanət olanı qaytarsın və qonşuları ilə yaxşı rəftar etsin"***.[1]

## 3. Peyğəmbərin ﷺ vəfatından sonra, ondan qalan əşyalar ilə səhabələrin təbərrük etməsi

'İsa ibn Təhman demişdir: *"Bir dəfə Ənəs ibn Malik, bizə hamar dəridən, ip ilə bağlanmış, iki səndəl gətirdi. Onda Sabit əl-Bunani mənə dedi ki, bunlar Peyğəmbərin ﷺ səndəlləridir"*.[2]

Əbu Burda deyir ki, bir gün Aişə onlara bir paltar gətirdi və dedi: "*Peyğəmbər ﷺ vəfat edərkən bu paltar onun əynində idi*".[3]

Asim əl-Əhual dedi: "*Peyğəmbərin ﷺ kasasını, Ənəs ibn Malikdə gördüm. O, qırılanda Ənəs qırılan hissələri gümüş taxma ilə birləşdirdi. Ənəs mənə dedi: "Peyğəmbəri ﷺ, dəfələrlə bu kasadan içirtmişəm*".[4]

Buna görə də, İmam əl-Buxari, kitabının fəsillərindən birini belə adlandırmışdır: "*Peyğəmbərin zirehi, əsası, qılıncı, kasası, üzüyü və ondan sonrakı hökmdarlar tərəfindən istifadə olunanlardan bəhs edən və həmçinin, onun vəfatından sonra, səhabələrinin təbərrük etdikləri saçları, səndəlləri və qabları haqqında qeyd edilənlərdən fəsil*".

Səhabələrin ardıcılları da, bu əşyalarla təbərrük edirdilər.

---

[1] Hədis yaxşıdır; Hafiz əl-Münziri "Tərğib"də, 3/26 və əl-Albani "Əs-Səhihə"də, 2998.
[2] Xəbər etibarlıdır; Buxari 4/47.
[3] Xəbər etibarlıdır; Buxari 4/47; Muslim 1/1649.
[4] Xəbər etibarlıdır; Buxari 6/252

Muhəmməd ibn Sirin, Ubeydəyə belə dediyini rəvayət edir: "*Bizdə Peyğəmbərin ﷺ bir saçı var, hansı ki, onu Ənəsdən almışıq".* Bu zaman, Ubeydə dedi: *"Məndə Peyğəmbərin ﷺ ən azı bir saçının olması, mənim üçün bu həyatdan və onun içindəkilərdən daha sevimlidir".*[1]

Osman ibn Abdullah ibn Movhəb demişdir: "*Bir dəfə ailəm məni, içində Peyğəmbərin bir saçı olan su qabı ilə, Peyğəmbərin ﷺ zövcəsi Ummu Sələmənin yanına göndərdi. Bir şəxs, bəd nəzərdən və ya hansısa xəstəlikdən əziyyət çəkəndə, onun yanına adam göndərirdilər ki, bu saçı onlara versin*".[2]

Hafiz İbn Həcər dedi: "*Bu o deməkdir ki, xəstə Ummu Sələməyə bir qab göndərirdi, o da Peyğəmbərin ﷺ saçını onun içinə qoyub və sonra bu qabı qaytarırdı. Bundan sonra xəstə, Peyğəmbərin ﷺ mübarəkliyi vasitəsi ilə, sağalmaq ümidi ilə, bu qabdan su içirdi və ya bu suyu üzərinə tökürdü*".[3]

## 4. Peyğəmbərin ﷺ əşyalarından hər hansı bir şey, bu gün qalıbmı?

Əvvəlcə qeyd etmək lazımdır ki, Peyğəmbərdən ﷺ qalanlarla təbərrükün qanuniliyi, bu gün də qüvvədə qalır. Bunun qanuniliyi, təkcə səhabələr və onların ardıcılları ilə məhdudlaşmır, çünki bu məhdudiyyətə dair, heç bir dəlil yoxdur. Ancaq burada, bir neçə məqama diqqət yetirmək lazımdır:

1) Amr ibn əl-Haris demişdir: "*Peyğəmbər ﷺ, özündən sonra nə bir dirhəm, nə bir dinar, nə bir kölə, nə kəniz qoyub getməmişdir, yalnız ağ qatır, silahını və sədəqə olaraq qoyub, getdiyi torpaqdan başqa*".[4]

Bu xəbər, şübhəsiz ki, Peyğəmbərin ﷺ vəfatından sonra, çox az şeyin qaldığını göstərir.

[1] Xəbər səhihdir; Buxari 1/50.
[2] Xəbər səhihdir; Buxari 7/57.
[3] "Fəth əl-Bari" 6/251–252.
[4] Xəbər səhihdir; Buxari 3/186.

2) Bu şeylərin çoxunun, əsrlər boyu müharibələr, iğtişaşlar və sair şeylər nəticəsində itkisi, etibarlı şəkildə müəyyən edilmişdir.

Bunlardan üzüyü qeyd edə bilərik[1] (Osman ibn Əffan, onu Aris quyusuna salıb itirmişdir), onun örtüyü və əsası[2] (onlar Abbasilərin səltənətinin sonunda, monqolların hücumu və hicrətin 656-cı ilində Bağdadda baş verən yanğın zamanı itmişdilər). Həmçinin onun səndəlləri də itmişdir, bu, hicrətin 803-cü ilində Şamda Timerlan iğtişaşları zamanı baş vermişdi.

3) Bu əşyaların itirilməsinə, bir çox səhabələrin bu əşyalardan əllərində olanları, onlarla birlikdə qəbrə qoymağı vəsiyyət etmələri də səbəb olmuşdur.

4) Bir çox tarixçilər açıq şəkildə bildirirlər ki, bu gün muzeylərdə olan və Peyğəmbərə ﷺ aid edilən bəzi əşyaların, əslində ona məxsus olduğunu təsdiqləmək mümkün deyil.[3]

5) Buna görə də Şeyx əl-Albani demişdir: “Və biz bilirik ki, ondan sonra qalan əşyalar, məsələn, paltarı, saçı və sair şeylər itirilmişdir və bu gün heç kim bunların heç birinin varlığını təkzibolunmaz dəlillərlə sübut edə bilməz”.[4]

Ancaq burada qeyd etmək lazımdır ki, ən böyük lütf Peyğəmbərə ﷺ iman gətirmək və onun dinini öyrənməklə, ona tabe olmaqdır. Çünkü onun dini, özündən sonra qoyub getdiyi — ən böyük və ən dəyərli şeydir.

# 6. Salehlərlə təbərrük

## 6.1 Əməlisalehlərlə fiziki təbərrük icazəlidirmi?

[1] Buxari 7/53; Muslim 3/1656.
[2] Bax, “Tarix əl-xulafa”, əs-Suyutə səh. 467.
[3] “əl-Əsar ən-Nəbəviyyə” səh. 89–96.
[4] “ət-Təvəssul” səh. 144.

Əvvəlki bölümlərdə Peyğəmbərin ﷺ bədəninin fiziki mübarəkliyini ətrafındakılara ötürülə bilən olduğuna aydınlıq gətirildi.

Bəs buna əsaslanaraq, Peyğəmbərlə ﷺ, saleh insanlar arasında bənzətmə aparmaq və sonra bu cür təbərrüklərin salehlərə münasibətdə də icazəli olduğu qənaətinə gəlmək olarmı?!

Bu suala cavab vermək üçün, aşağıdakılara aydınlıq gətirmək lazımdır:

1) Peyğəmbərin ﷺ bu haqda danışmasına və yaxud səhabələrə onların arasından olan, salehlərlə təbərrükü əmr etməsinə heç bir dəlil yoxdur. Həmçinin, bunu etməyə təşviq edən heç bir şey gəlmədi.

2) Səhabələr, səhabələrin ən yaxşıları ilə, o cümlədən saleh xəlifələr və ya cənnət ilə müjdələnən on səhabə ilə təbərrük etməmişlər.

İmam aş-Şatibi demişdir: "*Peyğəmbərin ﷺ vəfatından sonra, səhabələr arasında Əbu Bəkrdən, sonra Ömərdən, Osmandan və Əlidən daha hörmətli heç kim qalmadı. Sonra, bu ümmətin qalan səhabələri gəlirlər və heç vaxt onlardan daha saleh və şərəfli insan mövcud olmayacaq. Eyni zamanda, bu səhabələrdən və ya onların ardıcıllarından, hər hansı birinin, öz aralarında olan salehlər ilə, bu növ təbərrük etməsinə dair, bircə dənə də olsun etibarlı dəlil yoxdur. Buna görə də, onların yekdil rəyi belə oldu ki, bu növ təbərrük salehlər ilə qanuniləşdirilməmişdir*".[1]

3) Bəs nə üçün bütün səhabələr və onların ardıcılları, istisnasız olaraq, öz aralarında olan salehlər ilə təbərrük etməkdən çəkindilər?! Çünki onlar bilirdilər ki, cismən mübarək bir bədən, peyğəmbərlərin əlamətidir. Və saleh insan, nə qədər böyük olsa da, peyğəmbərlərin səviyyəsinə çatmaz [2], çünki peyğəmbərlik o həddir ki, yalnız salehlik və öz zəhməti ilə əldə olunmur, Allah istədiyinə peyğəmbərlik verir.

---

[1] "əl-İ'tisam" 2/8-9.

[2] Yalnız bəzi sufi tariqətləri, bununla razılaşmır, hansılar ki, bəzi saleh insanların məqam baxımından, peyğəmbərlərdən daha yüksək olduğuna inanırlar. Bax "Şərh 'əqidə ət-Tahauiya", səh. 493–495.

Buna görə də İmam aş-Şatibi demişdir: "*Buna əsaslanaraq, bu məsələdə, peyğəmbərlərlə salehlər arasında müqayisə aparmaq olmaz və* bu əməl, bidətdir. Kim əməlisalehlərə təbərrük etmək icazəsini verərsə, qoy eyni zamanda dörddən çox arvadla evlənməyə də icazə versin. Çünki hər ikisi Peyğəmbərin ﷺ digər insanlardan fərqləndirici xüsusiyyətləri idi".[1]

İmam İbn Rəcəb demişdir: "Eyni şey, saleh insandan qalan və onun istifadə etdiyi şeylərdə bərəkət axtarmağa da aiddir. Səhabələr bu cür təbərrükü, yalnız Peyğəmbər ﷺ ilə etmişlər, digər səhabələr ilə belə təbərrük etməmişlər. Eynilə, ardıcıllar da səhabələrin böyüklüyünə və şərəfinə baxmayaraq, bunu etmirdilər. Bütün bunlar, ona dəlalət edir ki, fiziki bərəkət, Peyğəmbərin ﷺ özünəməxsus sifətidir. Ona görə də onlar, peyğəmbər ﷺ dəstəmaz aldıqdan sonra qalan sudan, onun saçından istifadə etməkdə və sair şeylərdə bərəkət axtarırdılar".[2]

4) Şəriət, əməlisalehlərin həddən artıq ucalmasının qapısını bağlamaq üçün, onlara təbərrük etməyi qanuniləşdirməmişdir, çünki, bu əməl son nəticədə şirkə gətirib çıxarır.

İmam aş-Şatibi demişdir: "*Bu ona görədir ki, sıravi insanlar bir həddə dayanmağı bilmirlər və bütün sərhədləri elə aşırlar ki, onların qəlblərində salehlərin böyük lütfə sahib olduğuna dair əminlik yaranır, amma əslində belə bir şey yoxdur*".[3]

Buna görə də, məlumdur ki, Həllacın tərəfdarlarından olan bəzi ifrat sufilər, onunla bağlı bütün sərhədləri aşaraq, onun sidiyi və nəcisi ilə təbərrük etməyə, onları üzlərinə sürtməyə başladılar ki, sonda onun ilah olduğunu bəyan etdilər.[4]

---

[1] "əl-İ'tisam" 2/9.
[2] "Əl-Hikəm əl-Cədirə" səh. 55.
[3] "əl-İ'tisam" 2/9.
[4] "əl-İ'tisam" 2/10.

5) Və əməlisalehlər vasitəsilə, fiziki təbərrükün mümkün olmamasını sübut edən, daha bir başqa amil odur ki, heç kəs saleh bir şəxsin bədəninin mübarək olmasını bildirən, salehlik həddini müəyyən edə bilməz.

Buna görə də bil ki, qardaşım, müsəlmanlardan və onların alimlərindən heç biri, salehlərə bu cür təbərrük etməyə icazə vermir[1]. Buna ancaq bidətçilər, daha dəqiq desək, sufilər və rafizilər (ifrat şiələr) icazə verir və öz mövqelərini azğıncasına müdafiə edirlər. Onlar bu məsələdə fars, yunan və cahiliyyət dövründə olan ərəb müşriklərindən nümunə götürdülər.

Ona görə də, sufilərin öz imam və rəhbərlərinə necə ehtiramla yanaşdığını görə bilərsiniz. Onlar, rəhbərlərinin əllərini öpürlər, onlara sürtünürlər, onların tüpürcəklərini və tərini öz bədənlərinə sürtürlər, imamlarının tələbələri (müridləri) ilə etdikləri iyrəncliklləri heç demirəm. Onların bu imamı vəfat etdikdə, onun bərəkətinin öz qəbrinin torpağına, hasarına, qəbrin ətrafındakı torpağa keçdiyinə əmin olaraq, qəbrin başına toplaşırlar.

Əgər buna təəccübləndinsə, qardaşım, bil ki, buna yalnız sən deyil, istənilən normal insan da təəccüblənir. Ona görə də, mərhumu tez bir zamanda evdən çıxarmağa çalışırlar, guya lütfün ondan çıxmağın başlanmasını gözləmədən. Lakin bütün problem ondadır ki, sufilər xəyallar və möcüzəvi təsəvvüratlarda yaşayırlar.

Və bu bölümdə aydınlaşdırılmalı olan son şey budur ki, əməlisalehlərin fiziki təbərrükləri, iki cür ola bilər:

1) əgər bir insan, saleh bir şəxsin, özü özlüyündə fiziki lütfə malik olmadığına, lakin Allahın ona bu neməti bəxş etməsinə inanırsa, bu etiqad bidət, azğınlıq və kiçik şirkdir (hansı ki, insanı İslamdan çıxarmaz). Amma eyni zamanda, əgər insan bu saleh insanın, təkcə bərəkətli olduğuna deyil, həm də varlıqlardan,

[1] İmam Nəvəvi, İbn Həcər, əl-Məziri və Qazi İyad kimi bəzi alimlərdən başqa. Bu imamlar, böyüklüklərinə baxmayaraq, bu məsələdə yanılmışlar, digər bütün sünnə imamları tərəfindən qınanmışlar. Onu da qeyd edək ki, bu imamlar bu təbərrükün sadəcə ifrat növlərini icazə verməyərək, ümumilikdə bu cür təbərrükə icazə vermişlər.

yaradılmışlardan hər hansı bir şeyi idarə etdiyinə, insanlara fayda və ya zərər gətirməyə qadir olduğuna və ya insanlarla Allah arasında vasitəçi olduğuna inanırsa, bu böyük şirkdir.

2) əgər insan, saleh insanın özü özlüyündə mübarək olduğuna və onun lütfünün Allahdan olmadığına inanarsa, bu, İslama heç sığmayan böyük şirkdir.

## 6.2 Salehlərə təbərrük etməyin qanuniləşdirilmiş forması

Salehlərə **fiziki** təbərrük etməyin qəti qadağan olması, ümumiyyətlə salehlərə təbərrük etməyin qətiyyən icazəli olmadığı anlamına gəlmir. Çünki hələ **mənəvi** lütf var ki, onun təbərrükü icazəlidir, üstəlik də məsləhətlidir.

Bunun mənası budur ki, mənəvi lütf onların məclislərində, xütbələrində, elm dairələrində vardır. Biz onların nəsihətlərindən, göstərişlərindən, möminlər üçün kitablarından və qeydlərindən, etdikləri dualardan faydalanırıq.

Yuxarıda bəhs etdiyimiz hər şey, təbərrük məsələsinin ümumi müddəalarının, eləcə də mübarəkliyin nə olduğunu və hansı növlərinin olduğunun izahı idi. Qadağan olan təbərrük növlərinin əksəriyyətinin izahı müvafiq fəsildə ayrıca veriləcəkdir.

# FƏSİL 9

# MÜƏYYƏN BİR HADİSƏNİN ŞƏRƏFİNƏ, İNSANLARIN MÜƏYYƏN BİR YERDƏ, MÜTƏMADİ OLARAQ, VAXTAŞIRI TOPLANTILARI

Qardaşım, bil ki, müəyyən hadisələrin baş verdiyi, müəyyən günlərin və ya fəsillərin ayrılması və bu günlərdə məclislərin təşkili, Quran və sünnədən buna dəlil olduqda, şəriətdə icazəlidir. Çünki mütəmadi olaraq, vaxtaşırı görüşlər üçün, müəyyən günləri ayırmaq, yalnız Allahu Təalənın ixtiyarındadır.

İmam İbn Qeyyim buyurur: "*O kəs ki, hər hansı yerlərdə və ya vaxtlarda müəyyən ibadət növlərini yerinə yetirmək üçün, şəriət tərəfindən müəyyən edilməmiş, müəyyən yer və ya vaxtlar təyin edər və bu günlərdə və ya bu yerlərdə, bəzi mühüm hadisələrin bir vaxtlar baş verdiyini iddia edərsə, o adam, yəhudi və xaçpərəstlərdən olan kitab əhli kimidir. Məhz onlar, əlamətdar hadisələrin keçirildiyi yerləri və vaxtları fəsillərə, ibadət yerlərinə çevirdilər. Məsələn, Milad Günü, Xaçaçuran (xaçı suya salma) Günü və sair*"[1].

Heç kimə sirr deyil ki, xristianlar bu günə qədər, çoxsaylı bayramlarda təmtərahlı məclislər təşkil edirlər. Bunlardan ən çox yayılmışı, onların qeyd etdiyi, Məsihin doğum günü münasibətilə olan bayramdır. Yəhudilər də, özlərinə göndərilən, peyğəmbərlərin və onların

[1] "Zad əl-Məad" 1/59.

hökmdarlarının başına gələn, çoxsaylı hadisələrlə əlaqədar, məclislər təşkil edirlər.

Şeyx Muhəmməd İbrahim Əli Şeyx buyurur: "*Bir günü seçmək və həmin gün üzərində, müəyyən ibadətlər etməklə, onu digər günlərdən üstün tutmaq, yalnız şəriətdən dəlil gətirdikdən sonra icazəli olar. Ona görə də, hər hansı günün şəriətdə xüsusi və ya əlamətdar olduğunu öyrənmək üçün, Quran və Sünnəyə baxmaq lazımdır. Şəriətin qeyd etdiyi günlər özəldirlər. Və Uca Allah, İslam bayramı üçün, iki gündən başqa: Ramazan və Qurban bayramı günü, eləcə də qurban bayramından sonra gələn, üç təşriq günü, il içərisindən, heç bir günləri seçməmişdir. Qismən bayram olan, cümə günü də qeyd etmək lazımdır. Bu bayram hər həftə olandır. Yuxarıda qeyd olunanlardan başqa günlərə gəlincə, müsəlmanlara onları bayram kimi qeyd etmək qadağandır*".[1]

Buna əsasən, hər hansı bir hadisənin qeyd edilməsi üçün, hər hansı bir günü ayırmaq və onu müəyyən adla ("Xətir Günü", "İslamın qəbulu günü", "Müsəlman Sabantuyu" və sair kimi) adlandırmaq qadağandır.

Əgər bir hadisə, həqiqətən də sevinclidirsə, onu şəriət çərçivəsində qeyd etməyin heç bir eybi yoxdur, ancaq hadisənin baş verdiyi gündə, hər il qeyd olunmasını təkrarlamadan. Ona görə də nəcib əcdadlarımız, hansısa gözəl gündə İslamı qəbul ediblərsə, elə həmin gündə buna seviniblər, amma biz bu hadisəni hər il qeyd etmirik. Çünki, Allahu Təalə bütün bu günləri yaratmış və heç bir yerdə bu günlərin özəl bir xüsusiyyəti olduğunu söyləməmişdir.

Peyğəmbər ﷺ Mədinəyə gələndə, müsəlmanları keçmiş bayramları üzərində saxlamadı, lakin İslam bayramları ilə əvəz etdi.

Hənəfi imamlarından — Şah Vəliyullah əd-Dəhləvi demişdir: "*Bu iki bayramın əsası, ondan ibarətdir ki, hər bir xalqın bər-bəzəkli geyinib, şəhərdən bayıra çıxdığı bir gün var və bu ənənə istər ərəb, istərsə də əcnəbi xalqların, hər birində mütləq mövcuddur*.

[1] "Fətava İbn İbrahim" 3/51.

*Peyğəmbər ﷺ Mədinəyə çatdıqda, o bölgənin əhalisinin əyləndikləri iki günü gördü və dedi*: ***“Həqiqətən, Allah bu iki günü sizin üçün, bunlardan daha xeyirli günlərlə — “Qurban bayramı” və “Ramazan bayramı” ilə əvəz etdi”.***[1] *Deyirlər ki, onların bayramları “Novruz” və “Məhrəcan” idi”.*[2]

Peyğəmbər ﷺ isə bu iki günü onlarla əvəz etməyə tələsdi, çünki insanlar hər hansı bir bayramı qeyd etdikdə, bu bayramın səbəbi xalqın öz ayin və adət-ənənələrini ucaltmaqdır, və yaxud yerli hökmdarlarını razı salmaq istəyidir və ya buna bənzər bir şeylərdir. Buna görə də, Peyğəmbər ﷺ qorxurdu ki, əgər onları, öz adət-ənənələri ilə baş-başa tərk etsə, son nəticədə camaatın İslamdan əvvəlki, cahiliyyət dövrünün ayinlərinə hörmət etmək və öz əcdadlarının ayinlərini yaymaq istəyi qalib gələcək. Buna görə də, onları tövhid dininin ayinlərinin ucaldılması və təsbih olunacağı, iki günlə əvəz etdi və müsəlmanların məclisləri sadəcə əyləncə olmasın və bu məclislər Allahın kəlamını ucaltmaqdan uzaq qalmasınlar deyə, Allahın zikrini və bəzi ibadət növlərini əlavə etdi”[3].

İmam İbn Qeyyim buyurur: “*Dəfn yerlərində, mütəmadi olaraq keçirilən görüşlərdə, çox ağır problemlər olur ki, onların böyüklüyünü yalnız Allah bilir. Onlar o qədər ağırdırlar ki, qəlbində Allaha hörmət, tövhid qısqançlığı, şirkə, küfrə və bidətə düşmənliyi olan hər kəs onlara qəzəblənir. Bütün bunları ürəyində hiss etməyənlərə gəlincə isə, bu ona görədir ki, yara ölüyə ağrı vermir*”.[4]

---

[1] Hədis səhihdir; Bax: “Silsilə əl-Əhadis əs-Səhiha” 2021.

[2] Fikir verin ki, Peyğəmbər ﷺ onların bayramlarını “Müsəlman Novruzu” və ya “Müsəlman Məhrəcan” adlandırmayıb, bu gün “Müsəlman Novruzu”-na toplaşan bir çox cahil müsəlmanlar kimi. Bir neçə onillikdən sonra, nə olacağını təxmin etmək çətin deyil, əgər bu qapı açıq qalsa: “Müsəlman təqvimlər”ində yeni “müsəlman bayramı” — “Müsəlman Novruzu” ortaya çıxacaq və müsəlmanlar, bunun Allahın dinindən olduğuna inanaraq, ibadət və Allaha yaxınlaşmaq məqsədilə, bu bayrama toplanacaqlar, baxmayaraq ki, günümüzdə insanların belə niyyəti yoxdur. Daha sonra “müsəlmanların yeni ili” də çox da uzaqda deyil.

[3] “Xucətu-llahi əl-bəliqə” 2/30–31.

[4] “İqasət əl-Lyəhafan” səh. 302.

**Qeyd.**

1. Əgər kimsə desə ki: "*Axı müsəlmanlar, hər dəfə onlardan birinin övladının dünyaya gəlməsi (əqiq), toy (vəlimə) və sair günlərin münasibəti ilə məscidə toplaşırlar, burada hadisə və məkan qeyd olunsa da, bəs niyə biz bunu qadağan saymırıq*?"

**Cavab:** Bu hadisələr konkret, daim təkrarlanan, tarixlə qeyd olunmadığı üçün, bu qadağan deyil. Yuxarıda da qeyd olundu ki, bir hadisəni vaxtaşırı təkrarlamadan, baş verdiyi gündə qeyd etməyin eybi yoxdur. Məkanına gəlincə, məscidin bu hadisəni qeyd etmək üçün seçilməsi, yalnız ona görədir ki, ora genişdir və həmçinin lazım olan hər şey orda var. Ona görə də, qəfildən məsciddə təmirə başlasalar və yeni doğulmuş uşağın valideyni başqa yerdə əqiq etmək istəsə, insanlar ixtilaf etmədən başqa yerə toplaşarlar. Amma məsələn, müəyyən bir məzarı başında, məclislərdə iştirak edənlərdən, o məzarı başında deyil, qonşu şəhər və ya kənddə toplaşmaları istənilsə, bu təklif rədd ediləcək. Bu əməl, onların məhz bu xüsusi günə və məhz bu xüsusi yerə, həmçinin də müəyyən dövriyəyə, təkrarlanmaya əhəmiyyət vermələrinin sübutudur. Bundan əlavə, əqiq və vəlimə ilə bağlı məclislər şəriət tərəfindən qanuniləşdirilmişdir.

2. Əgər kimsə pilərdə və ocaqlarda, məclislərin dini xarakter daşımadığını, gündəlik, dünyəvi məsələlərə aid olduğunu desə, bunun cavabı belə olacaq:

1) Bu doğru deyil. Bunun yalan olduğuna əmin olmaq üçün, fəslin əvvəlində verilən internetdən çıxarışları oxumaq kifayətdir.

2) Bu fikirlə razılaşsaq da belə, qeyd etmək lazımdır ki, müəyyən hadisələrlə bağlı mütəmadi görüşlərin qadağan edilməsi anlayışı, təkcə dini xarakterli məclislərlə məhdudlaşmır. Əksinə, hər hansı bir məclis, hətta orada dini ayinlər yerinə yetirilməsə belə, amma müəyyən mütəmadilikdə və filan yerdə və ya filan səbəb ilə toplaşmaq istəyi ilə həyata keçirilsə belə yenə də qadağandır.

FƏSİL 10

# QURAN VƏ SÜNNƏ MƏTNLƏRİNDƏ, MÜQƏDDƏSLİYİNƏ İŞARƏ EDİLMƏDİYİ HALDA, HANSISA YERİN MÜQƏDDƏS VƏ YA MÜBARƏK ELAN EDİLMƏSİ

Oxucu, təbərrükün ümumi əsaslarını və lütf, müqəddəslik və bərəkət məsələlərini düzgün qavramışdırsa, onda bəzi torpağlara, eləcə də türbələrə, bulaqlara, dərələrə və qədim abidələrə müqəddəslik verilməsinin yanlışlığını başa düşmək ona çətin olmaz.

"Müsəlman ziyarətgahı", "Ziyarət yeri", "İkinci Məkkə" adlandırmalarının daimi təkrarlanması, yayılması və reklamı ilə, bu ərazilərdə Həcc ayinlərinin və ya onların bir hissəsinin yerinə yetirilməsi fikrinin, daha da çox tətbiqinə şərait yaratdığını təxmin etmək də çətin deyil. Xüsusilə bununla bərabər "kasıblar üçün həcc" və sair fikirləri geniş yayılarsa. Qəbir və məqbərələrdə Həcc ziyarətinin və ya onun bəzi ayinlərinin icrası, uzun əsrlər boyu qəbirlərə ibadət edənlərə məlumdur. Buna ilk çağırış edənlərdən biri də, rafizilərin (ifrat şiələrin) rəhbərlərindən olan, Məhəmməd ibn ən-Numan əl-Mufid olmuşdur. "Mənasik əl-həcc əl-məşahid" ("Qəbirlərdə həcc ayinləri") kitabının müəllifi məhz odur. Şeyxül-islam İbn Teymiyyə bu kitab haqqında belə

demişdir: “*Mən bu kitabda, hətta kitab əhlinin (xaçpərəstlərin) kitablarında görmədiyim qədər yalan gördüm*”.[1]

İmam İbn əl-Qeyyim demişdir: “Məqbərələri həcc edənlər, bununla da onları Kəbə ilə eyniləşdirirlər, buda şübhəsiz ki, İslam dinindən çıxmaq və müşriklərin dininə girməkdir”.[2]

Həmçinin Şeyxül-islam İbn Teymiyyə demişdir: *“Həqiqətən qəbri ziyarət etməyin, Həcc ziyarətinə bənzədiyinə inanan, hətta belə deyən şəxs: “Qəbrə bir neçə səfər etmək, həcc ziyarətinə bərabərdir” və ya onlardan ifrat olanların dediyi kimi: “Bu qəbri bir dəfə ziyarət etmək, bir neçə dəfə həcc etməkdən daha yaxşıdır”, dedikdə — bu, şirkdir”.* [3]

Həmçinin, “Müsəlman ziyarətgahı” ifadəsində, İslamda olmayan bir şeyi, İslama aid etmək var, buda Allaha iftira və böhtan atmaqdır.

Allah buyurur: **«De: “Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar”. (Onlar bir müddət) dünyada faydalanar; sonra onların dönüşü Bizə olar. Sonra da küfr etdiklərinə görə onlara şiddətli əzab daddırarıq»** (10:69-70).

Deməli, biz dedik ki, bütün lütf və yaxşılıq yalnız Allahın əlindədir. O, bu lütfü istədiyi şəxsə bəxş edər. Biz dəlil olmadan, heç bir şeyin müqəddəsliyini iddia edə bilmərik. Bu torpaqların, həqiqətən də müqəddəs ola biləcəyini fərz etsək belə, heç kimin bunu bir inanc kimi qəbul etməyə, nəinki təsdiq edib, İslama aid etməyə haqqı yoxdur, çünki bu fikir, bizim məlumatımız olmayan bir şeydir.

Allah buyurur: **“Niyə Allaha qarşı bilmədiklərinizi söyləyirsiniz?”** (10:68)

Və həmçinin: **«De: “Rəbbim həm aşkar, həm də gizli (törədilən) yaramaz əməlləri, (hər cür) günahı, haqsızcasına zülm etməyi, Allahın, haqqında heç bir dəlil nazil etmədiyi bir şeyi Ona şərik**

---

[1] Bax: əl-Fətava 27/162.
[2] “İqasət l-Ləhəfan” 1/171.
[3] “Qaidə Cəlil” səh. 351.

**qoşmağınızı və bilmədiyiniz şeyləri Allahın əleyhinə söyləməyinizi haram buyurmuşdur"»** (7:33).

Və həmçinin: "**Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı (sahibinin əməlləri) barəsində sorğu-sual olunacaqdır**" (17:36).

Problem ondadır ki, sufilər daima millətçiliyi, aləmlərin Rəbbinin dini ilə qarışdırırlar, amma hal bu ki, bu din yalnız hər hansısa müəyyən bir millət üçün nazil edilməmişdir.

Onda bizim dinimiz nədən ibarətdir?! Biz məkanları, vaxtı, ayinləri özümüz seçirikmi. Deməli, bəlkə deyə bilərik ki, bizim İslam dininə ehtiyacımız yoxdur, Quranın əmr və qadağalarının bizə aidiyyatı yoxdur, biz özümüz nəyə ehtiyacımız olduğunu və necə yaşamalı olduğumuzu çox gözəl bilirik?!

İndi təsəvvür edin ki, hər millət öz bayramlarını, İslamı qəbul etdiyi günlərini və digər böyük hadisələri qeyd etməyə başlayar və bütün bunları İslama aid edib, müsəlman bayramları adlandırar! Təsəvvür edin, İslamın bütün əsrlər boyu nə qədər əlamətdar hadisələri baş verib, əgər bunların hamısı məclislərin təşkili, ayinlərin icrası və sair şeylər üçün əsas olsa?! Axı onların bir çoxu haqqında xəbərlər, Quranda nazil olub və sünnədə qeyd olunub.

O zaman nə üçün, sizcə, Uca Allah bəzi şeyləri vurğulayıb, bəzilərini isə vurğulamayıb?!

Kiçik bir nümunə verəcəyik, ondan sonra çox şey aydın olacaq.

Uca Allah bu dində oruc tutmağı əmr etmişdir. O, bütün il içərisində orucun vacib olduğu günləri, məsələn, Ramazan ayını ayırmışdır. O, həmçinin oruc tutmağın qadağan olunduğu günləri müəyyən edib, məsələn, Ramazan bayramı günü və Qurban bayramı günü. Pak və Müqəddəsdir Allah, nafilə oruc tutmağın günlərini də müəyyən etmişdir, məsələn, bazar ertəsi, cümə axşamı, Ərəfa günü, Aşura günü və sair.

Görün, eyni əmələ görə, insan necə savab ala bilir və ya cəza ala bilir, sadəcə olaraq, bu əməli əmr edildiyi günlərdən fərqli bir gündə etdiyi

üçün. Bu, bu böyük dinin əsaslarından biridir — Yalnız Tək Allah bizə istədiyini əmr edir və qadağan edir. Bizim, Allahın qulu olmağımızın mahiyyəti budur.

Allah buyurub: **“Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım.”** (51:56)

İmam Mücahid ibn Cəbr bu ayəni təfsir edərək dedi: “Bu ayənin mənası belədir: “Mən cinləri və insanları yaratdım ki, yalnız Mən onlara əmr edim və yalnız Mən onlara qadağan edim”[1].

Həmçinin, **“Bəlkə insan özbaşına qoyulacağını güman edir?”** (75:36) ayəsinin mənasını izah edərkən, İmam Şafii demişdir: *“Doğrudanmı insan elə güman edir ki, ona heç bir şey əmr olunmayacaq və heç bir şey ona qadağan olunmayacaq?!”* [2]

Əgər hörmətli oxucu diqqətlə baxarsa görər ki, ziyarətgahlara və digər dəfn yerlərinə səfərə çağıran, sufilərin xristianlardan çox da fərqi yoxdur.

1. Xristianlar üçün hər hansı su, yalnız müqəddəslərinin ondan içdiyi və ya onunla yuyunduğu və ya ruhani liderinin qərar verdiyi üçün, müqəddəs olur.

2. Onlar müqəddəslərinin gəzdiyi, yaşadığı və ya yatdığı yerlərə ehtiram bəsləyirlər.

3. Məhz xristianlar bu yerlərə xaç daşıyaraq, ziyarət edir və bunu xaç yürüşü adlandırırlar, indi isə müsəlmanlar avtobusların üzərində ağ bayraq və aypara ilə ziyarətgahlara getməyə başlayıblar.

4. Məhz onlar üçün, öz keşişləri onlara əmr etdiyi hər şey, hətta bunun üçün heç bir dəlil göstərilməsə belə, qanuna çevrilir.

Müqayisə üçün, çoxlu oxşar nümunələr var, lakin bu, onların yalnız kiçik bir hissəsidir. Diqqətlə baxan hər kəs, bunun çoxunu görəcək.

---

[1] Xəbər etibarlıdır; İbn Əbi Hatim təfsirinin hazırda itirilmiş hissəsində “Dər ət-Taarud” 8/478-də deyildiyi kimi, İbn Əbi Hatimin isnadı isə “Məcmu əl-Fətava” 8/52-də verilmişdir.

[2] “Ər-Risalə” səh. 25.

FƏSİL 11

# ŞƏRİƏTDƏ, İBADƏT ÜÇÜN NƏZƏRDƏ TUTULMAYAN BƏZİ YERLƏRƏ, İBADƏT MƏQSƏDİ İLƏ SƏFƏR ETMƏK

Allaha ibadət etmək üçün, müəyyən yerlərə (dəfn yerləri, türbələr, məqbərələr, məscidlər) səfər etmək məsələsi — insanların, bu yerlərin yaşadıqları yerlərdən daha bərəkətli olduğuna inanmalarına əsaslanır.

## BÖLÜM 1. YAŞADIĞINIZ YERİN QƏBİRİSTANLIĞINI ZİYARƏT ETMƏYƏ İCAZƏ VERİLİRMİ?

Yaşadığınız yerin qəbiristanlığını ziyarət etmək məsələsində alimlər arasında dörd (4) fikir ixtilafı var:

1. Bu arzuolunmazdır (İbn Sirin, İbrahim ən-Nəhai, əş-Şəbi və sair rəy).

2. Bu arzuolunandır, üstəlik, həyatınızda ən azı bir dəfə vacibdir. (İbn Həzmin rəyi)

3. Bu icazəlidir (bəzi Hənəfilərin[1], bəzi Malikilərin və sair rəyi).

4. Bu, arzuolunandır (İslam alimlərinin əksəriyyətinin rəyi, onların arasında hənəfilər[2], malikilər, şafiilər və bəzi hənbəlilərin rəyi var). Sonuncu fikrin doğruluğuna dair bəzi alimlər (imam Nəvəvi və əl-Əbdari kimi) müsəlmanların yekdil rəyini çatdırmışlar, lakin əslində bu məsələdə ixtilaf vardır. Düzgün rəy dördüncü fikirdir — yaşadığınız yerin qəbirlərini ziyarət etmək arzuolunandır. Buna dəlalət edən çoxlu hədislər vardır. Burada Peyğəmbərin ﷺ özünün Mədinədə əl-Bəqi qəbiristanlığını tez-tez ziyarət etdiyini qeyd etmək kifayətdir[3].

## BÖLÜM 2. İSLAMDA UZUN MÜDDƏT QƏBİRLƏRİ ZİYARƏT ETMƏK QADAĞAN EDİLMİŞDİ, LAKİN SONRA İCAZƏLİ OLDU

Bilin ki, dəvət başlayandan sonra, uzun müddət Peyğəmbər ﷺ insanlara qəbiristanlığı ziyarət etməyi qadağan etmişdir. Heç kim qohumlarının məzarını ziyarət etmək üçün qəbiristanlığa getmirdi. Bu, çox uzun müddət, az qala Peyğəmbərin ﷺ vəfatına qədər davam etdi. Bu dinin nazil olmasının sonunda Peyğəmbər ﷺ insanlara qəbiristanlıqları ziyarət etməyə icazə verdi və özü də Mədinə qəbiristanlığına gedirdi.

Əbu Hüreyrə demişdir: «Bir gün Peyğəmbər ﷺ anasının qəbrini ziyarət edib və ağlayıb, bundan sonra onun ətrafında olanlar da ağlamağa

---

[1] Bax "Bədai' əs-Sənai'" 1/320; "əd-Dur əl-Muxtar" 2/242.
[2] Bax "Fəth əl-Qədir" 2/150; "əl-Bəhr ər-Raik" 2/210.
[3] Bu barədə hədislər **səhihdir**. Bax: məsələn, Muslim 974.

başladılar. O dedi: ***“Mən anam üçün istiğfar diləmək üçün Rəbbimdən izn istədim, mənə izn verilmədi.[1] Sonra qəbrini ziyarət etmək üçün, Rəbbimdən izn istədim mənə izn verdi. Qəbirləri ziyarət edin, çünki onlar ölümü xatırladırlar”*****»**.[2]

Büreydə ibn əl-Hüseyb rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu: ***“Bundan əvvəl sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim, indi isə onları ziyarət edə bilərsiniz”.*** Başqa bir rəvayətdə deyilir: ***“İndi hər kim qəbri ziyarət etmək istəyirsə, onu ziyarət etsin, lakin Allahı qəzəbləndirəcək söz deməsin”.***[3]

Ənəs ibn Malik rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurdu: ***“Bundan əvvəl, sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim, indi isə onları ziyarət edin, çünki onları ziyarət etmək qəlbi yumşaldır, gözləri yaşardır və sizə axirət həyatını xatırladır, lakin Allahı qəzəbləndirəcək heçnə deməyin”.***[4]

## BÖLÜM 3. NİYƏ UZUN MÜDDƏT QƏBİRLƏRİ ZİYARƏT ETMƏK QADAĞAN EDİLMİŞDİR?

İmam Nəvəvi buyurur: *“Qəbirlərin ziyarət edilməsi, müsəlmanların cəhalət və bütpərəstlik dövrünə yaxınlığı səbəbindən qadağan edilmişdir. Onlar islamdan əvvəl qəbirləri ziyarət edəndə, qəbirlərin başında şirk sözlər söyləyərdilər. İslam möhkəm bərqərar olduqda və hökmləri məlum və aydın olduqda, Peyğəmbər ﷺ insanlara qəbirləri ziyarət etməyə icazə verdi, lakin şərt kəsərək ki,* ***“amma Allahı qəzəbləndirəcək bir söz deməyin”***.[5]

İmam İbn əl-Qeyyim demişdir: *“İlkin qadağa, şirkə aparan qapını bağlamaq və tövhidin əsaslarını qorumaq, eləcə də insanların qəlbindən*

---

[1] Çünki Peyğəmbərin anası, şirk üzərində vəfat etmişdir.

[2] Hədis səhihdir; Muslim 976; Əbu Davud 3234; Nəsai 2033; İbn Macə 1572.

[3] Hədis səhihdir; Muslim 3/65 və s.

[4] Hədis yaxşıdır; əl-Hakim 1393; Əhməd 3/237; bax "Talxis əl-Xəbir" 2/137.

[5] “Əl-Məcmu‘” 5/285.

*ölülərə bağlılığı, qəbirləri ucaltmaq və onlara ibadət etməyi aradan qaldırmaq məqsədi ilə qoyulmuşdur. Səhabələrin qəlbində tövhid möhkəm bərqərar olduqda, Allah Rəsulu ﷺ şəriətin müəyyən edilmiş çərçivəsi daxilində, kişilərə qəbirləri ziyarət etməyə icazə verdi. Bu, onların imanlarının artması və axirət həyatını xatırlamaları üçün edildi. Deməli, qəbirləri ziyarət etmək icazəsi, xeyir üçün gəldiyi kimi, qəbir ziyarətinə qadağa da xeyir üçün qoyulmuşdur".*[1]

Qəbir ziyarətinə, ilkin qadağa qoyulmasının eyni səbəbini Hənəfi məzhəbinin imamları da göstəriblər. [2]

## BÖLÜM 4. NƏ ÜÇÜN ŞƏRİƏT ƏVVƏLCƏ QƏBİRLƏRİ ZİYARƏT ETMƏYİ QADAĞAN ETDİ, SONRA QANUNİLƏŞDİRDİ?

İmam İbn əl-Qeyyim demişdir: *"Şəriət qəbirləri ziyarət etməyi üç (3) məqsədə çatmaq üçün qanuni etmişdir:*

1. *Qəbirləri ziyarət etmək, bizə axirət həyatını xatırladır və tərbiyə edir. Peyğəmbər ﷺ dedi:* ***"İndi onları ziyarət edin, çünki bu sizə axirət həyatını xatırladır".***

2. *Bu, mərhuma diqqət yetirməkdir. Buna görə də, Peyğəmbər ﷺ mərhum üçün Allahdan bağışlanma, rəhmət və rəhm diləməyi qanuni saymışdır.*[3]

---

[1] "İqasət əl-Lyəhəfan" 1/200, eləcə də "Təhzibüs-Sünən" 9/60.

[2] Bax: İmam əl-Bərqavinin "Ziyarət əl-Kubur" səh. 23-24; İmam Əhməd ər-Ruminin "Məcəlis əl-Əbrar" səh. 355–356; İmam Vəliullah əd-Dəhləvinin "Xucətu Lləhi əl-Bəliqə" 2/38; "Fəth əl-Mənnan" səh. 489, 493.

[3] Fikir verin ki, Peyğəmbər ﷺ ölülərdən deyil, ölülər üçün bağışlanma diləməyi qanuniləşdirmişdir. Və həmçinin o şeyə ki, Peyğəmbər ﷺ qəbir pərəstişkarları kimi, ölülərdən Allah qarşısında şəfaət istəməyi icazəli etməmişdir. Onlar bunu kimdən nümunə götürürlər?!

*3. Qəbirləri ziyarət edərkən, Peyğəmbərin ﷺ sünnəsinə əməl etmək və onun qoyduğu sərhədləri qorumaq (hörmət etmək). Bununla insan özünə yaxşılıq edir".* [1]

# BÖLÜM 5. QƏBİRİSTANLIĞI ZİYARƏT EDƏRKƏN, NƏ ETMƏK LAZIMDIR?

## 1. Ölülərə salam vermək və onlar üçün bağışlanma diləmək

Hənəfi də daxil olmaqla, dörd məzhəbin hamısının nümayəndələri bu barədə həmfikirdilər.[2]

Büreydə ibn əl-Hüseyb rəvayət edir ki, Peyğəmbər ﷺ onlara qəbirləri ziyarət edərkən, belə deməyi öyrətdi: «***Ey bu diyarın mömin və müsəlman sakinləri! Sizə salam olsun! Allah istəsə biz də sizə qovuşacağıq. Allahdan özümüzə və sizə salamatlıq diləyirəm***».[3]

## 2. Salam verərkən və bu duanı oxuyarkən, qəbirlərə tərəf dönmək

Buna dəlil, İbn Abbasın hədisidir: "Allahın Rəsulu ﷺ Mədinə qəbiristanlığının yanından keçirdi, üzünü ona çevirdi və dedi: "***Salam olsun sizə...***".[4]

Və bu rəy Hənəfi daxil olmaqla dörd məzhəbin hamısına aiddir.[5]

---

[1] "İqasət əl-Ləxafan" 1/188.
[2] Bax "Fəth əl-Qədir" 2/150; "əl-Bəhr ər-Raik" 2/210.
[3] Hədis səhihdir; Muslim 975; və sair.
[4] Hədis onu möhkəmləndirən zəncirlərə görə yaxşıdır; Tirmizi 1053; Təbərani əl-Kəbirdə 12613.
[5] Bax: Fəth əl-Qədir 3/168.

# BÖLÜM 6. QƏBİRİSTANLIĞI ZİYARƏT ETMƏK ÜÇÜN BAŞQA YERƏ GETMƏK OLARMI?

Bu bölümü oxuyarkən, başa düşmək lazım olan, vacib məqamlardan biri də budur ki, şəriət öz yaşayış məntəqəsinin, qəbiristanlığının ziyarəti ilə başqa yerdə olan qəbirlərin ziyarəti arasında fərq qoyub.

Əbu Hureyrə rəvayət edir ki, Allah Rəsulu ﷺ buyurdu: “***Yalnız üç məscidə gedə bilərsiniz: Haram Məscidinə, mənim məscidimə***[1] ***və əl-Əqsa məscidinə*** [2]”.[3]

Həmçinin Əbu Hureyrə rəvayət edir ki, Allah Rəsulu ﷺ buyurdu: “***Heyvanlar üç məsciddən başqa səfərə çıxarılmaz — Haram məscidə, Rəsulullahın məscidinə və Məscidül-Əqsaya***”.[4]

Əbu Səid əl-Xudri rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu: “***Heyvanları üç məsciddən başqa yerə səfərə çıxartmayın — bu mənim məscidim, Məscidül-həram və Məscidül-Əqsadır***”.[5]

Bu hədislərdə, ibadət etmək üçün öz yaşayış yerindən başqa yerə, istər məscidə, istərsə də başqa yerə getməyin qadağan olmasına açıq-aydın işarə var.

Əgər kimsə desə ki: “*Mən şəriət elmi almaq üçün, filan ölkəyə getmək istəyirəm. Elm tələb etmək isə ibadətdir, lakin bu yuxarıda qeyd olunan sözlərə əsaslanaraq, mən bu elmi əldə etmək üçün səfərə çıxa bilmərəm*”.

---

[1] Yəni Mədinədə Peyğəmbər Məscidi.

[2] Yəni Qüdsdəki Əl-Əqsa məscidi.

[3] Hədis səhihdir; Muslim 1397.

[4] Hədis səhihdir; Buxari 1189; Muslim 1397; Əbu Davud 2033; Nəsai 699; İbn Macə 1409.

[5] Hədis səhihdir; Buxari 1197; Muslim 828; Tirmizi 326; Əhməd 45, 51.

**Cavab:**

Buna icazə verilir, çünki elm öyrənmək üçün, hansısa ölkəyə getmək istəsəniz və bu əməl ibadət olsa da, həmin ölkə sizə bir ölkə olaraq lazım deyil, siz bu ölkəyə ona görə gedirsiniz ki, məhz bu ölkədə elm adamları və ya sizə lazım olan universitet var. Əgər alim, başqa ölkəyə köçərsə və ya başqa ölkədə buna bənzər bir universitet açılarsa, o zaman siz asanlıqla istiqamətinizi dəyişə bilərsiniz və birinci ölkəyə getmək əvəzinə ikinciyə gedəcəksiniz. Yuxarıdaki hədisdə qeyd olunan qadağa hər hansısa ərazidə, müəyyən bir məscidin olması və insanın məhz bu məsciddə, namaz qılmaq və ya digər ibadətləri yerinə yetirmək istəməsi səbəbindən, o yerlərə səfərə çıxmaq, qadağan edilmişdir. Bunu etmək olmaz, çünki sizin yaşadığınız yerin məscidi, başqa yaşayış yerindəki məsciddən fərqlənmir, çünki yuxarıda qeyd olunan üç məscid istisna olmaqla, yer üzündəki bütün məscidlər eynidirlər.

Pirlərə gedənləri, oraya səfər etməyə sövq edən pirlərdə ibadətlərin, savab baxımından daha böyük olması fikridir. Onlar hesab edirlər ki, pir-ocaqların tikililəri, qədim və müqəddəsdirlər və buna görə də, bu yerlərdə namaz qılmaq daha fəzilətlidir.

Ticarət məqsədi ilə səfərə, qohum-əqrəbaya baş çəkməyə və sairə gəlincə, burada heç bir dini motiv olmadığı üçün bütün bunlarda heç bir problem yoxdur. İnsan hər hansı bir şəhərə qohumlarının yanına gedir, ona görə yox ki, bu şəhər müqəddəsdir, ancaq ona görə ki, onun qohumları məhz bu şəhərdə yaşayırlar və onlar başqa şəhərdə yaşasaydılar, insan həmin başqa şəhərə gedəcək idi.[1]

Pirlərə səfər edənlər, bu hədislərə belə cavab verirlər: “*Bu hədislər qəbirlər, türbələr və müqəddəs torpaqlar haqqında deyil, məscidlər haqqındadırlar*”.

[1] Bu bölgünün ümumi mənasını “Məcmu əl-Fətəva” 2/186-da tapmaq olar.

**Cavab:**

1) Əbu Bəsrə əl-Ğifarinin hədisi[1] ki, bir gün səfərdən qayıdarkən, Əbu Hureyrəni gördü və ondan soruşdu: “*Haradan gəlirsən*?” Əbu Hureyrə cavab verdi: “*Mən Tur*[2] *dağından gəlirəm. Namaz qılmaq üçün, oraya getdim*”. Sonra Əbu Bəsrə dedi: “*Əgər səni yola düşməmişdən əvvəl görsəydim, səni oraya buraxmazdım, çünki Rəsulullahın* ﷺ *belə dediyini eşitmişəm*: “***Heyvanlar bu üç məsciddən başqa yerə səfərə çıxarılmaz — Haram Məscidinə, mənim məscidimə və Məscidül-Əqsaya***”.[3]

2) Kaza dedi: “*Bir dəfə Tur dağına getməyi planlaşdırırdım və bu barədə İbn Ömərdən məsləhət istədim və o, mənə dedi: “Məgər bilmirsən ki, Peyğəmbər* ﷺ *buyurmuşdur: “**Heyvanlar ancaq üç məscidə — Məscidül-hərama, Peyğəmbər məscidinə və Məscidül-Əqsaya, bunlardan başqa bir yerə səfərə çıxarılmaz** — bunu tərk et və ora getmə*”. [4]

Səhabələrdən gələn, bu iki xəbəri oxuyandan sonra məlum olur ki, ibadət üçün səfərə qadağa, təkcə məscidlərlə məhdudlaşmır, çünki Tur dağı məscid deyil. Buna baxmayaraq, səhabələr bu dağda, Allaha ibadət etmək üçün səfər etməyi qadağan etmişlər.

Əgər onlar: “*Bu hədislərdə məscidlərdən, müqəddəs dağlardan və yerlərdən bəhs edilir, lakin qəbir və məzarları ziyarət etməyi qadağan etmirlər*” desələr, onda deyərik:

---

[1] “Fəth əl-Məcid”də bu hədis Bəsrə ibn Əbi Bəsrə əl-Ğifarinin sözlərindən nəql edilmişdir ki, bu səhvdir, İmam İbn Əbdül Bərr “ət-Təmhid” 23/38 və “əl-İstiab”da demişdir. /39.
[2] Müqəddəs dağ — bu dağda Musa peyğəmbər (aleyhi salam) Uca Allahla danışmışdır.
[3] Hədis səhihdir; Nəsai 1429; Malik in Muatta 1/108; Tayalisi 1348; Əhməd 23848; İmam Tirmizi, hədisi səhih adlandırmışdır 491; və həmçinin Şeyx əl-Albani Əhkam əl-Cənaizdə səh. 287.
[4] Hədis səhihdir; əl-Əzraqi «Əxbar Məkkədə» səh. 304; Heysəmi “əl-Mucma‘” 4/4 və Təbərani “əl-Kəbir”də 13283.

**Cavab:**

1) Şeyxülislam demişdir: "*İslamın ilk əsrlərində, qəbirlər üzərində məscidlər, türbələr tikilmirdi. Bu, ilk dəfə Bənu Bueyx*[1] *əyalətində, karramilər məzhəbi*[2] *şərqdə və qərbdə peyda olanda ortaya çıxdı, hansı ki, onların arasında çoxlu imansız ateistlər var idi. Onların məqsədləri, İslam dinini əvəz etmək idi*".[3]

Həmçinin o dedi: "*Qəbirlərə və onların üzərində tikilmiş türbələrə səfər etməyin fəziləti haqqında hədislər uydurmağa ilk başlayanlar rafizilər və onlar kimi bidətçilər idilər*".[4]

Həmçinin o dedi: "*Səhabələrin dövründə elə bir qəbir yox idi ki, insanlar oraya səfər etsinlər, Allaha dua etmək üçün oraya getsinlər, yada ondan lütf və vasitəçilik axtarsınlar. Üstəlik, səhabələr haradasa peyğəmbərlərin qəbirləri üzərində tikililərin ucaldılmasını aşkar edəndə, bu tikililərin heç birini saxlamazdılar və onları yerlə bir edərdilər. Çünki bu tikililər, insanları çaşqınlığa sürükləyə bilirlər. Hətta peyğəmbərimizin ﷺ qəbrini belə, onun otağında gizlətdilər və oradan insanları uzaqlaşdırdılar*".[5]

2) Həmçinin, bu hədislərin qadağan olması, təkcə məscidləri deyil, qəbir və məqbərələri də əhatə etdiyinə dair dəlillərdən biri də budur ki, bu, cahiliyyət dövrünün adəti, Qüreyş müşriklərinin adətidir.

Hənəfi məzhəbinin imamlarından olan, İmam əd-Dəhləvi demişdir: "*Cahiliyyət dövründə, insanlar "möhtərəm" hesab etdikləri yerlərə getməyə can atırdılar, onları ziyarət edir, onlardan lütf-bərəkət diləyir və məlum olduğu kimi bu yerlərdə çoxlu bidət, küfr və günah işlədirdilər. Peyğəmbərimiz ﷺ isə bu günahın qapılarını bağladı ki, həm qanuni ibadət ilə qanunsuz ibadət qarışmasın, həm də bu, Allahdan başqasına ibadət etməyə səbəb olmasın. Və həqiqət budur ki, kiminsə qəbri və ya*

---

1 Bağdadda.

2 Fars filosoflarının davamçıları. Onların əksəriyyəti rafizilərdən idi (bax: "Bidayə vən-Nihayə" 11/66).

3 "Məcmu' əl-Fətava" 27/167, 384.

4 "Məcmu' əl-Fətava" 27/191.

5 "Məcmu' əl-Fətava" 27/271.

*salehlərdən hər hansı birinin ibadət etdiyi yer, eləcə də Tur dağı, bütün bu yerlər eynidirlər və ora ibadət üçün getmək qadağandır*".[1]

Elə buna görə də, İmam Malik və onun tərəfdarlarının, eləcə də bəzi hənəfilərin[2], şafiilərin və hənbəlilərin rəyi belədir.

Hənəfi məzhəbinin imamlarından olan, İmam əl-Bərqavi (981-ci hicri il) demişdir: "*Qəbirstanlıqlara səfərə çıxmaq, səfərdə çətinlik çəkmək və bununla belə böyük günah etmək məsələsinə gəlincə, alimlərin əksəriyyəti deyirlər ki: "Peyğəmbərlərin* ﷺ *və saleh insanların qəbirlərini ziyarət etmək üçün, səfərə çıxmaq bidətdir. Nə səhabələr, nə də onların ardıcılları belə bir iş görməyiblər. Həmçinin, müsəlman imamlarından heç biri, bunu arzuolunmaz hesab etmədiyi kimi, Aləmlərin Rəbbinin Rəsulu da bunu əmr etməmişdir. Buna görə də, bu səfərlərin Allaha təslimiyyət və xeyirxah bir iş olduğuna əmin olan hər kəs, müsəlmanların yekdil fikrinə ziddir. Hər kim bu fikir ilə, bu qəbirlərə səfər etsə, müsəlmanların yekdil rəyinə əsasən, yasaq olanı (haramı) etmiş olar*".[3]

Bu, Hənəfi imamının sözləri pir-ocaq kimi yerlərə səfər etməyin günah və haram iş olduğuna dəlalət edir.

3) Əgər üç məsciddən başqa, hər hansı konkret məscidə ibadət məqsədi ilə səfərə çıxmaq qadağandırsa, qəbirlərə səfərə getmək daha da qadağandır. Çünki qəbirlərin, ibadətdə məscidlərdən heç bir üstünlüyü yoxdur, əslində məscidlərin bunda üstünlüyü var.

---

[1] "Xucətu-llahi əl-bəliğə" 1/192.
[2] Bax: "Xucətu-llahi əl-bəliqə" 1/543.
[3] "Ziyarət əl-kubur" səh. 18-22.

# BÖLÜM 7. QARŞI TƏRƏFİN BƏZİ ŞÜBHƏLƏRİ VƏ ONLARA CAVAB

Əks fikrin tərəfdarları, öz fikirlərini dəstəkləmək üçün, istinad etdiklərinə dair bir sıra şübhələri var.

1. Səhl ibn Hənif rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: ***"Kim evində dəstəmaz alıb, sonra Quba məscidinə gedib, orada namaz qılarsa, kiçik həccin (ümrə) savabı qədər savab qazanar"***.[1]

Onlar bu hədisə istinad edərək, orada namaz qılmaq üçün, əl-Quba məscidinə səfər etməyin icazəli olmasına dəlil gətirirlər.[2]

Cavab:

1) Alimlərdən bəziləri, bu hədisi izah edərək dedilər: "*Rəsulullahın* **"kim evində dəstəmaz alarsa"** *kəlamı, eləcə də* "**sonra əl-Quba məscidinə gedərsə**" *sözləri bu məscidə səfər etməyin qadağan olmasına dəlalət edir. İcazəli olan, ona o qədər yaxın məsafədə yaşayan biri üçün getməkdir ki, dəstəmaz aldıqdan sonra, onu pozmadan məscidə çata bilsin*".[3]

2) Onların, hədisi başa düşmələri ona gətirib çıxarır ki, Rəsulullah ﷺ bir yerdə, üç məsciddən başqa yerə səfərə çıxmağı qadağan edərək, başqa yerdə isə, buna təşviq edərək, özü-özünə zidd danışıb.

Həmçinin, əks fikrin tərəfdarları, yuxarıda qeyd olunan, Əbu Səid əl-Xudrinin hədisinin rivayətlərindən birinə ilişiblər. Bu rivayətdə deyilir:

---

[1] Hədis səhihdir; Nəsai 2/37; İbn Macə 1/453; Əhməd 3/487 və b.

[2] Bax: «əl-Muğni» 3/118.

[3] Bax: "İqtida sirat əl-müstəqim" 2/805.

“***İbadət etmək istəyən bir kimsənin, Haram məsciddən başqa, hər hansı bir məscidə getməsinə dəyməz***”.

Onların bu rivayətdən gəldiyi nəticə belədir: “**dəyməz**” ifadəsi qadağaya dəlalət etmir, sadəcə arzuolunmazlığa işarə edir”.

Cavab:

Bu rivayətin isnadında, rəvayəti zəif olan, Şəhr ibn Xəvşabın adlı rəvayətçi var.

Həmçinin Əbdülhəmid əl-Bəhramın isnadı da zəifdir, çünki onun yaddaşı zəif idi. Yalnız bunlar, rivayətə əhəmiyyət verməmək üçün kifayətdir. Amma buna əlavə olunur ki, Şəhr bu hədisi Əbu Səiddən nəql etmiş və bununla da, bu hədisi Əbu Səiddən fərqli şəkildə rəvayət edən hər kəsə zidd olmuşdur.

2. Qarşı tərəfin öz fikrini təsdiqlədiyi növbəti dəlil, İbn Ömərin rəvayət etdiyi hədisdir. O demişdir ki, Allah Rəsulu ﷺ Quba məscidini, ora piyada və atla gedərək ziyarət edirdi. Bəzi rəvayətçilər əlavə edib dedilər: “*Və orada iki rükət namaz qılırdı*”.[1]

Onların gəldiyi nəticə: “Peyğəmbər ﷺ at belində, Quba məscidinə gedirdi, bu o deməkdir ki, Peyğəmbər ﷺ ora səfər edirdi”.

**Cavab:**

1) Quba məscidi, Mədinənin ətrafında yerləşdiyi üçün, Peyğəmbər ﷺ səfərə çıxmırdı. Buna görə də, bu ümmətin imamlarının yekdil rəyinə əsasən, onun yanına səfərə çıxmaq qadağandır.[2]

2) Bu ifadə ilə razılaşsaq belə, bu hədisdən istifadə edərək, qəbirlər və məscidlər arasında bənzətmə aparmaq yanlış olar. Çünki məscid qəbir deyil, türbə və məqbərə deyil.

---

[1] Hədis səhihdir; Buxari 1194; Muslim 1399.

[2] Bax: əl-Muğni 3/118.

3. Qəbirpərəst sufilər də, öz fikirlərini müdafiə etmək üçün, məlum olan hədis məcmuələrinin (toplularının) heç birində olmayan çoxlu yalan, uydurma hədislərə istinad edirlər. Belə hədislərdən biri də, bu hədisdir: "*Sizi sıxıntılar bürüdüyü zaman, kömək üçün qəbir əhlinin yanına gedin*".

Şeyxül-islam dedi: "*Bu hədis, alim mühəddislərin yekdil rəyinə görə, yalan və Peyğəmbərə ﷺ qarşı uydurmadır. Mühəddislərdən heç biri, öz məcmuəsində bu hədisi sitat gətirmir və heç birində də yoxdur*".[1]

Hənəfi məzhəbinin alimləri də, bu hədisə eyni qiymət vermişlər.[2]

## BÖLÜM 8. PEYĞƏMBƏRİN ﷺ QƏBRİNİ ZİYARƏT ETMƏK OLARMI?

1. Səfərə çıxmadan, Peyğəmbərin ﷺ qəbrini ziyarət etməyə gəlincə, digər qəbirləri ziyarət etmək icazəli olduğu kimi icazəlidir.

2. Bundan başqa, alimlər arasında ixtilaf yoxdur ki, Peyğəmbərin ﷺ qəbrini səfərə çıxmadan ziyarət etmək sünnətdir.[3]

3. Bununla belə, bütün müsəlmanların yekdil rəyinə görə, Peyğəmbərin ﷺ qəbrini ziyarət etmək vacib deyildir.[4]

4. Qəbrinin ziyarətinin necə olmasına gəlincə, onu ziyarət edən şəxs, məscidə salam namazı (tahiyatül-məscid) ilə başlamalıdır. Sonra, Peyğəmbərin ﷺ qəbrinə getməli, üzünü ona çevirməli və sonra sakit

[1] "Qaidə Cəlil" səh.891–892.
[2] Bax: Ruhul-Məani 6/127–128; və həmçinin "Cəla əl-'Ainein" səh. 500.
[3] "Əd-Din əl-Xalis" Məhəmməd Siddik Həsən 3/588.
[4] "Məcmu əl-Fətava" 27/26.

səslə deməlisən: "*Əssəlamu aleykə ya rəsuləllah*" ("*Salam olsun sənə, ey Allahın Rəsulu*"). Həmçinin salamlamaya, xeyir-dua əlavə edə bilərsiniz.[1]

Hənəfi məzhəbinin alimlərindən, Şeyx Əbdürrəhman ibn Məhəmməd əl-Hənəfi Damaad Əfəndi (hicri 1078) "Məzmə əl-Ənhar fi şərx Multək əl-Əbhar" (1/313) kitabında, bu prosesi belə təsvir edir: "*İnsan, məscidin salam namazını qıldıqdan sonra, Peyğəmbərin ﷺ qəbrinə yaxınlaşa bilər, onun baş tərəfində dayanar, üzü qibləyə, qəbrə üç-dörd dirsək yaxınlaşmalıdır, ondan artıq yaxınlaşmamalıdır və əlini qəbrin divarına qoymamalıdır...*".

5. Qazi İyad İmam Malikdən nəql edir ki, o demişdir: "*Namaz qılmaq üçün, Peyğəmbərin ﷺ qəbrinin yanında dayanmağı düzgün hesab etmirəm, lakin Peyğəmbərə ﷺ salam vermək və dərhal oradan çıxmaq lazımdır*".[2]

6. Həmçinin qəbirləri, Peyğəmbərin ﷺ qəbrinin yanında yerləşən, Əbu Bəkrə və Ömər ibn Xəttaba salam vermək də lazımdır.[3]

7. İmam Malik, həmçinin buyurur: "*Mədinə əhlinin məscidə girib-çıxarkən Peyğəmbərin ﷺ qəbrinə yaxınlaşması vacib deyil. Bunu yalnız ziyarətçilər edə bilər*".[4]

8. Bir gün, İmam Malikə dedilər ki: "Axı Mədinə əhli, gündə bir neçə dəfə, Peyğəmbərin ﷺ qəbrinə yaxınlaşır, halbuki onlar nə səfərdən qayıdan, nə də səfərə çıxmağa hazırlaşandırlar. Xüsusilə cümə günü, insanlar gündə bir və ya iki dəfə onun qəbri başında dayanıb, Peyğəmbərə ﷺ salam verdikdən sonra, uzun müddət, Allaha dua edirlər". İmam Malik, belə cavab verdi: "*Mən bu şəhərin əvvəlki alimlərindən, heç birindən bunun icazəli olduğunu eşitməmişəm, ona görə də, bunu tərk etmək daha xeyirlidir və bu ümmətin axırı, ancaq onun əvvəli islah olunduğu şeylərlə islah olunar. Səhabələrdən belə bir şey edəcəkləri mənə gəlib çatmayıb və*

[1] "Məcmu'ət rəsail əl-kubra" 2/407.
[2] "Əş-Şifa" Qədə 'İyad 2/85.
[3] "Əş-Şifa" 2/86.
[4] "Əş-Şifa" 2/88.

*bu, səfərdən qayıdanlardan və ya səfərə çıxanlardan başqa, arzuolunmazdır*".[1]

9. Əgər şəxs, özü üçün dua etmək istəsə, səhabələrin qeyd etdiyi kimi, onu qəbrin yanında deyil, qibləyə tərəf yönələrək, məsciddə edir. Və onlardan heç birindən rəvayət edilməmişdir ki, onlardan hər hansı biri, Peyğəmbərin ﷺ qəbri başında, özləri üçün dua ediblər və həmçinin heç biri, Peyğəmbərə ﷺ dua etmək üçün qəbri başında, uzun müddət qalmamışdır.

Niyə bütün məzhəblərin imamları, belə şərtlər qoyub, belə məhdudiyyətlər qoyublar?! İnsanların, Peyğəmbərə ﷺ olan məhəbbətlərindən, tez-tez onun qəbrinə yaxınlaşıb, salam verməsinin və onun üçün xeyir-dua istəməsinin nə qəbahəti var?! Bəs niyə səhabələr bunu etmədilər və Peyğəmbərin ﷺ qəbrini ziyarət etməyi, demək olar ki, tamamilə tərk etdilər?! Məgər onlar Peyğəmbəri ﷺ sevmirdilərmi, ona hörmət etmirdilər?! Bu gün, sufilər belə deyirlər. Onlar iddia edirlər ki, biz peyğəmbəri sevmirik, biz əcdadlarımızı sevmirik və sair.

Əslində səhabələr, Peyğəmbəri ﷺ başqalarından daha çox sevir və ona ehtiram bəsləyirdilər. Onlar onun öz sözlərinə tabe olaraq, məzarını tez-tez ziyarət etməyi tərk etdilər: "***Mənim qəbrimi vaxtaşırı məclislər yerinə çevirməyin, amma mənə salavat deyin, həqiqətən harada olursunuzsa olun, salavatınız mənə çatar***".[2]

Çünkü, əgər Peyğəmbəri ﷺ sevən hər bir müsəlman, davamlı olaraq, onun qəbrinə gedib, salam verməyə və ona salavat diləməyə başlayarsa, bu, şübhəsiz ki, onun qəbrinin daimi görüşlər yerinə çevrilməsinə səbəb olacaq! Peyğəmbərin ﷺ nəvəsinin başına gələn bir əhvalat, "***Mənim qəbrimi vaxtaşırı görüşlər yerinə çevirməyin***" sözlərinin mənasını açıqlayır. Bir gün, Həsən ibn əl-Həsən ibn Əli Peyğəmbərin ﷺ qəbrinin yanında, daim dua etməyə çalışan, bir adamı gördü və ona dedi: "*Ey filankəs! Niyə mən, səni həmişə peyğəmbərin ﷺ məzarı başında görürəm?" O cavab verdi: "Peyğəmbərə ﷺ salam*

[1] "Əş-Şifa" 2/88.
[2] Hədis yaxşıdır; Əhməd 2/367; Əbu Davud 2042.

*verirdim". O zaman, Həsən ona dedi: "Həqiqətən, Peyğəmbər ﷺ buyurdu: "**Mənim qəbrimi vaxtaşırı məclislər yerinə çevirməyin, mənə xeyir dua edin, çünkü harda olsanız da, sizin salavatınız mənə çatar**". Ona görə də, sən və Əndəlusda olan hər hansısa bir kəs ilə bu baxımdan eynisiz"*[1].

Rəvayətlərin birində deyilir: "**...*həqiqətən, harada olsanız da, salamınız mənə çatacaqdır***".[2]

Belə ki, Peyğəmbərin ﷺ qəbrinə, daim yaxınlaşaraq, salam vermək istəyi, artıq onu daimi məclislər yerinə çevirməkdir. Bəs qəbrin yanında, dua etmək üçün, ona yaxınlaşan şəxsə nə deyə bilərik? Axı bu heç də icazəli deyil!

Bəs o zaman, qəlbi Peyğəmbərə ﷺ sevgi ilə dolu olan adam, ona xeyir verəcək bir iş görmək istəyən adam nə etməlidir?! Bunun cavabı, yuxarıdakı hədisdə gəldi: ***"...amma mənə salavat deyin ki, harada olursunuzsa olun, sizin salavatınız mənə çatar***".

Bu o deməkdir ki, əgər Peyğəmbərə ﷺ salavat deyiriksə, bu, harada olsaq da, ona çatır və buna görə də onun qəbrinə yaxınlaşmağa ehtiyac yoxdur.

Həmçinin, Əbu Hureyrə rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu: "***Allahım! Mənim qəbrimi, ibadət olunan büt etmə, həqiqətən, öz peyğəmbərlərinin qəbirlərini ibadət yerinə çevirənlərə, Allahın şiddətli qəzəbi tutar***".[3]

Bu hədislər, Peyğəmbərin ﷺ öz qəbrinin başına, insanların toplaşmasını istəmədiyinə dəlalət edir, hətta onun yanında dua və sair kimi bəzi ibadətlər etmək isə qəti qadağandır. Həmçinin, bu son hədis açıq-aydın bir dəlildir ki, hətta Peyğəmbərin ﷺ qəbri belə, ibadət ediləcək bir bütə çevrilə bilər, nəinki başqa qəbirlər. Qəbirlərə ibadət

---

[1] Xəbər onu dəstəkləyən zəncirlərə görə etibarlıdır; Səid ibn Mənsur, "əl-İqtida" 2/656 və əs-Sarim əl-Munki səh. 161; həmçinin "Fədlu ssəla 'ala nnabi" 30-da İsmayıl əl-Qadi; 'Abdurrazzak 6726; İbn Əbi Şeybə 2/375.

[2] Xəbər onu dəstəkləyən zəncirlərə görə etibarlıdır; Diya əl-Məqdisi "əl-Muxtara"da 428; İbn Əbi Şeybə 2/375; Əbu Ya'lya 469; İsmayıl əl-Qadi "Fədlu sələ 'ala nnabi" 20.

[3] Hədis yaxşıdır; Əhməd 2/246; Əbu Nuaym əl-Hilyə 7/317 və s.

edənlərə gəlincə, onlar bir çox kitablarında, qəbrin büt ola bilməyəcəyini iddia edirlər. Onda biz kimə inanmalıyıq — Peyğəmbərə ﷺ yoxsa onlara?!

Peyğəmbəri ﷺ sevdiyini iddia edən, eyni zamanda onun sevmədiyi, istəmədiyi əməlləri edən, sufi təriqətinin nümayəndələri indi nə deyəcəklər?!

## BÖLÜM 9. PEYĞƏMBƏRİN ﷺ QƏBRİNİ ZİYARƏT ETMƏK ÜÇÜN SƏFƏRƏ ÇIXMAQ OLARMI?

Mədinədə olanlar üçün, Peyğəmbərin ﷺ qəbrini ziyarət etmək, arzuolunandır. Həmçinin Peyğəmbərin ﷺ məscidini ziyarət etməyə gələn əcnəbilərin də, onun qəbrini ziyarət etmələri arzuolunandır. Peyğəmbərin ﷺ məscidini ziyarət etmək üçün, səfərə çıxmaq icazəlidir, çünki bu yer, Peyğəmbərin ﷺ ümumi qadağadan etdiklərindən xaric etdiyi, üç məsciddən biridir. Peyğəmbərin ﷺ özünün qəbrini ziyarət etmək üçün, səfərə çıxmağa gəlincə, bu, icazəli deyil və bu ümmətin imamlarının böyük əksəriyyətinin razılaşdığıdır.[1]

Buna icazə verənlərə gəlincə, onlar zəif və ya uydurma hədisləri, yaxud səhabələrin zəif və yalan xəbərlərini, həmçinin bəzi ayələri və etibarlı hədisləri çox qəribə, fərqli izah ilə misal gətirirlər. Burada bu ayələrdən, hədislərdən və xəbərlərdən bəzilərini göstərməklə kifayətlənmək istəyirik.

[1] Bax: "ər-Rədd ʻala əl-Əxnai" səh. 29-30.

**1. “Hər kim, mənim qəbrimi ziyarət edərsə, mənim ona şəfaətim vacib olar”.**

Cavab:

1) Bu hədis, səhihlik baxımından ən güclü hədislərdəndir. Buna baxmayaraq, bu hədis “rədd edilmiş” (“münkər”) kateqoriyasına aiddir. Onun isnadında Musa ibn Hilal adlı bir rəvayətçi var ki, onun hədisləri rədd edilir.[1]

2) Bu hədis səhih olsa belə, Peyğəmbərin ﷺ qəbrini ziyarət etmək üçün, səfərə çıxmağın icazəli olduğuna dəlalət etmir.

**2. “Kim yanıma, ancaq məni ziyarət etmək üçün gəlsə, Qiyamət günü onun üçün şəfaət etmək mənim borcum olacaq”.**

Cavab:

Bu hədis zəifdir, isnadında Məsləmə ibn Salim zəif rəvayətçidir.[2]

Və bu hədis, səhih olsa da belə, Peyğəmbərin ﷺ qəbrini ziyarət etmək üçün, səfərə çıxmağın icazəli olduğuna dəlalət etmir.

**3. “Hər kim həcc edib, mən öləndən sonra məni ziyarət edərsə, mən həyatda ikən məni ziyarət edən kimidir”.**

Cavab:

Bu hədis çox zəifdir, çünki isnadında Həfs ibn Süleyman əl-Qari zəif rəvayətçidir, üstəlik onu yalan danışmaqda ittiham edirlər.[3]

**4. “Hər kim həcc edib, məni ziyarət etməzsə, məni incitmişdir”.**

---

[1] Bax: “Talxis əl-Xəbir” 2/266; “əl-Məqasid əl-Həsən” 425.

[2] Bax: “əs-Sarim əl-Münki”, səh. 49.

[3] Bax: “Əsna əl-Mətalib” 1378; “Talxis əl-Xəbir” 2/266.

Cavab:

Bu hədis batildir, uydurmadır və heç bir rəvayətçi zənciri yoxdur.[1] Üstəlik, bu batil hədis, bütün müsəlmanların yekdil fikrinə ziddir, çünki peyğəmbəri ﷺ incitmək ən böyük günahlardan biridir, lakin müsəlmanlar Peyğəmbərin ﷺ qəbrini ziyarət etməyin vacib olmadığı mövzusunda həmfikir olmuşlar, buna əsasən belə nəticəyə gəlmək olur ki, müsəlmanlar, Peyğəmbəri ﷺ incitməyi qadağan saymadıqları barədə həmfikirdirlər.[2]

Ümumilikdə, sufilər təxminən on dörd (14) belə hədis gətirirlər. Verdiyimiz hədislər, səhihlik baxımından onlardan ən güclüləridirlər. Onda, qalanlarının səhihliyi haqqında nə demək olar?!

Səhabələrdən gələn xəbərlərə gəlincə, onlardan bəzilərini burada gətirəcəyik.

1. **“Bilal ibn Rəbah (Peyğəmbərin ﷺ müəzzini) Şamdan Mədinəyə, ancaq Peyğəmbərin ﷺ qəbrini ziyarət etmək üçün gəlmişdir”.**

Cavab:

Bu xəbərin isnadında, İbrahim ibn Muhəmməd ibn Süleyman adlı naməlum rəvayətçi vardır. Buna görə də, Hafiz ibn Həcər dedi: “Bu əhvalatın yalan olduğu açıq-aydındır”.[3]

2. **"Rəvayətə görə, Ömər ibn Əbdüləziz, Şamdan Mədinəyə bir elçi göndərdi və ona dedi: “Rəsulullaha ﷺ məndən salam yetir”.**

Cavab: Bu xəbərin isnadında, bir neçə naməlum rəvayətçi var, ona görə də bu xəbər çox zəifdir.[4] Üstəlik, bu xəbər yalnız, Peyğəmbərin ﷺ qəbrini ziyarət etmək üçün, səfər etməyin icazəli olduğuna dəlalət etmir.

---

[1] Bax: “Kəşf əl-Xəfa” 2460; “əl-Məqasid əl-Həsən” 1178.
[2] “Əl-Fətəva” 27/25.
[3] “Lisan əl-Mizan” 1/107.
[4] Bax: “Sarim əl-Munki” səh. 244.

Çünki bu xəbərdə, hökmdarın yalnız Peyğəmbərə ﷺ onun adından salam vermək üçün, elçi göndərdiyi deyilmir.

**3. "Ömər ibn Xəttab, Şamdan Mədinəyə gedəndə, Kəb əl-Əxbara dedi: "Peyğəmbərin ﷺ qəbrini ziyarət etmək üçün, mənimlə Mədinəyə gəlmək istəyirsənmi?" Kəb ona belə cavab verdi: "Bəli, ey möminlərin əmiri! Mən bunu tez-tez edirəm".**

Cavab:

Bu xəbər, yalan və uydurmadır.[1]

Şeyxül-islam İbn Teymiyyə demişdir: «*Peyğəmbərin ﷺ qəbrinin ziyarəti ilə bağlı, gətirilən hədislərin hamısı, mühəddis alimlərinin yekdil rəyinə əsasən zəifdirlər. Üstəlik, bu hədislər, batildirlər və məşhur hədis məcmuələrinin (toplularının), müəlliflərindən heç biri, onlara istinad etmir. İmamların heç biri, bu hədisləri dəlil kimi istifadə etməmişdir, üstəlik də, Mədinə imamı, İmam Malikin, hər hansı bir kimsənin, "Peyğəmbərin qəbrini ziyarət etdim" deməsi xoşuna gəlməzdi*[2]»[3].

Hədisləri və rəvayətləri gətirdikdən sonra, bizə yalnız son dərəcə maraqlı ayənin təfsirini gətirmək qalır.

Allah buyurur: **«Əgər onlar özlərinə zülm etdikləri zaman, sənin yanına gəlib Allahdan bağışlanma diləsəydilər və Peyğəmbər də onlar üçün bağışlanma diləsəydi, əlbəttə ki, Allahın tövbələri qəbul edən və Rəhmli olduğunu görərdilər» (4:64).**

Qəbir pərəstişkarları, bu ayədən belə nəticəyə gəlirlər ki, Peyğəmbərin ﷺ qəbrinin yanına gedib, özü üçün bağışlanma diləmək arzuolunandır. Üstəlik, onlar bu ayəni başa düşdüklərini, yalan bir hekayə

---

[1] Bax: "Sarim əl-Munki" səh. 247.

[2] İmam Malikin bu sözlərini "əl-Qirə" kitabında, səh. 629-da tapmaq olar, hansı ki, müəllifi İmam Muhibbuddin ət-Təbəridir.

[3] "Ər-Rədd 'ala əl-Əxnai" səh. 189.

ilə də dəstəkləyirlər ki, guya bir bədəvi bu ayəni oxuyur, bundan sonra o, Peyğəmbərin ﷺ qəbrinin yanına gedib, onun yanında Allahdan bağışlanma diləyir, bundan sonra onun tanışlarından biri yuxusunda, Peyğəmbəri ﷺ görür, hansı ki, ona deyir: “Get və bu bədəvini bağışlanmaqla müjdələ”.

Cavab:

1) Heç bir səhabədən və ya onların ardıcıllarından, Peyğəmbərin ﷺ qəbri başına, Allahdan bağışlanma diləmək üçün, getdikləri barədə, səhih xəbər yoxdur. Halbuki onlar, Quranın mənasını başqalarından daha yaxşı anlayırdılar.

2) Yuxarıdakı ayədə deyilir: “**Əgər Peyğəmbər ﷺ onlar üçün bağışlanma diləsəydi**”. Rəsulullahın ﷺ sənin üçün bağışlanma dilədiyini haradan bilirsən?! Üstəlik, Allah Rəsulunun ﷺ qəbrində eşitmədiyi və dünyada baş verənlərdən xəbərsiz olduğu etibarlı şəkildə məlumdur. Çünki o, artıq dünyasını dəyişib və indi mahiyyəti bilinməyən başqa bir həyat yaşayır.

Buna dəlil budur ki, qiyamət günü insanlar Peyğəmbərin ﷺ hovuzuna gələcəklər, lakin mələklər onların bir çoxunu oradan qovmağa başlayacaqlar və Peyğəmbər ﷺ buna təəccüblənəcək. O zaman mələklər ona deyəcəklər: “*Sən onların, səndən sonra nə etdiklərini bilmirsən*”. Onda Peyğəmbər ﷺ deyəcək: ***“O zaman, məndə saleh bəndənin (yəni İsa ibn Məryəmin) dediyini deyəcəyəm: “Nə qədər ki, onların arasında idim, mən onlara şahid idim. Sən məni (onların arasından) götürdükdən sonra isə, onlara nəzarət edən Özün oldun.” O zaman mənə deyəcəklər: “Sən onlardan ayrıldığın vaxtdan sonra, onlar sənin dinindən uzaqlaşmaqdan əl çəkməyiblər”***.[1]

Buna görə də, məlum olur ki, Peyğəmbər ﷺ qəbrində, bir insanın yaşaya biləcəyi ən kamil həyatı yaşasa da, buna baxmayaraq, bu həyatda nə baş verdiyini bilmir və onun öz həyatının mahiyyəti də məlum deyil.

---

[1] Hədis səhihdir; Buxari 5/191; Muslim 4/2194.

***"Hər kim mənim qəbrimin yanında, mənə xeyir-dua diləsə, onu eşidərəm, kim qəbrimdən uzaqda mənə xeyir-dua diləsə, mənə çatdırılar"*** hədisinə gəlincə, bu hədis batildir, çünki onun isnadında Muhəmməd ibn Mərvan Əs-Suddi yalançıdır.

3) Həmçinin ayəni, bu cür anlamağın yanlışlığına dəlalət edir ki, əgər hər bir günahkar, Peyğəmbərin ﷺ qəbrinin yanında bağışlanma diləmək üçün, onun qəbrinin yanına getməyə başlayarsa, bu zaman onun qəbri, Peyğəmbərin ﷺ qadağan etdiyi, daimi məclislər yerinə çevriləcək. Odur ki, Peyğəmbərin ﷺ qəbrini ziyarət etmək üçün, səfərin qadağan edilməsinin, səbəblərindən biri də budur ki, bu səfərlər, şübhəsiz ki, Peyğəmbərin ﷺ özünün dediyi sözlərə əsaslanaraq, Peyğəmbərin ﷺ qəbri başında, qadağan olunmuş, daimi məclislərə səbəb olacaqdır.

## BÖLÜM 10. QƏBİRLƏRƏ GEDƏNLƏRİN, PROBLEMLƏRİNİN HƏLLİ, O DEMƏK DEYİL Kİ, ONLARIN YANINA GETMƏYƏ İCAZƏ VERİLİR

Bilin ki, salehlərin məzarlarını ziyarət etmək üçün, səfərə çıxanların çoxu, məhz bu qəbirlərdə xəstəliklərdən sağaldıqlarını, itkin insanların və əşyaların yerini öyrəndiklərini, orada möcüzələr gördüyünü, qeyri-adi səslər eşitdiklərini iddia edirlər. Onlar iddia edirlər ki, ölən saleh insana, layiqincə hörmət göstərməyən və üstəlik əksinə onu rüsvay edən hər kəs, şübhəsiz ki, qəm, bəla və ya bədbəxtliyə düçar olacaqdır. Bu yerlərə ziyarətə gələn qonaqlar, gördükləri müxtəlif möcüzələrdən danışırlar. Onlar, qəbirlərə ibadət edənlərə və ya onların hərəkətlərinə gülən kimsələri, necə ildırım vurmasından, yaxud bütün ailə üzvlərinin

ölməsindən, sağalmaz xəstəliyə tutulmasından danışırlar. Bütün bunlar, qəbir pərəstişkarlarının haqlı olduqlarına inamını və bu yerlərə bağlılığını daha da gücləndirir.

İnternetdən bu barədə danışan bəzi fraqmentləri təqdim edirik:

"Bir tanışım dedi ki, onun qohumu ayaqları ağrıyan, sərbəst hərəkət edə bilməyən arvadını bura gətirib; su mənbəyinə çatanda o, birdən ayağa qalxdı və möhkəm addımladı, hər ikisinin sevincinə səbəb oldu!"

Həmçinin: "Bu su mənbəyi bir neçə dəfə buldozerlə basdırıldı, amma o, yenidən yerdən fışqırırdı. İztirab çəkənləri qorxutmaq üçün, arı pətəkləri quraşdırmağa çalışıblar. Tezliklə bütün arılar öldü... ."

Sufilərin kitabları da, buna bənzər məlumatlarla doludur. Məsələn, "əl-Bəsair" kitabında səh. 42, Bağdaddakı Musa əl-Kazımın məqbərəsi haqqında danışarkən, müəllif deyir: "Musa əl-Kazımın qəbri, Allahu Təalənın duaları qəbul etdiyi, sübut olunmuş bir yerdir." Həmçinin "Təbakət əl-övliya" kitabında səh. 281, Məruf əl-Kürxinin qəbri haqqında danışarkən, müəllif belə deyir: "Onun məzarı yaxşı seçilib bilinir və tanınmışdır. İnsanlar bərəkət axtarmaq üçün, onun yanına gedirlər. Bağdadlılar bu qəbir vasitəsilə, Uca Yaradandan yağış diləyirlər və deyirlər ki, Allahu Təalə onların bu istəklərini rədd etmir. Onlar iddia edirlər: "Əl-Kurhi türbəsi əziyyət çəkənlərin, problemlərini həll etməklə tanınır".

Ancaq burada başa düşmək lazımdır ki, bütün bunlar, qəbir pərəstişkarlarının hərəkətlərinə haqq qazandırmır və bu hərəkətlərin icazəli olmasına dəlalət etmir. Bunu bir neçə bənddə izah etmək olar:

1. Bu hekayə və əhvalatların əksəriyyəti, uydurma və həqiqətdə heç bir aidiyyatı olmayan yalanlardır. Çox vaxt, bu nağıllar naməlum insanlardan, ya da yalançı və fırıldaqçılardan nəql olunur. İnsanların bu cür yerlərdə, çoxsaylı toplaşmasından bəhrələnənlər, internetdə və digər kütləvi informasiya vasitələrində oxşar nağılları yayırlar.

Hənəfi məzhəbinin imamlarından olan, Şükri əl-Əlusi belə demişdir: "*Belə nağılları, elmi olmayan və imanı zəif olanlar uydururlar. Yaxud bu*

*hekayələr, naməlum şəxslərdən nəql olunur. Bizə gəlincə, bu əhvalatlar Peyğəmbərin ﷺ adından nəql olunsa belə, ötürücülər zəncirinin etibarlılığını yoxlamadan, onları qəbul etmərik. Bəs başqasından ötürülənlərə nə deyə bilərik*?!" [1]

Bütün elm adamları, yekdil fikirdədirlər ki, bu cür əhvalat, nağıl və yuxular — müqəddəs mətnlərdə haram olanların, icazəsi üçün dəlil deyil.

Hənəfi məzhəbinin imamlarından olan, Mahmud Şükri əl-Alusi (hicri 1342) demişdir: "*Şəri hökmlər və dini ibadətlər, ancaq Allahın kitabı, Rəsulunun ﷺ sünnəsi və sünnə imamlarının yekdil rəyi (icması) ilə təyin olunur. Bu yol, ümmətin ilk nəsillərinin yoludur. Ona görə də, bu üç mənbədən başqa heç bir şeyə əsaslanaraq, şəriət hökmü təyin etmək olmaz. Bu cür nağıl və rəvayətlər vasitəsilə, hər hansı bir ibadətin qanuniliyini təyin etməyə gəlincə, bu əməl, yəhudilərin, xristianların və digərlərinin yoludur*".[2]

2. Qeyd etmək lazımdır ki, bəzi hallarda, salehlərin məzarlarının yanında qeyri-adi hadisələr baş verir. Bunun izahı belədir ki, bu cür hərəkətlər, cinlər tərəfindən edilir, qəbir ziyarətçilərinin qarşısına, müxtəlif obrazlarda, o cümlədən bu saleh insanın timsalında görünərək və ya ona müraciət edərək, ya itirilmiş əşyaların yerini göstərərək, ya da müəyyən xəstəlikləri müalicə etməyin yollarını təklif edərək. Cinlər bütün bunları qəbirpərəst insanları daha da azdırmaq üçün edirlər.

Uca Allah buyurub: «**Kim Mərhəmətli (Allahın) zikrindən üz döndərsə, Biz şeytanı ona calayarıq və o da ona yoldaş olar. Şübhəsiz ki, şeytanlar, onları haqq yoldan sapdıracaq, onlar isə özlərinin haqq yolda olduqlarını güman edəcəklər**» (43:36-37).

Şeyxül-islam İbn Teymiyyə demişdir: "*Müşriklərin azğınlıqlarının ən böyük səbəblərindən biri, bütlərinin yanında gördükləri və eşitdikləridir. Bəzi insanlar, bütlərin yanında, itirilmiş əşyanın yerini və ya problemi həll*

[1] "Fəth əl-Mənnan" səh. 372–373.
[2] "Qayət əl-Əmani" 2/274–275 (nəşr. "Dar ihya us-Sunnə").

*etməyin yolunu söyləyən səsləri eşidirlər. Qəbir pərəstişkarlarından bəziləri, qarşılarında bir məzarın açıldığını və oradan çıxan, onu qucaqlayan və ya onunla danışmağa başlayan bir qoca adam görürlər. Həmin qəbirpərəst, hesab edir ki, bu surət, mərhum peyğəmbərindir ﷺ və ya saleh insanındır. Amma əslində qəbir açılmayıb, ancaq qəbrin açılması illüziyasını yaradan şeytandır*".[1]

Hənəfi məzhəbinin imamlarından olan, İmam əl-Xucəndi deyir: "*Bəzən şeytan, ölmüş saleh insan surətində görsənir. O, qəbirpərəstlə danışmağa başlayır, ona dərdini həll etməyin yolunu deyir və bəzi gizli şeyləri ona göstərir. Bu qəbirpərəstə gəlincə, o insan, bununla aldanır və daha da çox azır*".[2]

Bu hekayələrdən birini də, özümüzdən əlavə edə bilərik. Yəmənin kəndlərindən birində, insanların müqəddəs saydığı bulaq var. Onlar bu çeşmənin suyunda çimənlərin, dərhal müxtəlif dəri xəstəliklərindən sağaldığını gördükləri üçün belə nəticəyə gəliblər. Bu hələ pis deyil, amma iş ondadır ki, müalicə yalnız bazar ertəsi günü və yalnız səhər namazından sonra bu çeşmənin suyunda çimmək ilə olur. Təbii ki, bu kəndin sakinləri, bu hadisəni gördükdən sonra heç bir elm əhli onları inandıra bilmir ki, bütün bunlar, cinlərin və cadugərlərin hiyləsindən başqa bir şey deyil. Məsələ burasındadır ki, cinlər və ya cadugərlər öz caduları ilə bu ərazinin insanlarına zərər, xəstəlik və sair göndərirlər. Ancaq bir insan, bu çeşməyə getdikdən sonra, onlar sehrlərinin təsirini zəiflədir və ya ləğv edirlər, nəticədə müxtəlif dəri anomaliyaları insan bədənindən yox olur. Həmin bu sadə kənd sakini də əmindir ki, o, məhz bu suda çimdiyi üçün müalicə alıb, halbuki bu çeşmənin suyunun, əslində, başqa çeşmələrin sularından heç bir fərqi yoxdur. Buna bənzər şeylər, qəbirlərin başında da olur. Bu o demək deyil ki, sehrbazlar və ya cinlər heç bir səbəb olmadan zərər verməyə və ya onu aradan qaldırmağa

[1] "Qaidə əl-Cəlil" bənd 140.
[2] "Hükmü-llahi-l-vahid əs-Saməd" səh. 19.

qadirdirlər. Ancaq bu iş, hər hansısa bir insanın fiziki imkanları daxilində, başqa bir insana zərər verə biləcəyi kimidir, onun misalındadır.

3. Bəzən Uca Allah, qəbrin yanında qəbirpərəstin Allaha etdiyi, səmimi duaya görə, onun duasını qəbul edir. Bu daha çox, dua edən şəxs, çətin vəziyyətdə olanda baş verir.

Allah buyurub: **«Darda qalan kimsə, yalvardığı zaman, ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən kimdir? Heç Allahla yanaşı başqa bir məbudmu var? Siz necə də az düşünürsünüz?»** (27:62)

Bu ona görədir ki, Allahu Təalə hətta kafirlərin belə ümidsiz vəziyyətdə olduqları halda, səmimi bir dua ilə, Allaha müraciət etdikləri zaman, dualarına cavab verir.

Allah buyurub: **«Sizi quruda və dənizdə hərəkət etdirən Odur. Siz gəmilərdə olduğunuz, (gəmilər də) içindəkiləri xoş bir küləklə apardığı və onlar buna sevindikləri zaman, birdən fırtına qopar və dalğalar hər yandan onların üstünə gələr. Dalğaların onları bürüyəcəyini yəqin etdikdə isə Allaha - dini məhz Ona aid edərək yalvarıb deyərlər: "Əgər bizi bundan xilas etsən, əlbəttə, şükür edənlərdən olarıq". (Allah) onları xilas etdikdə isə, dərhal haqsız olaraq yer üzündə azğınlıq edərlər. Ey insanlar! Azğınlığınız yalnız sizin öz əleyhinizədir. (Bunlar) dünya həyatının keçici zövqləridir. Sonra isə dönüşünüz Bizə olacaq, Biz də nə etdikləriniz barədə sizə xəbər verəcəyik»** (10:22-23).

Bu bədbəxt insana gəlincə, bundan sonra o, yalnız bu saleh insanın qəbri başında, Allaha dua etdiyi üçün, duasının qəbul olunduğuna daha da çox inanır.

4. Bu bölümdə qeyd edilməli olan son şey odur ki, şəriətdə problemlərin həllinə və müsibətlərin aradan qaldırılmasına aparan bütün yollara icazə verilmir. Bir əməlin xeyirə səbəb olması və ya zərəri aradan qaldırması, bu əməlin icazəli elan edilməsi üçün kifayət deyil. Başqa

sözlə: “hər hansı bir vasitə ilə məqsədə çatmaq, bu vasitəni icazəli etmir”. Burada aşağıdakiləri nümunə kimi gətirmək olar.

Heç kim şübhə etmir ki, alkoqolun, narkotikin, donuz ətinin satışı, sələmçilik, soyğunçuluq, oğurluq — bunların hamısı varlanmaq üçün bir vasitədir. Lakin, yuxarıda sadalananlardan hər hansı birinin, şəriətdə icazəli olduğunu deməyə kim cürət edə bilər?! Necə ki, rüşvətxorluq və yalandan şahidlik etmək, hər hansı haqqın qanunsuz əldə edilməsi üçün vasitədir. Amma kim deyə bilər ki, Allah və Rəsulu ﷺ yuxarıdakılardan hər hansı birinə icazə verib?! Buna əsasən qəbirpərəstlər, qəbirlərdə dualarının qəbul olunduğunu, problemlərinin həll olunduğunu iddia etsələr də, bu o demək deyil ki, qəbirstanlıqlarda toplaşıb müxtəlif növ ibadətlər etmək olar.

## BÖLÜM 11. FƏSİL HAQQINDA ÜMUMİ NƏTİCƏ

Şeyx Rəbi ibn Hadi ibn Umeyr demişdir: “*Qəbirləri ziyarət etmək icazəlidir. Allah Rəsulu ﷺ, əvvəllər şirk qapılarını bağlamaq üçün, qəbirlərin ziyarətini qadağan etdi, çünki keçmiş ümmətlər, peyğəmbərlərin və saleh insanların qəbirlərini ziyarət etmək məsələsini, düzgün anlamadıqları üçün, düz yoldan azmışlar. Şeytan bu qəbirləri bütlərə çevirərək, onları dəfələrlə şirkə döndərib. Üstəlik, yer üzündə ilk şirk, Nuh peyğəmbərin qövmündə meydana gəlmişdir, məhz Allaha şərik qoşduqları, əməlisalehlərin qəbirlərinə görə. Bu səbəbdən Allah Rəsulu ﷺ, əvvəlcə qəbirləri ziyarət etməyi qadağan etmişdir. Səhabələrin qəlbində tövhid ideologiyası möhkəm yerləşdikdə və onlar şirkdən qorxmadıqda, Peyğəmbər ﷺ onlara bu ziyarətin məqsədini izah edərək, qəbirləri ziyarət etməyə icazə verdi — ki, bu onlara axirət həyatını xatırlatsın və ölülərə fayda versin.*

*Odur ki, əgər məqsədlərdən birincisi — ölümü xatırlatmaq, insanın yaşadığı ərazidə yerləşən evinə yaxın məzarları ziyarət etməklə əldə edilirsə, insanlara uzaqlardakı məzarları ziyarət etmək üçün, başqa ərazilərə getməsinə icazə verməyə ehtiyac yoxdur. Buna görə də, Uca Allah öz hikməti ilə, qəbirləri ziyarət etməyə icazəni, insanların yaxınlıqdakı qəbiristanlıqları ziyarət etməklə, fitnənin və şirkin qabağını alan, bir çox məhdudiyyətlərlə məhdudlaşdırmışdır. Bu qadağalar sırasında odur ki, qəbiristanlıqları ziyarət edərkən, Allahı qəzəbləndirəcək sözlər söyləmək olmaz. Həmçinin dəfn yerlərinin ibadət yerinə çevrilməsinə də icazə verilmir. Qəbirlərin üzərində bina və ya tikililərin ucaldılmasına icazə verilmir. Qəbirlərin gips ilə örtülməsinə icazə verilmir. Həmçinin qəbrə doğru və ya onun üzərində namaz qılmaq da qadağandır.*[1]

*Buna görə də, Qanun qoyan bu icazəni ölümü xatırlatmaq məqsədinə çatmaq üçün kifayət edən, minimum səviyyə ilə məhdudlaşdırdı və heç bir şəkildə, istər sözlə, istərsə də hərəkətlə, uzaq qəbiristanlıqlara səfər etməyi qanuniləşdirmir, icazə vermir.* [2]

*Buna, bu cür əmin ola bilərsiniz ki: bunun icazəli və ya müstəhəb olması ilə bağlı nə bir ayə, nə də bir səhih hədis yoxdur. Və əgər bu qanuniləşdirilsəydi, bu ayə və hədislər qarşımızda olardı. Peyğəmbərin* ﷺ *özü, şübhəsiz ki, peyğəmbərlərin və saleh insanların qəbirlərinə səfər etməklə, bu işdə bizə nümunə göstərərdi. Hədislər və rəvayətlər məcmuələri, bu barədə səhabələrdən və onların ardıcıllarından gələn xəbərlərlə dolu olardı. Axı biz görürük ki, müxtəlif məzhəblərin hədis məcmuələri və fiqh kitabları ölülərin, xəstələrin və ölüm ayağında olanların haqları barədə izahlarla doludur. Kitablar, onların yuyulması, onlara buxur vurulması, mərhumun dəfn mərasiminə necə hazırlanması, dəfn edilməsi, ziyarət edilməsi, Allahdan onun üçün bağışlanma dilənilməsi, qəbirlərin üstündə oturmağın qadağan olması və sairə haqqında hökmlərlə doludur.*

*Digər tərəfdən, dirilərin ideologiyasını qorumaq üçün, qəbirlərin üzərində tikililər ucaltmaq, onların gipslə örtülməsi və sair əməllər qadağandırlar.*

---

[1] Bütün bu məhdudiyyətlərin izahı bu kitabın ayrı-ayrı fəsillərində veriləcəkdir.

[2] Bu o deməkdir ki, o, bunu özü etməyib və başqalarını da buna təşviq etməyib.

*İslam kitabları, bütün bunlarla doludur, lakin, eyni zamanda, biz onlarda səfərə çıxıb, qəbirləri ziyarət etməklə bağlı nə Peyğəmbərin ﷺ hər hansı bir səhih və ya yaxşı hədislərinin, nə səhabələrin və onların ardıcıllarının sözlərinin, nə də bu ümmətin böyük imamlarının sözlərinin olmadığını müşahidə edirik.*

*İmam Maliki nümunə götür. Onun "Muvatta" kitabında, qəbirlərə səfərlər etmək haqqında, bir söz tapa bilməzsən. Bu, həm Peyğəmbərin ﷺ qəbrinə, həm də digər qəbirlərə aiddir. Həmçinin İmam Malikin, bütün elmini mənimsəyən tələbələrinin kitablarına baxın. Biz onların içində, qəbirləri ziyarət etmək üçün, səfərlər təşkil etməyə təşviq edəcək, heç bir fəsil, bölüm və ya hədisə rast gəlmirik.*

*Bu isə İmam Şafii və onun böyük kitabı "əl-Umm", eləcə də digər kitabları. Onun heç bir kitabında, bu haqda heç bir fəsil, bölüm və ya hədis tapa bilməzsən.*

*Bu isə İmam Əhməd və onun hədislərlə dolu nəhəng Musnədi, həmçinin onun və tələbələrinin fiqh kitabları. Onların içində bu məsələ ilə bağlı heç bir qeyd belə tapa bilməzsiniz.*

*Bu isə Səhih əl-Buxari və Muslim və digər hədis topluları. Onların hamısı bu məsələnin ən kiçik qeydindən belə tamamilə uzaqdırlar.*

*Bu isə İmam Əbu Hənifə və onun tələbələri — Əbu Yusif və Məhəmməd əş-Şeybaninin kitabları. Biz onları, əvvəldən axıra qədər nəzərdən keçirdik və qəbirləri və ya məzarları ziyarət etmək üçün, səfərə çıxmaq məsələsinə aid, bir kəlməyə də rast gəlmədik.*

*Bütün səhabələr, onların tərəfdarları, eləcə də bu ümmətin fəqih və mühəddislərdən olan, imamları bu barədə bir kəlmə də danışmamalarının sirri nədir?!*

*Hər bir ağıllı insan düşünməlidir: onların hamısı Peyğəmbəri ﷺ sevmirdimi? Yoxsa bəlkə bütün bu hədislər var idilər, amma bütün imamlar bu hədisləri tamamilə alçaqcasına gizlədib basdırıblar? Sünnə əhlinin heç bir nümayəndəsi, bu camaatın imamları haqqında bu qədər pis düşünməyə cəsarət etməz.*

*Amma məsələ burasındadır ki, bütün bunlar, sadəcə qəbir əhlinin səhlənkarlığından və həmçinin cinlərdən və insanlardan olan şeytanların təhrik etməsidir, eləcə də həqiqəti yalandan ayıra bilməyən, başdan soyuqluq və ifrat arasında olan kor məhəbbətdir.*[1]

*Odur ki, bu səfər və məclislərin tərəfdarlarının, nə Quran, nə sünnə, nə səhabə sözü, nədə camaat imamının sözü ilə təsdiqlənməyən, yalan və uydurma hədislərin, köpük və tozundan başqa heç bir dəlili yoxdur. Amma onlar, öz işlərində o qədər fanatikdirlər ki, hətta onlarla birlikdə məclislərində iştirak etməyənləri, onlara qarşı çıxanları küfrdə ittiham edirlər.*

*Bütün bu sualların cavabı açıqdır: Allah Rəsulu ﷺ, sadəcə olaraq, bu qəbirpərəstlərin etdiklərinin heç birini etməmiş və heç kəsi buna təşviq etməmişdir. Üstəlik, Allah Rəsulu ﷺ qeyd etdiyimiz məhdudiyyət və qadağaların tam əksini edirdi.*

*Allah bu ümməti həqiqi İslama qayıtmağa, peyğəmbərinə ﷺ və saleh əcdadlarına tabe olmağa yönəltsin*!"[2]

---

[1] Şeyx demək istəyir ki, bütün bu amillər sufiləri və rafiziləri Allahın dinində qeyd olunmayan şeyi belə dinə daxil etməyə sövq etmişdir, üstəlik, onların hər bir etdiklərinə çoxlu qadağalar var.

[2] "Qaidə Cəlil" səh. 189–191, istinad nömrəsi 3.

FƏSİL 12

# QADINLARIN, QƏBİRLƏRİ ZİYARƏT ETMƏLƏRİ HAQQINDA

Əvvəl oxuduğumuz fəsillərdən məlum oldu ki, yaşadığınız ərazidə, qəbirləri ziyarət etmək ilə, yaşadığınız yerdən kənarda olan qəbirləri ziyarət etmək üçün səfərə çıxmaq arasında fərq var.

Məsələ burasındadır ki, ziyarətgahlara səfərlərinin təşkilatçıları, əksər alimlərin, o cümlədən imam Əbu Hənifənin, qadının yaxın qohumu olmadan, hər hansısa səfərə çıxmasını qadağan etmələrinə əhəmiyyət vermirlər, hətta bu səfər özlüyündə icazəli olsa da belə, məsələn könüllü həcc kimi.[1]

Bəs bu yol, həm də qəbir ziyarətinə gedən yol kimi, təməlindən qadağandırsa, onda nə demək olar?! Bəs bu yol, naməhrəm kişilərlə birlikdə, qət edilirsə və qadınlarla kişilərin bir yerdə qarışmasına gətirib çıxarırsa, o zaman nə demək olar?! Bu qadınların, hər il ziyarətgahlara və başqa məzarlıqlara səfər etməsinə nə demək olar?!

Bu qadınların ərləri hardadırlar, qardaşları, ataları, oğulları hardadırlar?! Həqiqətən mi onların ürəklərində qısqanclıq hissi o qədər yox olub ki, Allahın onlara qayğı göstərməsini əmr etdiyi qadınlarını, onlara tamamilə yad kişilərlə, bütün günü birlikdə keçirdikləri yerə buraxıblar?! Əgər bu səfərlərin təşkilatçıları, Allahın, Rəsulunun ﷺ, eləcə də özlərinin mənsub olduqları məzhəblərinin imamlarının, bütün

[1] Bax: "Haşiyə İbn 'Abidin" 2/465.

qadağalarından uzaqlaşaraq, abır və həyasını tamamilə itiriblərsə, onda, bu qadınların yaxınları, öz qadınları haqqında düşünməlidirlər?!

Əgər kimsə, pirlərə yalnız yaşlı qadınların səyahət etdiyini desə, cavab belə olacaq:

1. Bu yalandır, çünkü müxtəlif yaşlarda olan qadınlar, ziyarətgahlara getdiyi üçün, ən azından minimum yaş heç yerdə müzakirə olunmur.

2. Şəriət öz qadağalarını, yalnız gənc qadınlarla məhdudlaşdırmır.

3. Məhz yaşlı qadınlar utanmalıdırlar ki, yaşlarının çox olmasına baxmayaraq, ölkənin müxtəlif yerlərini keçərək, uzun səfərlərə çıxmaqdan əl çəkmirlər. Hələ bunu demirik ki, qadınlar, ziyarətgahlara sanki toya gedirlər — ziyafət paltarlarında, makiyaj və kosmetika edərək, ətirlər vuraraq, dikdaban ayaqqabı geyinərək. Və əgər bu fəsilin uzadılması qorxusu olmasaydı, şübhəsiz ki, bu əməllərin hər birinin qadağan olması barədə ayrı-ayrılıqda dəlil gətirərdik.

## BÖLÜM 1. QADINLARA, YAŞADIQLARI YERİN QƏBİRLƏRİNİ ZİYARƏT ETMƏK İCAZƏLİDİRMİ?

Bu bölümü, birbaşa təhlil etməzdən əvvəl, qeyd etmək lazımdır ki, əgər qadının qəbiristanlığa getməsi, ərinin haqqının tapdalanmasına, yaxud qadınlarla kişilərin qarışmasına səbəb olarsa, yaxud da qadın rəfiqələri ilə boş vaxt keçirmək üçün gedərsə və ya onun getməsi kişilər üçün fitnəyə səbəb olarsa, onda alimlər arasında ixtilaf olmadan, onun qəbiristanlığı ziyarət etməsi qadağandır.

Buna görə də, İmam İbn əl-Həcc əl-Maliki buyurur: "*Və bilin ki, qadınların qəbiristanlığı ziyarət etməsinə icazə verilməsi məsələsində, alimlər arasında ixtilaf yalnız səhabələr dövründə olan qadınlara aiddir. Bizim dövrümüzdə, qadının ora getməsinə gəlincə, o zaman diləyirik ki,*

*Allah etməsin ki, alimlərdən və ya mötəbərlərdən, yaxud din qeyrəti olanlardan heç olmasa bir kimsə, bunun icazəli olması haqqında danışsın*”.[1]

Həmçinin, Hənəfi məzhəbinin imamlarından olan, imam Bədruddin əl-Aini demişdir: “Bütün bunlardan çıxan nəticə budur ki, qadının qəbirləri ziyarət etməsi arzuolunmazdır, üstəlik, qadağandır, çünki onların, bu gün ora getməsi günah və fitnəyə səbəb olur”.[2]

Həmçinin, oxucu onu da bilməlidir ki, Hənəfi məzhəbindəki fikirlərdən biri də, odur ki, qadınların yaşadıqları yerin qəbirlərini ziyarət etmələri qadağandır. [3]

Lakin, qadınların qəbiristanlığı ziyarət etməsi məsələsini nəzərdən keçirsək, yuxarıda göstərilənlərdən, qadağan olunmuş heç bir şey baş vermirsə, onda ən etibarlısı, qadının qəbiristanlığı ziyarət etməsinin arzuolunan, icazəli olması barədə olan rəydir, yəni əgər bu tez-tez və ya vaxtaşırı baş vermirsə.

1. Abdullah ibn Əbi Muleykə deyir ki, bir gün Aişə Peyğəmbərin ﷺ zövcəsi qəbiristanlıqdan evə qayıdırdı və Abdullah ona dedi: “Ey möminlərin anası! Haradan qayıdırsan? — o isə ona belə cavab verdi: “Əbdürrəhman ibn Əbi Bəkrin qəbrini ziyarət edirdim”.[4]

O zaman o dedi: “Məgər Allah Rəsulu ﷺ qəbirləri ziyarət etməyi qadağan etməmişdirmi?” Aişə isə dedi ki: “Bəli, amma sonra qəbirləri ziyarət etməyə icazə verdi”. Rəvayətlərin birində isə deyilir: “Bəli, lakin sonra qəbirləri ziyarət etməyi əmr etdi”.[5]

2. Aişə demişdir: “Sonra mən, Rəsulullahdan ﷺ soruşdum: “Ölülərə (qəbiristanlığı ziyarət edərkən) nə deyim?”

---

[1] “əl-Mədhal” 1/251. Diqqət edin ki, İmam İbn əl-Həcc təxminən yeddi yüz (700) il əvvəl vəfat edib. Bu gün qadınların nə etdiyini görsəydi, o nə deyərdi?!.

[2] “Ümdət əl-Qari” 8/70.

[3] Bax, əl-Bəhr ər-Raik 2/210; “Rədd əl-Muxtar” 2/242; “Maraqi əl-Fələh” səh. 568.

[4] Aişənin doğma qardaşı.

[5] Hədis səhihdir; əl-Hakim 1/376; əl-Beyhəqi 4/78 və s.

Allah Rəsulu ﷺ ona dedi: “De: “***Ey (bu) diyarın mömin və müsəlman sakinləri! Sizə salam olsun...***”.[1]

Bu hədis, Allah Rəsulunun ﷺ Aişəyə qəbirləri ziyarət etməyə icazə verdiyinə dəlalət edir.

3. Ənəs ibn Malik demişdir: “*Bir gün, Allah Rəsulu ﷺ qəbir başında oturub, ağlayan bir qadının yanından keçdi və ona dedi*: “***Allahdan qorx və səbr et***”.[2]

Bu hədis göstərir ki, Allah Rəsulu ﷺ bu qadını, qəbirin yanında olduğuna görə məzəmmət etməmişdir, lakin səbirsizliyinə görə məzəmmət etmişdir.

4. Əbu Səid əl-Xudri rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu: “***Mən sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim, indi onları ziyarət edin, çünki bu, nəsihətdir***”.[3]

Bu hədisdə, Allah Rəsulu ﷺ qadınları qəbir ziyarətinə icazə verilənlərin, ümumi sayından xaric etməmişdir. Üstəlik, qadınların nəsihətə ehtiyacı, kişilərdən daha az deyil. Lakin qəbirləri ziyarət etmək məsələsi ilə, dəfn zamanı cənazəni müşayət etmək məsələsini, bir-birindən ayırmaq lazımdır. Peyğəmbər ﷺ qadınların cənazəni müşayət etməsini qadağan etmişdir, amma ki, o, buna qəti şəkildə israr etməmişdir.

Ummu Atiyyə dedi: “*Allahın Rəsulu ﷺ cənazə zamanı, qadınların cənazəni müşayət etməsini qadağan etmiş, lakin buna qəti şəkildə israr etməmişdir*”.[4]

Buna əsasən, cənazəni müşayət etmək, qadınlar üçün arzuolunmazdır (bəyənilmir).

---

[1] Hədis səhihdir; Muslim 3/14; Nəsai 1/286 və s.

[2] Hədis səhihdir; Buxari 3/115–116; Muslim 3/40–41; və s.

[3] Hədis səhihdir; Əhməd 3/38; əl-Hakim 1/374–375 və s.

[4] Hədis səhihdir; Buxari 1278; Muslim 938; və s.

# BÖLÜM 2. QADINA MÜTƏMADİ VƏ VAXTAŞIRI QƏBİRLƏRİ ZİYARƏT ETMƏYƏ İCAZƏ VERİLİRMİ?

Bundan əvvəlki bölümü oxuyandan sonra məlum oldu ki, qadınlara qəbirləri ziyarət etməyə icazə verilir, üstəlik, bu, arzuolunandır. Lakin bu icazə onunla məhdudlaşır ki, bu səfərlər daimi, mütəmadi xarakter daşımamalıdır.

Əbu Hureyrə dedi: "*Allahın Rəsulu ﷺ daim qəbirləri ziyarət edən qadınlara lənət etdi*".[1]

Ziyarətgahları, məqbərələri ziyarət edən qadınlar ən azı ildə bir dəfə ora getdikləri üçün məhz bu daimi, mütəmadi ziyarətlə məşğul olurlar. Onlar necə Allahın rizasını qazanmaq istəyirlər ki, Allah Rəsulu ﷺ belə qadınları lənətləmişdir.

# BÖLÜM 3. YAXIN QOHUMU (MƏHRƏMİ) YANINDA OLMADAN QADININ SƏFƏRƏ ÇIXMASI

İbn Abbas rəvayət edir ki, Allah Rəsulu ﷺ buyurdu: "***Qadın ancaq məhrəmi ilə səfərə çıxar***".[2]

Qadının məhrəmi — heç vaxt onunla evlənə bilməyən kimsədir (məsələn atası, qardaşı, oğlu, əmisi, dayısı və s.).

Bu hədis açıq-aydın göstərir ki, qadının məhrəmsiz hər hansı bir yerə səfər etməsi qadağandır. Hədisdə yaşlı və ya cavan, uzaq və ya yaxın yol, həcc ziyarətidir yoxsa deyil, bölgüsü gəlməyib.

---

[1] Hədis onu dəstəkləyən zəncirlərə görə etibarlıdır; Tirmizi 1056; İbn Macə 1576, Əhməd 8449 və s.

[2] Hədis səhihdir; Buxari 1862; Muslim 1341.

Bir günlük və ya gecəgündüz səfərin, qadağan olmasının, zahiri məhdudiyyətinin olduğu haqda, bəzi hədislərə gəlincə, bu o demək deyil ki, əgər səfər bir gündən az olarsa, qadına bu səfərə məhrəmsiz çıxmağa icazə verilir. Bu hədislər, yalnız mövcud vəziyyətlərə və suallara cavab idilər.

Hafiz İbn Həcər deyir: «Ən-Nəvəvi demişdir: "*Qadının, yol deyilən hər hansı səfərə, məhrəmsiz getməsi qadağandır. Qadağanın, müəyyən müddətlə, məhdudlaşdırıldığı hədislərə gəlincə isə, bunlar məhdudiyyətlər deyillər, mövcud vəziyyətlərə cavablar idilər*"».[1]

Buna görə də, alimlərin əksəriyyəti, o cümlədən İmam Əbu Hənifə, Şafii və Əhməd hesab edirdilər ki, qadının hətta könüllü həcc üçün olsa da belə, məhrəmsiz hər hansı səfərə çıxması qadağandır.[2]

Bundan sonra, Allaha və qiyamət gününə iman gətirən qadınlar, ziyarətgahlara məhrəmsiz necə səfər edə bilərlər, axı Allah Rəsulu ﷺ onlara buyurur: "**Qadın məhrəmsiz səfərə çıxmaz**". Bu qadınlar, dildə deməsələr də, öz hərəkətləri ilə, sanki deyirlər ki, "onsuz da gedəcəyik!". Bəs onlar, necə Allahu Təalənın onlardan razı olmasını istəyirlər?!

## BÖLÜM 4. KİŞİLƏRİN VƏ QADINLARIN, BİR YERDƏ OLMASININ, QADAĞAN EDİLMƏSİ.

Qadınlar, qəbirləri ziyarət etmək üçün, səfərə çıxdıqdan sonra, bununla da Allah Rəsuluna ﷺ asi olub, həm də bu səfərə, məhrəmsiz çıxmaqla, ona asi olub, başqa bir günaha düçar olurlar, bu da kişilərin və qadınların bir yerdə olmasıdır.

Əsas təməl kimi, qəbul edilən budur ki, qadın öz evində qalmalıdır və üzrlü səbəb olmadan evdən çıxmamalıdır.

[1] "Fəth əl-Bari" 4/97.
[2] Bax, əl-Məzhmu' 8/341; "Haşiyə İbn Abidin" 2/465.

Allah buyurur: **«Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin»** (33:33).

Allah Rəsulu ﷺ buyurur: ***"Qadın, Rəbbinin ən böyük rizasını, öz evində olarkən əldə edər"***.[1]

Bu mətnlərə əsasən, əgər qadın, həqiqətən də Allahın ondan razı qalmasını istəyirsə, o zaman öz evində qalmalı, əcdadları qarşısındakı "vəzifəsini" yerinə yetirmək üçün ölkənin ucu-bucağını gəzməməlidir. Həmçinin, şəriət yad adamların, kişilərin və qadınların yaxın olmasını pisləyir.

Əbu Hureyrə rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurdu: ***"Namazda kişilərin ən yaxşı səfləri birinci, ən pis səfləri isə axırıncı səflərdir. Qadınların isə, namazda ən yaxşı səfləri axırıncı səflər, ən pis səfləri isə birinci səflərdir"***.[2]

İmam Nəvəvi buyurur: *"Məsciddə, kişilərlə birlikdə namaz qılan qadınlar üçün, ən xeyirli səflər sonuncudur. Bu ona görədir ki, axırıncı cərgələrdə olan qadınlar, kişilərdən uzaqdırlar, onlara qarışmırlar, onları görmürlər, hərəkətlərini görmürlər və səslərini eşitmirlər"*.[3]

Görün, Peyğəmbər ﷺ hətta namaz qılarkən, kişiləri və qadınları bir-birindən uzaqlaşmağa təşviq edirdi. Namaz qılmaq, ən faydalı əməllərdəndir, bəs gərəksiz olmaqla yanaşı, həm də qadağan olan məclislərə nə deyək?!

Həmçinin şəriət kişinin yad qadına, qadının yad kişiyə baxmasını qadağan edir və ona gözlərini aşağı dikməyi əmr edir.

Allah buyurur: **«Mömin kişilərə de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini (zinadan) qorusunlar. Bu, onlar üçün daha təmiz olar. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır. Mömin qadınlara da de ki,**

---

[1] Hədis səhihdir; İbn Xuzeymə 3/93; ət-Tabarani 9/295 və s.

[2] Hədis səhihdir; Muslim 440; Əhməd 7366; Əbu Davud 678 və başqaları.

[3] Şərh Səhih Muslim 4/159.

**(harama baxmayıb) gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini (zinadan) qorusunlar»** (24:30-31).

Həmçinin, Allah Rəsulu ﷺ yad kişi və qadınların bir-birinə toxunmasını qadağan etmişdir.

Məkil ibn Yəsar rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu: ***"Sizlərdən hər hansı birinizin başına dəmir bir şişin batması, naməhrəm bir qadına toxunmasından daha yaxşı (yüngül) olar"*.**[1]

Bu cür məclislər və səfərlər təşkil edilərkən, yuxarıda göstərilən qadağaların hamısı pozulur. Və bu gün, İslamın insanlara yad olması, qadının hər cəhətdən kişiyə özünü oxşatması, o demək deyil ki, qadın günah qazanmır.

[1] Hədis onu dəstəkləyən zəncirlərə görə etibarlıdır; hədisi Beyhəki və Təbərani rəvayət etmişdir, bax "Səhih Tərgib vat-Tərhib" 2/401, 1910 - (11).

FƏSİL 13

# PEYĞƏMBƏRLƏRİN VƏ SALEH İNSANLARIN YAŞADIQLARI VƏ İBADƏT ETDİKLƏRİ YERLƏRDƏ, İBADƏT ETMƏK ÜÇÜN SƏY ETMƏK, BU YERLƏRİN AXTARIŞI VƏ DƏQİQLƏŞDİRİLMƏSİ

## BÖLÜM 1. ÜMUMİ MÜDDƏALAR

Pirlərə və digər dəfn yerlərinə, yaxud məqbərələrə və türbələrə səfər edənlər, bu yerlərdə ibadət etməyin, Allah  üçün daha çox sevimli və savab baxımından daha böyük olduğuna əmindirlər. Onlar hesab edirlər ki, əgər yaşadıqları yerin məscidində və ya evlərində, Allaha ibadət etsələr, Allahu Təalənın onların dualarını, namazlarını, tövbələrini qəbul edəcəyinə heç bir zəmanət yoxdur. Onlar iddia edirlər ki, bu torpaqlarda isə, Uca Allah onların *tövbəsini* mütləq qəbul edəcək, onları bağışlayacaq və onlardan razı qalacaq.

Onlar niyə bu cür düşünürlər? Çünki onlar hesab edirlər ki, övliyalar bu torpaqlarda yaşayıb, Allaha ibadət etdikləri və ya orada dəfn olunduqları üçün, bu "qədim" torpaqlar müqəddəsləşib, "qədim müqəddəs məscidlər" isə qeyri-adi olublar. Onların inancına görə,

salehlərin lütfü və onların ibadətlərinin lütfü bu torpaqlara, binalarının divarlarına, yerli quyuların suyuna, bulaqlara, qayalara və sair yerlərinə hopmuşdur.

Onlar hesab edirlər ki, bu qəbir və məqbərələrə toxunmaq, yaxud onların ətrafında gəzmək, bu quyulardan, bulaqlardan içmək, hətta uzun müddət sadəcə bu obyektlərə baxmaq, bu lütfün onlara keçməsinin səbəbidir, çünki bütün bunlar, onların inancına görə müqəddəsdir, bir vaxtlar məscid, ya yeraltı hücrə, ya quyu olub, ya da müqəddəs övliyalarının məzarı olub və buna görə də xüsusi möcüzəvi gücə malikdirlər.

Əgər oxucu yuxarıdakıları yaxşı başa düşübsə, indi o

bütpərəstlərin axmaqlıqlarına heyrətlənməyəcək. Bundan əvvəl, bəlkə də o, ağıllı, yetkin insanların niyə daşa və ya ağaca pərəstiş etdiyini, onlara sürtünməsini, öpməsini və sair başa düşə bilmirdi, amma indi bunun səbəbi aydın və aşkar oldu.

Odur ki, əziz oxucu başa düşməlidir ki, bu səfərlərin təşkili və davamlılığı bütöv bir xalqı, hətta bəlkə də xalqları qaranlıq, geridə qalmış bütpərəstliyə, xurafatlara və müşriklərin inanclarına qayıdışa aparacaq, onların əcdadları bir vaxtlar bu gerilikdən tövhid sivilizasiyasının işığına çıxdıqdan sonra.

Bu hadisənin qarşısını almaq üçün, bu fəsli çox yaxşı başa düşmək lazımdır.

Əvvəlki fəsillərdə, Peyğəmbərin ﷺ bədənində, Uca Allah tərəfindən ona bəxş edildiyi, fiziki bərəkət olduğunu izah etmişdik. Həmçinin, bu bərəkət, onun mübarək bədənindən ayrılan hər şeydə: tüpürcək, tər, saç kimi  şeylərdə var idi. Bundan sonra izah olundu ki, peyğəmbərlərdən fərqli olaraq, salehlər belə bir xüsusiyyətlərə sahib deyillər. Onların bədənləri, fiziki olaraq, bərəkətli deyillər və buna görə də, onlardan ətraf mühitə, heç bir bərəkət keçmir. Biz onu da başa düşdük ki, bu, saleh insanın, nə qədər böyük olmasından və salehliyinin nə qədər böyük olmasından asılı deyil. Çünki, peyğəmbərlərlə ﷺ saleh insanlar arasında, hədd var — peyğəmbərlik həddi (dərəcəsi).

Bu fəsildə, iki sualı aydınlaşdırmaq lazımdır:

1. Peyğəmbərin ﷺ fiziki bərəkəti, namaz qıldığı və ya ayağı ilə basdığı yerlərə, yada dincəlmək üçün dayandığı yerlərə, yada sadəcə keçdiyi yerlərə keçibmi?

2. Peyğəmbərin ﷺ mənəvi bərəkəti, bu yerlərə elə keçdimi ki, biz bu yerlərə getsək, bu bərəkətdən bir şey alarıq, yoxsa bu yerlərdə namaz və ya başqa ibadətlər etsək, bunun savabı daha böyük olacaq və ibadət, Allah tərəfindən daha sevimli olacaqmı?

Bu iki sualın cavabını dərk etdikdən sonra, türbə və məqbərələrə səfər edən insanların bu torpaqlarda və onların tikililərində, əcdadlarının həm fiziki, həm də mənəvi lütfünün olduğunu hesab edərək, aldanmasını anlayacağıq. Çünkü, Peyğəmbərlər və hətta onların ən böyüyü Muhəmməd ﷺ haqqında belə inancların olmasının, yanlış olduğunu başa düşdükdən sonra, aydın olacaq ki, salehlər haqqında belə inancların olması, daha da yanlışdır, hətta onlar bizim əcdadlarımız olsalar da belə.

Birinci sualın cavabı, Peyğəmbərin ﷺ bədənindən ayrılanlarla, həmçinin Peyğəmbərin ﷺ vəfatından sonra, ondan qalanlarla, səhabələrin təbərrükü haqqında olan bölümlərdə, demək olar ki, tamamilə müzakirə edilmişdir. Yalnız onu əlavə etmək qalır ki, səhabələr Peyğəmbərin ﷺ vəfatından sonra, onun əşyalarından istifadə edib təbərrük edirdilər, çünki bu şeylər, Peyğəmbər ﷺ tərəfindən istifadə edilmiş və Peyğəmbərin ﷺ fiziki bərəkəti bu şeylərdə qalmışdır. Peyğəmbərin ﷺ keçdiyi, oturduğu və ya dayanıb dincəldiyi yerlərə gəlincə, səhabələr bu yerləri axtarmadılar və onlara əhəmiyyət vermədilər, çünki onların dəqiqləşdirilməsi qeyri-mümkündür, həmçinin Peyğəmbərin ﷺ heç bir fiziki izi bu yerlərə keçməmişdir.

Ona görə də, dərhal ikinci sualın təhlilinə keçək.

Onu başa düşmək üçün, iki anlayış arasındakı fərqi başa düşmək lazımdır:

1. O yerlər ki, peyğəmbər ﷺ müəyyən ibadət növlərini, yerinə yetirmək üçün ayırmışdır və bu ibadətləri məhz bu yerlərdə yerinə yetirirdi, bizə də bu ibadətləri məhz bu yerlərdə yerinə yetirməyimiz arzuolunan və bəzən də vacibdir. Məsələn, Peyğəmbər ﷺ öz məscidinin "istivana" adlanan sütunlarından birinin yanında, müstəhəb namazı qılmağa çalışırdı. Həmçinin o, Kəbənin ətrafında təvaf etdikdən sonra, Haram məsciddə "İbrahim məqamı"-nın yanında, iki rükət namaz qılmağa çalışırdı. O həmçinin, həcc zamanı, Zilhiccə ayının doqquzuncu (9) günü, bu dağın üzərində, dayanmaq və məhz orada dua etmək üçün, Ərəfat dağına gedirdi və bu da həccin rükunlarından biridir. O həmçinin, məsciddə namaz qılanları, birinci cərgədə namaz qılmağa təşviq edirdi, gecənin son üçdə birində, namaz qılmaqla, Allaha üz tutmağa təşviq edirdi və sair. Bütün bu yerlər və vaxtlar, Peyğəmbər ﷺ tərəfindən, müxtəlif ibadətlərin yerinə yetirilməsi üçün, xüsusi olaraq təyin edilmişdir. Buna görə də, bu yerləri ibadət üçün ayırmaq, bizə də icazəlidir, hətta müstəhəbdir, bəzən isə vacibdir.

2. O yerlər ki, peyğəmbər ﷺ ibadət edirdi, lakin bu yerlərin özəlliyinə görə yox, sadəcə ona görə ki, peyğəmbər ﷺ bu yerdə olanda, namaz və ya başqa ibadət vaxtı gəlib çatmışdı. Məsələn, hərbi yürüş edərkən, hansısa bir yerdə dayanır, namaz vaxtı gələndə orada qılır, sonra isə hərəkət edirdi. Başa düşmək lazımdır ki, Peyğəmbər ﷺ bu yerdə namaz qılmaq, müstəhəb olduğu üçün deyil, sadəcə olaraq bu yerin dayanmaq üçün əlverişli yer olduğu üçün, orda namaz qılıb. Namazı isə orada qıldı çünki sadəcə olaraq, orada olduğu müddətdə, namaz vaxtı daxil olurdu. Əgər dayandığı zaman, namaz vaxtı gəlməsəydi, orada namaz qılmazdı. Bu bölgü, ondan ibarətdir ki, Peyğəmbərə ﷺ yalnız zahiri (yəni əməl tərzi ilə) deyil, həm də batini (niyyət baxımından) tabe olmaq lazımdır. Ona görə də, əgər Peyğəmbər ﷺ namazı məhz bu yerdə qılmağa səy etmədən qılıbsa, biz isə həmin namazı orada qılmağa səy edib qılacağıqsa, zahirən Peyğəmbərə ﷺ tabe olan, lakin daxilən ona zidd olanlardan olarıq.

# BÖLÜM 2. PEYĞƏMBƏRİN ﷺ İBADƏT ETDİYİ YERLƏRİ, İBADƏT ÜÇÜN TƏYİN ETMƏDİYİ HALDA, HƏR HANSISA TORPAQLARIN İBADƏT ÜÇÜN TƏYİN EDİLMƏSİNİN, QANUNİ OLMADIĞINA DAİR DƏLİLLƏR

1. Şəriət mətnlərində, buna dəlilin olmaması.

2. Səhabələrdən heç biri, bunu etməmişdir, onlar isə bu dini hamıdan yaxşı başa düşürdülər və hamıdan çox xeyrə can atırdılar.

Şeyxül-islam İbn Teymiyyə demişdir: “*Əbu Bəkr, Ömər, Osman, Əli və digər mühacir və ənsarlardan olan, səhabələr bir neçə dəfə, Mədinədən Məkkəyə həcc və ya ümrəni yerinə yetirmək üçün və ya sadəcə gündəlik işlərlə bağlı səfər etmişlər. Və onların heç birindən rəvayət olunmamışdır ki, onlar məhz Peyğəmbərin ﷺ dayandığı yerdə dayanıb, orada namaz qıldılar. Əgər onlar bunu müstəhəb hesab etsəydilər, sünnəni başqalarından daha yaxşı bildikləri və ona başqalarından daha yaxşı əməl etdikləri üçün, bunu etməyə başlayanların arasında, ilklərdən olardılar*”.[1]

3. Üstəlik, səhabələr onu sözdə və əməldə pisləyib, qadağan etmişlər.

Mə'rur ibn Sueyd demişdir: «*Bir gün, biz Ömər ibn əl-Xəttabla birlikdə səfərə çıxdıq. Yolda bir məscidə rast gəldik və insanlar orada namaz qılmaq üçün ora qaçdılar. Bu zaman Ömər dedi: “Onlara nə olub?” Onlar cavab verdilər: “Bu, Peyğəmbərin ﷺ namaz qıldığı məsciddir”. Onda Ömər onlara dedi: “Ey insanlar! Həqiqətən, sizdən əvvəlkilər, ancaq buna görə həlak oldular ki, bu yerlərdə namazgahlar tikdilər. Ona görə də, əgər namaz vaxtı gəlibsə, onu qılın, amma əgər gəlməyibsə, yolunuza davam edin*”»[2].

---

[1] “Əl-İqtida” 2/748.

[2] Xəbər etibarlıdır, Buxari və Muslimin şərtlərinə uyğundur (necə ki, Şeyx əl-Albani bunu deyib "Fədail əş-Şam" səh. 49); İbn Əbi Şeyba 2/376; İbn Vəddə əl-Qurtubi "əl-Bida" səh. 41–42.

Şeyxül-islam İbn Teymiyyə demişdir: "*Peyğəmbərin ﷺ, namaz üçün bu yeri müəyyənləşdirmədiyi, sadəcə orada dayandığı və namaz vaxtı çatdığına üçün, namazı orda qıldığına görə, Ömər belə hesab etdi ki, zahirdə Peyğəmbərə ﷺ tabeçilik, batini uyğunluq olmadan, Peyğəmbərə ﷺ tabe olmaq deyil.*

# BÖLÜM 3. QARŞI TƏRƏFİN, BƏZİ ŞÜBHƏLƏRİ VƏ ONLARA CAVAB

İslam alimlərinin böyük əksəriyyəti, Peyğəmbərin ﷺ getdiyi və ya ibadət etdiyi, lakin ibadət üçün təyin etmədiyi yerlərin, ibadət üçün təyin edilməsinin qadağan olmasından danışır.

Lakin bəzi alimlər, bu məsələdə yanılmış və bunun icazəli olması haqqında danışmışlar.[1]

Onlar öz fikirlərini dəstəkləmək üçün, aşağıdakıları qeyd ediblər:

1. Bir gün, İtban ibn Malik Rəsulullahın yanına gəlib dedi: "*Ey Allahın Rəsulu! Mənim görmə qabiliyyətim çox pisləşib və mən bu cür, öz xalqıma namazlarda imamlıq edirəm. Yağış mövsümü gələndə isə, mənimlə onların arasında vadini əmələ gəlir və mən də onların məscidinə gedib onlarla namaz qıla bilmirəm. Mən istəyirəm ki, sən yanıma gəlib, mənim evimdə namaz qılasan ki, ondan sonra mən də bu yerdə namaz qılam". Allah Rəsulu* ﷺ *ona dedi: "**Allah istəsə, sənin yanına gələcəm**". İtban dedi: "Səhəri gün Peyğəmbər* ﷺ*, Əbu Bəkrlə birlikdə yanıma gəldi, içəri girmək üçün icazə istədi və mən də ona icazə verdim. Onda o dedi: "**Evinin harasında namaz qılmağımı istəyirsən?**" Mən də ona, evin bir tərəfinə işarə etdim. O zaman Peyğəmbər* ﷺ *ayağa qalxdı, təkbir gətirdi və biz də onun arxasında dayandıq. O, iki rükət qıldı və sonra salamları verdi*".[2]

Onların gəldiyi nəticə:

"İtban Peyğəmbərdən ﷺ xahiş etdi ki, bu yerdə namaz qılsın ki, Peyğəmbərin ﷺ mənəvi bərəkəti oraya keçsin, sonra isə bu yerdə namaz qılsın.

Cavab:

---

[1] Onların arasında əz-Zərkaşi ("I'ləm us-Sacid bi əhkam il-məsacid" səh. 298); Kastalləni ("Məvahib əl-Lədaniyyə"; 2/401); əl-'Ayni ("Umdətul-Qari" 4/275).

[2] Hədis səhihdir; Buxari 1/109; Muslim 1/455.

Peyğəmbərin ﷺ bir yeri ayırmadan, təyin etmədən namaz qıldığı, sonra insanların ehtiyaclarına görə yox, sadəcə Peyğəmbərin ﷺ orada namaz qıldığı üçün məscid tikdiyi yer ilə, Peyğəmbərin ﷺ ayırıb, təyin edərək, namaz qıldığı yer arasında fərq var. Eynilə, Peyğəmbər ﷺ əl-Quba məscidinin yerini və öz məscidinin yerini təyin etmişdir.[1]

2. İmam əl-Buxari "Səhih"ində rəvayət edir ki, Peyğəmbərin səhabəsi İbn Ömər, Mədinədə məhz Peyğəmbərin ﷺ getdiyi yollarla getməyə və məhz Peyğəmbərin ﷺ namaz qıldığı yerdə namaz qılmağa çalışırdı.[2]

Cavab:

Bunu edən, yeganə səhabə, İbn Ömərdir, lakin digər səhabələr bunu etməmişlər və bəziləri bunu qadağan etmişlər ki, onların arasında onun atası, Ömər ibn Xəttab var, o isə bunu kitab əhlinə bənzəmək və onların məhv olmasının səbəbi adlandırmışdır. "Fiqhin əsasları" ("Usulul-fiqh") elmində məlumdur ki, səhabə sözü, əgər başqa səhabələrin sözü ilə ziddiyyət təşkil edərsə, o zaman o söz dəlil deyildir, tək bir səhabənin digər hər kəs ilə ziddiyyət təşkil etdiyi vəziyyət isə heç qəti dəlil ola bilməz.

Şeyxül-islam buyurur: "*Əgər məlum olarsa ki, səhabələrdən biri, digər səhabə ilə ziddiyyət təşkil edir, bu halda səhabənin sözü dəlil deyildir. Bu da elm adamları arasında yekdildir*".[3]

Üstəlik, İbn Ömər bu yerlərdə nə fiziki, nə də mənəvi bərəkət axtarmırdı. O, yalnız hər bir işdə, o cümlədən kiçik işlərdə Peyğəmbərə ﷺ tabe olmağa çalışırdı. Lakin, eyni zamanda, İbn Ömər bu məsələdə yanılmışdır və səhabələrdən heç biri onu dəstəkləməmişdir, çünki Peyğəmbərə ﷺ tabe olmaq əvvəldə izah edildiyi kimi, yalnız zahiri deyil, eyni zamanda zahiri və batini olmalıdır.

---

[1] Bax "ər-Rədd ələl-Bəkri" səh. 280.

[2] Hədis səhihdir; Buxari 1/241.

[3] "Qaidə Cəlil" 575-ci bənd.

3. Yezid ibn Əbi Ubeyd dedi: «*Sələmə ibn əl-Akva Peyğəmbər ﷺ məscidində "istivan" sütununun arxasında namaz qılmağa çalışırdı və mən ona dedim*: *"Ey Əbu Muslim! Mən fikir verdim ki, sən məhz bu sütunun yanında namaz qılmağa çalışırsan". O, belə cavab verdi: "Mən Peyğəmbərin ﷺ məhz onun yanında namaz qıldığını görmüşəm"*».[1]

Cavab:

Sələmə ibn əl-Akva'nın etdikləri doğrudur. Çünkü peyğəmbər ﷺ məhz bu sütunun yanında namaz qılmağa çalışırdı, onu ibadət üçün ayıraraq. Sələmə də bunu etdi, həm zahirdən, həm də daxildən Peyğəmbərə ﷺ tabe olaraq.

4. Allahın kəlamı: **"İbrahimin dayandığı yeri namazgah edin!"** (2:125).

Onların nəticəsi:

Allahu Təalə, Kəbənin tikintisi zamanı, İbrahim peyğəmbərin dayandığı yerin arxasında namaz qılınmasını qanuniləşdirdi. Bizim peyğəmbərimiz ﷺ isə buna daha çox layiqdir.

Cavab:

Kəbəni təvaf üçün, Ərəfat dağını, həcc zamanı, ayaq üstə durmaq üçün, Səfa və Mərvə təpələrini, onların arasında qaçmaq üçün və sair yerləri ayırdığı kimi, bu yeri, Uca Allah Özü namaz qılmaq üçün ayırmışdır. Və məzəmmət olunan isə, insanların, Allahın Özünün ibadət üçün ayırdığı yerlərdə ibadət etmələri deyil, lakin insanların, Uca Allahın ayırmadığı ibadət yerlərini seçmələridir, eyni zamanda, aləmlərin Rəbbinin dininə ondan olmayanı da əlavə etmələridir.

Bundan əlavə, bir çox müfəssirlər bu ayəni İbrahim peyğəmbərin yerinə yetirdiyi bütün həcc ayinlərini, o cümlədən bu yerin arxasında iki rükət namaz qılmağı əmr kimi şərh edirlər. Və bu ayənin təfsirindəki, bu fikri Şeyx Sədi öz təfsirində seçmişdir. Buradan belə məlum olur ki, İbrahim peyğəmbər həcc ayinlərini, təsadüfi yerlərdə yerinə yetirməyib,

---

[1] Hədis səhihdir; Buxari 1/127; Muslim 1/364.

bu işdə Allahın əmrinə tabe olaraq, onları məhz bu yerlərdə yerinə yetirib. Bundan sonra, Allahu Təalə bizə tövhid dininə tabe olmağın simvolu olaraq, İbrahimə tabe olmağı əmr etdi.

Bunlar, qarşı tərəfin istifadə etdiyi ən məşhur və ümumi şübhələrə cavablardır.

Bütün yuxarıda deyilənlərdən, Məkkəyə və ya Mədinəyə gələn və Peyğəmbərin ﷺ həyatının, bəzi anlarını, keçirdiyi yerlərə gedən, insanların səhvi aydın olur.

Bu yerlərdən, Hira mağarasının yerləşdiyi, Hira dağı (Nur dağı da deyilir). Orada, Peyğəmbər ﷺ, peyğəmbərlikdən əvvəl, Allaha ibadət edirdi. Amma o, peyğəmbər olduqdan sonra, bir daha bu dağa getmədi, nə də səhabələrindən heç biri ora getmədi.

Həmçinin bu yerlərdən, Saur dağı var ki, mağaralarından birində, Peyğəmbər ﷺ Əbu Bəkrlə birlikdə, qüreyşlilərin təqibindən gizlənirdi.

Bir çox insan bu dağlara gedir, orada Quran oxuyur, dua edir, Allahı zikr edir və sair şeylər edirlər. Onlar, bu yerlərin bərəkətli olduğunu və oradakı ibadətlərinin daha xeyirli olduğunu hesab edirlər. Eynisini, bu gün "saxta zəvvarlar" digər məzarlıqlarda edirlər.

Səhabələrə gəlincə, onlar belə yerlərə, tikililərə, xarabalıqlara laqeyd yanaşırdılar. Onlara heç bir əhəmiyyət vermirdilər, qorunub saxlanmasına əhəmiyyət vermirdilər. Üstəlik, bu "böyük tarix və memarlıq abidələri" dağıtdılar. Amma bunu, barbar və ya vəhşi, tərbiyəsiz, kobud, öz tarixinə dəyər verməyən, qara adam olduqları üçün deyil, daşdan kərpicdən çox canlı insanların sağlam ideologiyasının qorunub, saxlanması onları narahat etdiyi üçün edirdilər.

Sufi təriqətinin nümayəndələri arasından olan, müasirlərimizə gəlincə, onlar daş və kərpici qorumaq şüarı ilə xalqın gələcəyini qurban verirlər.

Elə isə barbarlıq və vəhşilik adına daha çox kim layiqdir?!

# FƏSİL 14

# DƏFN YERLƏRİNİN İBADƏT YERİNƏ ÇEVRİLMƏSİNİN QADAĞASI

## BÖLÜM 1. GİRİŞ

Əvvəlki fəsillərdə, şirkin həyata keçirilməsi və yayılmasının, bir çox mərhələlərini araşdırdıq. Pir-ocaqlarda və digər dəfn yerlərində səfərlər, görüşlər təşkil edənlərin, məqsədlərini anladıq, vasitələrini, mənbələrini anladıq. Biz, onların dəlillərini təhlil etdik və cavab verdik və fikir verdik ki, onların əməllərinin, böyük əksəriyyətində, ümumiyyətlə heç bir dəlil yoxdur. Üstəlik, müqəddəs mətnlər bu cür əməlləri edənlərə qarşı qadağalar, lənətlər və digər hədələrlə doludur. Həmçinin biz öyrəndik ki, bu insanların, Əbu Hənifə məzhəbi ilə heç bir əlaqəsi yoxdur, ancaq öz məqsədlərinə çatmaq üçün, onun arxasında gizlənirlər. Bu məqsədlə, bir çox fəsillərdə, Hənəfi məzhəbi alimlərinin mətnlərindən sitat gətirməyə çalışdıq. Biz də, bu mətnləri ona görə sitat gətirdik ki, hörmətli oxucu başa düşsün ki, onların o ifadələri ki, müşrik istəklərində onlara zidd yalnız — məzhəbsiz, vəhhabi, barbar, İmam Əbu Hənifə məzhəbinə nifrət edənlər, manqurtlar, cahillər, öz tarixini bilməyən və atalarına hörmət etməyən insanlar, ekstremistlər və fundamentalistlərdir və digər rüsvayedici adlar və qara yaxmalar, bütün bu ifadələr açıq yalan, günah və böhtandır.

Allah buyurub: **«Mömin kişiləri və mömin qadınları, etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üstünə böhtanla bərabər açıq-aydın ağır bir yük götürmüşlər»** (33:58).

Biz anladıq ki, bu insanlar, yalnız həqiqət tərəfdarlarının, istinad etdikləri, çoxlu sayda, müqəddəs mətnlərə layiqincə, elmi cavab verə biləcəkləri, heç bir dəlilləri olmadığı üçün, bu cür hücumlara və adlara əl atmağa məcburdurlar.

Üstəlik, aşkar etdik ki, məhz bunlar məzhəbsiz, barbar, məzhəb düşməni, yalançı və günahkar insanlardır. Onlar, özlərindən əvvəlki kitab əhlindən olanların, müşriklərin, yunan filosoflarının və şiə rafizilərinin, yolunu ciddi şəkildə davam etdirirlər. Onlar, bir vaxtlar bütün keçmiş, sovet məkanında, bir çox başqa yerlərdə, bütpərəst məbədlərin təşkilatçılarından, öz tərəfdarlarının istifadə etdikləri üsul və texnikadan istifadə edirlər.

Bu fəsildə, şirkin yayılmasının, başqa bir mərhələsindən də bəhs edəcəyik. Bu mərhələ ilk baxışdan, tamamilə zərərsizdir. O, bir çox əvvəlkilər kimi, İmam Əbu Hənifə məzhəbinin adı altında, yaxşı maskalanmış, örtülmüşdür, hansı ki, onların əməlləri ilə, heç bir əlaqəsi yoxdur, eləcə də yalançı və hiyləgər "Burada pis nə var?" daimi sualları ilə”.

Bu fəsildə, heç kəsi və heç nəyi Allahu Təaləya şərik qoşmadan, yalnız Ona ixlasla ibadət edən şəxsdən bəhs edəcəyik. Allahın rizası üçün çalışan, Allahı və Rəsulunu sevən şəxs haqqında. O namaz qılır, dua edir, Allahı çox zikr edir, Quran oxuyur, yalnız Allah üçün qurban kəsir. O, Rəbbinin razılığını qazanmaq üçün çalışır, Allahdan savab diləyir, Onun qarşısında imanını təmizləyir, Ona ixlasla ibadət edir, göstəriş üçün etmədən. Amma, bütün bunları dəfn yerlərində, məqbərələrdə, qəbirlərin, türbələrin yanında edir.

Hörmətli oxucudan bir daha fikir verməsini xahiş edirəm ki, bu şəxs bu qəbirlərə və oradakı salehlərə ibadət etmir, bu yerlərdə etdiyi ibadətlərin, savab baxımından daha böyük olduğunu hesab etmir. O, bu yerləri müqəddəs və bərəkətli saymır, əməllərinin mükafatını ölülərin ruhuna (*ərvaham*) həsr etmir. O, sadəcə gözəl, isti yay günündə, hamı ilə

birlikdə, ziyarətgahlara, dəfn yerlərinə gedir. Onu daha çox dincəlmək və rahatlamaq istəyi cəlb edir. O da, ola bilər ki, o, sadəcə olaraq maraqdan və bu məşhur qəsəbəyə nəzər salmaq istəyindən ora gedir. Yaxud bəlkə də o, adi bir tacirdir ki, sadəcə olaraq insanların çoxluğundan istifadə edib, aylarla qazandığından bu gündə daha çox qazanc əldə etmək istəyir. O, bu yerlərə gəldikdə, bütün müsəlmanlar kimi, namaz vaxtı gəldikdə onu yerinə yetirir, həmçinin Quran oxuyur və yuxarıda qeyd olunan digər ibadət növlərini, heç bir təhrif edilmiş inanclar olmadan yerinə yetirir.

Görək dinimiz bütün bunlar haqqında nə deyir.

## BÖLÜM 2. QƏBİR YERLƏRİNDƏ ALLAHA İBADƏT ETMƏYİN QADAĞAN EDİLMƏSİ HAQQINDA MÜQƏDDƏS MƏTNLƏR

1. Əbu Səid əl-Xudri rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu: "***Qəbiristanlıqlar və hamamlar istisna olmaqla, bütün yer üzü ibadət yeridir***"[1].

Bu hədisdən belə nəticəyə gəlirik ki, qəbir yerləri və hamamlar istisna olmaqla, istənilən torpaqda namaz və digər ibadətləri yerinə yetirə bilərik.

[1] Hədis səhihdir; Əhməd 3/83; Əbu Davud 492; Tirmizi 317; İbn Macə 745 və başqaları; Şeyx əl-Albani, Muqbil və başqaları hədisi səhih adlandırıblar. Bax "əl-İrvə" 1/320 və "Əs-Səhihul-Musnəd" 380.

2. İbn Ömər rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu: "***Evlərinizdə də namaz qılın, onları qəbiristanlığa çevirməyin***"[1].

Bu hədis, ona dəlalət edir ki, əgər insan, öz evində, nafilə namazları qılmağı tərk edərsə, evi qəbiristanlıq kimi olar, çünkü qəbiristanlıqlarda namaz qılınmır.

3. Cundub ibn Səmurə deyir ki, Allah Rəsulu ﷺ, vəfatından beş gün əvvəl belə demişdir: ***"Həqiqətən, sizdən əvvəlkilər, öz peyğəmbərlərinin və saleh insanların məzarlarını ibadətgahlara çevirdilər, lakin siz bunu etməyin, həqiqətən mən sizə bunu qadağan edirəm"*** [2].

Bu hədisdən, bir neçə nəticə çıxarmaq olar:

1) Peyğəmbərlərin və saleh insanların, məzarlarında ibadət etmək, bizdən əvvəlkilərin əməlidir. Bunun mənası budur ki, bu əməlin İslamla heç bir əlaqəsi yoxdur.

2) Bu hədisdə dəlil vardır ki, nəinki peyğəmbərlərin, heç hətta saleh insanların da qəbirləri başında ibadət etmək olmaz.

3) Peyğəmbərin ﷺ vəfatından beş gün əvvəl, ağır vəziyyətdə ikən, bu barədə danışması, bu məsələnin vacib və təhlükəli olduğuna dəlalət edir. Peyğəmbər ﷺ ölüm ayağında olanda, niyə məhz bu haqda danışdı? Çünki qəbirlərin yanında, məqbərələrdə və dəfn yerlərində, Allaha ibadət etmək təhlükəli bir haldır, bundan sonra, insanlar bu əməlisaleh insanlara ibadət etməyə keçirlər, bu isə şirkdir. Amma peyğəmbər ﷺ, məhz şirkdən çəkindirmək üçün göndərilmişdir.

4) Şirkə aparan, bütün yolların bağlanması, şəriətin mühüm məqsədidir. Buna görə də, Peyğəmbər ﷺ ölüm ayağında olmasına baxmayaraq, xəbərdarlıq etdi bu haqda.

---

[1] Hədis səhihdir; Buxari 1187; Muslim 777; Əhməd 4511, 4653, 4065; Əbu Davud 1448; İbn Macə 1377.

[2] Hədis səhihdir; Muslim 532

5) Bu hədisdə, qəbirlərin başında ibadət etməyi qadağan edən, açıq-aşkar bir qadağa var, və o da, ***"siz isə bunu etməyin"*** sözlərindən ibarətdir, sonra bu qadağa təkrarlanır ki, heç kəs bunun sadəcə arzuolunmaz olduğu qənaətinə gəlməsin: **"Həqiqətən, mən bunu sizə qadağan edirəm".** Bəs bundan sonra, necə deyə bilərik ki: "*Biz yenə də ziyarəgahlara, pirlərə gedib orada Allaha ibadət edəcəyik". Bu, bir insanın belə deməsinə bərabərdir: "Ya Peyğəmbər, sənin qadağaların, bizi heç maraqlandırmır, çünki bizim bu səfərlərdə, öz maraqlarımız var".*

6) Bu hədisdən, aydın şəkildə başa düşülür ki, qəbir yerlərində, Allaha ibadət etmək haramdır, hətta kimsə "*burada pis bir şey görməsə*" belə.

4. İbn Məsud rəvayət edir ki, Allah Rəsulu ﷺ belə buyurdu: "***Həqiqətən, insanların ən pisləri o kəslərdirlər ki, onların sağlığında Qiyamət qopacaq, eləcə də o kəslər ki, qəbirləri ibadət yerinə çevirirlər".*** [1]

Bu hədisdə, dəfn yerlərində Allaha ibadət edən insanlar, ən pis insanlar adlandırılıblar. Onlar həm də Qiyamət qopacağı zaman, sağ olan insanlarla müqayisə edildilər. Məlumdur ki, Qiyamət günü gəldiyi zaman, yer üzündə ancaq kafirlərin ən pisləri olacaqlar.

5. Aişə rəvayət edir: "Peyğəmbər ﷺ, ölümünün səbəbi olan, xəstəliyə tutulduqda, zövcələrindən bəziləri, ona Efiopiyada gördükləri bir kilsəni xatırlatdılar, onun adı "Məryəm" idi.

Ummu Sələmə və Ümmü Həbibə, bir vaxtlar Efiopiyada olmuşdular. Onlar bu kilsənin gözəlliyindən və içindəki təsvirlərdən bəhs etdilər. Bunu eşidən Allah Rəsulu ﷺ buyurdu: "***Həqiqətən, onların arasında, salehlərdən biri vəfat etdikdə, onun qəbrinin üstündə bir məscid***

[1] Hədis yaxşıdır; Əhməd 4143; İbn Hibban 6847; İbn Xuzeymə 789 və başqaları.

***tikdirdilər*[1]*, sonra onun surətlərini oraya qoyurdular. Həqiqətən, onlar qiyamət günü, Allah yanında məxluqların ən pisidirlər”*[2].[3]

Bu hədisdən, aşağıdakı nəticələr çıxarmaq olar:

1) Saleh insanların qəbirləri üzərində, məscid tikmək qadağandır. Bu qadağaya qarşı çıxan və qəbiristanlıqda məscid tikən hər kəs, Qiyamət günü Allah qarşısında ən pis məxluq olacaqdır.

2) Canlıları təsvir edib və onları (təsvirləri) məscidə gətirmək ən böyük günahlardandır.[4]

3) Qəbir yerlərində ibadət qadağası, təkcə peyğəmbərlərin qəbirlərinə aid deyil, bu həm də peyğəmbərlərdən səviyyə baxımından aşağı olan bütün insanların qəbirlərinə aiddir.

6. Aişə (Allah ondan razı olsun) demişdir: “*Rəsulullah ﷺ can üstə olanda, üzünə örtü örtməyə başladı. Ondan boğulmağa başlayanda onu atırdı qırağa. Və bu vəziyyətdə olarkən, o demişdir:* ***“Allahın lənəti yəhudi və xaçpərəstlərin üzərinə olsun, çünki onlar öz peyğəmbərlərinin qəbirlərini ibadətgaha çevirmişlər”.*** *Bununla da o, bu əmələ qarşı xəbərdarlıq edib. Əgər onun bu sözləri olmasaydı, onun qəbri açıq qalardı, lakin səhabələr, insanların onun qəbri üzərində ibadət etməyə başlamalarından qorxurdular*”[5].

Hafiz İbn Həcər demişdir: «*Bu hədisdə, xristianların qeyd edilməsi, bəzi alimlərdə çaşqınlıq yaratdı. Çünki yəhudilərin, peyğəmbərləri olub, xristianlara gəlincə, İsa ilə Peyğəmbərimiz arasında peyğəmbərlər olmayıblar, İsanın isə qəbri yoxdur.*

---

[1] İbadətgah nəzərdə tutulur - dini mərasimlərin keçirildiyi tikili.

[2] Həqiqətən də, qəbirlər üzərində kilsə tikmək, xristianların ən məşhur adətlərindən biridir. Bunu sübut etmək üçün, dünyanın ən böyük kilsəsini - Vatikandakı Pyotr kilsəsini misal çəkmək kifayətdir. Kilsə, Pyotrun qəbri üzərində və qədim Roma qalıqları üzərində tikilmişdir.

[3] Hədis səhihdir; Buxari 427; Muslim 528.

[4] Bu, canlıların fotoşəkilləri və təsvirləri ilə dolu müxtəlif “müsəlman” qəzetlərini məscidlərə paylayanlara da aiddir.

[5] Hədis səhihdir; Buxari 435; Muslim 531.

*Buna aşağıdakı kimi cavab vermək olar: ya onların arasında, elçilərdən başqa peyğəmbərlər var idi, məsələn, İsanın səhabələri və ya Məryəm (bir fikrə görə)*[1] *və ya "peyğəmbərlər" sözü məcazi mənada işlənir və burada peyğəmbərlər və onların əsas davamçıları nəzərdə tutulur. Sonuncu rəyi, Cundubun hədisində, Peyğəmbərin ﷺ sözləri təsdiq edir: "Onlar öz peyğəmbərlərinin və saleh insanların məzarlarını ibadət yerinə çevirdilər". Buna görə də, Peyğəmbər ﷺ xristianlar haqqında danışarkən: "Onlardan, saleh hər hansı biri vəfat etdikdə" demişdir, yəhudilər haqqında danışarkən isə: "Peyğəmbərlərinin qəbirləri" demişdir. Həmçinin, cavab vermək olar ki, xristianlar yəhudilərin ucaltdıqları peyğəmbərlərin çoxunun qəbirlərini ucaldırlar»*[2].

Hədisdən gələn nəticələr:

1) Qəbir yerlərində, Allaha ibadət etməyə başlayan, hər kəs Allahın lənətinə layiqdir.

2) Peyğəmbər ﷺ can verərkən, insanların onun qəbrinin başında, Allaha ibadət etməyə başlamalarından və ya onun üzərində məscid tikmələrindən qorxduğu üçün, bu barədə xəbərdarlıq edirdi. Bu məsələnin əhəmiyyətinə fikir verin. Çünkü Peyğəmbər ﷺ əvvəllər dəfn yerlərində, Allaha ibadət etməyin haram olduğunu onlara dəfələrlə izah etmiş, ölümündən beş gün əvvəl, bunu səhabələrinə təkrar etmiş, sonra can verərkən bu barədə danışmışdır.

Hafiz İbn Həcər demişdir: "*Peyğəmbər ﷺ sanki bu xəstəlikdən sağalmayacağını bilirdi və onun qəbrinin, əvvəlkilər kimi ucaldılmağa başlayacağından qorxurdu. Buna görə də o, yəhudiləri və xristianları lənətlədi, bununla da onlara tabe olanların ardınca gedənləri məzəmmət edərək"*.[3]

3) Bunun təhlükəsini dərk edən səhabələr, Peyğəmbəri ﷺ insanların gedə biləcəyi, açıq qəbiristanlıqda dəfn etmədilər, onu düz

[1] Bu fikir səhvdir.
[2] "Fəth əl-Bari" səh. 435. Və bu üçüncü rəy ən düzgündür.
[3] Bax, Təhzir əs-Sacid, səh. 18.

Aişənin otağında dəfn etdilər. Bununla da, onun məzarına, insanların girişini əngəllədilər.

Allaha and olsun ki, səhabələrin etdikləri və dini necə başa düşdükləri ilə, sufi və rafizilərin etdikləri və dini necə başa düşdükləri arasındakı fərqi görməmək üçün kor olmaq lazımdır! Allah bu “din xadimlərinə” Allah qorxusunu tapmağa və etdiklərini durdurmağa kömək etsin!

7. Əbu Hüreyrə rəvayət edir ki, Allah Rəsulu ﷺ buyurdu: ***“Allahım! Qəbrimi ibadət olunan bütə çevirmə. Peyğəmbərlərinin qəbirlərini ibadət yerinə çevirən insanlara, Allah lənət etdi”***.[1]

Ata ibn Yasərdən oxşar bir hədisdə isə: “*Allahın o insanlara qarşı qəzəbi artdı...*”.[2]

Bu hədis, açıq şəkildə göstərir ki, qəbrin bütə çevrilməsi, insanların onun ətrafında Allaha ibadət etməyə başlaması ilə olunur, qəbrin özünə sitayiş edənləri isə hələ heç demirik.

## BÖLÜM 3. NƏ ÜÇÜN ALLAH VƏ RƏSULU ﷺ, QƏBİRLƏRİN YANINDA ALLAHA İBADƏT ETMƏYİ QADAĞAN EDİBLƏR?

Yəqin ki, oxucu bu məsələdə Peyğəmbərin ﷺ ilk baxışdan təəccüblü sərtliyinə və Allahu Təalədən gələn hədələrin dərəcəsinə diqqət edib. Bəs nə üçün, bir insan dində ixlaslı olaraq, yalnız Allaha ibadət etməsinə baxmayaraq, Peyğəmbər ﷺ onu lənətləmiş, onu ən pis insanlardan biri adlandırmış, bundan sonra onu Qiyamət günü, Allah qarşısında ən pis məxluq adlandırmış, Allahın ona qarşı qəzəbinin artdığını izah etmiş və sair sözlər demiş onun haqqında?

---

[1] Hədis yaxşıdır; Əhməd 2/246; İbn Səd Təbəqatda 2/241–242; əl-Humeydi 1025 və başqaları.

[2] Xəbərin isnadı güclüdür; Malik “Muatta” 1/172.

Bu ona görədir ki, Uca Allahın şəriəti, uzaq gələcəkdə, belə şirkə aparan bütün yolları hər cür bağlayır.

İmam İbn Qeyyim demişdir: "*Ümumiyyətlə, şirkin nə olduğunu, onun səbəblərinin nə olduğunu, hansı yolların ona apardığını anlayan və Allah Rəsulunun əmr və qadağaları ilə nə demək istədiyini anlayan şəxs, mütləq deyəcək ki, bütün bu sərtlik, lənət və qadağalar, sadəcə dəfn yerlərinin natəmiz*[1] *yerlər olduğuna görə deyil, bunun səbəbi şirkin natəmiz olmasıdır. Bütün bunlar, tövhidin sərhədlərini qorumaq üçündür ki, şirk ona qoşulub onu örtməsin*".[2]

Şeyx Süleyman ibn Abdullah demişdir: "*Həmçinin bu sərtliyi, şirk qorxusu ilə izah edənlər arasında İmam Şafii, Əbu Bəkr əl-Əsram, Əbu Məhəmməd əl-Məqdisi, Şeyxül-islam İbn Teymiyyə və başqaları var. Bu, heç bir şübhə olmayan həqiqətdir*".[3]

Bölümün sonunda, bir daha oxucunun diqqətini vacib bir təfsilata çəkmək istərdik. Bütün bu təhdid və qadağalar, tövhiddə olan və qəbirlərin yanında ibadətin Allah tərəfindən daha sevimli olduğuna, bu qəbirlərin bərəkətli olduğuna, yaxud bu ölülərin onu eşitdiyinə dair, heç bir yanlış inancı olmayan, tövhidi qəbul edən bir insana aiddir.

Burada açıq-aşkar şirk barədə demirik hələ, məsələn, qəbirləri ucaltmaq və ya bu saleh insanın Allah yanında, onun şəfaətçisi olduğuna inanmaq və sair. Bütün bunlar — təkcə qəbir başında, Allaha ibadət etməklə kifayətlənməyib, bu yerləri ziyarət etməyə insanları çağırmaqla məşğul olanları, bu səfərləri təşkil etməklə, bu yerlərin qorunub saxlanmasının qayğısına qalmaqla, insanlara bu əməlin mahiyyətini izah edənlərə fiziki və mənəvi təzyiq göstərənləri — demədəndir hələ. Bunu, bütün ömürlərinin işi hesab edərək, şirki bərqərar etmək yolunda gücünü, enerjisini, vəsaitini sərf edənləri hansı cəza gözləyir?!

---

[1] İmam İbn Qeyyim bu haqda ona görə danışır ki, çünki alimlərdən bəziləri, qəbirlərin natəmiz yerlər olduğu üçün, qəbirlərin yanında Allaha ibadət etməyin qadağan olduğu fikrini söyləmişlər.
[2] "İqasət əl-Ləhəfan" 1/296–297.
[3] "Taysir əl-Əziz əl-Həmid" səh. 3209

# BÖLÜM 4. DƏFN YERLƏRİNİ İBADƏT YERİNƏ ÇEVİRMƏK NƏ DEMƏKDİR?

Qəbirlərin ibadət yerinə (məscidə) çevrilməsi, özündə üç məna daşıyır:

1) Bu yerlərdə, Allaha səcdə etmək (səcdə və ya namaz).

2) Bu yerlərdə, hər hansı digər ibadət növlərini (Allahı zikr etmək, Quran oxumaq, qurban kəsmək və sair) etmək.

3) Bu yerlərdə, ibadət evləri olan məscidlər tikmək.

Bu mənaların üçü də, qəbrin üstündə ayaq üstə və ya oturaraq, yaxud qəbrə tərəf dönərək, yaxud qəbrin yanında ibadət edənlərə aiddir.

Bu bölgü üçün dəlillər, bu fəslin sonrakı bölümlərində ayrı-ayrı gələcək.

# BÖLÜM 5. İSTƏR MƏSCİD OLSUN, İSTƏRSƏ DƏ BAŞQA BİR ŞEY OLSUN, QƏBİR ÜZƏRİNDƏ HƏR HANSI BİR ŞEYİN UCALDILMASININ QADAĞAN OLMASI HAQQINDA

## 1. Qəbirin hündürlüyünün səviyyəsi

Şafiilərdən başqa, bütün dörd məzhəbin alimləri, qəbrin özündən çıxan torpaq istisna olmaqla, qəbrin üstünə torpaq tökməyin arzuolunmazlığını bildirmişlər.

Hənəfi məzhəbinin alimlərinə gəlincə, onlar yalnız məkruh olduğunu deyil, hətta bunun qadağan (haram) olmasını bildirmişlər. [1]

Və bu məsələdə, Hənəfi məzhəbinin alimlərinin rəyi ən düzgündür. Yəni qəbir qazıldıqdan və mərhum ora qoyulandan sonra, yalnız qəbir qazılan zaman, oradan çıxan torpaq qəbirə doldurulur və bu torpağa, heç bir kənar torpaq qatılmır. Bu halda, qəbrin yerdən hündürlüyü, təxminən 20-25 sm (şibr) olacaq. [2]

Yer səviyyəsindən yuxarı əmələ gələn yüksəklik, mərhumun qoyulduğu çuxur (ləhed) qazıldıqdan sonra qalan, torpağın tökülməsi səbəbindən baş verir.[3]

Qəbri, şibrdən artıq qaldırmağı qadağan edən dəlillərə gəlincə, bunlar aşağıdakılardır:

1. Cabir ibn Abdullah demişdir: "Allahın Rəsulu ﷺ qəbrin üzərində tikili tikməyi, eləcə də onun torpağına yad torpaq qatmağı, həmçinin qəbri qips ilə örtməyi qadağan etmişdir".[4]

2. Sumamə ibn Şuffey demişdir: "Bir dəfə biz, Fudeyl ibn Ubeydlə birlikdə Rodosda, Rum torpağında idik. Biz orada qaldığımız müddətdə, səhabələrimizdən biri dünyasını dəyişdi. Onda Fudeyl ibn Ubeyd, qəbri yerlə bir (düz) etməyi əmr etdi və dedi: "Mən Allah Rəsulunun ﷺ qəbirləri yerlə bir (düz) etməyi əmr etdiyini eşitmişəm".[5]

3. Əbu əl-Xəyyac əl-Əsədi rəvayət edir ki, Əli ibn Əbu Talib ona dedi: "*Rəsulullahın ﷺ məni göndərdiyi tapşırıq ilə məndə səni göndərimmi? O,*

---

[1] "Rədd əl-Muxtar" 2/236.
[2] Açılmış ovucun kiçik barmağı ilə baş barmağı arasındakı məsafə.
[3] "Kəşf əl-qənə" 2/140-da Bəhutinin sözləridir.
[4] Hədis səhihdir; Muslim 970; Nəsai 2154; Əbu Davud 3226; Beyhaki 6735.
[5] Hədis səhihdir; Muslim 968; Əbu Davud 3219; Nəsai 2029; Əhməd 1/18.

*məni göndərmişdir ki, dağıtmadığın bir timsal (şəkil, büt) və yerləbir etmədiyin hündür bir qəbir buraxmayım*”. [1]

[1] Hədis səhihdir; Muslim 969; Əbu Davud 3218; Tirmizi 1049; Nəsai 2030; Əhməd 1/96, 124.

Bu hədisdə, qəbirlərin icazəsiz, kimsə tərəfindən dağıdılmasına və yerləbir edilməsinə dair, heç bir dəlil yoxdur. Bu hədisin başa düşülməsi, Peyğəmbərin ﷺ bu hədisinə qayıdır: “***Sizlərdən kimsə hər hansı qınanılan bir şey görsə, onu əli ilə düzəltsin, əgər bacarmırsa, dili ilə, dili ilə də edə bilmirsə, qəlbi ilə (qınasın). Bu da imanın ən zəif şəkildə özünü göstərməsidir***” (Müslim “Səhih”, 49). Şeyx Saleh ibn Fövzan əl-Fovzan, bu hədisin şərhində belə demişdir: “Bu o deməkdir ki, müsəlmanlar üç qrupa bölünür:

1. Elm və səlahiyyəti olan şəxs, məzəmmət olunanı öz əli ilə dəyişdirə bilər. Bu şəxslərə, müsəlman dövlətinin hakimiyyət orqanları tərəfindən, insanları yaxşılığa sövq etmək və pislikdən çəkindirmək üçün, təyin olunan hökmdarlar və məmurlara aiddir. Belə insanlar, şəriətin hikmətli və qanuni üsullarından istifadə edərək, məzəmmət olunandan çəkindirməyi bacarırlar.
2. Elmi olan, amma səlahiyyəti olmayan şəxs, məzəmmət olunandan söz ilə çəkindirə bilər, insanlara şəriətin icazəli, haram, bəyənilən və məzəmmət olunanın hökmlərini izah edərək, onları bəyənilən işlərə sövq edib və pis işlərdən çəkindirərək, onlara doğru yolu göstərib, öyüd-nəsihət verərək.
3. Nə elmi, nə də səlahiyyəti olmayan, lakin müsəlman olan şəxs, məzəmmət olunanı, qəlbi ilə qınamalı və nalayiq iş görən insanlardan uzaq durmalıdır ki, ona təsir etməsinlər”. Bax: “Müsəlman ilahiyyatçılarının, zəmanəmizin çağırışlarına cavabları”, Muhəmməd ibn Hüseyn ibn Saad əl-Sufran əl-Qəhtani, ümumiyyətlə Səudiyyə Ərəbistan Krallığının Böyük İlahiyyatçılar Komitəsinin üzvü Şeyx Saleh ibn Fövzan əl-Fövzan tərəfindən redaktə edilmişdir. Küveyt, 2008.

Bu hədis, belə bir işin hökmdar və onun müavinlərinin müstəsna hüququ və səlahiyyəti olduğuna dəlalət edir. Eləcə də birinci hədisdə də belə bir işin ancaq hökmdarın əmri ilə yerinə yetirilməsinə işarə var, necə ki, Əlinin bu sözləri: “Rəsulullahın ﷺ məni göndərdiyi tapşırıq ilə səni də göndərimmi?”

O ki qaldı nə fayda, nə zərər məsələsini bilməyən, hətta qəbirləri yerləbir etmək əmri ilə bağlı hədisləri lazımınca öyrənməyən, düzgün başa düşməmələri ucbatından insanların məzarlarını dağıdan, bəzi cahil müsəlmanlar tərəfindən törədilən əməllərə gəlincə, bu şəriətə uyğun gəlmir və ziddir, çünki islamda anarxiya və özbaşına cəzalandırma üçün yer yoxdur. Allah isə daha yaxşı bilir.

İmam əş-Şəvkani demişdir: “*Bu hədis, qəbri hündür etməyin, sünnə olmadığına dəlalət edir. Həmçinin, qəbirdə kimin dəfn olunmasının fərqi yoxdur – istər hörmətli bir insan və ya hörmətsiz biri olsun. Bu hədisin açıq-aydın mətni də həmçinin dəlalət edir ki, qəbrin səviyyəsini, icazə verilən səviyyədən yuxarı qaldırmaq yasaqdır (haramdır)*”.[1]

Bəzi azğın qəbirpərəstlərə gəlincə, onlar iddia edirlər ki, Peyğəmbər ﷺ Əlini (əleyhissalam) bu tapşırıq ilə, kafirlərin ölkələrinə göndərib ki, müsəlmanların qəbirlərini deyil, kafirlərin qəbirlərini yerləbir etsin. Bu iddia yalandır və heç bir əsası yoxdur. İmam Əhmədin istinad etdiyi bu hədisin rivayətlərindən birində, Peyğəmbərin ﷺ onu Mədinənin ətrafına göndərdiyinə işarə edilir.

4. Müaviyə demişdir: “*Qəbirlərin yerləbir edilməsi — sünnədir. Onların ucaldılmasına gəlincə, bu əməl yəhudilərin və xaçpərəstlərin etdikləridir, siz də onlar kimi olmayın*”.[2]

5. Həmçinin, Osman ibn Əffandan rəvayət olunur ki, “*o, qəbirləri yerdən şibra hündürlüyünə qaldıraraq, yerləbir etməyi əmr etdi*”.[3] Ona, qəbirlərdən birini göstərib, onun qızı Ümmü Amrın qəbri olduğunu söylədikdə, Osman ibn Affan, qəbri yerləbir etməyi əmr etdi.[4]

6. ‘Amr ibn Şərəhbil demişdir: “*Mənim qəbrimi ucaltmayın, həqiqətən, mən mühacirlərin bunu məzəmmət etdiklərini gördüm*”.[5]

Yuxarıdakı bütün hədis və xəbərlərdən belə məlum olur ki, Peyğəmbər ﷺ və ya onun səhabələri uca bir qəbir görəndə və ya onun var olduğundan xəbər tutanda, onu elə düzəldirdilər ki, onun yerdən yuxarı səviyyəsi *şibrə* yaxın olsun. Əgər bu qəbirlər uzaqda olsaydı,

[1] “Neyl əl-Avtar” 4/131.
[2] Hafiz əl-Heysəmi demişdir: “Onun rəvayətçiləri səhih məcmuənin rəvayətçiləridir” (bax: “Məzmə’ əz-Zəvaid” 3/60); Təbərani əl-Kəbirdə 19/352 (823).
[3] İbn Əbi Şeybə 3/222; İbn Həzm əl-Muhəllada 5/133.
[4] İbn Əbi Şeybə 4/138.
[5] Bu xəbər səhihdir, bunu Şeyx əl-Albani Təhzir əs-Sacid səh. 131; İbn Səd Təbəqatda 6/108-də təsdiq etmişdir.

Peyğəmbər ﷺ səhabələrindən bəzilərini onları yerləbir etmək üçün göndərərdi.

Ziyarətgahlara və digər məzarlıqlara, səfər təşkil edənlərə, Allah Rəsulunun ﷺ əmrinə tabe olmağa, üstəlik, bu işdə öz məzhəblərinə tabe olmağa nə mane olur?! Bəs bu dəfn yerlərini qorumağa və yararsız vəziyyətdə saxlamağa onları vadar edən nədir?! Onlar, bu işdə qəbirlər üzərində tikililər ucaltmaq adətinin banisi olan, rafizi şiələrinin yolu ilə gedirlər. Məhz onlar, müsəlmanlar arasında bu pis adəti tətbiq etmiş, insanları qəbiristanlıqlara, məqbərələrə, türbələrə sövq etmiş, bununla da məscidləri – Allahın evlərini boşaltmışlar. Hicrətin 549-cu ilində, Qahirədə Hüseynin məqbərəsini tikdirən də məhz onlar idilər. Müxtəlif sufi təriqətlərinin nümayəndələri, bu pis adətdə rafizilərə tabe olmuş və onu müsəlmanlar arasında çox yaymışlar.

Qəbirlərin həddən artıq ucaldılmasının haram edilməsinə gəlincə, bu qadağa, qəbirlərin ucaldılmasına görə, insanların pərəstişinə səbəb olmasındandır, çünki bu öz növbəsində şirkə gətirib çıxarır. Məhz buna görə də, Allahu Təalə şirk qapısını bağlayaraq, tövhidin əsaslarını gücləndirərək, bu qadağanı təyin etmişdir.

## 2. Qəbirlər üzərində, hər hansı tikililərin tikilməsi

1. Cabir ibn Abdullah demişdir: "*Allahın Rəsulu ﷺ qəbrin üstündə tikili tikməyi qadağan etmişdir...*".[1]

Bu hədis, hər hansı bir qəbir üzərində, tikili tikməyin qadağan olmasına dəlalət edən, açıq bir dəlildir. Bu hədisin qadağanı, qəbrin kənarlarına yaxın tikinti tikənlərə, eləcə də qəbrin ətrafında, hər hansısa bir şey tikənlərə aiddir. Misal üçün, günbəzlər, məscidlər, məqbərələr və

[1] Hədis səhihdir; Muslim 970; Nəsai 2154; Əbu Davud 3226; Beyhak 6735.

türbələr tikilir, bundan sonra qəbir tikilinin içərisində qalır, ya da ki, onun yanında olur.[1]

2. Əbu Hureyrədən rəvayət olunur ki, o, vəsiyyət edib ki, qəbrinin üstündə heç bir şey ucaltmasınlar.[2]

3. İmam əl-Buxari "Səhih"ində "müəlləq"[3] şəklində, bir xəbər nəql edir ki, İbn Ömər, Əbu Bəkr əs-Siddiqin oğlu Əbdürrəhmanın qəbri üzərində çadır[4] görüb dedi: "*Götürün onu, həqiqətən, ancaq onun əməlləri onu kölgələndirəcək*".

4. Muhəmməd ibn Kəbdən rəvayət olunur ki, o demişdir: "*Bu qəbirlərin üzərində olan, bu tikililər - bidətdir*".[5]

Bütün bu hədislərə və xəbərlərə əsaslanaraq, məlum olur ki, İslamda qəbrin üzərinə, hər hansı bir şey quraşdırmaq, qəti şəkildə qadağandır, istər hasar və ya çadır, abidələr, mərmər plitələr olsun. Həmçinin, hörmətli və şərəfli insanların (əmirlər, xanlar və sair kimi) dəfn edildiyi və ya sıravi insanların dəfn edildiyi qəbirlərə ayırmadan, qəbirlər üzərində böyük və ya kiçik, hər hansısa tikili tikmək qadağandır.

## 3. İslam alimlərinin yekdil rəyi budur ki, qəbirlər üzərində ucaldılan hər hansı tikili dağıdılır.

Yuxarıda, qəbirlər üzərində hər hansı tikili ucaltmağın qadağan olunmasından danışdıq.

Burada qeyd etmək lazımdır ki, İslam alimləri arasında, qəbirlərin üstündə olan, hər hansı bir tikilinin, istər qədim, istərsə də müasir

[1] Bax, "Şərh əs-Sudur fi təhrim rafi əl-kubur" İmam əş-Şəvkani səh. 29.
[2] Xəbərin isnadı səhihdir; 'Abdurrazzaq 3/418; 6129; İbn Əbi Şeybə 4/135; İbn Səd 4/338.
[3] Yəni bütün xəbər zəncirini qeyd etmədən.
[4] Günəş qəbri yandırmasın deyə, dəfn olunanın şərəfinə belə etdilər.
[5] İbn Əbi Şeybə 3/218.

olmasından asılı olmayaraq, mütləq şəkildə, dərhal dağıdılması ilə bağlı ixtilaf yoxdur.

Burada, qəbirlərin üstündə yerləşən hər hansı tikililərin, istər məqbərələr, günbəzlər, türbələr və sair şeylərin dərhal dağıdılmasının, zəruriliyi haqqında aydın və birmənalı şəkildə danışan, Hənəfi məzhəbi imamlarının sözlərinin, açıqlamasını təqdim edəcəyik. Bu sözləri, ona görə təqdim edirik ki, pirlərə-ocaqlara və ya digər məzarlıqlara səfər və məclis təşkil edənlər bilsinlər ki, onların mənsub olduqları, Hənəfi məzhəbi, onları istər qədim, istərsə də müasir tikililəri dağıdmağa vacib edir. Bu istər məscidlər, istərsə də dəfn yerlərində tikilən türbələrə də aiddir. Bütün bunlar, insanların sağlam, normal ideologiyasını qorumaq, regionun müsəlman xalqlarının gələcək, sağlam inkişafına ümidləri qorumaq üçün vacibdir. Hər kim, Uca Allahın məscidlərin dağıdılmasını əmr etməsinə təəccüblənirsə, bu məscidlər, Uca Allah tərəfindən tikilməsi qadağan edilmiş yerlərdə tikiliblər. Onlar, Allaha və Rəsuluna ﷺ asilik əsasında tikiliblər.

İmam əl-Bərqavi, sonuncu bölümdə, istinad etdiyimiz hədislərə istinad etdikdən sonra buyurdu: “*Bu müqəddəs mətnlərdə, qəbirlər üzərində tikilmiş hər şeyin, hətta məscid olsa da belə, məhv edilməsinin zəruriliyi ilə bağlı dəlil var. Axı İslamın onlarla bağlı hökmü, onların tamamilə məhv edilməsidir. Qəbir üzərində tikilmiş heç bir məscid tamamilə yerləbir edilmədən qalmamalıdır, çünki bu məscidlər Allah Rəsuluna ﷺ asilik əsasında tikilmişdir. Allah Rəsulu ﷺ qəbir yerlərində, hər hansı tikili tikməyi qadağan etdi və onların üzərində məscid tikənləri lənətlədi. O həmçinin, ucaldılmış qəbirləri, yerləbir etməyi əmr etdi. Buna əsaslanaraq, Allah Rəsulunun ﷺ tikilməsini qadağan etdiyi və bu tikililəri ucaldanı lənətlədiyi,hər şeyi tez məhv etmək vacibdir. Həqiqətən, qəbir yerlərində, bu tikililəri tikən şəxs, Allah Rəsulunun ﷺ*

*lənəti ilə lənətlənmişdir. Allahu Təalə, Öz dininə və Rəsulunun sünnəsinə kömək və himayə edənləri, mütləq bərqərar edəcəkdir*”.[1]

Oxşar sözləri, Hənəfi məzhəbinin digər alimləri, o cümlədən Əhməd ibn Məhəmməd ər-Rumi[2], Məhəmməd əl-Müzəffari[3], Sübhan Bəxş əl-Hindi[4], İbrahim əs-Sürati[5], Şah Vəliyullah əd-Dəhləvi[6] da ifadə etmişlər.

Həmçinin, Hənəfi məzhəbinin ən böyük imamlarından olan, İbn Əbil-‘İzzul-Hənəfi qəbirlər üzərində məscid, türbə və günbəz tikilməsinin qadağan edilməsindən və qəbirlər üzərində olan hər şeyin, dərhal məhv edilməsinin vacibliyindən danışmışdır.[7]

Bağdadın Hənəfi müftisi İmam Mahmud əl-Əlusi (hicri 1270) də bu barədə danışmışdır.[8]

Oxşar sözlərə İmam əl-Xucəndi[9] və İmam ər-Ribatidə[10] də rast gəlinir.

Şafii məzhəbinin imamlarından olan, İmam ən-Nəvəvi də, dəfn yerlərində hər hansı tikilinin dağıdılması və məhv edilməsi zərurəti barədə yekdil fikir bildirib. [11]

İmam Şafiinin özü belə demişdir: “*Mən Məkkə hökmdarlarının, qəbirlərin üzərində mövcud olan tikililəri necə məhv etdiklərini gördüm və eyni zamanda, bu hökmdarların etdiklərini məzəmmət edən bir alim görmədim*”.[12]

[1] “Ziyarət əl-Kubur” səh. 49–51 (Dar əl-İfta nəşriyyatı).
[2] Bax, əl-Məcalis əl-Əbrar, səh. 128–129.
[3] Bax: “Misbah əl-möminin”, səh. 16-18.
[4] Bax: “Xəzinət əl-Əsrar”, səh. 128.
[5] Bax, Nəfais əl-Əzhər, səh. 159–160.
[6] Bax “əl-Bəlyağ əl-Mubin” səh. 16-19.
[7] Bax, “Şərh ‘əqidə ət-Tahaviyya”, səh. 21-22 (tərc. “Dar əl-Bəyan”).
[8] Bax, Ruh əl-Məani 15/237–239.
[9] Bax, əl-Müşəhadət səh. 27.
[10] Bax “Aqd al-ala” səh. 104–105.
[11] Bax, əl-Məcmu' 5/266.
[12] Bax, əl-Umm 1/464.

Yeri gəlmişkən, bir vaxtlar İmam Şafiinin qəbri üzərində də günbəz ucaldılmışdı, amma alimlər onun dağıdılmasının zəruriliyi barədə fətvalar vermişdilər.

Əgər hörmətli oxucu belə tikililərin çoxluğuna təəccüblənirsə ki, hətta imamların məzarları belə onların üzərində tikililərin və günbəzlərin ucaldılmasından qorunmursa, bilsin ki, bu tikililəri İslam alimləri ilə apardıqları mübarizədə, heç nədən çəkinməyən sufilər və rafizilər tikirlər. Sufilər həmişə hiyləgərlikləri ilə tanınıblar. Onlar hakimiyyət sahiblərinin qarşısında, hörmət qazanıb, istədikləri hər şeyi etmək üçün, hər cür alçaqlıq və yaltaqlıq işlədirlər. Bunlar alçaq, rəzil və yalançı insanlardır ki, hər zaman üzlərinə rəzil xislətlərini, başqalarından gizlədəcək, uyğun maska taxmağa hazırdırlar. Və bunlar sadəcə iki üzlü insanlar deyil, iyirmi üzlü insanlardır. Onlar hər zaman sadə xalqa özlərini mehriban, qayğıkeş insanlar kimi təqdim edir, bundan sonra savadsız, sadə insanlar sufilərin danışıq və görkəminə aldanaraq öz əcdadlarına ehtiram hissi ilə pir-ocaq kimi yerlərə dəstə-dəstə səfər edirlər. Allah onları məhv etsin, onlar necə də pisdirlər!

Əgər oxucu buna şübhə edirsə, qoy Mərvan ibn Muhəmməd ət-Tatarinin dediyi sözlərə qulaq assın: "*Dində üç nəfərə etibar etmək olmaz: sufiyə, bidətçilərin təkzibini yazan bidətçiyə və nağıl edənə* (*hekayəçiyə*)".[1]

Şeyxül-islam demişdir: "*Peyğəmbərlərin, saleh insanların, hökmdarların və ya başqalarının qəbirləri üzərində, tikilmiş bütün məscidlər, istər dağıdılma yolu ilə istərsə də başqa bir şəkildə, mütləq sökülməlidir. Bu, məşhur alimlər arasında, heç bir ixtilafının olmadığını bildiyim bir şeydir*".[2]

Bilmək lazımdır ki, hətta bəzi sufi qəbirpərəstləri də, qəbirlər üzərində ucaldılmış tikililərin dağıdılmasının vacibliyindən danışıblar.

Sufilərin, Dübəndi təriqətinin rəhbərlərindən biri, Şabir Əhməd əl-Osmani (1369 il) etiraf etmişdir ki, bu məsələnin təhlilində istinad edilən

---

[1] Tərtib əl-Mədərikdə Qədi ʻİyad, Mərvan ibn Məhəmməd ət-Tatarinin tərcümeyi-halı.

[2] "İktida" səh. 159.

hədislər, qəbirlər üzərində hər hansı tikililərin dağıdılmasının zəruriliyinə işarə edirlər.[1]

İmam İbn əl-Qeyyim buyurur: "*Buna əsasən, qəbir üzərində tikilmiş məscid dağıdılmalıdır, lakin əgər məscid daha əvvəllər tikilibsə və mərhum isə orada sonradan dəfn edilibsə, o zaman məscid dağıdılmır, bu qəbir qazılaraq, məsciddən çıxarılır. Bunu İmam Əhməd və başqaları belə demişlər. Ona görə də, İslamda məscid və qəbir birləşdirilmir, lakin onlardan hansı sonradan əmələ gəlibsə, o məhv edilməlidir*".[2]

Lakin burada, mühüm bir detala diqqət yetirmək lazımdır ki, bu tikililərin dəfn yerlərində dağıdılması, sıravi müsəlmanların səlahiyyətində deyil, yalnız bu ərazinin hökmdarının əmri ilə həyata keçirilir. Bu, heç bir fitnənin və iğtişaşın yaranmaması üçündür, çünki İslam dini, bütün fitnələrə və iğtişaşlara mənfi münasibət bəsləyir.

Buna görə də, İmam İbn əl-Qeyyim buyurur: "*İnsanların, Allahla yanaşı ibadət edərək, bütlərə çevirdikləri dəfn yerlərində ucaldılan qəbirləri dağıtmaq, hökmdarın üzərinə vacibdir*".[3]

## 4. Qarşı tərəfin bəzi şübhələri və onlara cavab

Qardaşlar və bacılar, bilin ki, elə bir yanlış fikir yoxdur ki, o bəzədilməsin. Əgər bidətçilərin öz lehlərinə dəlil kimi gətirə biləcəkləri heç bir şey olmasaydı, heç kim onlara tabe olmazdı. Lakin: "**Onlar, həqiqətin yalan olduğunu sübuta yetirmək üçün, batil sözlərlə mübahisə aparırdılar. Mən də onları yaxaladım. (Bir görəydin) Mənim cəzam necə oldu!**" (40:5)

**1.** Sufilər öz batil ideoloqiyalarını yaymaq üçün, Peyğəmbərin ﷺ qəbrini göstərərək, onun da məsciddə olduğunu deyirlər. Onlar deyirlər

[1] Bax, Fəth əl-Mulhim 2/506.
[2] "Zad əl-Məad" 3/507.
[3] Əvvəlki mənbəyə baxın.

ki, əgər məscidə qəbir gətirmək və ya qəbrin üstündə məscid tikmək haram olsaydı, Peyğəmbərin ﷺ qəbri üzərində məscid tikilməzdi.

**Cavab:**

Aişənin bu sözlərinə əsaslanaraq: "*Əgər bu* (yəni Peyğəmbərin ﷺ qəbirlər üzərində məscid tikənlərə lənəti) *olmasaydı, Peyğəmbərin ﷺ qəbri, açıq yerdə qalardı, lakin səhabələr qorxurdular ki, onu ibadət yerinə çevirərlər*" başa düşülür ki, səhabələr Peyğəmbəri ﷺ məsciddə dəfn etmədilər və onun üzərində məscid tikmədilər. Üstəlik, Ömər ibn Xəttab və Osman ibn Əffan, öz hakimiyyətləri dövründə, Peyğəmbərin ﷺ məscidini iki dəfə genişləndirmişlər və heç biri məscidi Peyğəmbərin ﷺ dəfn olunduğu otağa doğru genişləndirməmişdir. Səhabələr, Mədinədə yaşayarkən Peyğəmbərin ﷺ qəbri, məsciddən kənarda qaldı. Mədinə üzərində hakimiyyət, Vəlid ibn Əbdülməlikin əlinə keçdikdə o, Peyğəmbərin ﷺ məscidinin növbəti genişləndirilməsini həyata keçirdi. O, məscidi tamamilə dağıtdı, sonra onu Peyğəmbərin ﷺ qəbrinə doğru elə genişləndirdi ki, Peyğəmbərin ﷺ qəbri məscidin içərisinə düşdü. Bu iş, hicrətin 88-ci ilində, Mədinədə, səhabələrdən heç biri olmadığı zaman baş verdi.

Bu, qəbrin Osman ibn Əffan tərəfindən məscidə gətirildiyini söyləyənlərin səhvinə də aydınlıq gətirir. Alim və tarixçilərdən heç biri bunu deməmiş, üstəlik, onlar qəbrin Vəlid ibn Əbdülməlik tərəfindən məscidə daxil edilməsində həmfikir olublar.[1]

Burada, onu da qeyd etmək lazımdır ki, Vəlid ibn Əbdülməlik Peyğəmbər məscidinin genişləndirilməsi zamanı, onu çox bəzədib. O, Misir və Şamdakı xristian kilsələrini gördükdən sonra, bunu etdi və adətlərində xristianları güclü şəkildə təqlid edənlərdən biri idi. Buna görə də, o Mədinəyə gəlib Peyğəmbərin məscidinin onun əmri ilə necə genişləndirilib, bəzədildiyini gördükdən sonra, onun ətrafında gəzməyə başladı və sonra Əbana (Osman ibn Əffanın oğlu) üz tutaraq dedi: "*Bizim tikililər hara, sizinkilər hara*?!" Bu zaman Əban ona cavab verdi: "Biz,

[1] Bax "Təhzir əs-Sacid" səh. 81.

Peyğəmbərin məscidini (Əbananın atası Osmanın dövründə) genişləndirdik və onu, məscid necə olmalıdırsa elə tikdik, siz isə onu kilsəyə oxşatmısız”.[1]

Buna əsasən məlum oldu ki, bu əməl, alimlərin qınağına baxmayaraq, qəbri məscidə salan hökmdarlardan birinin əməli idi. Qeyd etmək lazımdır ki, hökmdarlar çox vaxt, alimlərin qınaqlarına əhəmiyyət vermədən, şəriətə zidd olan işlər görürlər.

İmam İbn Rəcəb demişdir: “Quran da buna işarə edir. Uca Allah, dinlərini qorumaq üçün, hicrət edən və mağarada gizlənən, gənclərdən xəbər verərək, belə buyurdu: “Üstün gələnlər isə dedilər: “onların (məzarı) üstündə mütləq bir məscid tikəcəyik”.[2]

Bununla, Uca Allah, Məscidlərin adətən hakimiyyətdə olanlar tərəfindən, qəbirlərin üzərində tikildiyini izah edir ki, bu da onların öz istəklərinə uyaraq, bunu güc və təzyiq yolu ilə etdiklərini göstərir. Bu, elm və hörmət sahibi olanların, Uca Allahın Öz elçilərinə düz yoldan nazil etdiyinə yardım edənlərin işi deyil”.[3]

Beləliklə, Peyğəmbərin ﷺ qəbrinin, onun məscidinə gətirilməsi heç bir şəkildə qəbirlər üzərində məscid tikənlər üçün bəraət və ya dəlil ola bilməz, çünki bu, güc və hakimiyyət vasitəsilə edilib, alimlərə gəldikdə isə, onlar bunu pisləyib və bunun səhv olduğunu izah ediblər.

**2.** Qəbirpərəstlər, Peyğəmbərin ﷺ qəbri üzərində də günbəzin ucaldılmasını əsas gətirərək, qəbirlər üzərində günbəzlərin ucaldılmasının icazəli olduğunu iddia edirlər.

**Cavab:**

Bu şübhəyə, onların birinci dəlilinə cavab verdiyimiz cavabla cavab vermək lazımdır. Peyğəmbərin ﷺ qəbri üzərindəki günbəzi, hicrətin 678-ci ilində, hökmdar Mənsur Kləun əs-Salihi tikdirmişdir. Alimlərin heç

---

[1] “Əs-Siyar” 4/347; “əl-Müşhədat” səh. 36.

[2] Yəni insanlar, onlarla necə davranacaqları mövzusunda fikir ayrılığına düşdükdən sonra. Güc sahibi olanlar, onların üzərində bir ibadətgah tikməyə qərar verdilər.

[3] “Fəth əl-Bari Şərh Səhih əl-Buxari” 65/280 “Kəvakib əd-Durari”dən, necə ki, Şeyx Əlbani “Təhzir əs-Sacid” səh. 66-da bu barədə demişdir.

birinin, onun tikintisi ilə əlaqəsi yoxdur. O isə, bunu ancaq, yəhudi və xristianları təqlid edərək etdi.

**3.** Sufi təriqətlərinin bəzi nümayəndələri, dəfn yerlərində tikililərin tikilməsinə qoyulan qadağanın, yalnız insanların qəbirlərə pərəstiş etmək və bununla da şirkə qayıtmaq təhlükəsi ilə əlaqədar qoyulduğunu iddia edirlər. Və deyirlər ki, bu günlərimizə gəlincə isə, belə təhlükə yoxdur, çünki tövhid müsəlmanların qəlbində güclü şəkildə möhkəmlənib və onlar artıq, şirkə qayıda bilməzlər. Ona görə də iddia edirlər ki, qəbirlər üzərində tikililərin ucaldılmasında heç bir problem yoxdur.

**Cavab:**

Şirkin bir daha yer üzünə qayıtmayacağı ifadəsi, açıq-aşkar, dərin bir sapqınlıqdır. Bunun dəlili budur ki, Peyğəmbər ﷺ ölərkən, son nəfəsini verəndə, qəbirlər üzərində tikili tikməyin qadağan olması barədə xəbərdarlıq etmişdi, bəs bu qadağa nə vaxt götürüldü?! Peyğəmbər ﷺ səhabələri üçün qorxmadığı halda bunu deyirdi, çünkü tövhid həqiqətən onların qəlbində güclü idi, lakin peyğəmbər ﷺ, onlardan sonra gələcək müsəlmanlar üçün qorxurdu. Buna görə də, Peyğəmbər ﷺ demişdir: "***Ümmətimin bir hissəsi, müşriklərə qoşulmayınca və ümmətimin bir hissəsi bütlərə ibadət etməyə başlamayana qədər Qiyamət qopmayacaq***".[1]

Məhz buna görə də, səhabələr Peyğəmbərin ﷺ vəfatından sonra da, aşkar etdikləri qəbirlərin üzərindəki hər hansı tikililəri dağıtmağa davam edirdilər.

Bəs bizim haqqımızda nə demək olar, əgər hətta tövhid əhlinin imamı, İbrahim peyğəmbərdən danışanda, Allahu Təalə buyurur: **"Bir zaman İbrahim demişdi: "Ey Rəbbim! Bu şəhəri əmin-amanlıq (yurdu) et. Məni və oğullarımı bütlərə tapınmaqdan uzaqlaşdır. Ey Rəbbim! Həqiqətən də, onlar çox adamı azdırıblar"** (14:35-36)**.**

[1] Hədis etibarlıdır və Muslim; Əbu Davud 2/202; Tirmizi 3/227; əl-Hakim 4/448 və s. şərtlərinə uyğundur.

Və təbii ki, bu günlərimizdə, ərəb və qeyri-ərəb dünyasında, milyonlarla insanların, qəbirlər və məqbərələrin yanında toplanması, şirkin geri qayıtmamağı haqqında danışmağa ehtiyac olmadığına açıq-aydın sübutdur.

**4.** Qəbirpərəstlərdən bəziləri, hədisdə "**qəbirlərin üstündə**" deyildiyi üçün yalnız birbaşa qəbirlərin özlərinin üzərində tikili tikməyin qadağan olduğunu iddia edirlər. Və buna əsaslanaraq deyirlər ki, qəbirlərin yanında, tikililərin tikintisi qadağan edilmir.

**Cavab:**

"Üstündə" (ʻalə) sözü ərəbcə bir neçə mənada gəlir ki, bunlardan biri də "yanında" mənasıdır. Buna görə də, Ənəs ibn Malikin rəvayət etdiyi Peyğəmbərin ﷺ, meracına dair hədisdə buyurulur: ***"Mən qayıtdım və Musanın yanından (ʻalə) keçdim"***.[1]

Ərəblərdən heç biri, bu ifadəni belə başa düşmür: "Mən qayıtdım və Musanın üstündən keçdim".

Həmçinin, Səmura ibn Cündub demişdir: "*Mən Peyğəmbərin ﷺ arxasında, doğuş zamanı dünyasını dəyişən bir qadının cənazə namazını qılırdım. Peyğəmbər ﷺ onun yanında (ʻalə), bədəninin ortası tərəfdə dayanmışdı*".[2]

Ərəblərdən heç biri, bu ifadəni: "Onun bədəninin ortasında dayanaraq, üstünə çıxdı" kimi başa düşmür.

Buna əsasən, qəbirpərəstlərin bu şübhəsi də, dəlil olaraq uyğun deyil.

---

[1] Hədis səhihdir; Buxari 3/1173; Muslim 1/150.
[2] Hədis səhihdir; Buxari 1/447; Muslim 2/664; Əbu Davud 3/536.

# BÖLÜM 6. İBADƏT ZAMANI, MÜŞRİKLƏRƏ ZAHİRİ BƏNZƏMƏNİN QADAĞAN OLMASI HAQQINDA

Əbu Umamə rəvayət edir ki, Allah Rəsulu ﷺ demişdir: ***"Günəş çıxanda, namaz qılmayın! Həqiqətən, o günəş, şeytanın iki buynuzunun arasından çıxır və bu zaman hər bir kafir ona səcdə edir. Gün batanda namaz qılmayın..."*** [1]

Bu hədisdə dəlil vardır ki, tövhid əhli, bəzi ibadət növlərini yerinə yetirərkən, əgər müşriklərlə zahiri oxşarlığı görərsə, o zaman onları tərk etməlidir. Məhz günəşpərəstlərin, günəşin doğduğu və batdığı vaxtda, ona ibadət etmələri səbəbindən, Peyğəmbər ﷺ müsəlmanlara, bu vaxt namaz qılmağı qadağan etmişdir, çünki bu əməl, kənardan baxanların, bu müsəlmanın da günəşpərəstlər kimi günəşə ibadət etdiyini düşünməsinə səbəb ola bilər.

# BÖLÜM 7. QƏBİR YERLƏRİNDƏ, QADAĞAN OLUNAN BƏZİ İBADƏT NÖVLƏRİ

## 1. Namaz

### a) Qəbrin yanında, ona tərəf yönəlmədən, namaz qılmaq.

[1] Hədis onu dəstəkləyən zəncirlərə görə səhihdir; Əhməd 5/260.

Əbu Səid əl-Xudri rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Qəbiristanlıqlar və hamamlar istisna olmaqla, bütün yer üzü ibadət yeridir”.[1]

Ənəs ibn Malik demişdir: “Peyğəmbər ﷺ qəbirlərin arasında namaz qılmağı qadağan etmişdir”.[2]

İbn Ömər rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu: ***“Evlərinizdə də namaz qılın, onları qəbiristanlığa çevirməyin”***.[3]

Əksər alimlər, bu hədisdən belə nəticəyə gəliblər ki, dəfn yerləri - ibadət yeri deyillər. Bu alimlərdən, İmam əl-Buxari, İbn Həcər, Bəqavi, Xəttabi və başqaları.[4]

Bütün bu hədislərdə, qəbirlərin yerindən asılı olmayaraq, qəbir yerlərində olan istənilən yerdə, Allaha namaz qılmağın qadağan olmasından bəhs edilir.

**b) Qəbir tərəfə qılınan namaz.**

Əbu Mərsəd əl-Qənəvi rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu: “Qəbirlərə üz tutub, namaz qılmayın və onların üstündə oturmayın”.[5]

Bu hədisdə, üzü qəbirə tərəf döndərərək, namaz qılmağın qadağası var.

Lakin burada, bir şeyə diqqət yetirmək lazımdır: əgər bir şəxs, qəbirə tərəf dönərək, namaz qılarsa, lakin bunu Allah rizası üçün edərsə, bu *haramdır* və insan günah qazanar. Əgər o, bu namazın savabının qəbrə

---

[1] Hədis səhihdir; Əhməd 3/83; Əbu Davud 492; Tirmizi 317; İbn Macə 745 və başqaları. Şeyx əl-Albani, Muqbil və başqaları bu hədisi səhih adlandırmışlar. Bax, əl-İrua 1/320; və “əs-Səhih əl-Musnəd” 380.
[2] Hədis səhihdir, onun bütün rəvayətçiləri güclüdür; əl-Bəzzar 441/442 və sair.
[3] Hədis səhihdir; Buxari 432; Muslim 777; Əhməd 4511, 4653, 4065; Əbu Davud 1448; İbn Macə 1377.
[4] Bax əl-Avsat 2/183; “Məalim üs-Sünən” 1/127; “Şərh us-Sünnə” 2/146; “Fəth əl-Bari” 1/529.
[5] Hədis səhihdir; Muslim 972; Əbu Davud 3229; Tirmizi 1050; Nəsai 759; və s.

doğru olmayan, namazın savabından daha çox olduğuna inanırsa, bu əməl, nəinki haramdır, həm də *bidətdir*.

Əgər bu qəbri və ya orada dəfn olunmuş, saleh şəxsi ucaltmaq niyyəti ilə qəbirə tərəf dönərək, namaz qılarsa, bu əməl, açıq-aşkar şirkdir.

Hənəfi məzhəbinin alimlərindən, Əli əl-Qari demişdir: *"Qəbrə tərəf namaz qılan, bu qəbrə və ya orada dəfn olunana sitayiş etmək (tapınmaq) və ucaltmaq niyyətində edərsə o zaman bu əməli edən adam kafir olar"*.[1]

Ənəs ibn Malik demişdir: *«Bir gün, Ömər ibn Xəttab, mənim qəbir başında namaz qıldığımı görüb, mənə dedi: "Məzar, məzar! Namazı ona tərəf qılma"»*.[2]

### c) Qəbir olan məsciddə qılınan namaz.

Bu bölümdəki sualları nəzərdən keçirərkən, bildik ki, Peyğəmbər ﷺ, qəbir yerlərində namaz qılmağı qadağan etmişdir, namaz qılan şəxsin qəbirlərin dəqiq harada yerləşməsindən asılı olmayaraq. Nəzərdən keçirdiyimiz fəsildə öyrəndik ki, Peyğəmbər ﷺ qəbir üzərində məscid tikməyi də qadağan etmişdir. Bütün bunlardan, qəbrin üstündə tikilmiş məsciddə və ya sonradan ora gətirilmiş, qəbir olan məsciddə namaz qılmağın qadağan edilməsi irəli gəlir.

İfrat sufilərin, guya Əbu Hureyrənin sözlərindən sitat gətirməklə, xoşladıqları hədisə gəlincə isə, guya Peyğəmbər ﷺ demişdir: ***"Mən, Məkkədən Qüdsə aparıldığım gecə, Cəbrayıl mənə dedi: "Bu, atan İbrahimin qəbridir, aşağı en və orada namaz qıl"***, bu hədis batildir, çünki isnadında Bəkr ibn Ziyaddır. İbn Hibban onun haqqında belə demişdir: "O, *güclü rəvayətçilər adından hədislər uyduran Dəccal idi. Yalançı olduğunu izah etməkdən başqa, onun adını kitablarda çəkmək caiz deyil*". İmam Zəhəbi dedi: "*İbn Hibban doğru dedi*".

1 "Əl-Mirkatul-Məfatih" 2/372.

2 Xəbər etibarlıdır; Buxari (müəlləq) 1/152; 'Abdurrazzaq 1/404; İbn əl-Münzir "əl-Avsat"- da 2/186.

**d) Qəbir yerlərində qılınan namaz səhihdirmi?**

Bu məsələdə, səhih rəy budur ki, qəbir yerlərində və ya qəbir olan məsciddə, yaxud məqbərə və qəbirlərdə qılınan namaz batildir və yenidən başqa yerdə qılınmalıdır.

Çünki namaz — ibadətdir və qadağan olduğu yerdə qılınsa, batil olur. Bu ona görədir ki, qadağa, əməlin batil olmasına və onu edən şəxsin günah qazanmasına gətirir. İnsan, Allaha asi olarkən necə təslim ola bilər?! O, Allahın haram buyurduqlarını etməklə, onun əmrini yerinə yetirənlərdən necə ola bilər?! Onu, Allahdan uzaqlaşdıran bir şey etməklə, Allaha necə yaxınlaşa bilər?![1]

Buna, Peyğəmbərin ﷺ hədisi dəlalət edir: ***"Kim bizim əmr etmədiyimiz bir işi görsə, o iş rədd olunar"***.[2]

Bu fikri, İmam Əhməd[3], İmam İbn Rəcəb[4], İbn Muflih[5], İbn Həzm, İbn Teymiyyə[6], İbn əl-Qeyyim, əş-Şəvkani dəstəkləmişlər. Müasir alimlərdən, bu fikri Şeyx İbn Bəz, İbn əl-Useymin, Mukbil ibn Hadi və başqaları söyləmişlər.

Əgər qəbirlər qazılıb, çıxarılsa və bu yer artıq insanların dəfn olunduğu yer olmasa, bu yerdə namaz qılmaq məzəmmət olunmaz və namaz səhih (düzgün) olar. Bunun dəlili budur ki, Mədinədə Peyğəmbərin ﷺ məscidi, müşriklərin məzarlarının yerində, qəbirlər qazılıb, götürüldükdən və yerləbir olduqdan sonra tikilmişdir.[7]

---

[1] Bax, əl-Muğni 2/477.
[2] Hədis səhihdir; Muslim 1718 Aişənin sözlərindən.
[3] İmam İbn Həzm demişdir: "Əhməd ibn Hənbəl dedi: "*Hər kim qəbiristanlıqda və ya qəbirlərə tərəf namaz qılarsa, hər halda bu namazı yenidən qılmalıdır*". ("əl-Muhəlla" 4/32).
[4] "Əl-Qəvaid" səh. 11.
[5] "Əl-Furu'" 1/372.
[6] "Əl-İxtiyarət" səh. 44.
[7] Hədis səhihdir; Buxari 428; Muslim 524.

Əgər məscid, qəbirlər üzərində tikilərsə, orada namaz batildir, çünki bu məscid qəbirlər üzərində tikilmişdir və Peyğəmbər ﷺ bunu dəfələrlə qadağan etmişdir.[1]

Əgər qəbiristanlıq, artıq tikilmiş məscidin ətrafında və ya onun düz qarşısında təşkil olunubsa, bu məsciddə də qılınan namaz batildir, çünki bu namaz qəbirlərə tərəf qılınır ki, bu da Peyğəmbər ﷺ tərəfindən qadağan olunub.[2]

Əgər insan, namaz qıldığı yerin, qəbristanlıq olduğunu bilməsə, ona günah yoxdur, lakin namazı yenidən qılmalıdır, necə ki, murdar yerdə namaz qılan şəxs, natəmiz olduğunu bilməsə də, bilәndən sonra onu yenidən qılmalıdır.[3]

## 2. Qurban kəsmək

### a) Qəbir yerlərində qurban kəsmək.

İslam alimləri arasında, qəbiristanlıqda heyvan kəsməyin çox məzəmmət olunan bir əməl olması barədə ixtilaf yoxdur. Hənəfi məzhəbi[4], maliki[5], şafii[6] və hənbəli[7] alimlərinə gəldikdə isə, onların hamısı qəbiristanlıqda qurban kəsməyi *haram* və ən çirkin *bidətlərdən* hesab edirlər.

Ənəs ibn Malik rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: ***"İslam dinində qəbir yanında qurban kəsmək yoxdur"***.[8]

---

[1] "Əl-Muğni" 2/475.
[2] "Əl-Furu'" 1/375.
[3] "Əl-Muğni" 2/469.
[4] Bax Tabyin əl-Həkaiq 2/246.
[5] Bax, əl-Mədxəl 3/267.
[6] Bax, əl-Məcmu 5/290.
[7] Bax, əl-Fura' 2/269.
[8] Hədis etibarlıdır, Buxari və Muslimin şərtlərinə uyğundur; Əbu Davud 3222; Əhməd 3/197; əl-Beyhəqi 7069 və b.

Əbdürrəzzaq ibn Himmam demişdir: *"Müşriklər, cahiliyyət dövründə, qəbirlərin yanında inək və ya qoç kəsərdilər".*

Şeyxül-islam demişdir: "*Qəbir başında qurban kəsməyə gəlincə, bu əməl, qəti qadağandır. İmam Əhmәd, qəbir başında kəsilən heyvanın ətini yeməyi qadağan etmişdir*".[1]

İmam Nəvəvi demişdir: "*Ənəs ibn Malikin hədisinə əsasən, qəbir başında qurban kəsmək məzəmmət edilmişdir*".[2]

Burada, aşağıdakılara diqqət etmək lazımdır: Əgər bir şəxs, yalnız Allaha və Onun Adına qurban kəsərsə, lakin onu qəbir yerlərində edərsə, bu, haramdır və bidətdir. Əgər insan eyni zamanda, qəbir yanında qurban kəsməyin müstəhəb, yaxud başqa yerdə kəsiləndən daha xeyirli olduğuna inanırsa, bu əməl, birincisindən daha böyük xəta və bidətdir. Əgər bir şəxs, qəbirdə dəfn edilmiş şəxsə həsr edərək, qurban kəsərsə, məsələn, bu saleh insanın, onun istəyini yerinə yetirməsi və ya xəstəyə şəfa verməsi və ya itkin düşmüş şəxsi geri qaytarması üçün, bu şəxs açıq-aşkar onu İslamdan çıxaran, şirk etmiş olar. Hətta onların bəziləri, müəyyən qəbirə qurban kəsmək üçün, artıq heyvanı doğulduğu gündən işarələyirlər. Onların inancına görə, bu heyvanı əvəz etmək və ya axtalamaq olmaz, çünki bu əməl, qəbrin əzəmətinə yaraşmayan qüsur hesab olunur.[3]

Şeyx əl-Albani demişdir: «*Əgər insan, yalnız Allah rizası üçün, qəbir başında heyvan kəsərsə, bu qadağandır. Əgər bəzi cahillər kimi mərhumun xatirinə kəsirsə, bu əməl, aşkar şirkdir. Bu heyvanın ətini yemək qadağandır və günahdır, necə ki, Allahu Təalə buyurur: "***Üstündə Allahın adı çəkilməmiş (–"bismilləh" deyilib kəsilməmiş heyvanlardan) yeməyin. Çünki bu, günahdır**" (6:121)*, və həmçinin demişdir: "***və Allahdan başqasının adı ilə kəsilmiş murdar heyvanlardan**" (6:145)». [4]

---

[1] "İktida" səh. 182.
[2] Bax, əl-Məzhmu 5/320.
[3] Bax "əl-Məaric əl-qəbul" 1/407.
[4] "Əhkam əl-cənaiz" səh. 260.

Eynilə, əgər bir kəs, qəbirin yanında heyvan kəsəcəyini Allaha nəzir etsə, onun nəziri batildir və bu əməli etmək qadağandır.[1]

Həmçinin burada qəbirlərin yanında, heyvan kəsməyin qadağan olmasının səbəbini açıqlamaq lazımdır. Bunun səbəbi, qəbir başında Allaha qurban kəsən şəxsin müşriklərə bənzəməsidir, çünki belə etməklə onların adət-ənənələrinə uyğun hərəkət etmiş olur. Onun niyyətinə gəlincə, bu əməl, ətrafdakılara və ya yoldan keçənlərə məlum deyil. Məhz buna görə də, bu şəkildə kəsilən heyvanın ətini yemək haramdır, çünkü onun Allah rizası üçün kəsilməsinə zəmanət yoxdur.[2]

Buna görə də, İmam Əhməd bu əti yeməyin haram olmasından danışdı[3].

Şeyxül-islam İbn Teymiyyə demişdir: "*İnsan xüsusi olaraq, buranı seçməsə belə, qəbir yerlərində heyvan kəsmək heç kimə icazəli deyil. Bununla da şəriət, şirkə aparan yolu bağladı. Məhz buna görə də Peyğəmbər ﷺ günəş çıxan və günəş batan vaxtı namaz qılmağı qadağan etmişdir. Bu vaxtlarda bütpərəstlər günəşə sitayiş edirlər. Və müsəlman yalnız Allah rizası üçün namaz qılsa və günəşə ibadət etmək ağlına belə gəlməsə də, Peyğəmbər ﷺ yenə də bunu qadağan etmişdir*"[4].

O ki qaldı heyvan kəsib, onu qəbirdə dəfn olunana, yaxud onun ruhuna və sair həsr edənə, o kəs belə etməklə İslamdan çıxar və kafir olar. Bu ona görədir ki, qurban kəsmək — ən böyük ibadətlərdəndir ki, Allahdan qeyrisinə həsr etmək olmaz.

Allah buyurdu: **"De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allaha məxsusdur!**

[1] "Kəşşəf əl-Qənə'" 2/149.
[2] Lakin bir şəxsin, yalnız Allah rizası üçün heyvan kəsdiyi və eyni zamanda Allahın adını dediyi dəqiq bilinərsə, belə əti yeməyə icazə verilir. Bu, şirk yox, bidət əsasında kəsilən heyvanın ətidir. Bu, 7 gün və ya 40 gün, ildönümü və sair kimi münasibəti ilə, yas mərasimində, insanları qonaq etmək üçün, kəsilən heyvanın ətinə bənzəyir. Özü özlüyündə bu ətin yeyilməsinə icazə verilir, lakin bidətdən imtina və bu əməlin pislənməsi əlaməti olaraq onu yeməmək daha yaxşıdır.
[3] Bax, əl-Fura' 2/296.
[4] Bax, əl-Fətava 27/496.

**Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm"** (6:162-163).

Və həmçinin: **"Sən də Rəbbin üçün namaz qıl və qurban kəs!"** (108:2).

Əli ibn Əbu Talib rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu: ***"Allah, Ondan başqasına qurban kəsənə lənət etdi"*** .[1]

**b) Kafir və müşriklərin qurban kəsdiyi yerlərdə, Allah üçün qurban kəsmək.**

Həmçinin, bu fəsildə ayrı bir sualı araşdırmaq lazımdır – kafirlərin və müşriklərin qurban kəsdikləri yerlərdə qurban kəsmək.

Ümumiyyətlə, müxtəlif "müqəddəs yerlər" adlanan yerlərdə, müxtəlif dinlərin nümayəndələri arasında, çoxlu müştərək mərasimlər keçirilir.

Buna əmin olmaq üçün, bir neçə sitat gətirmək kifayətdir:

«*Bulağın özü, bələdçilərin sözlərinə əsasən, yan-yana yerləşən, 3 hissəyə bölünür; bunlar — müsəlman, xristian və bütpərəst zonalarıdır. Məncə, onsuzda insanlar özləri də, Allahın tək olduğuna qərar veriblər və hər üç yerdən yuyunurdular, ev üçün vedrələri və bidonları doldururdular və içirdilər. Mən özüm, müəyyən edə bilmədim ki, hansı yerlər hansı dinə mənsubdur*».

Qeyd etmək lazımdır ki, müşriklər həmişə öz ayinləri üçün, xüsusi yerlər ayırmaları ilə seçiliblər. Bu xüsusilə, qurban kəsmək üçün olan yerlərə aiddir.

[1] Hədis səhihdir; Muslim 1978; Əhməd 1/108, 118.

Sabit ibn Dahhaq demişdir: "*Bir nəfər, Buanda*[1] *qurban kəsməyi nəzir etdi və Peyğəmbərə* ﷺ *bu barədə sual verdi. Peyğəmbər* ﷺ *ondan soruşdu: "***Bu yerdə, cahiliyyət dövründə, ibadət edilən hər hansı bir büt var idimi?***" İnsanlar cavab verdilər: "Xeyr". Sonra Peyğəmbər* ﷺ *davam etdi: "***Onların müntəzəm məclislərindən biri, bu yerdə olubmu?***" İnsanlar "yox" dedilər. Onda Rəsulullah* ﷺ *buyurdu: "***Onda nəzirinə əməl et***"*[2].

Bu hədisdən aşağıdakı nəticələr çıxarmaq olar:

1. Bu şəxs, öz sualını Peyğəmbərə ﷺ verdi və öz qövmünün və ya əcdadlarının adət və qayda-qanunlarının dedikləri ilə məhdudlaşmadı. Amma bu gün, bizim soydaşlarımız peyğəmbərin mövludunu qeyd edərək, atalarının belə etdiyini iddia edirlər. Bu adam, başa düşdü ki, İslamı qəbul etdikdən sonra, bütün məsələlərin həlli əcdadların etdiklərinə deyil, Qurana və Sünnəyə uyğun olmalıdır.

2. Peyğəmbər ﷺ onu sualına görə məzəmmət etmədi, çünki İslamda, hər yerdə qurban kəsmək olmaz. Amma əgər hər yerdə qurban kəsmək mümkün olsaydı, Peyğəmbər ﷺ onu lazımsız suallar verdiyi üçün məzəmmət edərdi.

3. Peyğəmbər ﷺ o şəxsi sorğu-sual etməyə başladı, bu da onu göstərir ki, hər hansı bir yerdə qurban kəsilməsini qadağan edən müəyyən amillər var.

4. Peyğəmbər ﷺ onu sorğu-sual etməyə başladı, çünki o fikirləşdi ki, bəlkə də bu adamı Buanada qurban kəsmək üçün, nəzir etməyə vadar edən, bəzi səbəblər var idi.

5. "***Onda nəzirinə əməl et***" sözləri göstərir ki, əgər bu şəxs, bu iki sualdan heç olmasa birinə müsbət cavab versəydi, Peyğəmbər ﷺ ona Buanda heyvan kəsməyi qadağan edərdi.

---

[1] İmam əl-Bəqavi demişdir: "Bu, Məkkənin Yələmləm tərəfdən aşağı hissəsində bir yerin adıdır". (Bax: "Fəth əl-Məcid" səh. 253).

[2] Hədis etibarlıdır və Buxari və Muslimin şərtlərinə uyğundur; Əbu Davud 3313; əl-Beyhəqi 10/83; Tabarani 1341; Şeyx Muqbil onu etibarlı adlandırmışdır (186).

6. Bu hədisdə, günah işləndiyi yerdə, öz izini qoya biləcəyinə dəlil var.

7. Bu hədis, bir dəlildir ki, əgər müşriklər öz ayinlərini, müəyyən bir yerdə yerinə yetirmişlərsə, tövhid əhlinə orada onları yerinə yetirmək qadağandır, çünki bu əməl, tövhid əhlinin zahiri olaraq müşrikə bənzədilməsinə gətirib çıxarır, hətta indi, hal hazırda müşriklər, artıq daha burada öz ayinlərini yerinə yetirməsələr də. Bəs bu kafirlər, hələ də bu yerlərdə öz ayinlərini yerinə yetirirlərsə və buna görə də adi insanlar, müsəlmanı bütpərəstdən ayıra bilmirlərsə və bu ayinlərin, o cümlədən qurbanların kimə həsr edildiyini başa düşə bilmirlərsə, buna nə demək olar?!

8. Bu hədisdə, müşriklərə və kafirlərə bənzəmənin, hətta onun kimi olmaq niyyətində olmasa belə, baş verə biləcəyinə dəlil vardır. Və bir insanın, müşriklər kimi olmaq istəməsindən asılı olmayaraq, onun əməli qadağandır, çünki hədisdəki bu şəxs elə bu niyyətdə deyildi, lakin buna baxmayaraq, Peyğəmbər ﷺ ona sual verəni sorğu-sual etməyə başladı.

9. Bu hədis, bizim özümüzü müşriklərdən ayırıb, onlardan hər şeydə fərqlənməyimizin vacibliyi üçün, mühüm əsasdır. Biz ayinlərimizi onlarla, yaxud onların ayinlərini yerinə yetirdikləri yerlərdə, ya da toplaşdıqları vaxtlarda etməməliyik. Bu əsas çox vacibdir, çünki bu, həqiqət ilə yalanı, haqq ilə batili ayırd etmək vacibliyindən, düz yolu zəlalətdən və onları qarışdırmağın qadağan edilməsindən irəli gəlir.

## 3. Qəbirin yanında, özünüz üçün dua etmək

Qəbiristanlığı ziyarət edərkən, ölü üçün dua etmək, sabit sünnədir. Bir şəxs, qəbiristanlığı ziyarət edib, ölülərə salam vermək istədikdə, üzünü qəbiristanlığa tutub, salamlayır və bu əməl, alimlərin (*cümhur*)

əksəriyyətinin rəyidir ki, onların arasında malikilər[1], şafiilər[2], hənbəlilər[3] də vardır.

Hənəfi məzhəbinin alimlərinə gəlincə, onlar bu məsələdə, iki rəyə bölünmüşlər:

1. Salam verərkən, qibləyə üz tutmaq lazımdır.

2. Qəbiristanlığa tərəf dönmək lazımdır.

İkinci rəy İmam Əbu Hənifəyə məxsusdur[4].

Salamladıqdan sonra, ölü üçün dua edənə gəlincə, dörd imamın hamısı yekdildir ki, qibləyə üz tutsun və heç bir halda qəbirlərə tərəf dönüb dua etməsin ki, kənardan bu o insanın ölü üçün deyil, ölüdən dua istədiyi kimi görsənməsin.

İmam İbn əl-Qeyyim dedi: "*Və dörd imam, birmənalı olaraq, ölü üçün dua zamanı, qibləyə üz tutmağın vacibliyini dəstəklədilər. Elə olmasın ki, insan qəbirlərə doğru dua etsin, çünki dua ibadətdir*".[5]

Qəbir yerlərində ikən, özünüz üçün dua etmək məsələsinə gəlincə, əgər bu yerlərdən keçərkən təsadüfən baş veribsə və ya dua sünnədə gələn kimidirsə[6], bunun eybi yoxdur və icazəlidir. Əgər bir şəxs bu yerlərdə, duanın Allah dərgahında daha yaxşı və ya daha tez qəbul olunacağına və ya bu halda savabının daha çox olacağına inanaraq bu yerlərdə dua etməyə cəhd edərsə, bu əməl, bidət, azğınlıq və haram inancdır.

Bunun dəlili aşağıdakılardır:

1. Peyğəmbər ﷺ qəbir yerlərində, namaz qılmağı açıq-aydın qadağan etmişdir, bu da belə yerlərdə dua etməyi də qadağan edir. Bu yerlərdə, namazın qadağan olmasının səbəbi, insanın qəlbinin bu

---

[1] "Mövhib əl-Cəlil" 2/237.
[2] Bax, əl-Məcmu' 5/286.
[3] Bax, əl-Muğni 5/466.
[4] "Fəth əl-Qədir" 3/168.
[5] "İqasət əl-Lyəhəfan" 1/174.
[6] Hədisdə deyildiyi kimi: ***"Bizim üçün də, sizin üçün də rahatlıq istəyirəm".***

qəbirlərə bağlanması və onların yanında vaxt keçirməsi qorxusudur. Ancaq, qəbirlərin yanında dua edən insan, adətən, dar bir vəziyyətdə olur, problemin həlli və ya çətin vəziyyətdən çıxış yolu axtararaq, Allaha üz tutur. Onun mövqeyi şirk qapılarını açmağa meyllidir, nəinki adətən namazı tam rahatlıqla qılan namaz qılanın mövqeyi.[1]

2. Qəbirlərin yanında dua edərək, Allaha tərəf üz tutmaq istəyi nə müqəddəs yazılarda, kitablarda, nə Quranda, nə Peyğəmbərdən, nə səhabələrdən gələn xəbərlərdə, nə də heç bir camaat imamlarının kitablarında gəlməmişdir. Onların heç biri, Allaha üz tutmaq üçün, qəbir yerlərinə getmirdi. Bu onu deməyə əsas verir ki, bu əməl İslamda yenidir, haramdır və pislənmişdir.

3. Səhabələr, onların ardıcılları, eləcə də camaatın imamları, bunu nəinki özləri etmədilər, hətta pislədilər. Kitabın müxtəlif fəsillərində, bu barədə səpələnmiş xəbərləri qeyd etdik.

Şeyxül-islam İbn Teymiyyə demişdir: "*Bir çox alimlər, duanın fəziləti, Allah tərəfindən qəbul olunduğu vaxtlar və yerlər haqqında kitablar yazmışlar. Və bütün bu alimlər arasında qəbir yerlərində, namaz qılmağın daha xeyirli və daha layiqli olduğunu bir həriflə belə qeyd edən, bir nəfər də yox idi. Saleh əcdadlar isə, bunu inkar edirdilər, təsdiq etmirdilər, qadağan edirdilər, əmr etmirdilər*".[2]

4. Qəbir yanında edilən duanın, daha tez cavab alacağına inam, insanların qəbirlərin başına toplaşmasına və onlara tərəf səfərə çıxmasına səbəb olur, bu da Peyğəmbərin ﷺ qadağan etdiyi şeydir.

[1] Bax əl-İqtida 2/684.
[2] Bax, əl-İqtida 2/728.

Kuburi-sufilərinə gəldikdə isə, onlar bütün dəlillərə rəğmən, salehlərin qəbirləri başında, Allaha üz tutmağın, müsəlmanların həmişə və hər yerdə etdikləri sabit bir əməl olduğunu iddia etməkdə davam edirlər.[1]

Bilavasitə ölülərdən istəyən kəs, heç bir şübhə yoxdur ki, azmış müşrikdir. Bunun izahı, kitabın fəsillərindən birində olacaq.

## 4. Quran oxumaq

Əbu Hureyrə[2] rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: ***"Evlərinizi qəbiristanlığa çevirməyin, həqiqətən, şeytan "Bəqərə" surəsi oxunan evdən qaçar"***.[3]

Qazi Əbu Ya'la demişdir: "*Peyğəmbər ﷺ Quran oxunmayan evi qəbiristanlığa bənzətdi, çünki qəbiristanlıqda Quran oxunmur*".[4]

Bu hədisə, eləcə də səhabələrin və onların ardıcıllarının, heç birinin qəbirlər üzərində Quran oxumamalarına əsaslanaraq, əksər alimlər (*cümhur*) qəbirlər üzərində Quran oxumağa icazə verməmişlər. Bu rəy, həmçinin İmam Əbu Hənifə[5], Malik[6] və Əhmədə aiddir.

Bundan əlavə, İmam Əhməddən belə dediyi rəvayət olunur: "*Qəbir üzərində Quran oxumaq bidətdir*".[7]

---

[1] Bax, əl-Bəsair, səh. 99.
[2] Şeyx Əbdürrəhman ibn əl-Həsən bu hədisi "Fəthul-Məcid"də (səh. 394) İbn Ömərin sözlərindən sitat gətirmişdir ki, buda səhvdir.
[3] Hədis səhihdir; Muslim 780.
[4] Bax "ər-Rivayatein vəl-vachein" 2/212.
[5] "Haşiyyə əş-Şilbi ʻala Tabyin əl-Həkaiq" 2/246. Həmçinin İmam İbn Əbil-İzz də bu barədə "Şərh ‹Əqidə ət-Tahaviyyə", səh. 534-də demişdir.
[6] Bax, əl-Mədxəl 3/263.
[7] "Məsail imam Əhməd rivayət İshaq" 1/190.

Əbu Həfs ibn Müslim əl-Əbkəri demişdir: “*10-dan çox adam, İmam Əhməddən rəvayət etmişdir ki, qəbir yerlərində oxumaq bidətdir*”.[1]

Şeyxül-islam İbn Teymiyyə demişdir: «*İmam Şafiiyə gəlincə, bu məsələdə, ondan heç bir şey gəlməmişdir. Çünki onun dövründə belə şey ümumiyyətlə, edilməmişdir. Və İmam Malik belə demişdir: “Mən, belə bir şey edən kimsə tanımıram”. Buradan məlum olur ki, nə səhabələr, nə də onların ardıcılları, belə bir şey etməyiblər*».[2]

Qəbiristanlıqlarda, Quran oxumağın fəziləti ilə bağlı hədislərə gəlincə, onların hamısı batildir.

Rəvayət edilir ki, guya Əli ibn Əbu Talib, Rəsulullahın ﷺ belə dediyini demişdir: “***Hər kim qəbiristanlığın yanından keçib, on bir (11) dəfə “İxlas” surəsini oxuyar və sonra bu oxumağın savabını ölüyə verərsə, ölülərin sayı qədər savab qazanar***”. Hədis uydurmadır, batildir; İbn əl-Cövzi əl-Məuduatda 3/239; bax Əhkam əl-cənaiz, səh. 245.

Həmçinin, Ənəs ibn Malikin guya Rəsulullahın ﷺ belə dediyini dediyi bildirilir: “***Hər kim qəbiristanlığa girib, “Yasin” surəsini oxusa, həmin gün, bu qəbiristanlıqda dəfn edilənlərin, cəzası yüngülləşər və bu qəbiristanlıqda dəfn edilən, ölülərin sayı qədər ona yaxşı əməllər yazılar***”. Hədisin hətta rəvayət zənciri belə yoxdur və batildir; bax əd-Daifə 3/397.

“***Kim valideynlərinin və ya onlardan birinin, qəbrini ziyarət edib, onun yanında “Yasin” surəsini oxusa, günahları bağışlanar”.*** Hədis batildir; bax Feyd əl-Qədir 8717.

Həmçinin qəbir üzərində, Fatihə surəsini oxumaq bidətdir.[3]

---

[1] Bax “ər-Rivayatein vəl-vachein”2/213.
[2] Bax, əl-İqtida, səh. 182.
[3] Bax, Təfsir əl-Mənar 8/268.

# 5. Qəbirlərin ətrafında təvaf etmək

Dini ayin niyyəti ilə, bir şeyin ətrafında təvaf etmək haramdır və ən çirkin bidətlərdəndir. Bu, ona görədir ki, Allahu Təalə təvaf üçün, yalnız Kəbəni ayırmışdır, başqa heç nə yoxdur.

Allah buyurur: **“Sonra, həcc ayinlərini tamamlasınlar, nəzirlərini yerinə çatdırsınlar və qədim evi (Kəbəni) təvaf etsinlər”** (22:29).

Şeyxül-islam İbn Teymiyyə demişdir: “*Kəbədən başqa, bir şeyin ətrafında təvaf etmək, ən böyük haram bidətlərdəndir. Kim dini ayin olaraq, Kəbədən başqa bir şeyin ətrafında təvaf edərsə, tövbə etməyə gətirilər, tövbə etmədikdə isə edam edilər*”.[1]

Bu, o deməkdir ki, müsəlman dünyası ölkələrində, belə bir şəxs, dindən çıxmış (*mürtədd*) kimi, ölümə məhkum edilə bilər. Ölüm hökmünün verilməsi və onun icrası, müsəlman ölkəsinin hökmdarının müstəsna səlahiyyətindədir və ondan başqa, heç kimin, belə bir hökmü verməyə haqqı yoxdur. Bir çox alimlər, *təvafın* yalnız Kəbə ətrafında icazəli olduğunu söyləmişlər.[2]

# 6. Lütf (bərəkət) almaq üçün və ya ilahiləşdirmə və izzətdən ötrü, qəbri və ya başqa bir şeyi öpmək

Ömər ibn Xəttab, həcc ziyarətində, Qara daşı öpərkən dedi: “*Mən bilirəm ki, sən bir daşsan. Nə bir faydan, nə də bir zərərin var. Allaha and olsun ki, əgər mən Peyğəmbəri* ﷺ *sənə əl vurub, öpərkən görməsəydim, səni heç vaxt öpməzdim*”.[3]

---

[1] “Məzmu‘ əl-Fətava” 26/121.

[2] Bax: əl-Raud əl-Murbi‘ əl-Bəhuti səh. 152; “Məzmu’ rəsail əl-Kubra” 2/410; “əl-İdah fil-mənasik” İmam Nəvəvi səh. 160; “əl-Mədxəl” İbn əl-Həcc 1/263; “əl-Əmr bil-İttiba’ əs-Suyuti s. 125 və sair.

[3] Xəbər səhihdir; Buxari 2/160; Muslim 2/925.

İmam İbn Daqiq əl-İd demişdir: “Bu hədisdə, Qara daşı öpməyin müstəhəb olmasına dəlil vardır”.[1]

Bu xəbərdən, aydın şəkildə başa düşülür ki, dini ayinin icrası şəklində, bir şeyin öpülməsinin səbəbi, Quran və ya Sünnədən gələn bir əmrdir. Və əgər, hər hansısa bir şeyi öpmək əmri yoxdursa, məsələn qəbir kimi yerin, o zaman onu öpmək qadağandır.

Buna görə də, Şeyxül-islam buyurur: “*Kainatda, Kəbənin qara daşından başqa, öpülməsi icazəli olan heç bir şey yoxdur. Öpmək və toxunmaq ancaq Kəbəyə — Allahın haram evinə nisbətdə icazəlidir və yaradılmışların evlərini, Yaradanın Evi ilə bərabər tutmaq olmaz*”.[2]

Qara Daşı öpmək, yalnız Həcc mərasiminin elementlərindən biri kimi, Peyğəmbərə ﷺ tabe olmaq üçün qanunniləşdirilib, amma bu daşın fiziki lütfü-bərəkəti olduğu üçün deyil.

Həmçinin, İmam İbn əl-Qeyyim buyurur: “*Yer üzündə, Qara Daş və Kəbənin Yəmən küncündən başqa, öpmək və ya toxunmaq icazəli sayılacaq, heç bir şey yoxdur*”.[3]

İbn əl-Qeyyimin sözləri, o deməkdir ki, Qara Daşa toxunmaq və həmçinin öpmək olar, Kəbənin Yəmən küncünə gəlincə, ona toxunmaq olar, lakin onu öpmək icazəli deyil.[4]

Yuxarıda qeyd olunanların hamısı, öpmək və toxunmaq bunlar dinə aiddirlər, yəni bunları, dini ayin şəklində etmək nəzərdə tutulur. Hər hansısa bir varlığı öpməyə və toxunmağa gəlincə, bu əməl, heç bir şübhəsiz icazəlidir. Burdan belə çıxır ki, Allaha yaxınlaşmaq üçün, heç nəyi öpmək olmaz. Bu həmçinin, Quran səhifələrinə də aiddir, qəbir və məqbərələri heç demirik.

---

[1] Bax: əl-Udda 3/347.
[2] “Məzmu‘ əl-Fətava” 27/79.
[3] “Zad əl-Məad” 1/48.
[4] Bax: əl-Fətava 26/121.

Daimi Komitəyə, Quranı öpmək barədə sual verildi, cavab olaraq dedilər: "*Həmd yalnız Allahadır, onun Rəsuluna* ﷺ, *ailəsinə və səhabələrinə salavat və salam olsun, və sonra: biz Quranı (mushafı) öpməyin qanuniliyinə dair, heç bir dəlil bilmirik. Quran, onu oxumaq və üzərində düşünmək, həmçinin onu ucaltmaq üçün nazil edilmişdir və onun nazil olduğu kəslər də, ona uyğun hərəkət etsinlər deyə nazil olunub*".[1]

İkrimə ibn Əbi Cəhlin, onun mushafı öpməsi ilə bağlı rəvayət etdiyinə gəlincə, bu rəvayət etibarsızdır. Bu xəbər, "*müshafi öpdü*" kəlməsi ilə gəlmir, sadəcə olaraq "*müshafi üzünə qoyub*, "*Rəbbimin kəlamı" dedi, üç dəfə təkrar etdi*" sözləri var".[2]

Qəbirpərəstlərin bəziləri, qəbri öpməklə, yaxud onun hasarını öpməklə məhdudlaşmırlar, bundan daha pis iş görürlər — qəbrdə dəfn edilən, saleh insanın cismani lütfünün-bərəkətinin bu torpağa da keçdiyinə inanaraq, qəbrin ətrafındakı torpağı da öpürlər.[3]

Qəbri və ya məzarın ətrafındakı torpağı və ya Qüdsün torpağını, və ya topu, yada ki, kuboku (futbolçular kimi), pulu (alverçilər kimi) öpmək, bütün bunlar yanlış inancların nəticələridir. Bu hərəkətlə, ya bu obyekti ucaltmaq, ya da onun lütfünü mənimsəmək, ya da hər ikisini istəyirlər.

## 7. Qəbrə toxunmaq və sürtünmək

Həmçinin, belə yerlərdə baş verən, adi hadisələrdən biri də, salehlərin və ya əcdadların qəbirlərinə, eləcə də qəbirlərin üstündəki barmaqlıqlara və ya tikililərə sürtünməkdir. Bütün bunlar, hansısa xəstəlikdən sağalmaq ümidi ilə edilirlər. Həmçinin bəziləri "bərəkətli" torpaqları özü ilə aparırlar ki, qohumları da o torpağın lütfündən-berəkətindən faydalansınlar.

---

[1] Bax, "Məcəlla əl-buhus əl-İslamiyyə", səh. 45.

[2] Onun tərcümeyi-halı İbn Həcərin əl-İsabə 5654, Üsdul ğəbə 3741, əl-İstiab 1857, İbn Sədin Təbəqat (8/329) və həmçinin Səfua əs-Səfua İbn əl-Cövziyə baxın.

[3] "Vəfa əl-Vəfa" əs-Səməhudi 4/1406.

Hafiz əl-Həkəmi demişdir: "*Bu torpaqdan, müxtəlif üsullarla istifadə edirlər: kimsə onu götürüb, dərisini onunla silir, kimsə bu tozun içində heyvan kimi yuvarlanır, kimsə onu suda həll edir, sonra üzərinə tökür, kimsə hətta bu suyu içir. Bütün bunlar isə, bu qəbirdə dəfn edilən saleh insanın xeyir və zərər verməyə qadir olduğuna inamın nəticəsidir. Sonra, onlar qərar verdilər ki, lütfü-bərəkət onun qəbrinin ətrafındakı torpağa da yayılır*". [1]

Həmçinin, əsasən qadınların etdiyi əməllərdən biri də, yaylıq və paltarla qəbri məsh etmələri, sonra isə bu yaylıqla öz başlarına və uşaqlarının başına məsh etmələridir. Bundan sonra, bu yaylıqları yumurlar ki, bu əməlisalehin qəbrini (üzrlü səbəbdən!) ziyarət edə bilməyən, ailə üzvlərinə də bu yaylıqla məsh etsinlər.

Şeyxül-islam İbn Teymiyyə demişdir: "*Bu qəbrin kimə məxsus olmasından asılı olmayaraq, qəbrə məsh çəkməyə və ya onun öpülməsi məsələsinə gəlincə, müsəlmanların yekdil rəyinə görə bu əməl, qadağandır. Və əgər, buna icazə verilsəydi, bunu səhabələr və camaat imamları edərdi. Üstəlik də, bu əməl, şirkin göstəricisidir, xüsusən də bütün bunlar, mərhuma dualarla müşayiət olunarsa və ona müraciət edilərsə*".[2]

Yuxarıda deyilənlərin çoxunu, Peyğəmbərin ﷺ qəbrini ziyarət edərkən, görmək olar. Çoxları nadanlıqlarından, qəbrin hasarlarını öpməyə, onlara sürtünməyə, qarınlarını, kürəyini və yanaqlarını onlara söykəməyə, hətta lütf-bərəkət almaq üçün, bu hasarlara baxmağa çalışırlar.

İnsanların üzünü, sinəsini və əllərini Kəbəyə (daha dəqiq desək, "mültəzəm" deyilən yerdə – Kəbənin qapıları ilə Qara daşın arasında) söykəməsinə gəlincə, bu əməl, Kəbəyə sürtülməyə aid deyil, lakin bu əməl, Allahu Təalənın qarşısında zəlil görsənmək üçün edilir. Kəbənin özü də fiziki lütfə malik deyil və onu ötürmür, ona görə də, Qara Daş və Yəmən küncündən başqa, onun heç bir hissəsinə toxunmaq dini qanuni

---

[1] "Məaric əl-Kabul" 1/373.
[2] "Məzmu' əl-Fətava" 27/91.

deyil. Onun yanına, onu izzətləndirmək üçün deyil, Uca Allahı tərifləmək, Onun əmrini yerinə yetirmək üçün gedirlər.

Allah buyurur: **“Evi (Kəbəni) ziyarət etmək, insanlardan – bunun yoluna gücü çatan hər kəsin – Allah qarşısında borcudur. Kim (bunu) inkar edərsə, (bilsin ki,) Allahın aləmlərə ehtiyacı yoxdur”** (3:97).

Ona görə də, Kəbənin örtüyündən lütf diləmək olmaz, bu bidətdir. Xüsusilə də Kəbədən hər hansı bir şey istəmək və ona dua etmək, çünki bu böyük şirkdir.

İbn Abbas demişdir ki, o, Müaviyə ilə birlikdə, Kəbənin ətrafında *təvaf* edirdi. Müaviyə, Kəbənin bütün künclərinə toxunmağa başladı və bundan sonra, İbn Abbas ona dedi: “*Niyə belə edirsən, axı Peyğəmbər ﷺ belə etməyib*?” Buna, Müaviyə belə cavab verdi: "**Bu Ev heç bir tərəfindən çəkinilməməyə layiqdir".** Onda İbn Abbas, ona bu ayəni oxudu: “**Allahın Elçisi sizlərə gözəl nümunədir**”. Müaviyə: “*Doğru deyirsən*” dedi və sonra bunu etmədi.[1]

## 8. Qəbir yerlərində, xütbə oxumaq

Qəbirləri ziyarət edərkən, qəbir yerlərində xütbə oxumaq da sünnədə göstərilməyən məzəmmət edilmiş bidətdir. Bunun dəlili budur ki, Peyğəmbər ﷺ qəbir yerlərində, insanları toplamazdı və orada xütbələr söyləməzdi. Əksinə, Peyğəmbər ﷺ ölülərə salam verərdi, onlar üçün dua edərdi və dərhal oradan çıxardı.

# BÖLÜM 8. FƏSİL HAQQINDA ÜMUMİ NƏTİCƏ

Bu fəsli oxuduqdan sonra öyrəndik ki, Allaha ibadət ilə, qəbir yerləri heç vaxt cəm olmurlar. Şirkin əsas ayinlərinin, məhz dəfn yerlərində yerinə yetirildiyi və onlara bağlılığın şirkin əsas mənbəyi olduğu üçün,

[1] Hədis səhihdir; Tirmizi 858.

Uca Allah bu yerlərdə, Ona ibadət etməyi tamamilə qadağan etmiş və bu yerlərə səfər etməyi qadağan etmişdir. Bu yerlərin dəqiqləşdirilməsini, axtarışını, abadlaşdırılmasını və mühafizəsini dində qanuniləşdirməmişdir. Üstəlik, bu qadağalar, ən şiddətli təhdidlər şəklində qoyulublar — lənət, qəzəb, ən pis yaradılışların xüsusiyyətləri ilə təsvir edilmək və sair.

Məhz buna görə də "mənəvi liderlərimizin" övliyaların dəfn yerlərində kütləvi toplantılar təşkil etmək, Allaha ibadət etmək üçün, bu qədər səy və enerji sərf etmələri ən təəccüblüdür. Onlar nəinki bu səfərləri, görüşləri təşkil edir, həm də fanatik şəkildə buna çağırır, onlarla iştirakdan imtina edənlərə və bu işdə onlara kömək edənlərə təzyiq göstərirlər. Onlar, bu hadisəni həyatlarının işinə çeviriblər. Düşünmək olar ki, bu əməl, Uca Allahın dinində arzu olunan və ya vacib bir şeydir. Amma əgər bu həqiqətən də, son dərəcə vacib bir məsələ olsaydı, Quran, Peyğəmbərin ﷺ hədis topluları, səhabələrin risalətləri və dörd imamın fiqh kitabları, bu barədə xəbərlərlə dolu olardı. Biz, mütləq ki, Peyğəmbərin ﷺ və onun səhabələrinin qəbirlərin başında, Allaha ibadət etdiklərini və ya salehlərin qəbirlərini axtarmaq üçün, şəhərləri gəzdiklərini, bu yerlərdə namaz qılıb, qurban kəsdiklərini, qəbirlərin ətrafında təvaf etdiklərini, onlara toxunub, öpdüklərini görərdik. Səhabələrin və ya onların tərəfdarlarının, isti yay günlərinin birində, Bəqi qəbiristanlığında və ya hansısa məqbərədə, qəbirlərin yanında, Allaha dua etmələri, hamılıqla Allaha tövbə etmələri haqqında xəbərlər haradadır?! Səhabələrin, ən möhtərəm səhabələrin qəbirləri üzərində məscid və ya məqbərələr ucaltması haqqında xəbərlər haradadır?! Səhabə və onların ardıcıllarının, salehlərin ruhlarının şad olması üçün, birlikdə dua etmələri, müxtəlif qəbilələrin İslamı qəbul etdikləri günləri qeyd etmələri haqqında xəbərlər haradadır?! Bütün bunlar haradadır?! Əgər doğru deyirsizsə, bizə göstərin! Kimin ardınca gedirsiz və nə istəyirsiz?! Bilin ki, əgər öz əməlləriniz üçün bir dəlil göstərməsəniz, o zaman bu, sadəcə olaraq, sizin bidətçidən başqa bir şey olmadığınız mənasına gələcəkdir.

Allah buyurur: “**Hər kəs doğru yol ona bəlli olduqdan sonra, Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yol ilə getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir**” (4:115).

Aləmlərin Rəbbindən sizə ağrılı-acılı bir əzab gəlməmişdən əvvəl, Allahdan qorxun və durun. O, sizin gizlətdiklərinizi də, aşkar etdiyinizi də bilir. Əgər bütün bunlar həqiqətən də baş versəydilər, bütün hədis və risalət məcmuə topluları bununla dolu olardı və müxtəlif, yalan hekayələr axtarıb, uydurmağa ehtiyac qalmazdı. Burada, çox vacib bir qaydanı başa düşmək lazımdır: əməl və ya hadisə nə qədər əhəmiyyətlidirsə, onunla bağlı yazılar da bir o qədər çox və aydındırlar.[1]

Bu yazılar, sadəcə bəzi naməlum məcmuə toplularda deyil, Quranda, Səhih Buxaridə, Müslimdə və sair yerlərdə olmalıdırlar.

Hörmətli oxuyucu, nəzər yetirdi ki, ziyarətgahlara və digər məzarlıqlara, səfərlərin təşkilatçılarının, öz lehlərinə dəlil kimi göstərə biləcəkləri heç bir şey yoxdur, lakin hər şey tamamilə əksinədir. Onların əməlləri, çox təhlükəli olduğu üçün, müqəddəs məzmunlar, onların əməllərini pisləyən ayə və hədislərlə doludur. Burada hənəfi məzhəbinin imamı - İmam əl-Bərqavinin (hicri 981 il), sözlərindən sitat gətirmək yerinə düşər ki, onun sözləri vasitəsi ilə, özlərini Hənəfi məzhəbinə aid etməkdən heç də utanmayan, dəfn yerlərində məclislər təşkil edən, təşkilatçılar üçün bir dəlil və utanc olsun.

İmam əl-Bərqavi demişdir: “*Kim, qəbirlərin ziyarəti ilə bağlı, Rəsulullahın ﷺ sünnəsini təhlil edər, nəyi əmr etdiyi və nəyi qadağan etdiyi, eləcə də səhabələrin və onların ardıcıllarının etdikləri barədə düşünərsə, o zaman bunlarla, günümüzdəki insanların qəbirlərin yanında etdikləri arasında, mütləq ziddiyyət görər. Bu ziddiyyət aşağıdakılardır:*

*1. Peyğəmbər ﷺ, qəbir yerlərində namaz qılmağı qadağan etmişdir, lakin insanlar, bu işdə ona qarşı çıxır və orada namaz qılırlar.*

[1] Bax Hənəfi imamı İbn Əbil-'İzzanın “Şərh ‘əqidə ət-Tahaviyya” 93.

*2. Peyğəmbər ﷺ, qəbirlər üzərində məscid tikməyi qadağan etmişdir, lakin insanlar onları tikib, məqbərə adlandırırlar.*

*3. Peyğəmbər ﷺ, qəbiristanlıqda çıraq yandırmağı qadağan etdi, onlar isə qəbirlərin üstündə şam, çıraq və bu kimi şeylər yandırırlar. Üstəlik də, bu cür lampaların alınması üçün, öz vəsiyyətlərində yazdırırlar ki, pay ayırılsın.*[1]

*4. Peyğəmbər ﷺ, qəbirləri yerləbir etməyi əmr etdi, lakin onlar buna zidd olaraq, qəbri ev kimi yerdən yuxarı qaldırdılar.*

*5. O ﷺ, qəbri qips ilə örtməyi və üzərində tikililər tikməyi qadağan etdi, lakin onlar buna müxalif olub, qəbirlərin üzərini qips ilə örtüb, üzərinə günbəzlər qoyurlar.*

*6. Allah Rəsulu ﷺ qəbirlərin üzərinə yazı yazmağı qadağan etmişdir, lakin onlar qəbirlərin üzərinə lövhələr qoyurlar və lövhələrin üzərinə Qurandan bir şeylər və ya başqa bir şey yazırlar.*

*7. O ﷺ, qəbir yerlərində daimi, vaxtaşırı görüşlər təşkil etməyi qadağan etdi, onlar isə buna qarşı çıxırlar və bu yerlərdə toplanırlar. Üstəlik də, onların sayı bayram yığıncaqlarını üstələyir".*

Bundan sonra, imam əl-Bərqavi, sufii qəbirpərəstlərin, Allah və Rəsuluna ﷺ zidd olduqları təxminən on beş (15) məqamı daha sitat gətirdi.[2]

Lakin, yuxarıda göstərilənlərin dini qanuniliyinə dair heç bir əmrin (göstərişin) olmamasına və bunun qadağan edildiyinə dair çox sayda əmrin olmasına baxmayaraq, bu səfərlərin təşkilatçıları "səhv bir şey etmədiklərini" iddia etməkdə davam edirlər" ?!

---

[1] Sufilər, bu qəbirdə, saleh bir insanın dəfn edildiyini və bu qəbrin digər qəbirlərdən fərqli və bərəkətli olduğunu, lütfünün-bərəkətinin başqalarına da keçdiyini bildirmək üçün, qəbirlər üzərində çıraq və şam yandırırlar. (bax: "Kəşf ən-Nur" səh. 16; "əl-Hədiqə ən-Nədiyyə" 2/630).
[2] "Ziyarət əl-Kubur" səh. 19–23.

Əgər oxucu, hər zaman təəccüblənirsə ki, nə edirsə etsinlər, nədənsə bu əməl hər dəfə dini qanunsuz bir əməl və yenilikdir, o zaman üç mühüm məqamı öyrənsə, bu təəccüb aradan qalxacaq və yerini anlama tutacaq:

1. Bu səfərlərin və görüşlərin təşkilatçılarının, təhsili heç də dini və ya ruhani deyil. Daha çox, bu teatr və bədii, ya da ən yaxşı halda tarixi, fəlsəfi və ya hüquqi təhsildir. Məhz ona görə də, onlar hər dəfə daha çox təəccüblü işlər görürlər. Ən maraqlısı isə odur ki, bu əməllərin tamamilə, dinin əsaslarına zidd olduğunu izah edən, hər hansısa kitab və ya qəzetə dərhal "ekstremist ədəbiyyat" damğası vurulur!

2. İnsan öz əməlinin, Allahın buyurduğuna zidd olduğunu anladıqda, lakin buna baxmayaraq, təkəbbürlə üz döndərib, bu əməli etməkdə israrla davam edərsə, Allahu Təalə onu xətalardan qorumur və öz ixtiyarına buraxar. Bundan sonra, bu təkəbbürlü inadkar insan, dalbadal bir-birinin ardınca səhvlər etməyə başlayır, getdikcə azğınlıqda daha da dərinləşir, sanki salınmış yol ilə yuvarlanıb gedir.

Allah buyurur: **"Onlar (doğru yoldan) sapdıqda, Allah da onların qəlbini sapdırdı. Allah fasiqləri doğru yola yönəltməz"** (61:5).

Və həmçinin: **"Biz onların ürəklərini və gözlərini ilk dəfə ona iman gətirmədikləri kimi, tərsinə çevirər və onları öz azğınlıqları içərisində sərgərdan dolaşan vəziyyətdə tərk edərik"** (6:110).

3. Allahın dinində, ruhani rəhbərliyə nail olmaq çox çətindir. O yol, uzun illər bu dini öyrənməklə, bu biliklərə, səbrə və biliyə uyğun hərəkət etməklə əldə edilir. Allahu Təalə, insanlardan birinin, həqiqətən möminlərin rəhbəri olmağa layiq olduğunu gördükdən sonra, milyonlarla müsəlman cəmiyyətindən, yalnız bir neçəsi dini rəhbərliyə nail olur. İnsan təkcə qapıdakı lövhəciyi "kommunist"-dən "dindar"-a, yaxud artist paltarını araqçına dəyişməklə, Allahdan qorxanların rəhbəri olmur. Necə ki, günahkar və çox danışan adam, sadəcə dəfn mərasimində aş və bozbaş yeməklə mömin və Allahdan qorxan olmur.

Allah buyurur: **“Səbr etdiklərinə və ayələrimizə yəqinliklə inandıqlarına görə, Biz əmrimizlə, onlardan doğru yolu göstərən, rəhbərlər təyin etmişdik”** (32:24).

Və həmçinin: **“Biz, Öz hökmümüzlə onları doğru yolu göstərən, rəhbərlər etdik. Onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar, yalnız Bizə ibadət edirdilər”** (21:73).

Bu ayədən də göründüyü kimi, insan ancaq, ömrünü Allaha ibadətlə və Ona tam təslimiyyətlə keçirdikdən sonra, rəhbər olur. Bu xüsusiyyətlərlə vəsf edilməyən “rəhbər”lərə gəlincə, başqa bir ayədə, onlar haqqında belə buyurulur:

**“Biz onları, oda çağıran rəhbərlər etdik. Qiyamət günü, onlara kömək edilməyəcəkdir. Bu dünyada, onları lənətə düçar etdik. Qiyamət günü isə, onlar (Allahın rəhmətindən) qovulmuş kimsələrdən olacaqlar”** (28:41-42).

FƏSİL 15

# TƏVƏSSÜL — BİR ŞEY VASİTƏSİLƏ, ALLAHA YAXINLAŞMAQ

## BÖLÜM 1. GİRİŞ

Hörmətli oxuyucu, bu fəsli öyrənərkən, xüsusi diqqət yetirməli və baxılan məsələnin mahiyyətini anlamağa çalışmalıdır. Əvvəl araşdırdığımız, bütün bu hadisələr, özlüyündə şirk deyil, amma bizi şirkə aparan və yaxınlaşdıran yol və vasitələrdirlər. Lakin təvəssül məsələsi, strateji baxımdan xüsusi əhəmiyyət kəsb edir, çünkü tövhid və şirk arasında, bir növ sərhəd zonasını təmsil edir ki, onu zəbt edib və keçərək, düşmən demək olar ki, qələbəni əldə edə bilər. Təvəssül məsələlərini nəzərdən keçirərkən, biz elə bir yerə çatacağıq ki, artıq onu keçdikdə, nəinki şirkə aparan yollardan, artıq böyük şirkdən danışacağıq.

Bunu dərk edən, sufi nümayəndələri, bu məsələnin insanların gözündə, əhəmiyyətini azaltmağa çalışırlar ki, özlərinə xüsusi əhəmiyyət vermədən, çoxdan gözlənilən bu xətti keçsinlər. Təvəssül məsələlərində və əsaslarında, öz batil əqidələrini yaymaq və bərqərar etmək üçün, ayə və hədislərin məna və sözlərini təhrif etməli olsalar da belə, bütün gücləri ilə müqəddəs mətnləri, öz maraqlarına uyğunlaşdırmağa çalışdıqları, kitablar yazıb, nəşr edirlər.

Allah buyurur: **“Vay o şəxslərin halına ki, onlar öz əlləri ilə kitab yazır, sonra da: “Bu, Allahın vəhyidir!”– deyirlər ki, onunla cüzi miqdarda pul əldə edə bilsinlər deyə. Öz əlləri ilə yazdıqlarına görə vay onların halına! Qazandıqları şeyə görə vay onların halına!”** (2:79)

Allahın izni ilə, mövcud təhrif və manipulyasiyalara işarə edərək, onların kitablarından, bəzi parçalara nəzər salacağıq, bundan sonra, oxuyucuda bu insanların yalançılığından, üsullarının rəzilliyindən, həmçinin məqsəd və istəklərinin mahiyyətindən şübhə qalmayacaq.

**“De: “Haqq gəldi, batil puç olub getdi. Həqiqətən də batil puç olmağa məhkumdur!”** (17:81)

# BÖLÜM 2. TƏVƏSSÜL NƏDİR?

Məsələni əvvəldən düzgün başa düşmək üçün, bütün fəsildə rastlaşacaq təriflərə, düzgün təriflər vermək lazımdır. Məsələ burasındadır ki, sufilərin və bu kimilərin məharətli, üsullarından biri də budur ki, onlar şəriət termin və məfhumlarına əvvəlcə öz təriflərini verirlər, sonra isə, bu terminlərin keçdiyi ayə və hədislərdən istifadə edir və öz tərifləri əsasında şərh edirlər.

Şeyxül-islam İbn Teymiyyə demişdir: “*Kim, səhabələrin bir-biri ilə danışdıqları dili və Peyğəmbərin ﷺ onlara xitab etdiyi dili və onların dil ifadələrini istifadə etmək adətlərini anlamasa, o adam şübhəsiz ki, sözlərin mənasını həqiqi mənalarından fərqli olaraq dəyişməyə başlayacaq. Müəyyən bir cəmiyyətdə böyümüş insanların bir çoxu, dil ifadələrinin bəzilərinə, məhz bu cəmiyyətin nümayəndələrinin nəzərdə tutduğu mənaları verirlər.*[1] *Bundan sonra, onlar bu terminləri Allahın, Rəsulunun*

[1] Məsələn, bəzi cəmiyyətlərdə “ət” sözünə həm heyvan əti, həm də balıq əti daxildir. Digər cəmiyyətlərdə isə “ət” sözü balıq mənasını vermir.

ﷺ *və səhabələrinin kəlamlarında tapır və düşünürlər ki, Allah, Rəsulu ﷺ və səhabələri bu terminlərdə, onların cəmiyyətlərinin nümayəndələrinin, nəzərdə tutduqları mənaları nəzərdə tuturlar, amma əslində Allah, Rəsulu ﷺ və səhabələri tamam başqa bir şeyi nəzərdə tuturlar.*

İnsanlardan bəziləri isə, qəsdən peyğəmbərlərin ﷺ və onların tərəfdarlarının, sözlərinə təhrif olunmuş mənalar verir, bundan sonra, özlərinə əlverişli olan mövqeyi, sübut etmək üçün, bu terminlərdən istifadə edirlər və deyirlər: "Bizim yolumuz, peyğəmbərlərin yoluna uyğundur".

Bu termin — filosoflardan olan, bir çox ateistlərin, ismaililərin, eləcə də onlara benzər olan, mütəfəkkirlərin və sufilərin sözlərində mövcuddur".[1]

Şeyxül-islamın sözlərinə əsaslanaraq, başa düşürük ki, bəzi azğın təriqət və məzhəblərin nümayəndələri, öz mövqelərini sübut etmək üçün, tərif-təfsir ilə oynayırlar. Əksər hallarda, onlar buna müvəffəq olurlar, çünki onların müraciət etdikləri auditoriyanın, dinlə bağlı elementar məlumatı belə yoxdur, bu da onların aldanmalarının və həlak olmalarının əsas səbəbi olur.

**Təvəssül nədir?**

"Təvəssül" sözü sırf ərəb sözüdür, "bir şey vasitəsilə, məqsədə çatmaq" mənasını verir. O söz, "vəsilə" sözündən əmələ gəlir ki, bu da "məqsədə çatmaq üçün vasitə olan şey" deməkdir".[2]

Quranda "vəsilə" sözü, iki dəfə işlənir:

1. Allah buyurur: **"Ey iman gətirənlər! Allahdan qorxun, Ona (yaxınlaşmaq üçün) vasitə axtarın və Onun yolunda cihad edin ki, bəlkə nicat tapasınız"** (5:35).

---

[1] "Qaidə Cəlil" səh. 445–447.

[2] "Təvəssül"ün linqvistik mənası ilə bağlı, heç bir ixtilaf yoxdur. Bu mənaları nəql etmişlər: İbn əl-Əsir, Feyruz Əbadi, İbn Faris, Rağib əl-Əsfəhani, İbn Cərir ət-Təbəri və başqaları. Bunlar hamısı, ərəb dili alimləridirlər.

2. Və həmçinin: “**Onların yalvardıqları tanrıların, özləri də Rəbbinə — hansı daha yaxın olacaq deyə vəsilə axtarırlar, Onun rəhmətini umurlar,6 əzabından qorxurlar. Həqiqətən, Rəbbinin əzabından qorunmaq gərəkdir”** (17:57).

Bütün problem ondadır ki, sufilər, sünnə tərəfdarlarından və vahid icmadan, ümmətdən ayrılaraq “Allaha yaxınlaşma yolları” dedikdə, nəyin nəzərdə tutulduğunu, özlərinə məxsus şəkildə anlamağa və şərh etməyə başladılar.

Görək, islam alimləri bu üsullardan nə başa düşürlər.

İbn Cərir ət-Təbəri demişdir: **“Ona yaxınlaşmaq üçün yollar axtarın”**, *yəni Allaha, Onun razı olduğu şeyi etməklə, yaxınlaşmağa çalışın”*.

Qatadə demişdir: “*Yəni Allaha təslim olmaqla və Onun razı qaldığı şeyləri yerinə yetirməklə, ona yaxınlaşın*”.

İmam İbn Kəsir, Qətədənin bu sözlərini sitat gətirərək deyib ki: “*Bu alimlərin dediklərinə görə, Quranı təfsir edənlər arasında, heç bir ixtilaf yoxdur*”.[1]

Hənəfi məzhəbinin nümayəndələri də, digər alimlərlə, bu tərifdə həmfikirdirlər.[2]

Hafiz İbn Kəsirin sözlərindən anladığımız kimi, “Allaha yaxınlaşma yolları” dedikdə, Allahın razı olduğu, yaxşı əməllər nəzərdə tutulur. Əgər insan bunları edərsə, Allaha yaxınlaşar, yəni razılığına çatar. Quran təfsirçiləri (*müfəssirləri*) arasında, bu barədə ixtilaf yoxdur.

İndi sizdən, aşağıdakılara xüsusi diqqət yetirməyinizi xahiş edirik!

Sufilər, müfəssirlərin yekdil fikri ilə razı olmayaraq, bu ayələri, özünəməxsus şəkildə başa düşdülər.

**Onlar, bu ayələri, necə başa düşdülər?!**

[1] “Təfsir əl-Quran il-‘Əzım” İbn Kəsir 2/52-53.

[2] Bax “əl-Qavaqib əd-Durriyyə” səh. 3.

Aşağıda izah edilənləri başa düşən oxuyucu, sufilərin və sünnə tərəfdarlarının yollarının ayrıldığı yol ayrıcını nəhayət ki, görəcək.

Sünnə tərəfdarları, tövhid yolunu davam etdirdilər, sufilər isə yoldan sapdılar, müşriklərə tərəf əyildilər.[1]

Tövhid tərəfdarları, Allahın onlardan nə istədiyini başa düşdülər. Allahu Təalə, insanın səy göstərməsini, Allahın rizasını qazanmaq üçün çalışmasını, yaxşı işlər görməsini və pislikdən çəkinməsini istəyir. Lakin sufilər, bu ayələri tamamilə əksinə başa düşmüşlər. Burada onlar, bəşəriyyətin indiyə qədər etdiyi, ən dəhşətli bənzətməni, bütün müşriklərin şirkinin əsasını təşkil edən, bənzətməsini etdilər. Onlar, Uca Allahı, dünyanın zalım hökmdarları ilə müqayisə etdilər. O hökmdarlarla ki, onlara yaxınlaşmaq, rəğbətlərini qazanmaq və yanaşma yolunu tapmaq mümkün deyil. Və ancaq "əlaqələr vasitəsilə", bu hökmdarların sevdiyi şəxslərə və ya bu hökmdarların qarşısında, hörmət sahibi olanlara müraciət etmək mümkündür. Onlar qərara gəldilər ki, hökmdara birbaşa yaxınlaşsalar, hökmdar onlardan imtina edəcək, lakin hökmdarın dəyər verdiyi, sevdiyi və hörmət etdiyi şəxslər vasitəsilə ona yaxınlaşsalar, bu halda, hökmdarın rəğbətini qazanmağa şansları olacaq.

Bu sufi, özü üçün belə qənaətə gəlmişdir ki: "Allahu Təalə, dünya hökmdarlarının hamısından böyükdür. Əgər mən, bu dünyanın hökmdarının yanına, birbaşa gedə bilmirəmsə, bütün hökmdarların hökmdarının yanına necə birbaşa gedə bilərəm?!"

Bu dəhşətli məntiqə baxın! Əgər əziz oxuyucu, bir az da səbr etsə, bunun necə təhlükəli olduğunu anlayar.

Demək olar ki, burada pis nə var ki, axı bu sufi, bu bənzətməni ancaq Uca Allahın böyüklüyünü və Onun qüdrətini dərk edərək edib?! Lakin! Əslində bu bənzətmə, Allahı tərif etmir, əksinə təhqir edir! "Niyə?" — soruşacaqsınız. Çünki bu sufi, Allahın bütün bu hökmdarlardan daha zalım olduğunu düşünürdü. Biz, hökmdarların əzəmətinə görə deyil, yalnız ədalətsizliyinə, təkəbbürünə, kobudluğuna, zülmkarlığına görə yanına girə bilmirik. Axı insaflı, mərhəmətli, xeyirxah insan, böyüklüyünə

[1] Bu, o demək deyil ki, biz sufiləri müşrik və ya kafir adlandırırıq.

və qüdrətinə baxmayaraq, bir xahiş və ehtiyacla, yanına gələn birini qəbul edər.

Buna əsaslanaraq, **“və Ona yaxınlaşmaq üçün vasitələr axtarın”** Allahın kəlamını, sufi belə başa düşmüşdür: Allah yanında, hörmət sahibi olan və Allah tərəfindən sevilən, saleh şəxsi tapın və onun vasitəsilə Allahdan istəyin, hətta bu saleh şəxsin özündən istəyin ki, Allah yanında sizin üçün şəfaət etsin.[1]

Və siz, yenə də soruşursuz, hətta belə olsa da, biz bunda səhv bir şey görmürük!

Burada, oxuyucudan bir təfərrüatı başa düşməyi xahiş edirik - bu bənzətmə, bir çox pis nəticələrə gətirib çıxarır, onlardan yalnız ikisi haqqında sizə məlumat verəcəyik.

## BÖLÜM 3. “TƏVƏSSÜL” TERMİNİNİ SUFİ NÖQTEYİ-NƏZƏRİNDƏN İZAHININ PİS NƏTİCƏLƏRİ

1. Uca Allah, bəndələrinə öyrədir ki, onlar kənardan, heç kimdən kömək gözləməməli olduqlarını birdəfəlik başa düşsünlər. Başqalarının işinə və başqalarının yaxşı işlərinə göz tikmək lazım deyil. Uca Allah, hər bir insanın fərdi olaraq, yaxşı işlər görməsini və haramlardan çəkinməsini istəyir. Uca Allah, bu fikri, mömin bəndələrinin qəlbində yerləşdirərək buyurur:

**“Hər bir kəs qazandığının girovuna çevrilir”** (74:38).

Və həmçinin: **“Onlar bir ümmət idi ki, gəlib getdilər. Onların qazandıqları özlərinə, sizin qazandığınız isə sizə aiddir”** (2:134).

Sufilərə gəlincə isə, onların bənzətməsi, onları bir zamanlar bu cür bənzətmə xristianları apardığı şeyə apardı — yəni onlar düşünürlər ki, bir çox yaxşı əməlləri tərk edib, çoxlu pis işlər görmək ümidi ilə, ildə bir

---

[1] “Vəsilə” və “təvəssül” terminlərinin, bu cür başa düşülməsinə, sufilərin “Ruh əl-bəyan” 1/560 kitabında rast gəlmək olar.

və ya iki dəfə diri və ya ölmüş bir salehin yanına getmək kifayət edər ki, onun üçün Allah dərgahında şəfaət diləsin və bütün problemlər bununla həll olunsun.

Oxuyucunun artıq başa düşdüyü kimi, az bir qismindən başqa, bütün dünyanın günah bataqlığına qərq olmasına və yaxşılıqların, xeyirlərin nə olduğunu unutmasına səbəb, məhz onların bu fikirləri olublar. Məhz bu fikir, xristianların iki qrupa — din adamları və dünya adamlarına bölünməsinə səbəb oldu. Başqa sözlə desək, dünyapərəstlilər istədiklərini edərlər, dindarlar isə dünyapərəstlilərin puluna görə, Allah qarşısında onlar üçün, şəfaət edərlər. İndi tamamilə eyni şey, müsəlmanlar arasında baş verir. İmam və ya molla, məsciddə oturub, namaz qılır, Ramazan ayında oruc tutur, həcc edir və sair. Bununla o, şəhərin günahkarları üçün dua edir, günahkarlar isə hesab edirlər ki, ildə bir dəfə, ya cümə axşamı, ya cümə günü, ya da pis yuxu gördükdə, məscidə *sədəqə* gətirmək kifayətdir və imam dərhal «dua edib, onun bütün günahlarını yuyacaq».[1] Başqa sözlə desək, bu fikir, Allahu Təalənın insanlara hidayət olaraq, nazil etdiyi dinin çox hissəsinin ləğvinə və fəaliyyətsizliyinə səbəb olur. Belə "din xadimlərinə" gəlincə, onlar bu mənzərədən çox razıdırlar. Birincilərə, yəni dünyapərəstlilərə gəlincə, onlar pərdə arxasında günah və cinayət törədib, insanları açıq-aşkar içki ilə sərxoş edib, ləzzət və mənfəət dalınca, insanların artıq norma hesab etməyə başladığı bütün o əxlaqsız hərəkətləri edə bilərlər. Onlar bunu, maneəsiz edirlər, çünki reallıqda "məzəmmət olunanı, məzəmmət etmək" anlayışı praktiki olaraq yoxdur. Elə olur ki, insanlar, bunu İslam dini hesab edirlər, yəni onlar öz cahilliklərindən düşünürlər ki, dinin rükünlərinə, əmrlərinə tabe olmadan, həftədə bir dəfə məscidə sədəqə verməklə və ya evinə molla dəvət edib, ölülər üçün Quran oxutmaqla, günahlardan təmizlənə və Allahdan mükafat ala bilərlər və təəssüf ki, artıq bunun üzərində bir neçə nəsil yetişib və onlardan artıq, bu adəti qazanc vasitəsinə çevirən o qədər "molla keşişlər" çıxıblar.

Müsəlmanlar arasında, birdən-birə, pis olanı pisləməyə, münkərdən çəkindirən və yaxşı olana, xeyirə dəvət etməyə birisi çıxarsa, bu yalançı

---

[1] Mənim bu sözlərim məscidə sədəqə gətirən, hər kəsə aid olmadığı kimi, bütün imamlara, həzrətlərə və din rəhbərlərinə aid deyil.

din xadimləri dərhal cəmiyyətə sübut etmək istəyəcəklər ki, bu adam insanlara "sülh içində yaşamağa" imkan verməyən, fundamentalist və ekstremistdən başqa bir şey deyil. Çünki, müsəlman əhalisinin, ümumi savadsızlığı fonunda, durmadan artmaqda olan, özləri üçün təmin etdikləri bu, ömürlük qazancı heç itirmək istəmirlər. Ancaq, zaman keçdikcə, insanlar dindən o qədər uzaqlaşmağa başlayırlar ki, Allah qarşısındakı durumları, onları heç narahat etmir. Ona görə də "xadimlərimiz" zaman-zaman ziyarətgahlara səfərlər və "müqəddəs yerlərə" səyahətlər, illik mövlud və təbii ki, yeddinci (7), qırxıncı (40) və sair yas mərasimi kimi "dini prosedurlar" təşkil etməli olurlar.

İndi oxuyucu başa düşər ki, niyə bu kitab, rəsmi nəşriyyatda və ya mətbəədə çap oluna bilməz.

2. Təvəssül termininin, yanlış anlaşılması, həmçinin elə bir şeyə gətirib çıxarır, o şey, birincisindən də daha dəhşətlidir. O, açıq-aşkar, böyük şirkə gətirib çıxarır. Və bu, belə baş verir:

# BÖLÜM 4. ZƏNCİRİN İZAHI: QANUNSUZ TƏVƏSSÜL (BİDƏT) — ŞÜBHƏLİ ŞİRK —AŞKAR ŞİRK

Bu sufi:

**1.** Günahkar olduğuna qərar verərək və onun kimi birinin bağışlanma diləyərək, Allaha üz tutmasını özünə yaraşmadığına görə, Allah dərgahında izzət və məqam sahibi olan birini axtarmağa başlayır. Axtarış zamanı o, Allahın aşağıdakı kəlmələrini tapır: Musa peyğəmbərdən bəhs edən, Allah belə buyurur: **"O, Allahın yanında çox ehtiram edilən şəxsdir"** (33:69).

Həmçinin, Allah İsa peyğəmbərdən bəhs edərkən, belə buyurur: **"O, bu dünyada və axirətdə şan-şöhrətli və (Allaha) yaxınlaşdırılmışlardan olacaqdır"** (3:45).

Və həmçinin: **"Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar, iman gətirmiş və (Allahdan) qorxmuşlar"** (10:62-63).

Həmçinin əlbəttə ki, o (sufi) bilir ki, Muhəmməd peyğəmbərin izzəti, müsəlmanlar arasında yekdilliklə ən böyük olandır və məxluqlar arasında, Allah yanında Muhəmməd peyğəmbərdən ﷺ daha şərəfli heç kim yoxdur və onun şəfaətindən faydalı şəfaət yoxdur.[1]

Muhəmməd peyğəmbərin ﷺ, eləcə də bütün digər peyğəmbərlərin, eləcə də mələklərdən və insanlardan olan salehlərin, Allah tərəfindən sevildiyini və Onun hüzurunda hörmət sahibi olduğunu dərk edərək, şirk yolunda ilk, ciddi addımını atır. O (sufi), yasaq təvəssül (*təvəssül bid'ə*) etməyə başlayır — Allahdan, peyğəmbərlərin hörməti, izzəti və haqqı ilə istəməyə başlayır və belə deyir: "Allahım! Səndən filankəsin adı ilə istəyirəm" və ya "Səndən, Kəbənin hörmətinə istəyirəm" və sair.

İlk baxışdan, belə görünür ki, bunda heç bir qəbahət yoxdur. Amma əslində, bu mərhələ və bu addım, bir qaladır ki, bizim onu təslim etməyə haqqımız yoxdur. Niyə?

1) Bu, dində qeyri-qanuni təvəssül, insanın öz əməlinin və səyinin, o qədər də vacib olmadığı düşüncəsinin ilk göstəricisidir. Bu, həmin sufinin ilk fikirləridir ki, başqalarının zəhmətindən və hörmətindən istifadə etmək, onun üçün daha asan və daha xeyirlidir, çünki bu sufi düşünür ki, özü günahkar olsa da və Allah ondan narazı olsa belə, başqa insanların zəhməti ona fayda verəcəkdir.

2) Bu fikir, bəzi məxluqatın, Allah qarşısında, bəzi haqqlara malik olduqlarına və Allahın onlara bir şey borclu olduğuna işarə edir. Bu sufi, sanki Uca Allaha ultimatum qoyur ki: "Allahım! Peyğəmbərinin Sənin yanında haqqı ilə Səndən istəyirəm", və buda o deməkdir ki: "Əgər, mənim istədiyimi verməsən, Peyğəmbərinə qarşı haqsızlıq edirsən və onun haqqını nəzərə almırsan".

[1] "Qaidə Cəlil" bənd 9.

Məhz buna görə də, İslam alimləri, belə təvəssülün caizliyini rədd etmişlər.

İmam Əbu Hənifə buyurur: "*Heç kəsə, kiminsə vasitəsilə, Allahdan istəməyə icazə verilmir, yalnız Onun Özündən istəmək olar. İcazə verilən və əmr olunan dua növü, öz caizliyini Allahın kəlamlarından alır*: **"Ən gözəl adlar Allahındır. Ona, bu adlar vasitəsi ilə dua edin"** (7:180).[1]

Hənəfi İmamı Quduri demişdir: "*Bişr ibn Vəlid, Əbu Yusifdən nəql etmişdir ki, İmam Əbu Hənifə demişdir: "Heç kəsin, Allahdan başqası vasitəsi ilə istəməsi icazəli deyil. Və mən, belə deməyi qadağan edirəm: "Səndən ərşinin izzəti ilə istəyirəm" və ya "filankəsin haqqı ilə"*. *Bu isə Əbu Yusifin fikridir*[2]".[3]

Əl-Kuduri demişdir: "*Allahdan, məxluqlarının vasitəsilə istəmək qadağandır, çünki yaradılmışların, Yaradan qarşısında heç bir haqqı yoxdur. Ona görə də, buna yekdilliklə icazə verilmir*".[4]

Nə baş verib? Necə sufi təriqətinin nümayəndələri, İmam Əbu Hənifəyə, eləcə də onun məzhəbinin, bütün ardıcıllarına, eləcə də Quranın bütün müfəssirlərinə qarşı çıxdılar?! Dünyada, onları kor-koranə məzhəbə tabe olmaqdan çəkindirə biləcək heç bir şeyin və heç kimin olmadığı göründükdən sonra, Hənəfi məzhəbini tərk edib, ona xəyanət etməyə, onları nə vadar etdi?! Onları, bunu etməyə vadar edən şey, şübhəsiz ki, böyük bir şey olmalıdır!

Şeyxül-islam İbn Teymiyyə demişdir: "*Bu, ona görədir ki, cahillər güman edirlər ki, əgər insan Allaha ibadət edirsə, bununla məxluqlar arasında olduğu kimi, Allah qarşısında hər hansısa haqqları vardır. Məsələn, öz hökmdarlarına xidmət edən, onlara fayda verən və onlardan zərəri uzaqlaşdıranlar, düşünməyə başlayırlar ki, mükafat və ya əvəz almaq hüququna malikdirlər. Buna görə də, hökmdar onlara qarşı kobudluq və ya biganəlik göstərsə, soruşurlar: "Məgər mən sənin üçün filan-filan şeyləri etmədimmi?" Bununla onlar, sözlə deyərək və ya ürəklərində gizlədərək*

---

[1] Bax "əd-Durr əl-Muxtar" 2/630, həmçinin "əl-Fətava Tatarxaniya".

[2] İmam Əbu Hənifənin ən yaxın tələbələrindən biri.

[3] Bax, əl-Fətava əl-Hindiya 5/280.

[4] "Şərx əl-Kürxi" "Arzuolunmazlar haqqında" fəsil.

*hökmdarı məzəmmət edirlər. Eynilə də, Allaha ibadət edənlər, nadanlıqları və haqsızlıqları üzündən, Allahın onlara borclu olduğuna inanmağa başlayırlar. Ona görə də, Uca Allah izah etmişdir ki, insanın etdiyi yaxşılığın xeyiri onu edənə qayıdır və Uca Yaradan məxluqlara ehtiyac duymur.*

*Allah buyurub:* **"Biz dedik: "Yaxşılıq etsəniz, özünüzə yaxşılıq etmiş, pislik etsəniz öz əleyhinizə etmiş olursunuz"** (17:7).

*Və həmçinin:* **"Kim yaxşı iş görsə, (xeyri) özünə, kim də pislik etsə, (zərəri) özünə olar. Sənin Rəbbin qullara zülm edən deyildir"** (41:46).

*Və həmçinin*: **"Kim şükür etsə, ancaq öz xeyrinə şükür etmiş olar, kim də nankor olsa, (bilsin ki), həqiqətən, Rəbbim (onun şükrünə) möhtac deyildir, Səxavətlidir!"** (27:40)

*Və həmçinin*: **"Onlar müsəlman olduqlarına görə, sənə minnət qoyurlar. De: "Müsəlman olmusunuz deyə, mənə minnət qoymayın! Əgər doğru danışanlarsınızsa, (bilin ki,) əslində Allah sizi imana gətirməklə, sizə mərhəmət göstərmişdir!"** ( 49:17)

*Buna görə də, Yaradanla məxluqlar arasında, çoxlu fərqlər var, bunu, zərrə qədər də olsa, biliyə malik olan şəxs anlaya bilər.*

*Buradan aydın olur ki, Uca Allah, Özü heç kimə və heç bir şeyə möhtac deyildir, lakin hökmdarlara gəlincə isə, onlar, nə olur olsun, başqalarına möhtacdırlar.*

*Buradan həmçinin aydın olur ki, Uca Rəbb, bəndələri üçün xeyirli olanı onlara əmr etmiş, onlara zərərli olanı isə qadağan etmişdir. Necə ki, Qatadə demişdir: "Həqiqətən, Allah əmr etdiyi şeyi, ehtiyacı üzündən əmr etməmişdir, onlara qadağan etdiyi şeyi isə, xəsislik üzündən qadağan etməmişdir, əksinə, onlara fayda verəni əmr etmiş, zərər verəni isə haram etmişdir. Və bu, ehtiyacları üçün əmr edən və tamahları üçün qadağan edən məxluqların əksidir".*

*Buna görə də, kimsə desə ki, məxluqatın Allah qarşısında haqqı var, əgər o adam, Allahın Özünün xəbər verdiyi haqqı nəzərdə tutursa, o zaman həmin adam haqlı olar, çünki Allah doğru danışandır və vədinə xilaf çıxmaz.*

*O, hikməti, səxavəti və mərhəməti ilə, bu öhtəlikləri, Özünün üzərinə götürmüşdür. Odur ki, haqqı olan kimsə, Allahdan cavab gözləməyə səbəb olan, bir şey vasitəsilə, məsələn — öz yaxşı əməli ilə, Allahdan nəsə istəsə, Allahu Təalə ona cavab verər. Əgər bu əməllərə malik olmayan kimsə, Allahdan bu əməllər vasitəsi ilə istəsə, elə çıxır ki, o adam Allahdan başqalarının haqqını istəyir.*

*Bunu, Allahdan başqasının hörməti vasitəsi ilə istəyənin misalında görmək olar. Deməli, Allahdan öz haqqı ilə deyil, başqalarının haqqı ilə istədiyi üçün, belə bir istək — istəyənə fayda verməz".*[1]

Bu cür təvəssül, İslam alimlərinin böyük əksəriyyəti arasında, dində qeyri-qanuni bir yenilikdir. Amma şirk səviyyəsinə çatmır. Hətta hər şey o qədər də dəhşətli olmazdı, amma bu adam bununla kifayətlənmir və növbəti mərhələyə keçir:

**2.** Zaman keçdikcə, bu sufi dərk etməyə başlayır ki, onun günahları çoxalır və getdikcə daha çox olurlar. Buna əsaslanaraq, onun şübhələri getdikcə daha da güclənir — və adam özünə deyir ki, "nə üçün mən bu qədər əminəm ki, əgər peyğəmbərlərinin haqqı ilə istəsəm, Allahu Təalə mənə cavab verəcək?" Şübhə içində olduğu zaman, o təsadüfən aşağıdakı hədislərə rast gəlir:

İbn Ömər demişdir: *"Peyğəmbər ﷺ Bədr döyüşündən sonra, müşriklərin başçılarının cənazələri üzərində dayanıb, dedi: "**Rəbbinizin sizə vəd etdiyini doğru olduğunu gördünüzmü?"** Sonra dedi: **"İndi onlar mənim dediklərimi eşidirlər"**.*[2]

Bəra ibn Azib, rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurdu: ***"Həqiqətən, ölü qəbrinə qoyulduqda və dostları onu tərk etdikdə, ölü onların ayaq səslərini eşidir"***.[3]

Ölülərin qəbirlərinin yanında olarkən, onlara müraciət etdikdə, qəbirlərində eşitməyə qadir olduqlarına, bu hədislərdən, yanlış nəticə

[1] "Qaidə Cəlil" səh. 322–339 (kiçik ixtisarlarla).
[2] Hədis səhihdir; Buxari 7/242; Nəsai 1/693; Əhməd 2/31
[3] Hədis səhihdir; Əhməd 4/297; Əbu Davud 4753.

çıxardıqdan sonra, onun ağlına belə bir fikir gəldi — "niyə mən birbaşa bu saleh insana müraciət etmirəm ki, o özü, şəxsən Uca Allah qarşısında, mənim üçün şəfaət etsin?! Bundan sonra o, salehin qəbrinə gedib deyir ki: "*Ey filankəs! Mənim üçün, Uca Allaha üz tut, Ondan məni bağışlamasını dilə*".

Bu əməl, dində qeyri-qanuni təvəssülə nisbətən, daha ciddidir.

Bu addım, artıq insanı İslamdan çıxaran şirkdir, baxmayaraq ki, bununla bağlı alimlər arasında ixtilaf var. Bunun bir neçə səbəbi var:

1. Bu şəxs, salehin məzarına getdikdə, tam əmindir ki, qəbirdəki saleh insan onu başa düşəcək, onun vəziyyətinə girəcək, onunla yumşaq və mərhəmətli davranacaq. Burada başa düşmək lazımdır ki, o adam, bunu etməklə, bu saleh insanı Allahu Təalədan daha şəfqətli və mərhəmətli edir. Axı o adam, Allahı Rəhman və Rəhim hesab etsəydi, bu qəbrə getməyə ehtiyac duymazdı. Bu məntiq, heç bir şübhəsiz küfrdür. Əziz oxuyucumuz, bunu başa düşdükdən sonra, siz şübhəsiz təəccüblənəcəksiniz ki, Uca Allah, Quranda, daim bu məntiqi təkzib etmək üçün, bunu təkrar edir:

"**Onlar, Allaha tövbə edib, Ondan bağışlanma diləməyəcəklərmi? Allahki Bağışlayandır, Rəhmlidir"** (5:74).

Və həmçinin: **"Qullarının tövbəsini qəbul edən, günahları bağışlayan və sizin nə etdiyinizi bilən Odur. O, iman gətirib, yaxşı əməllər edənlərin duasını qəbul edər və Öz lütfünü onlara artırar. Kafirlər üçün isə, şiddətli əzab hazırlanmışdır"** (42:25-26).

Allahu Təalə, bunu təkrar edir ki, bu insan, onu və onun tövbəsini qəbul edənin Allah olduğunu başa düşsün. Məhz Allah, ona şəfqətlə yanaşacaq və onu rədd etməyəcək, ona görə də saleh insanların yanına getməsinə ehtiyac yoxdur.

2. Bu sufi, bu ölüyə ən böyük ibadət növlərindən birini – duanı həsr edir və bu əməl şübhəsiz ki, küfürdür.

Allah buyurur: **“Kim Allahla yanaşı, haqqında özünün heç bir dəlili olmadığı, başqa bir tanrıya ibadət edərsə, onun cəzasını Rəbbi, Özü verəcəkdir. Şübhəsiz ki, kafirlər nicat tapmazlar!”** (23:117)

Lakin bu şəxsi, küfrdə ittiham etməyə gəldikdə isə, dəlil gətirmədən bu caiz deyildir. Bu, ona görədir ki, bu şəxs qəbirin yaxınlığında ikən, ona müraciət etdiyi təqdirdə, ölünün onu eşidəcəyinə inanır və həmçinin hesab edir ki, bu saleh şəxs Allaha yaxın olduğu üçün, Uca Yaradanın yanında, onun üçün asanlıqla şəfaət edə bilər. Onun bu inancı, yuxarıda qeyd olunan hədislərin, yanlış anlaşılmasına əsaslanır. Ona görə də onun duası, yalnız Allahın qadir olduğu bir şeyi, ölülərdən istəməsi kateqoriyasına aid deyil. Necə ki, valideyn övladından otaqdan bir şey gətirməsini xahiş edir. Bu əmələ, uşağa dua həsr etmək deyilmir, yerinə yetirməyə qadir olduğu məsələlərdə, ona müraciət etmək deyilir. Bu sufi də, bu ölü haqqında eyni inancdadır, halbuki əslində bu ölü onu eşitmir və Allah yanında onun üçün şəfaət edə bilmir. O ki qaldı, bu əməli ilə, bu saleh insanı, Uca Yaradandan daha mərhəmətli və rəhimli görməsinə, əslində həqiqətən bu belədir. Ancaq bu sufiyə izah etsəniz ki, onun hərəkətləri, onun bu ölünü Uca Yaradandan daha mərhəmətli hesab etməsinə dəlalət edir, o adam, çox güman ki, belə inanca malik olduğunu inkar edəcək və əməlindən əl çəkəcək.

Odur ki, əsas etibarilə, ölüdən şəfaət istəmək, böyük şirk olsa da, yuxarıda qeyd olunan səbəblərə görə, mübahisəli bir məsələyə çevrilir. Buna görə də, bu əməlin, aşkar şirk olduğuna dair, birmənalı hökm çıxarmaq aydın görünmür. Allahu Təalə, hər şeyi daha yaxşı bilir. Alimlərin, bu məsələ ilə bağlı dediklərinə gəlincə, burada tapdıqlarımızdan onların, kiçik bir təhlilini verə bilərik.

Şeyxül-islam İbn Teymiyyə, bir insanın, saleh ölü bir şəxsdən, Allah yanında, onun üçün şəfaət istəməsi haqqında danışarkən, belə demişdir: “*Bu elə bir əməldir ki, bunun* ***qadağan*** *və* ***bidətlərdən (yeniliklərdən)*** *biri olduğuna, heç bir alimin şübhəsi yoxdur*”.[1]

[1] “Məzmu‘ əl-Fətava” 1/350.

Gördüyümüz kimi, burada Şeyxül-islam, bu əməli şirk adlandırmamışdır.

Amma, başqa bir əsərində, o demişdir: *"Əgər biz Peyğəmbərin ﷺ, qəbir yanında, Allaha həsr edib, namaz qılmağı, qadağan etməsindən danışırıqsa, o zaman, insanın ölülərə dualar ilə müraciət etməsindən və ya Allah yanında şəfaət diləməsi üçün, onlara müraciət etməsindən ibarət olan, həqiqi şirk haqqında nə deyə bilərik*?!" [1]

Gördüyümüz kimi, burada Şeyxül-islam, artıq bu əməli *"əsl şirk" ("aynu-ş-şirk")* adlandırmışdır.

Şeyx İbn Baza deyildikdə ki: *"Bir çox qardaşlar deyirlər ki, Allah dərgahında, şəfaət diləməsi üçün, ölüyə üz tutmaq şirk deyil, bidətdir" — o, belə cavab verdi: "Əksinə, bu, böyük şirkdir (şirk əkbər)"*.[2]

Nə olursa olsun, bu məsələnin daha dərindən öyrənilməsi tələb olunur, amma bu da hal-hazırda müşküldür.

Hörmətli oxuyucumuzun da gördüyü kimi, ümumi siyahıda, artıq (9) doqquzuncu olan, bu ikinci mərhələni, təkzib etmək üçün, üç hadisənin sübuta yetirilməsinə və aydınlaşdırılmasına, səylər yönəltmək lazımdır:

1) Allahu Təalə, çox Bağışlayan və Rəhmlidir, ona görə də, əməlisalehlərdən şəfaət istəməyə ehtiyac yoxdur.

2) Ölülər, qəbirlərində eşidə bilməzlər.

3) Dua ibadətdir və onu Allahdan başqasına həsr etmək olmaz.

Bütün bunları, Allahın izni ilə ayrı bir fəsildə edəcəyik. Burada, sadəcə olaraq istəyirik ki, hörmətli oxuyucu qeyri-qanuni təvəssülün təhlükəsini və sonda nəyə gətirib, çıxardığını başa düşsün. Həm də ki, oxuyucu bu mərhələlərin mahiyyətini və onların həyata keçirilməsinin qarşısını almaq üçün, nə tələb olunduğunu yaxşı başa düşsün. Həmçinin, bəlli olsun ki, harada və nədən, hansı məntiqə əsaslanaraq, bütlərə, cansız əşyalara,

[1] "İqtida sirat əl-müstəqim" səh. 553.
[2] "Şərx Kəşf Şubuhat", kaset 1.

qəbirlərə və sair ibadət başlayır. Ağıllı, sağlam insanları, geridə qalmış bütpərəstliyə qayıtmağa nəyin sövq etdiyi bəlli olsun.

**3.** Bundan sonra, bu sufi, biraz da dərinə gedir. Günahkar, daima saleh ölünün yanına, əliboş gəlmənin yaxşı bir şey olmadığını anlayıb, guya onun "rəğbətini qazanmağa" başlayır. Ona qurbanlar kəsməyə, nəzirlər verməyə başlayır və bu saleh şəxsin ondan imtina edəcəyindən və ya onun razılığına nail ola bilməyəcəyindən, səmimi şəkildə qorxmağa başlayır. Eyni zamanda, fayda və zərərin, yalnız Allahın əlində olduğunu və bu saleh insanın heç bir şeyə malik olmadığını anlayır, lakin bu saleh insanın, Allah yanında ona şəfaət etməsi istəyi, onu öz ibadətini, ölmüş salehə həsr etməyə və bu mərhumun razılığını qazanmağa çalışmasına səbəb olur. Bu, böyük şirkdir və bu şəxs ixtilafsız müşrikdir. Çünki o adam, Peyğəmbərin ﷺ dövründə, onlara qarşı vuruşduğu, onları müşrik adlandırdığı və əbədi Cəhənnəm vəd etdiyi müşriklərlə eyni şeyi edir. Onların sözlərini çatdıraraq, Uca Allah buyurdu:

“**Onlar, Allahı qoyub, özlərinə nə bir zərər, nə də bir fayda verə bilənlərə ibadət edirlər və: “Onlar, Allahın dərgahında bizim şəfaətçilərimizdir!”– deyirlər”** (10:18).

Və həmçinin: **“Doğrusu, əsl din ancaq Allaha məxsusdur. Allahı qoyub, başqalarını özlərinə dost tutanlar: “Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik”– (deyirlər)”** (39:3).

Bununla belə, sufilərin özlərini müdafiə edərkən, qeyd etdikləri, Peyğəmbər ﷺ dövrünün müşrikləri ilə, aralarında fərq olduğunu, hər yolla göstərməyə və sübut etməyə çalışdıqları, şübhələri var. Bütün bu şübhələri və ya əksəriyyətini, Allahın izni ilə bu məsələyə həsr olunmuş, ayrı bir fəsildə araşdıracağıq.

Bu bölümü yazdıqdan sonra, sufi qəbirpərəstlərinin başçılarından və imamlarından birinin — əl-Kuzainin sözlərinə rast gəldik, hansı ki, o adam, sözümüzün təsdiqi olaraq “əl-Bəraxin” (səh. 391) kitabının oxucularına, bu silsilənin mahiyyətini açıqlayır: «*Bilin ki, salehlərin vasitəçiliyi üç istiqamətdədir*:

1. *Onların vasitəsi ilə, Allaha dua edərək, demək ki: "Allahım! Səndən peyğəmbərlərin və ya saleh şəxslərin, ya da onların izzətinə, əzəmətinə və ya haqqına görə istəyirəm".*

2. *Birbaşa bu ölüyə müraciət etmək ki, problemlərini həll etmək üçün Rəbbin qarşısında ona şəfaət etsin. Bunu belə ifadə etmək olar: "Ey, filankəs! Mənim üçün Allaha dua et ki, görmə qabiliyyətimi qaytarsın".*

3. *Ölüyə dua etmək ki, ona müraciət edənin problemlərini özü həll etsin. Bunu aşağıdakı ifadə ilə ifadə etmək olar: "Ey filankəs! Mənə görmə qabiliyyətimi qaytar"».*

Qəbirlərə ibadət edənlərin, ideologiyasının mahiyyətinin nədən ibarət olduğunu başa düşdükdən sonra növbəti bölümə keçmək olar.

## BÖLÜM 5. TƏVƏSSÜLÜN İCAZƏLİ NÖVLƏRİ

İcazəli təvəssülün, bir neçə növü var. Başqa sözlə desək, Allaha yaxınlaşmağın, bir neçə yolu. Bu növlərin dini qanuniliyindən danışırıq, çünki Quran, Sünnə və səhabələrin anlayışı, onlara işarə edir.[1]

### 1. Allaha, Onun gözəl adları və yüksək sifətləri ilə yaxınlaşmaq

Buna dəlil, Quran ayələri və Peyğəmbərin ﷺ hədisləridirlər.

Allah buyurur: **"Ən gözəl adlar Allahındır. Ona, bu adlar vasitəsi ilə dua edin"** (7:180).

Həmçinin, Süleyman peyğəmbərin duasından bəhs edən, Allahın kəlamları: "(Süleyman), qarışqanın bu sözünə gülümsədi və dedi: **"Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın, yaxşı əməl**

[1] "ət-Təvəssul" səh. 29-30.

**etmək üçün, ilham ver və məni öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!"** (27:19)

Yəni burada, Süleyman peyğəmbər Allahın rəhməti ilə, Allaha yaxınlaşmağa çalışırdı.

İbn Məsud rəvayət edir ki, Allah Rəsulu ﷺ buyurdu: "***Kimə üzüntü və kədər gələrsə, desin:" ... Sənə, Özünə verdiyin və ya Kitabında nazil etdiyin, yaxud yaratdıqlarından kiməsə öyrətdiyin, yaxud da Öz yanında olan qeyb elmində saxladığın, Özünə aid olan, hər bir adla yalvarıram ki, Quranı qəlbimin baharı et ..."*** .[1]

İbn Abbas rəvayət edir ki, Allah Rəsulu ﷺ buyurdu: "***Allahım! Sənin qüdrətinə sığınıram! Səndən başqa ibadətə layiq, məbud yoxdur! Məni azdırma.."*** .[2]

Yuxarıda deyilənlərin hamısı, çox sadə bir nəticəyə gəlib, çıxır - insan, Uca Allaha üz tutmaq istədikdə və Uca Allahdan, onun duasına cavab verməsini istədikdə, sadəcə olaraq bu vəziyyətə uyğun olan, Allahın Adından istifadə edərək, Allaha üz tutması lazımdır.

Məsələn: "Allahım! Məni bağışla, çünki Sən Bağışlayansan! Allahım! Mənə nəsib et, həqiqətən, Sən Səxavətlisən" və sair.

## 2. Yaxşı əməllərinizlə Allaha yaxınlaşmaq

Bunun anlayışı, onu göstərir ki, insan, Allahdan hər hansı bir şey istədikdə, namaz əsnasında öz fəzilətini, saleh əməllərini, yaxud günahdan çəkindiyini və sair qeyd edə bilər.

Allah buyurub: **"O kəslər ki: "Ey Rəbbimiz! Həqiqətən, biz iman gətirdik, bizim günahlarımızı bağışla və bizi Od əzabından qoru!"– deyirlər"** (3:16).

---

[1] Hədis səhihdir; Əhməd 3712; əl-Hakim 1/509; İbn Hibban 2372 və s. Bax: "əl-Səhihə" 199.

[2] Hədis səhihdir; Buxari 7383; Muslim 6899; Əhməd 2748.

Və həmçinin: **“Ey Rəbbimiz! Biz, sənin nazil etdiyinə iman gətirdik və (göndərdiyin) elçinin ardınca getdik. Bizi də şahidlərlə bir yerdə yaz!”** (3:53)

Və həmçinin: **“Həqiqətən, qullarımdan bir zümrə var idi ki, onlar: “Ey Rəbbimiz! Biz iman gətirdik. Bizi bağışla, bizə rəhm et! Sən rəhm edənlərin ən yaxşısısan!”– deyirdilər”** (23:109).

Burada, mağarada qapalı qalan üç nəfərlə bağlı, hədisi də qeyd etmək olar. Onların hər biri, öz xeyir əməllərini xatırladaraq, Allaha üz tuturdu. Onlardan biri duasında qeyd etdi ki, o, yalnız Allah rizası üçün, səmimi qəlbdən, ata-anasına heyrətamiz hörmət göstərmişdir. Onlardan ikincisi, duasında Allahdan qorxaraq, zinadan imtina etdiyini qeyd etdi. Üçüncüsü isə, işçisi ilə necə səxavətli davrandığını qeyd etdi. Onların duasından sonra, Uca Allah, mağaranın çıxışını bağlayan, nəhəng daşı (kənara) çəkdi.[1]

Buna əsaslanaraq, hər birimiz duada məsələn, deyə bilərik ki: “Allahım! Mən Sənin yolunda hicrət etdim, Sənin köməyinə ümid etdim, məni köməksiz qoyma”, və ya “Allahım! Mən Sənin Rəsulunu və onun səhabələrini, bütün qəlbimlə sevirəm, onlara olan sevgimə görə, günahlarımı bağışla” və sair.

## 3. Saleh, diri insanın duası ilə, Allaha yaxınlaşmaq

Bunu bir çox ayə, hədis və əsərlər təsdiq edirlər.

Ayələrdən, Allahın bu kəlamlarını qeyd etmək olar: **“Onlar dedilər: “Ey atamız! (Allahdan) bizim günahlarımızın bağışlanmasını dilə. Doğrudan da, biz, günahkar olmuşuq”** (12:97).

Hədislər arasında isə, şiddətli quraqlıq zamanı, bir bədəvinin, Cümə günü xütbə verən Peyğəmbərə ﷺ yaxınlaşıb, yağış duası ilə, Allaha üz tutmasını istəməsini, qeyd edə bilərik. Peyğəmbər ﷺ əllərini qaldırıb,

[1] Hədis səhihdir; Buxari 2215, 2272; Muslim 6949; Əhməd 5974, İbn Ömərin sözlərindən.

Allahdan yağış istədi, bundan sonra o, heç hələ xütbəsini bitirməmiş, yağış damcıları, artıq onun saqqalından aşağı yuvarlanırdılar.[1]

Ənəs ibn Malik deyir ki, quraqlıq olanda, Ömər ibn Xəttab, Peyğəmbərin ﷺ əmisi Abbas ibn Əbdül-Müttəlibin yanına gedir və deyir: *"İlahi! Biz Sənin Peyğəmbərinin hörmətinə təvəssül etdik, Sən bizə yağış göndərdin. İndi isə, onun əmisinin hörmətinə təvəssül edirik və yağış istəyirik."* Və həqiqətən yağış yağdı".[2]

Hədisin başqa bir variantında, Ömərin xahişindən sonra, Abbasın insanlar üçün, Allaha etdiyi duanın mətni verilmişdir. Bu versiyanı, biz qarşı tərəfin şübhələrini təhlil edərkən, qeyd edəcəyik.

Bu hədislər, çətin bir həyat vəziyyətində, insanlar arasında, saleh sayılan, diri birinə yaxınlaşıb, bu vəziyyətin həll olunması üçün, Allaha dua etməsinin, caiz olduğuna dəlalət edir.

## 4. Acizliyini və zəifliyini etiraf etməklə, Allaha yaxınlaşmaq

Allah buyurur: **"(Musa), onların yerinə, (qoyunlara) su verdi, sonra da kölgəyə çəkilib, dedi: "Ey Rəbbim! Sənin mənə nazil edəcəyin xeyrə ehtiyacım var!"** (28:24)

Və həmçinin: **"Bir zaman (Zəkəriyya), Rəbbinə gizlicə dua edib, demişdi: "Ey Rəbbim! Artıq sümüklərim zəifləmiş, başım da ağappaq ağarmışdır. Ey Rəbbim! Sənə etdiyim dua sayəsində, (heç vaxt) bədbəxt olmamışam. Mən, özümdən sonra gələn, qohumlarımdan (dinə etinasız yanaşacaqlarından) qorxuram. Zövcəm də sonsuzdur. Mənə, Öz tərəfindən, elə bir övlad bəxş et ki, o həm mənə, həm də Yaqub nəslinə varis olsun. Ey Rəbbim! Elə et ki, o (Sənin) razılığını qazanmış olsun!" (Ona belə vəhy olundu:) "Ey**

[1] Hədis səhihdir; Buxari 933; Muslim 897.
[2] Hədis səhihdir; Buxari 1010, 3710; İbn Səd Təbəqatda 4/28–29.

**Zəkəriyya! Səni, Yəhya adlı, bir oğul ilə müjdələyirik. Biz, bu adı (ondan) öncə, kimsəyə qoymamışıq!”** (19:3-7)

## 5. Günahını və haqsızlığını etiraf etməklə, Allaha yaxınlaşmaq

Allah buyurur: **“(Musa) dedi: “Ey Rəbbim! Mən, özüm-özümə zülm etdim. Məni bağışla!” O da onu bağışladı. Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir. (Musa) dedi: “Ey Rəbbim! Mənə nemət bəxş etdiyin üçün, mən heç vaxt günahkarlara arxa olmayacağam!”** (28:16)

Və həmçinin: **“Zün-Nunu da (yada sal!) Bir zaman o, qəzəbli (qövmündən) ayrılıb, getmiş və ona gücümüz çatmayacağını güman etmişdi. Sonra da, zülmətlər içində yalvarıb, demişdi: “Səndən başqa, heç bir ilah yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!” Biz, onun duasını qəbul etdik və onu qəm-qüssədən qurtardıq. Biz möminləri belə xilas edirik!”** (21:87)

Və həmçinin: **“Hər ikisi: “Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan və bizə rəhm etməsən, əlbəttə, ziyana uğrayanlardan olarıq”– dedilər”** (Quran 7:23).

Bu təvəssül növləri, Qurandan çoxsaylı ayələrlə və sünnədən gələn xəbərlərlə icazəlidir. Sufilərin və onlar kimilərin dediklərinə gəlincə, biz onlardan tələb edirik ki, heç olmasa bir ayəni düzgün anlamında və ya heç olmasa, təvəssüllərinin qanuniliyinə dəlalət edən etibarlı, aşkar bir hədis gətirsinlər. Amma onlar bunu haradan götürəcəklər?!

Şeyx əl-Albani demişdir: *“Ancaq təəccüblü olan odur ki, onlar təvəssülün qanuniləşdirilmiş formalarından, üz döndərirlər və praktiki olaraq, dualarında və insanları öyrətməkdə istifadə etmirlər, lakin bu cür təvəssüllərin əsası, Quranda, Sünnədə var və icmanın yekdil rəyi ilə təsdiqlənib. Və görürsən ki, əksinə bunun əvəzində onlar necə də səy edirlər özlərinin uydurduğu dualara və Uca Yaradan tərəfindən*

*qanuniləşdirilməmiş təvəssül növlərinə tərəf. O növləri, seçilmiş Rəsul da ﷺ istifadə etməmişdir və bunun istifadəsi haqqında da müsəlmanların ilk üç ən yaxşı nəslindən heç kimdən nəql olunmamışdır. Təvəssülün bu növləri haqqında, ən azı deyə bilərik ki, onlar haqqında ixtilaflar var. Burada, Uca Allahın bu kəlamını zikr etmək necədə məqsədəuyğundur:* **"Siz xeyirli olan şeylərin daha dəyərsiz şeylərlə əvəz olunmasınımı istəyirsiniz?"** (Quran 2:61)[1]

Və onlar, həqiqətən də xeyirli olanı, dəyərsiz şeylər ilə əvəz edənlər oldular. Axı bu təvəssül növləri, fayda və nəticə gətirdiyi üçün qanuniləşdirilmişdirlər. Peyğəmbərlərin və saleh insanların haqqı ilə, Allaha üz tutmağa gəlincə, bu heç bir nəticə vermir.

Şeyxül-islam İbn Teymiyyə demişdir: "*Allahdan, peyğəmbərlərin və salehlərin hörməti və ya haqqı ilə istəmək özlüyündə heç bir müsbət nəticə vermir. Əgər bu peyğəmbər və ya saleh şəxs, özləri, onlardan kömək istəyən bu adam üçün, dua və şəfaətlə Allaha üz tutsalar, o zaman bu haqq və hörmət, bu istəyən adama faydalı olardı. Əgər bir şəxs, Peyğəmbərin haqqı və hörməti ilə Allaha üz tutsa, amma Peyğəmbərin özü isə, bu vaxt onun üçün dua ilə, Allaha üz tutmazsa və Allah qarşısında onun üçün şəfaət etməsə və bu şəxs özü də Allahdan cavab almağa səbəb olan heç bir şey etməsə, onun bu istəkləri fayda və nəticə verməz. Bu ona görədir ki, o adam, Allahdan özünə heç bir aidiyyəti olmayan, kənar bir şey vasitəsilə istəyir və Uca Allahın ona cavab verməsi üçün səbəblər axtarmır*".[2]

# BÖLÜM 6. SUFİLƏRİN KİTABLARINDA, MÜQƏDDƏS MƏTNLƏRİN TƏHRİF EDİLMƏSİ FAKTLARINA DƏLALƏT EDƏN, QARŞI TƏRƏFİN BƏZİ ŞÜBHƏLƏRİ VƏ ONLARA CAVAB

[1] "ət-Təvəssül" səh. 46.
[2] "Qaidə Cəlil" səh. 304–305.

Bu bölümdə, Allahın izni ilə, sufilərin öz mövqelərini sübut etmək üçün, əkdikləri əsas şübhələri təqdim edəcəyik, sonra bu şübhələrin hər birinə, ətraflı cavab verəcəyik ki, bundan sonra bu şübhələr yox olsunlar.

Lakin bu fəsildə, biz onların dəlillərini təqdim etməklə kifayətlənməyəcəyik, həm də onların kitablarından, bu insanların öz mövqelərini təsdiq etmək üçün, heç bir şeydən çəkinmədiklərini sübut edən, bəzi sitatlar təqdim edəcəyik. Onlar müqəddəs mətnlərdə yalana, saxtakarlığa və təhrifə əl atırlar. Onlar bunu, öz yalançı mövqelərini doğru və ya əyriliklə sübut etmək üçün edirlər.

Əlbəttə, biz bu qısa fəsli, onların kitablarının tam təkzibinə həsr etməyəcəyik, ancaq oxuyucunu çox təəccübləndirəcək bir neçə sitatla kifayətlənəcəyik.

O ki, qaldı bu kitabların tam təkzibinin yazılmasına, ola bilər bəlkə, Uca Allah gələcəkdə bizə, belə bir fürsət verər.

Onlar, yalan fikirlərini yaymaq üçün, çoxlu ədəbiyyat nəşr ediblər, onlardan yalnız iki kitabla kifayətlənəcəyik:

1. "Təvəssül – İslamda vasitəçilik yolu ilə, edilən dua" (müəllif, öz adının açıqlanmasını istəməyib, bunun səbəbini, əziz oxuyucu tezliklə başa düşəcək. Lakin nəşr olunma məsuliyyətini, Vəliyulla Yaqub, öz üzərinə götürüb. Kitab 1424-cü (2003) ildə Kazanda "İman" nəşriyyatında çap olunub.

2. "Vahabiliyin əsl üzü" (müəllif Nəcmuddin Şeyx-mərdani, Kazan, 2007).

Budur onların dəlilləri və cavabları:

**1-ci dəlil.**

Peyğəmbərlərin ﷺ və saleh insanların, hörmət və haqqı ilə, Allaha dua etməyin caizliyini və qanuniliyini təsdiq etmək üçün, ilk dəlillərini verirlər:

Ənəs ibn Malik deyir ki, quraqlıq olanda, Ömər ibn Xəttab (Allah ondan razı olsun), Peyğəmbərin ﷺ əmisi Abbas ibn Əbdül-Müttəlibin yanına gedirdi və deyirdi: *"İlahi! Biz Sənin Peyğəmbərinin məqamına təvəssül etdik, Sən bizə yağış göndərdin. İndi isə, onun əmisinin məqamına təvəssül edirik və yağış istəyirik".* Və həqiqətən yağış yağdı".[1]

Qarşı tərəf, bu hədisi sitat gətirərək, demək istəyir ki, Ömər (Allah ondan razı olsun) Allaha, *Peyğəmbərin haqqı və ya hörməti ilə*, sonra isə, Peyğəmbərin ﷺ *əmisi Abbasın hörməti və ya haqqı ilə, müraciət etmişdir*. Onlar bunu Ömərin "Biz Sənin Peyğəmbərinin məqamına təvəssül etdik" və həmçinin "indi isə, onun əmisinin məqamına təvəssül edirik" sözlərində görürlər. "Vasitəsilə" sözü ilə, onun hörmət, izzətini nəzərdə tuturlar, deyirlər.

Cavab:

Bu ifadəyə cavab vermək üçün, bir təfərrüatı başa düşmək lazımdır: hər iki tərəf, Ömərin "vasitəsilə" sözlərində nəzərdə tutulan, lakin nitqdə nəzərə alınmayan, bir şeyin olması ilə razılaşır.

1) Qarşı tərəf, iddia edir ki, "vasitəsilə" sözünün mənası, "Peyğəmbər və Abbasın haqqı və hörməti ilə" deməkdir.

2) Biz isə, iddia edirik ki, burada nəzərdə tutulan, "Peyğəmbərin bizim üçün duası, sonra da Abbasın bizim üçün etdiyi dua ilə".

Hənəfi məzhəbinin bir çox imamları, öz kitablarında "vasitəsilə" sözünün "dua vasitəsilə" mənasında olmasından bəhs etmişlər. Onların arasında, İmam İbn Əbil-'İzz[2], İmam Mahmud əl-Alusi[3], İmam Şükri əl-Alusi[4], Şah Vəliyullah əd-Dəhləvi[5] və başqaları var. Üstəlik, dəlillərin təzyiqi altında, hətta sufi təriqətlərinin bir çox nümayəndələri, məsələn, Məhəmməd Ənvər əl-Kəşmiri[6] (Dübəndi təriqəti) bunu etiraf ediblər.

---

[1] Hədis səhihdir; Buxari; İbn Səd, Təbəqat 4/28–29.
[2] Bax, Şarh Tahaviyya, səh. 263.
[3] Bax, Ruh əl-məani 6/126–127.
[4] Bax, "Qəyat əl-Əmani" 2/335.
[5] Bax, əl-Budur əl-Bəziyə, səh. 204 (Fincifirinin əl-Bəsairdə qeyd etdiyi kimi, səh. 17).
[6] Bax, Feyd əl-Bari 2/379.

Ömərin (Allah ondan razı olsun) nə demək istədiyini öyrənmək üçün, səhabələrin Peyğəmbər ﷺ vasitəsilə, Allaha necə yaxınlaşdıqlarını izah edən, həmin o hədislərə qayıtmaq kifayətdir. Qarşı tərəfin dediklərinə əsasən elə çıxır ki, səhabələr hər biri öz evlərinə qapanaraq, Peyğəmbərin Allah yanında olan haqqı ilə Allahdan diləmişlər. Amma əslində bu doğru deyil, çünki bu barədə, səhabələrdən heç bir xəbər gəlməyib.

Amma hədis məcmuələrində deyilir ki, Peyğəmbərin ﷺ dövrünün səhabələri, onun yanına gəlib, ondan Allaha yağış yağması üçün dua etməsini istəyirdilər, bundan sonra Peyğəmbər ﷺ əllərini qaldırıb, Allaha dua edirdi.

Ənəs ibn Malik demişdir: “*Bir dəfə cümə günü, bir nəfər əl-Qədə binasının kənarında yerləşən qapıdan, məscidə daxil oldu*. Bu bina, ona görə belə bir ad almışdır ki, çünki Ömər bu binanı borcunu ödəmək üçün, bir şəxsə vermişdi və bu da ərəbcə “qəza” adlanır) *və Allah Rəsulu ﷺ bu zaman minbərdə dayanmışdı və xütbə oxuyurdu. Bu şəxs Allah Rəsuluna ﷺ üz tutub dedi: “Ya Rəsulullah, mal-qara məhv oldu, yollar bağlandı, Allaha dua et ki, bizə yağmur endirsin.” Peyğəmbər ﷺ əllərini göyə qaldırıb, dedi:* ***“Allahım, bizə yağmur endir!”*** *- və bunu üç dəfə təkrar etdi”.*[1]

Bu hədisdən də göründüyü kimi, Peyğəmbər ﷺ bu şəxsə: “Evdə oturub, mənim haqqım və hörmətimlə, Allahdan istəyə bilərdin” deməmişdir.

Aişə demişdir: “*Bir gün insanlar, Peyğəmbərə ﷺ quraqlığın olmasından şikayət etdilər. Bu zaman o, minbərini xüsusi bir (bayram namazı qılınan) meydana aparmağı əmr etdi və camaat üçün, bir gün təyin etdi ki, hamı həmin gün, bu yerə getməli idilər. Rəsulullah ﷺ günəş çıxandan dərhal sonra çıxdı, minbərə oturdu, Allahı təsbih etdi və həmd etdi, sonra dedi:* ***“Siz mənə quraqlıqdan, yağışın azlığından şikayət etdiniz. Rəbbiniz sizə, dua ilə Ona tərəf dönməyi əmr etdi və sizə cavab***

[1] Hədis səhihdir; Buxari 933; Muslim 897.

***verəcəyinə vəd verdi”.*** *Peyğəmbər ﷺ Allahdan yağış dilədi, sonra camaatla namaz qıldı, sonra güclü leysan yağdı və selə səbəb oldu.*[1]

Və buna bənzər hədislər çoxdurlar. Bu hədislər, Ömərin “*Biz Sənin Peyğəmbərinin hörmətinə təvəssül etdik və Sən bizə yağış yağdırdın*” deyərkən nəyi nəzərdə tutduğunu izah edir. Qəlbi qərəzsiz olan, hər kəs razılaşar ki, səhabələr Peyğəmbərin ﷺ onlar üçün etdiyi dua ilə, Allaha yaxınlaşmağa çalışırdılar. Həmçinin razılaşar ki, heç bir səhabənin ağlına belə gəlməyib ki, oturub evdə, Peyğəmbərin hörmətinə, Allahdan yağış diləsin.

3. Nə üçün Ömər, Peyğəmbərin ﷺ vəfatından sonra, Abbasın yanına gedirdi? Məgər o, peyğəmbərin ﷺ hörmətinə Allahdan istəyə bilməzdimi? Axı Peyğəmbərin məqamı həm sağlığında, həm də vəfatından sonra eyni dərəcədə yüksəkdir!

Bunun cavabı budur ki, Ömər və digər səhabələr bilirdilər ki, Peyğəmbər ﷺ ancaq sağ ikən, onlar üçün Allaha dua edə bilərdi, ona görə də vəfat etdikdən sonra, onun qəbrinə gedib, Allahdan yağış istəməyin mənası yoxdur. Axı Peyğəmbər ﷺ qəbrində diri olsa da, ordakı həyat bizim həyatımıza bənzəmir. Biz, bunun hansı formada baş verdiyini bilmirik. Buna görə də, səhabələrdən heç biri Peyğəmbərin ﷺ qəbrinə gedib, problemlərini ona izah etməmiş, işlərində onunla məsləhətləşməmişlər. Səhabələr, Peyğəmbərin ﷺ vəfatından sonra, mübahisəli məsələləri və ixtilafları həll etmək üçün, onun yanına getmirdilər.

Peyğəmbərin ﷺ özünə gəlincə isə, o özü, indi yer üzündə nə baş verdiyini bilmir və buna aşağıdakı hədis dəlalət edir:

Əbu Səid əl-Xudri demişdir ki, Qiyamət günü, insanlar Peyğəmbərin ﷺ su hovuzunun yanına gələcəklər, lakin mələklər onların çoxunu oradan qovmağa başlayacaq və Peyğəmbər ﷺ buna təəccübünü bildirəcək. Sonra mələklər ona deyəcəklər: “*Sən bilmirsən ki, onlar səndən sonra nə etdilər*”. Sonra Peyğəmbər ﷺ deyəcək: ***“O zaman, mən də***

[1] Hədis yaxşıdır; Əbu Davud 1173.

***saleh bəndənin (yəni İsa ibn Məryəmin) dediyini deyəcəyəm: "Nə qədər ki, onların arasında idim, mən onlara şahid idim. Sən məni (onların arasından) götürdükdən sonra isə, onlara nəzarət edən Özün oldun." Sonra mənə deyəcəklər: "Sən onlardan ayrıldığın gündən bəri, onlar sənin dinindən dönürdülər"***.[1]

Məhz buna görə, Ömər demişdir: "*Biz sənin peyğəmbərinin məqamına təvəssül* ***edirdik, indi isə*** *onun əmisinin məqamına təvəssül edirik*...".

Əgər biz, bu xəbəri onların anlayışı ilə başa düşsək və Ömər Peyğəmbərin ﷺ məqamı ilə, Allaha yaxınlaşıbsa, niyə o, Peyğəmbərin ﷺ vəfatından sonra, Abbasın (Allah ondan razı olsun) yanına getdi? Axı, Ömərin, Peyğəmbərin ﷺ məqamı ilə, Allaha yaxınlaşmağa davam etməsinə, heç nə mane olmurdu.

Axı Peyğəmbərin ﷺ məqamı, onun ölümü ilə yox olmur. Peyğəmbərin ﷺ vəfatı ilə, nə yox oldu ki, Ömər Abbasın yanına getməyə məcbur oldu? O yox oldu ki, Peyğəmbər ﷺ diri olan Abbasdan (Allah ondan razı olsun) fərqli olaraq, daha Allaha dua ilə müraciət edə bilməzdi.

4. Ömərin: "*Əvvəllər biz Sənin Peyğəmbərinin məqamı ilə təvəssül edirdik, indi isə onun əmisinin məqamına təvəssül edirik*" deməsi, hər iki təvəssülün eyni formada olmasına dəlalət edir. Yuxarıda dəlil gətirdik ki, Peyğəmbərin ﷺ dövründə, insanlar onun duası ilə təvəssül edirdilər, bu isə o deməkdir ki, Abbasın dövründə də insanlar, dua ilə təvəssül edirdilər, amma artıq Abbasın duası ilə.

Bunu, Hafiz İbn Həcərin sözləri təsdiq edir: "*Əz-Zubeyr ibn Bəkkar "Əl-Ənsab" kitabında, Abbasın bu hadisə zamanı, duasında dəqiq nə dediyini izah etmişdir. O, rəvayətçilərin zəncirinə istinad edərək, rəvayət edir ki, Abbas yağış üçün, dua edərək, dedi: "Allahım! Həqiqətən də, bədbəxtliklər ancaq günahlar üzündən baş verirlər və onlardan ancaq tövbə etməklə qurtula bilərik. Sənin Peyğəmbərinlə qohum olduğum üçün, insanlar mənim vasitəmlə Sənə üz tutdular və indi biz günahkar əllərimizi və alnımızı Sənə tövbə edərək uzadırıq. Bizə yağış endir!" Sonra səmanı dağlar kimi buludlar bürüdü və yağan yağış, yer üzünü suladı və insanları həyata qaytardı*".

Bu rəvayət, Şeyx əl-Albani və digər mühəddislərin də təsdiq etdiyi kimi **səhihdir**.

---

[1] Hədis səhihdir; Buxari 5/191; Muslim 4/2194

Bu rəvayət, açıq-aydın göstərir ki, məsələ Ömərin: "*İndi isə onun əmisinin məqamına təvəssül edirik, bizə yağış yağdır*" deməsi ilə bitməmiş, bundan sonra Abbasın, özünün duası gəlmişdir.

5. Sufilər, Peyğəmbərin hörmətinin, onun ölümündən sonra qalmasına baxmayaraq, Ömər nə üçün Peyğəmbərin məqamına təvəssülü, Abbasın hörmətinə dəyişdirdi sualına cavab verməyə çalışdılar. Onlar, aşağıdakı fərziyyələri irəli sürdülər:

**Birincisi:** Ömər (Allah ondan razı olsun) insanlara, bunun icazəli olduğunu izah etmək üçün bunu etdi. Bununla o, insanlara, Peyğəmbərin ﷺ hörməti ilə edilən duanı tərk edib, ondan aşağı olanın hörməti ilə dua etməyin icazəli olduğunu göstərmək istəyirdi.

Cavab: 1) Bu fərziyyə, çox qəribə və təəccüblüdür. Əgər Ömər (Allah ondan razı olsun), həqiqətən də Peyğəmbərin ﷺ hörməti ilə, Allaha üz tutmağın icazəli olduğuna inansaydı, o zaman insanların susuzluqdan və aclıqdan az qala öldüyü, heyvanların və əkinlərin tələf olduğu, insanların böyük kədər və müsibətlərə məruz qaldığı belə çətin bir vəziyyətdə, Peyğəmbərin ﷺ hörməti ilə, Allaha üz tutmağı heç vaxt tərk etməzdi. Həqiqətənmi onlar demək istəyirlər ki, Ömər (Allah ondan razı olsun) belə acınacaqlı vəziyyətdə, insanlarla zarafat etmək qərarına gəlmişdi?! Axı hər bir ağıllı insan razılaşar ki, çətin vəziyyətdə insan, xilas olmaq üçün, ən əmin, ən etibarlı səbəblərdən yapışır.

2) Bu qəribə məntiqlə razılaşsaq belə, bəs bu hədisin aşağıdakı sözləri ilə nə etməliyik?: "*Quraqlıq baş verdiyi zaman*", həqiqətən bu sözlər, oxşar vəziyyətin, bir neçə dəfə baş verdiyini və hər dəfə, insanların Ömərin (Allah ondan razı olsun) yanına getdiyini, onun da Abbasın yanına getdiyini açıq şəkildə göstərir. Əgər Ömər (Allah ondan razı olsun) insanlara, bunun icazəli olduğunu göstərmək istəsəydi, ilk dəfə bununla kifayətlənər və bunu hər dəfə təkrarlamazdı.

**İkinci:** Onların ikinci fərziyyəsi budur ki, Ömər (Allah ondan razı olsun) bu hərəkəti ilə, sadəcə olaraq, hər zaman əmisinə hörmət və ehtiram göstərən Peyğəmbərin ﷺ yolu ilə getmişdir. Bunu təsdiq etmək üçün, həmin əz-Zübeyr ibn Bəkkarın "Əl-Ənsab"da İbn Ömərin

dediyi rəvayəti gətirirlər: *"Ömər (Allah ondan razı olsun) kül ilində, öz xahişi ilə Abbasa müraciət etdi və sonra insanlara dedi: "Həqiqətən, Allahın Rəsulu ﷺ öz atası üçün istədiyini, Abbas üçün də istəyirdi, ona görə də ey insanlar, Peyğəmbərdən ﷺ nümunə götürün və əmisini Allaha yaxınlaşmaq üçün vasitə edin*".

Cavab: 1) Bu rəvayət zəif və səhih deyildir. O, iki fərqli ötürücü zəncirində gəlib. Bunlardan birincisində, zəif rəvayətçi olan Davud ibn ʻAta əl-Mədənidir, üstəlik də, mühəddislər hədis nəqlini ondan tərk etmişlər. İkinci zəncirdə isə, Said ibn Ubeydullah əl-Muzanidir – naməlum şəxsdir. Bu zəncirlər bir-birini dəstəkləmirlər, çünki birinci rəvayətçinin zəifliyi, çox ciddidir və ikincinin halı isə heç məlum deyil.

2) Bu rəvayət, səhih olsa belə, o yalnız Ömərin (Allah ondan razı olsun) nə üçün digər səhabələrdən birini yox, Abbası seçməsindən bəhs edir. Bu rəvayətdə, Ömərin (Allah ondan razı olsun), Peyğəmbərin ﷺ xətir-hörməti ilə istəməyi tərk edib, Abbasın xətir-hörməti ilə istəməsi barədə bir söz yoxdur.

**Üçüncü:** Onların üçüncü fərziyyəsi isə budur ki, Peyğəmbərin ﷺ xətir-hörməti ilə, Allaha üz tutmağı qanuni icazəli edən, bəzi hədislərdən, Ömərin (Allah ondan razı olsun), sadəcə olaraq xəbəri olmayıb. Onlardan xəbəri olsaydı, heç vaxt onun xətir-hörməti ilə Allaha üz tutmağı tərk etməzdi.

Cavab:

1) Əgər belə hədislərin mövcud olduğunu fərz etsək və Ömərin də (Allah ondan razı olsun) onlardan xəbəri yox idisə, o zaman məgər orada iştirak edən, bütün Mədinə səhabələrinin də onlardan xəbəri yox idimi?! Əgər Peyğəmbərin ﷺ izzəti ilə, Allaha üz tutmağın, Allahın dinində bu qədər vacib olduğunu, qanuni icazəli və faydalı olduğunu deyirsizsə, bəs nə üçün oradakı səhabələrdən heç birinin bundan xəbəri olmayıb, amma sizin bundan xəbəriniz var?!

2) Etibarlı şəkildə məlumdur ki, Müaviyə ibn Əbi Süfyan hökmdar olaraq, quraqlıq zamanı, Şamda camaatın qarşısına çıxdı və Yezid ibn əl-Əsuəd əl-Curaşinin səhabələrinin ardıcıllarından birindən, yağış diləmək

üçün, Allaha üz tutmasını istədi. Bu, bir çox səhabə ardıcıllarının sağlığında idi. Həqiqətənmi, onlar Dəməşqdə sizin bildiklərinizi bilmirdilər?! Və başqa bir quraqlıq ilində isə, Dahhak ibn Qeys də, həmin Yeziddən, eyni şeyi istəmişdir. Bu xəbərlərin hər ikisini, İbn Əsakir, özünün "Tarix" 1/151/18-də, **etibarlı zəncirlərlə** nəql etmişdir.

6. Deməli, səhabələrin yekdilliklə, Peyğəmbərin ﷺ izzəti ilə təvəssülü tərk etmələri, onun icazəli olmamasına və onların heç bu barədə düşünməmələrinə dəlalət edir. Müxtəlif sufi təriqətlərinin nümayəndələri, səhabələrin razı qaldıqları ilə kifayətlənməyərək, bunu uydurmuşlar. Oxuyucu, bu iddia edilən, sufi dəlilinə verilən cavabları oxuduqdan sonra, belə nəticəyə gələ bilər ki, öz mövqelərini sübut etmək üçün, qarşı tərəfin nümayəndələri, aşağıdakıları etməyə çalışmalıdırlar:

1) Ömərin (Allah ondan razı olsun) bunu davamlı və bir neçə dəfə etdiyi gizlədilmişdir.

2) Əz-Zubeyr ibn əl-Bəkkərin rəvayətini, Ömərin (Allah ondan razı olsun) sözləri ilə gətirməlidirlər ki, Ömərin (Allah ondan razı olsun), Peyğəmbərin ﷺ izzəti ilə Allaha üz tutmaqdan imtina etməsi və Abbasın vasitəsilə istəməsinin, əbəs yerə olmadığını sübut etsinlər.

3) Hədisə bir qeyd daxil etməlidirlər ki, Allaha üz tutmaq, Abbasın adı və ya izzəti ilə olub.

Və hörmətli oxuyucu, onların kitablarında, həqiqətən bununla qarşılaşdıqda, necə də təəccüblənəcək.

Bu hədisi "Təvəssül – İslamda vasitəçiliklə dua" kitabının müəllifi belə nəql edir: «*Buxari "Səhih"də, Ənəsdən rəvayət edir ki, quraqlıq zamanı, Ömər ibn əl-Xəttab (Allah ondan razı olsun), Abbas ibn Əbdülmuttəlibin (Allah ondan razı olsun) adı ilə* [1]*, kömək istədi* [2] *və dedi: "İlahi, biz Sənə, öz Peyğəmbərimiz ﷺ vasitəsilə təvəssül edirdik, indi isə biz Sənə, Peyğəmbərimizin ﷺ əmisi vasitəsilə təvəssül edirik, bizə yağış göndər!"*

*Ömər ibn Xəttab (Allah ondan razı olsun) "kül ilində" insanlara belə bir xitab etdi: "Ey insanlar! Həqiqətən də, Allah Rəsulu ﷺ Abbas (Allah ondan razı olsun) üçün, oğulun öz atası üçün istədiyini istəyirdi. Ey insanlar, peyğəmbərin ﷺ əmisi Abbas (Allah ondan razı olsun) vasitəsilə, Allah*

[1] Hədisdə "adı ilə" ifadəsi yoxdur, onların tərcüməsində "tamamilə təsadüfən" yazılmışdır!
[2] "İstədi" sözü, bu hadisənin, yalnız bir dəfə baş verdiyini göstərir, əslində isə belə deyil.

*Rəsulunun ﷺ yolu ilə gedin və Abbası (Allah ondan razı olsun) Allaha yaxınlaşmaq üçün vasitəçi edin. Sən istə, ey Abbas*!"»[1]

İndi isə "Vahhabiliyin həqiqi üzü" kitabında deyilənlər:

"*Bir dəfə, saleh Ömərin (Allah ondan razı olsun) dövründə quraqlıq* [2] *baş verdi..., hədisin sonunda ...indi biz Muhəmmədin əmisi* [3] *ilə təvəssül edirik, onun xatirinə bizə yağış bəxş et* [4]*!*"

Baxın, hər iki kitabın müəllifləri, sanki sözləşmiş kimi, tərcümədə necə eyni "səhvləri" edirlər və hədisə, eyni əlavələri əlavə edirlər. Bu, onu deməyə əsas verir ki, düşmən heç də axmaq deyil, onlar təvəssül məsələsini, çox gözəl başa düşüblər, dəlillərinin olmadığını başa düşüblər və özlərinə sərf edən şeyi məharətlə, az nəzərə çarpacaq şəkildə, düzəltməkdən və müqəddəs yazılara əlavə etməkdən başqa çarələri yoxdur. Oxuyucu daha çox oxusa, daha heyrətamiz hadisələr tapacaq.

**2-ci dəlil.**

İmam Əhməd, Osman ibn Hənifədən (radiyallahu anhu) gözəl isnadı olan, bir hədis gətirir ki, kor bir adam Peyğəmbərin ﷺ yanına gəlib, dedi: *"Allaha dua et ki, gözlərim görsün".* Peyğəmbər ﷺ ona belə cavab verdi: ***"Əgər istəyirsənsə, Allahdan sənin üçün diləyəcəyəm, amma əgər istəməsən, bunu etməyəcəyəm və bu da, sənin üçün daha xeyirlidir"*** (rivayətlərin birində: "İstəsən, səbr et və bu sənin üçün daha xeyirlidir." Kişi belə cavab verdi: *"Allaha dua et ki, gözlərim görsün".* Sonra, Allah Rəsulu ona düzgün dəstəmaz almağı və iki rükət namaz

---

[1] Bu rəvayətin zəif və etibarsız olduğuna işarə etmədən, sitat gətirdilər. Oxucu, təbii ki, onu niyə gətirdiklərini başa düşdü.
[2] Bu ifadə həmçinin, bu hadisənin yalnız bir dəfə baş verdiyini göstərir, əslində isə belə deyil.
[3] "Muhəmmədin əmisinə təvəssül" ifadəsi kökündən yanlışdır, çünki təvəssül - əmiyə deyil, Allaha edilir, ancaq peyğəmbərin ﷺ əmisi vasitəsilə edilir.
[4] Hədisdə "onun xatirinə" ifadəsi yoxdur!

qılmağı, sonra bu dua ilə Allaha üz tutmağı əmr etdi: ***“Allahım! Mən, Sənə mərhəmət Peyğəmbəri olan Muhəmmədin vasitəsilə üz tutub, dua edirəm. Ey Muhəmməd, mən bu ehtiyacıma görə, sənin vasitənlə Rəbbimə üz tutdum. İstəyimi yerinə yetir. Allahım, onu mənim üçün vasitəçi et, məni də onun üçün vasitəçi et!”*** Osman dedi: “Kişi belə etdi, bundan sonra, görmə qabiliyyəti ona qayıtdı”.[1]

**Onların çıxartdığı nəticə:** Peyğəmbər ﷺ bu hədisdə, bu kor adama, Məhəmməd peyğəmbərin ﷺ adı və ya izzəti ilə, Allaha xitab etməyi öyrətmişdir, o da bunu etmişdir və nəticədə gözləri açılmışdır.

Biz bu nəticə ilə razılaşmırıq, çünki əminik ki, bu hədisdə, Allaha Peyğəmbərin ﷺ adı ilə, haqqı ilə və izzəti ilə, müraciət etməyin caiz olduğuna dair, heç bir işarə yoxdur, əksinə, bu hədisdə üçüncü növ təvəssülün dini qanuniliyinə dəlil vardır - Peyğəmbərin ﷺ duası ilə.

Bizim buna dəlillərimiz aşağıdakılardırlar:

1. Bu kor kişi, Peyğəmbərin ﷺ yanına gəlib dedi: “*Allahdan istə ki, mənə görmə qabiliyyətimi qaytarsın”.* Yəni evdə qalmadı və Allahdan, Peyğəmbərin ﷺ izzəti ilə istəmədi, onun yanına gəldi ki, peyğəmbər ﷺ onun üçün, Allaha dua etsin.

2. Peyğəmbər ﷺ bu adamı, seçim qarşısında qoyaraq dedi: ***“İstəsən sənin üçün dua edərəm, istəsən etmərəm və bu (yəni kor qalmaq) sənin üçün daha xeyirli olar”.*** Burada aydın işarə vardır ki, Peyğəmbər ﷺ ona vəd etmişdi ki, əgər istəsə, onun üçün, Allaha dua edəcək. Bu adam, həqiqətən də bunu istədi və kim deyə bilər ki, Peyğəmbər ﷺ vədini yerinə yetirmədi?!

Lakin Peyğəmbər ﷺ, bununla kifayətlənməmiş, həm də bu insana qanuni təvəssülün ikinci növünü — yaxşı əməllərlə, Allaha üz tutmağı işarə etmişdir. Bu halda bu, dəstəmaz almaq və namaz qılmaqdır. Buna görə də, heç bir şübhə yoxdur ki, Peyğəmbər ﷺ, kor adamı sağaltmaq üçün, iki əməl etdi: 1) Allaha onun üçün dua etdi (bu korun istədiyi kimi);

[1] Hədis yaxşıdır; Əhməd 4/138; Tirmizi 4/281–282; İbn Macə 1/418 və s.

2) ona, müəyyən ibadət növlərini yerinə yetirməyi öyrətdi, bundan sonra özünün dua ilə, Allaha üz tutmasını öyrətdi.

3. Peyğəmbər ﷺ ona öyrətdi: "***Və onun mənim üçün şəfaətini qəbul et".*** Bu hissədən açıq-aydın başa düşülür ki, Peyğəmbər ﷺ, bu kor üçün, Allah dərgahında şəfaət etmişdir, əks halda, Allah, olmayan bir şeyi necə qəbul edər?!

4. Peyğəmbər həmçinin ona belə deməyi öyrətdi: "Mənim də vasitəçiliyimi, şəfaətimi qəbul et". Bu hissənin mənası: *"Məndən duamı qəbul et ki, Peyğəmbərin ﷺ mənim üçün etdiyi duasını qəbul edəsən".* Bu həmçinin, Peyğəmbərin ﷺ korla paralel olaraq, Allaha dua etdiyini, açıq şəkildə göstərir.

5. Əgər kor bir insanın, sağalmasının sirri, onun Uca Allaha, Peyğəmbərin ﷺ izzəti ilə, dua etməsində olsaydı, o kor kimi gözü açılanların sayı çox olardı. Axı, Peyğəmbərin ﷺ izzəti və haqqı ilə, Allahdan istəməkdən asan bir şey yoxdur. Üstəlik, bidət edənlərin çoxu, digər peyğəmbərlərin və elçilərin izzətini də buna əlavə edirlər, lakin biz bunu görmürük. Amma, hətta Rəsulullahın ﷺ sağlığında, İtban ibn Malik və İbn Ümmü Məktum da daxil olmaqla, Peyğəmbərin ﷺ vəfatından sonra, İbn Abbas və Cabir ibn Abdullah kimi, çoxlu kor səhabələr var idilər. Bəs niyə onlar, Peyğəmbərin ﷺ izzəti ilə Allaha üz tutmadılar?!

6. İslam alimləri, bu hədisi, Peyğəmbərin ﷺ möcüzələri haqqında, kitablarda qeyd etmişlər, məsələn, İmam Beyhəqi "Dəlail ən-Nubua" ("Peyğəmbərliyin dəlili") əsərində. Bu, onu deməyə əsas verir ki, islam alimləri, sufilərdən fərqli olaraq, bu hədisi elə başa düşüblər ki, bu kor adamın gözləri, Peyğəmbər ﷺ, onun üçün dua etdikdən sonra açıldı.

Bütün bu altı bənd, açıq şəkildə sübut edir ki, bu kor adamın sözləri: *"Allahım! Mən sənə mərhəmət peyğəmbəri, Muhəmmədin vasitəsi ilə üz tuturam"* mənası *"Sənin Peyğəmbərin, Muhəmmədin mənim adımdan Sənə dua ilə, şəfaət etməsi ilə, Sənə üz tuturam"* deməkdir. Amma, onun sözləri,

heç bir mənada: *“Sənə, Peyğəmbərinin izzəti və haqqı ilə üz tuturam”* mənasına gəlməz.

Qarşı tərəfin nümayəndələri, təvəssül məsələsini, hərtərəfli tədqiq etdikdən və bu hədisin onların xeyrinə dəlil olmadığını, başa düşdükdən sonra, qərara gəldilər ki, öz batil mövqelərini təsdiq etmək üçün, sadəcə olaraq bu hədisi özlərinə “bir az” uyğunlaşdırmalıdırlar, çünkü, çətin ki, onların “hörmətli” oxucularından hər hansısa biri, ərəb dilini bilsin və şübhəsiz ki, hətta heç öz “liderlərinin” doğru danışıb-danışmamasını yoxlamayacaqlar.

Beləliklə, onlar başa düşdülər ki, bunları etməlidirlər:

1) Peyğəmbərin bu kişiyə: “İstəsən, sənin üçün dua edərəm” dediyi və kor adamın: “Allahdan istə ki, mənim gözümü açsın” hissəsini buraxmaq və ya dəyişdirmək lazımdır.

2) “Allahım! Onu, mənim üçün şəfaətçi et” hissəsini buraxmaq və ya dəyişdirmək lazımdır.

3) “Məni də, onun üçün şəfaətçi et” hissəsini buraxmaq və ya dəyişdirmək lazımdır.

4) Və əlbəttə ki, onların mövqeyini sübut edəcək, bir şey əlavə etmələri yaxşı olardı.

Görək mahir müəlliflərimiz, bu hədisi necə sitat gətirirlər:

1. “Təvəssül - İslamda vasitəçiliklə dua” kitabı.

Osman ibn Hənif (Allah ondan razı olsun) rəvayət edir ki: *“Mən Rəsulullahdan ﷺ eşitdim ki, bir kor onun yanına gəlib, xəstəliyindən şikayət etdiyi zaman: “Ey Peyğəmbər ﷺ, mən koram, bələdçim yoxdur, bu mənim üçün çox çətindir”*[1]*, Peyğəmbər ona dedi: “Get, dəstəmaz al, sonra iki*

[1] Oxucunun da gördüyü kimi, əsas götürdüyümüz bu sözlər, hədisin rəvayətində yoxdur. Məsələ burasındadır ki, “Təvəssül” kitabının müəllifi, burada bu hədisin iki rivayətini qarışdırmışdır, amma ikinci hədis zəifdir və onun qeyd olunması, bu dəlilin təhlilinin sonunda gələcəkdir. O, bu iki rivayəti qarışdırdı ki, birincidən onlar üçün sərf etməyəni buraxsın, ikincidən isə zəif, etibarsız rivayətdən, onlara lazım olanı qarışdırsın.

*rükət namaz qıl və bunları oxu*[1]*:* ***"Allahım! Mən Sənə, mərhəmət Peyğəmbəri olan Muhəmmədin ﷺ vasitəsilə üz tutub, dua edirəm. Ey Muhəmməd, mən bu ehtiyacıma görə, sənin vasitənlə Rəbbimə üz tutdum. Allahım, onu mənim üçün vasitəçi et*** [2]***, məni də onun üçün vasitəçi et!".*** [3] *Daha sonra, Osman (Allah ondan razı olsun) deyir: "Allaha and olsun ki, biz hələ ayrılmamışdıq o kişi qayıtdı və sanki o heç kor olmamışdı". İmam Hakim (Allah ondan razı olsun) deyib ki: "Bu, səhih isnadlı, səhih hədisdir".*[4] *Zəhəbi də, qeyd etmişdir ki, bu hədis səhihdir.*[5] (cild 1, səh. 519)".[6]

---

[1] Gördüyümüz kimi, müəllif, onların yuxarıda dediyimiz birinci bənddə etməli olduqlarını yerinə yetirmək üçün, hədisdən bütöv bir parçanı buraxmışdır.

[2] Beləliklə, o şəxs, bu "Onun şəfaətini, mənim üçün qəbul et" ifadəsini dəyişdirdi. Çünki bu cümlədə, Peyğəmbərin ﷺ dua ilə üz tutduğuna və şəfaət etdiyinə, açıq-aydın işarə var, lakin bu əməl, artıq onun ifadəsində yoxdur. Üstəlik, onların ifadəsi belə başa düşülür: "Allahım! Peyğəmbəri, yəni haqqı və izzətini mənə şəfaətçi et".

[3] Bununla o adam, bu cümləni "Və məni ona şəfaətçi et" dəyişdi. Çünki düzgün tərcümədən belə başa düşülür: "Peyğəmbərin ﷺ, mənim üçün etdiyi duanın, qəbul olunması üçün, mənim duamı qəbul et". Onun ifadəsi, bu mənadan tamamilə uzaqdır.

[4] Əslində, əl-Hakim bu yalançı kitabın müəllifinin, istinad etdiyi bu hədisi, səhih adlandırmamışdır. Əl-Hakim bizim sitat gətirdiyimiz, hədisi səhih adlandırmışdır, çünki o adam, özü də "Müstədrək" kitabında, bu hədisi qeyd edənlərdən, biri olmuşdur və bununla bağlı qərarını vermişdir. Bu hədisə gəlincə, bu hədis, onun səhih rəvayəti ilə, etibarsız olanının qarışığıdır. Bu iki rəvayət, bir-birinə qarışmadan, müxtəlif hədis toplusunda gəlir. Baxın görün, bir hədisin səhihliyinə dair, alimlərin hökmündən necə istifadə edirlər, bunu öz çirkin əllərinin işi olan zəif hədislərinə aid edərək. **"Allah onları məhv etsin! Gör necə də (haqdan) döndərilirlər!"** (Quran 9:30)

[5] Əslində, İmam Zəhəbi, hədisin səhih olduğunu deməmiş, ancaq sadəcə olaraq "əl-Müstədrək" kitabını yoxlayarkən, Hakimin sözlərini təkzib etməmişdir. İmam Zəhəbi, özü heç vaxt deməyib ki, onun susması, əl-Hakimin gəldiyi nəticə ilə razılaşmaq deməkdir. (Bax: "İlzamət vat-tətabbu" səh. 6, Şeyx Mükbilin müqəddiməsi).

[6] Müəllifin, bu hədisə və şeyx Albaniya nifrət etməsinə baxmayaraq, "1-ci cild, səh 519" sözlərindən aydın olur ki, müəllif bütün bu hədisi, eləcə də Şeyx əl-Albaninin "Təvəssül, onun növləri və bu haqda hökmləri" kitabından, əl-Hakim və Zəhəbinin, bu hədis haqqında, sonrakı bütün sözlərini götürmüşdür. Çünki, əl-Hakimin "əl-Müstədrək" kitabı, bir neçə tirajla nəşr olunub və müxtəlif nəşrlərdə olan, bu hədis müxtəlif cildlərdə və müxtəlif səhifələrdə gəlir. Və bu yalançı kitabın müəllifi ilə, Şeyx əl-Albaninin eyni nəşriyyatdan istifadə etməsi, çox şübhəlidir. Xüsusən də, bu adamın kitabının, elmi cəhətdən, nə qədər zəif olduğuna diqqət yetirsəniz, o zaman müəllifin, hətta əl-Hakimin kitabından istifadə etdiyi, hətta onu şəxsən görməsi də, ciddi şübhə doğurur. Əslində o müəllif, bu hədisləri tamamilə Şeyx əl-Albaninin kitabından mənimsəmişdir. Bunu, məhz əl-Albaninin təkzibləri əsasında, müəllifin hədislərə, dəyişikliklər etməsi də, təsdiq edir, bu da onun əl-Albaninin kitabını oxuduğunu (xoşbəxtlikdən rus dilinə tərcümə olunub), təkziblərin mahiyyətini başa düşdüyünü, həqiqəti tərk etdiyini və hədisləri öz yolu və öz mənafeyinə uyğun şəkildə, çatdırdığını göstərir.

İndi görək N.Şeyxmərdani "Vəhhabiliyin həqiqi üzü" kitabında, bu hədisi necə sitat gətirir:

"*Kor adamın məşhur əhvalatı*" [1] *... Peyğəmbər ﷺ ona dedi: "İstəsən sənin üçün dua edərəm, əgər istəsən, səbr et və bu sənin üçün daha xeyirlidir". Kor dedi ki, gözlərimin açılmasını istəyirəm*[2] *... "Allahım, Sənin Peyğəmbərinin ﷺ yüksək məqamına görə, Səndən istəyirəm*[3] *... Allahım! Onu mənim üçün şəfaətçi et!"*.[4]

Həmçinin, burada qeyd etmək lazımdır ki, bu hədisin iki zəif, etibarsız əlavəsi var və qəlbində xəstəlik olanlar da, ondan istifadə edirlər.

**1.** Əbu Bəkr ibn Əbi Heysəmə "Tarix" kitabında, hədisin əsas hekayətinə əlavə edir ki: *"Və növbəti dəfə, bir şeyə ehtiyacın olarsa, belə et".*

Sufilər bu əlavəyə istinad edərək, ondan belə bir nəticə çıxarırlar: Peyğəmbər ﷺ ona bu duanı öyrətdi və ona dedi ki, əgər gələcəkdə, onun bu cür bir problemi olarsa, belə etsin, yəni bu dua ilə, yenidən Allaha üz tutsun, ondan sonra problemi həll olunacaq. Nəticədə belə çıxır ki, bu hədisdəki təvəssül, Peyğəmbərin ﷺ duasına görə deyil, haqqına və hörmətinə görədir.

Cavab:

1. Yuxarıda verdiyimiz dəlillərdə, kor adamın, Peyğəmbərin ﷺ duası ilə, təvəssül etdiyinə dair, açıq və təkzibedilməz dəlillər vardır ki,

---

[1] Bununla, Şeyxmərdani demək istəyir ki, onların yalançı təvəssülünün əleyhdarları, o qədər cahildirlər ki, bu hekayənin məşhur olmasına baxmayaraq, bu hekayə haqqında heçnə bilmirlər, əks halda, onların bu təvəssülünün dində qanuni olması ilə, mütləq razılaşarlar.

[2] Görün o, kor adamın, "Allahdan mənim gözlərimin açılmasını dilə" ifadəsini necə də məharətlə buraxıb. Oxuyucu bunun niyə edildiyini artıq başa düşür.

[3] Şeyxmərdani, birinci kitabın adı açıqlanmayan müəllifindən, qat-qat riyakar və vicdansızdır. O, çatışmayan, lakin lazımlı ifadələri, tamamilə həyasızcasına, vicdan əzabı çəkmədən əlavə edir. Yəqin ki, bu bədbəxt insan, müqəddəs mətnlərlə bağlı, cinayətlərini kimlərinsə təhlil edəcəyini, ağlına belə gətirə bilməzdi. Uca Allah buyurur: **"Yoxsa qəlblərində xəstəlik olanlar, elə hesab edirdilər ki, Allah onların kin-küdurətini üzə çıxarmayacaq?"** (Quran 47:29).

[4] Birinci kitabın müəllifinin, istifadə etdiyi, eyni üsul və bu "tərcüməçi" son cümləni "nədənsə" tamamilə qaçırdı.

hədisdən bəzi ifadələri buraxmasan bunu inkar etmək olmaz. Onların etdiyi bu əlavəyə gəlincə isə, əgər bu səhih olsaydı belə, burada sufilərin gətirdiyi nəticə yoxdur. Çünkü, **"hər dəfə belə et"** sözləri, ilk dəfə olduğu kimi, eyni şeyi etməli olduğuna işarə edir, yəni Peyğəmbərin ﷺ yanına gəlib, Allaha dua etməsini istəmək mənasını verir. Və bu əlavədə, Peyğəmbərin ﷺ duası olmadan, yalnız öz duanızla edə biləcəyiniz barədə, heç bir işarə yoxdur.

2. Bu əlavə, səhihdirsə belədir, bəs bu əlavə səhih deyilsə o zaman bəs necə?! Bu hədis zəncirində, ömrünün sonunda, yaddaşı pisləşən, Həmmad ibn Zeyd vardır, üstəlik o, bu əlavə ilə, hədisdə möminlərin əmiri olan və bu əlavəni qeyd etməyən Şubə ibn Həccacla ziddiyyət təşkil edir. Hədis elminin qaydalarına əsasən, əgər rəvayətçi, hədisdə güclü və möhkəm olsa belə, daha güclü rəvayətçiyə əlavə etməsi ilə ziddiyyət təşkil edərsə, onun əlavəsi rədd edilmiş (*şəzz*) və etibarsız sayılır.

**2.** Osman ibn Hənif demişdir ki, bir nəfər mütəmadi olaraq, Osman ibn Əffana[1] müraciət edərək, probleminin həllini xahiş edirdi, lakin Osman, ona əhəmiyyət vermirdi və problemini həll etmirdi. Bundan sonra, bu adam Osman ibn Hənif ilə, görüşdü və bu barədə ona şikayət etdi. Sonra Osman ibn Hənif, ona dedi: *«Dəstəmaz al, sonra məscidə get və orada iki rükət namaz qıl, sonra de: "Allahım! Mən sənə, mərhəmət peyğəmbəri olan Muhəmmədin ﷺ vasitəsilə üz tutub, dua edirəm. Ey Muhəmməd ﷺ, mən bu ehtiyacıma görə, sənin vasitənlə, Rəbbimə üz tutdum". Sonra, ehtiyacını bildir, ondan sonra, mənim yanıma gəl, birlikdə (hökmdarın yanına) gedək».* Bu adam, belə də etdi, sonra Osman ibn Əffanın darvazasına yaxınlaşdı, bir kölə dərhal onun qabağına çıxdı, əlindən tutub, Osmanın yanına apardı və yanındakı döşəyin üstündə otuzdurdu. Osman ibn Əffan, ondan soruşdu: "*Sənin problemin nədir*?" Kişi problemini ona danışdı və Osman onu həll etdi. Bundan sonra Osman ibn Əffan dedi: "*Mən sənin istəyini tamamilə unutmuşdum və ancaq indi xatırladım. Bundan sonra, nə problemin olsa, dərhal yanıma gəl*". O zaman, bu adam hökmdarın yanından çıxıb getdi və Osman ibn Hənif ilə qarşılaşdı və dedi: "*Allah səni xeyirlə mükafatlandırsın! Sən, mənim barədə*

[1] Müsəlmanların üçüncü, saleh xəlifəsi.

*onunla danışmayana qədər, hökmdar mənə əhəmiyyət vermirdi və problemimi həll etmirdi*". Sonra, Osman ibn Hənif dedi: "*Allaha and olsun ki, mən onunla (sənin barədə) danışmadım, amma mən şahid oldum ki, kor bir adam, Peyğəmbərə ﷺ yaxınlaşıb ona korluğundan şikayət etdi. Bu zaman Peyğəmbər ﷺ ona dedi:* ***"Bəlkə səbr edəsən?"*** *Kor adam ona cavab verdi: "Ey Allahın Rəsulu! Həqiqətən də, mənim köməkçim yoxdur və korluq həyatımı çox çətinləşdirir". Sonra, Peyğəmbər ﷺ buyurdu:* ***"Dəstəmaz al, sonra iki rükət namaz qıl, sonra bu dua ilə Allaha üz tut".*** *Osman ibn Hənif davam etdi: "Və Allaha and olsun ki, biz hələ heç ayrılmamışdıq ki, bu kor artıq gözləri görərək, yanımıza gəldi və sanki heç kor olmamışdı".*

Bu rəvayəti nəql edir ət-Təbərani "əs-Səğir" səh. 103–104, və əl-Kəbirdə 3/2/1/1–2.

**Onların bu rəvayətdən çıxartdığı nəticə:** Osman ibn Hənif, bu duanı, Peyğəmbərin ﷺ dünyadan köçməsinə baxmayaraq, bu adama öyrətdi və beləliklə buna görə də, Peyğəmbərin ﷺ bu şəxs üçün etdiyi dua əsas deyil, amma Peyğəmbərin ﷺ vasitəsilə, Allaha müraciət etmək əsasdır.

Cavab:

1. Bu rəvayət **səhih deyil**. Onun isnadında, Şəbib ibn Səid adlı bir şəxs var. Onun, İbn Vəhbdən nəql etdiyi hədislər, İbn Ədinin "əl-Kamil"də dediyi kimi, rədd edilmiş və etibarsızdır. Və bu rəvayət, məhz Şəbibin İbn Vəhbdən nəql etdiyi, rəvayətlərdən biridir.

2. Həmçinin, onun zəifliyinə, bu fakt dəlalət edir ki, saleh xəlifə Osman ibn Əffan, çox təvazökar, hörmətli və insanlara qarşı ədalətli olmasına baxmayaraq: "*Bu adama fikir verməyib*".

Elə buna görə də "Təvəssül" kitabının müəllifi, bu həqiqəti yumşaltmağa çalışaraq, bu zəif hədisi, belə nəql etmişdir: "*Osman, müəyyən səbəblərdən, ona diqqət yetirə və onu dinləyə bilmədi*". "*Müəyyən səbəblərə görə*" ifadəsi hədisdə yoxdur, lakin bu rəzil müəllif, başa düşdükdən sonra ki, əgər bu hədisi olduğu kimi tərcümə etsə, o zaman bu

adamın zəifliyi oxuyucuya bəlli olacaq, müəllif öz “nadir, zirək başından” uyduraraq bu ifadəni qoymağa qərar verdi.

Həmçinin, adı açıqlanmayan bu müəllifin, cinayətləri arasında, onun hədisdə göstərilən duanı, belə tərcümə etməsi də var: “*Ey Muhəmməd! Sənin vasitənlə, Rəbbinə üz tuturam ki, bu işdə mənə kömək etsin, (Onun hüzurunda) ehtiyacımı zikr et...*”

“*Mənim ehtiyacımı, Onun hüzurunda zikr et*” ifadəsi, “*Mən dərdimi həll etmək üçün, sənin vasitənlə, Rəbbinə üz tutdum*” ifadəsindən dəyişdirilmişdir. Naməlum müəllifimiz, bu ifadə ilə, nə demək istəyirdi?! Amma o, bununla demək istəyirdi ki, Peyğəmbərin ﷺ vəfatından sonra da, ona bu dua ilə, müraciət etmək olar və lazımdır da: “Mənim ehtiyacımı, Onun hüzurunda zikr et”. Və bu, sadəcə olaraq, dində qeyri-qanuni təvəssül deyil, növbəti mərhələyə keçiddir — dua edən adama, Allah qarşısında şəfaət etməsi üçün, ölmüş şəxsə müraciət olunan duadır. Bu, artıq sadəcə bir yenilik deyil, bu şirkdir. Daha əvvəl qeyd etdiyimiz kimi, ikonaların önündə, xristianların etdikləri dualara bənzər şirkdir.

Deməli, yuxarıda deyilənlərin hamısından, başa düşürük ki, onların ikinci dəlili də, əlavələri ilə birlikdə, öz inanclarını dəstəkləmək üçün uyğun deyil, üstəlik də, dində qanunivləşdirilmiş təvəssül növlərinin xeyrinə olan növbəti bir dəlildir.

**3-cü dəlil.**

Ənəs ibn Malik demişdir: *“Əli ibn Əbi Talibin anası, Fatimə binti Əsəd ibn Haşim vəfat etdikdə, insanlar ona məzar qazmaq üçün, Üsamə ibn Zeyd, Əbu Əyyub əl-Ənsari, Ömər ibn Xəttab və bir qara qulu çağırdılar. Onlar işlərini bitirdikdən sonra, Peyğəmbər ﷺ qəbrə endi, orada uzanıb dedi:* ***“Dirildən də, öldürən də Allahu Təalədır. O daim diridir. O ölməzdir. Allahım! Anam Fatimə binti Əsədi əfv et, bağışla. Ona onun dəlilini bildir. Qəbrini genişlət. Mən, sənin Peyğəmbərin olaraq öz haqqım ilə və keçmiş Peyğəmbərlərin haqqı ilə, səndən diləyirəm, axı sən mərhəmətlilərin ən mərhəmətlisi olan Allahsan!”*** [1]

**Onların çıxartdığı nəticə:** Bu hədisdə, Peyğəmbərdən ﷺ açıq-aydın bir mətn var ki, o, Allahdan öz haqqı ilə və digər peyğəmbərlərin haqqı ilə istədi.

Cavab:

Bu hədis, **zəif və etibarsızdır**. Onun isnadında, Rauh ibn Salah vardır, hansı ki, mühəddislərin yekdil rəyinə görə, zəif bir rəvayətçidir, İbn Hibban və əl-Hakim istisna olmaqla, hansı ki, onlar rəvayətçilərə münasibətdə zəiflik göstərmələri ilə məşhurdurlar. Əbu Nuaym, bu hədisə istinad edərək, dəstək zəncirlərinin və ya dəstəkləyici hədislərin mövcudluğunu inkar etmişdir. Buna əsaslanaraq, bu hədis, təvəssülü məxluqların izzət və haqqı ilə dində qanunilәşdirmək üçün, dəlil kimi uyğun deyil. Məhz buna görə də, qarşı tərəfin nümayəndələri, özlərinin yalançı təvəssülünü qanunilәşdirmək üçün, yazının aydın olmasına baxmayaraq, bu hədisi ilk dəlillərinə çevirmədilər.

Onların “Təvəssül – İslamda vasitəçiliklə dua” kitabına gəldikdə isə, onlar bu hədisi, etibarsız olduğuna işarə etmədən sitat gətirmiş, üstəlik

[1] Hədis zəifdir; Təbərani “əl-Kəbir”də 24/351–352, həmçinin “əl-Avsat” 1/152–153; Əbu Nuaym əl-Hilyada 3/12; bax əd-Daifə 23.

bu hədisi belə başlamışlar: "*Və məlumdur ki, Fatimə vəfat edəndə...*" sanki bu baş vermiş məşhur məlum bir faktdır!

**4-cü dəlil.**

Ömər ibn Xəttab rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu: ***"Adəm, günah işlətdiyi zaman dedi: "Ey Rəbbim! Muhəmmədin haqqı ilə Səndən istəyirəm, məni bağışla!" Sonra, Uca Allah ona buyurdu: "Ey Adəm! Mən, onu hələ yaratmamışam, sən Muhəmmədi hardan tanıyırsan?!" O dedi: "Ey Rəbbim! Məni Öz əlinlə yaradanda və mənə Öz tərəfindən ruh üfürəndə, başımı qaldırdım və gördüm ki, Sənin ərşinin dayaqlarında belə yazılıb: "Allahdan başqa ibadətə layiq məbud yoxdur, Muhəmməd Allahın Rəsuludur." Və anladım ki, Sən Öz Adının yanına, ancaq yaratdıqlarından ən sevimlisini yaza bilərsən". Sonra, Uca Allah buyurdu: "Mən səni bağışladım. Əgər Muhəmməd olmasaydı, səni heç yaratmazdım".***[1]

Hakim özü, hədisi etibarlı adlandırdı, lakin İmam Zəhəbi onu yoxlayaraq dedi: "*Xeyr, əksinə, bu batil, uydurma hədisdir. Onun isnadında Əbdürrəhman (ibn Zeyd ibn Əsləm) adlı şəxsin olması çox zəif rəydir, həmçinin Abdullah ibn Muslim əl-Fihriyi mən tanımıram*".

Əbdürrəhman ibn Zeyd ibn Əsləm, nəinki çox zəif rəvayətçidir, həm də hədis uydurmaqda ittiham olunur. Yeri gəlmişkən, əl-Hakimin özü "əl-Mədxəl" kitabında (1/180) demişdir: "*Əbdürrəhman ibn Zeyd ibn Əsləm, atasından batil hədislər nəql edir. Bu hədislərin üzərində düşünən hər kəs, şübhəsiz ki, onların yalanının məhz bu Əbdürrəhmandan gəldiyinə əmin olar*." Həmçinin əl-Hakim, bunu "əd-Duafa" kitabında da sitat gətirərək demişdir: "*Bu kitabımda, gətirdiyim heç bir şəxsdən, hədis nəql etmək caiz deyil*". Bütün bunlardan, belə məlum olur ki, əl-Hakim bu hədis haqqında qərar verərkən, səhv etmişdir.

Həmçinin, naməlum Abdullah ibn Muslim əl-Fihrinin rəvayətinin isnadında da səhvə yol vermişdir. Bu hədisin, başqa bir isnadı da vardır ki, onu İmam Təbərani vermişdir, lakin bu isnadda, üç naməlum rəvayətçi

[1] Uydurma hədisdir; əl-Hakim 2/615.

vardır. Üstəlik, onun isnadında Abdurrəhman ibn Zeyd ibn Əsləmi vardır, ona görə də bu hədisi zəif və ya çox zəif adlandırmaq üçün, təkcə o kifayət edər.

Müəlliflərimizə gəlincə, onda:

1. "Təvəssül" kitabında bu hədis, əlbəttə ki, zikr edilmişdir, lakin yenə də onun zəifliyi izah edilmədən. Üstəlik, müəllif bu hədisə, orijinal əlavə də əlavə etmişdir: "*Doğru deyirsən, ey Adəm! Həqiqətən, o, məxluqatın ən sevimlisidir, onun vasitəsi ilə Məndən istə*!" Həmçinin, adının açıqlanmasını istəməyən müəllifimiz, bu hədisə istinad edərkən, "əl-Fihriy" əvəzinə, "Abdullah ibn Müslüm, Fihriydən" deməklə səhvə yol vermişdir. Görünür, bu batil kitabın müəllifi tələsirdi, lakin bu tələsmək, ona müxtəlif orijinal əlavələri tez-bazar əlavə etməyə mane olmadı!

2. "Vəhhabiliyin həqiqi üzü" kitabında, onun müəllifi, "haqq uğrunda döyüşən", bu uydurma hədisi sitat gətirərək, heç çəkinmədən, demişdir: "*Ancaq vəhhabilər, bu təvəssülü qəbul etmirlər və bunun uydurma olduğunu deyirlər*". Bu, o deməkdir ki, əgər siz bunu yalan və uydurma adlandıranları görsəniz, onların vəhhabi olmasına heç bir şübhə yoxdur! Bu gün, vəhhabiyə çevrilmək nə qədər asandır, hətta İmam Zəhəbi də ondan qaça bilmədi!

### 5-ci dəlil.

*Əbul-Cəuzə Aus ibn Əbdillah belə dedi: "Bir dəfə, Mədinədə, şiddətli quraqlıq baş verdi. İnsanlar, Aişəyə (Allah ondan razı olsun) şikayət etdilər və o isə belə dedi: "Peyğəmbərin ﷺ qəbrinin yanına gedin və onun üstündəki tavanını elə deşin ki, onunla göylər arasında heç bir maneə olmasın". Onlar belə etdilər, ondan sonra, elə bir leysan yağdı ki, ot bitdi və həmin otdan dəvələr yeyib, elə kökəldilər ki, piydən partladılar. Bu ili hətta "partlama," ili də adlandırdılar".*[1]

Bu hədis, iki səbəbdən zəifdir:

[1] Hədis zəifdir; Darimi in Sunan 1/43.

1) Onun zəncirində, Səid ibn Zeyd vardır — onun hədislərində zəiflik var.

2) Əbu Numan Muhəmməd ibn Fədl — onun yaddaşı pisləşmişdi və o adam hədislərdə çaşırdı. Və onun, hansı vəziyyətdə hədisləri nəql etdiyi məlum deyil — yəni yaddaşı pisləşməmişdən əvvəl, yoxsa sonra.

Həmçinin, bu hədisin zəifliyinə, Aişənin zamanında, Peyğəmbərin ﷺ qəbrinin üstündə, damın olmaması da dəlalət edir ki, bu haqda heç bir ixtilaf yoxdur və buna, Səhih Müslimin hədislərindən birində işarə gəlmişdir.

**6-cı dəlil.**

Onlar öz kitablarında, bu hədislərə istinad edərək, aşağıdakı hədisi də sitat gətirirlər, lakin bu hədislərə istinad etməklə, tutduqları məqsəd, artıq əvvəlki hədislərə istinad etməklə, güddükləri məqsəd deyil.

Ömərin anbarında, məsul şəxs olan Malik əd-Dar demişdir ki: "*Ömərin dövründə, insanlar quraqlığa məruz qaldılar. Sonra insanlardan biri, Peyğəmbərin ﷺ qəbrinə yaxınlaşıb dedi: "Ey Allahın Rəsulu! Ümmətin üçün yağış istə, həqiqətən onlar məhv olmaq üzrədirlər!" Bundan sonra, bu adam, bir yuxu gördü və yuxusunda ona dedilər ki: "Ömərin yanına get...". Seyf ibn Ömər isə, rəvayət edir ki, bu şəxs Peyğəmbərin ﷺ səhabələrindən Bilal ibn əl-Haris əl-Muzani idi*".

Hafiz İbn Həcər "əl-Fəth" 2/397-də demişdir ki, bu hədisi İbn Əbi Şeybə səhih isnadla, Əbu Saleh əs-Səmmana nəql etmişdir.

Burada oxuyucunun diqqətini, çox vacib bir məqama cəlb etmək lazımdır: bu yalançı kitabların müəllifləri, doğruluqla və ya fırıldaqla, məxluqatın izzəti və haqqı ilə, dində qeyri-qanuni təvəssülü sübut etməyə çalışdıqdan sonra, şirkin daxil edilməsinin ümumi siyahısının, doqquzuncu mərhələsinə sakitcə keçməyə çalışırdılar və qəbirdə olan ölünün, Allah qarşısında onlar üçün şəfaət etməsi üçün, ölüyə müraciət etməyin dində qanuniliyini və caizliyini sübut etməyə başladılar. Bu isə, artıq böyük bir şirkdir.

Şeyxül-islam demişdir: "*Nə Muhəmməd ﷺ peyğəmbər, nə də ondan əvvəlki peyğəmbərlər, insanlara dində qanuniləşdirməyiblər ki, bu peyğəmbərlər öldükdən sonra və ya insanların yanında olmayanda, insanlar — mələklərə, peyğəmbərlərə və saleh insanlara dua və istəklərlə müraciət etsinlər və ya Allah qarşısında, onlar üçün şəfaət diləsinlər. Ona görə də, heç kəs deməsin ki, "Ey Allahın mələkləri, Allah yanında mənim üçün şəfaət edin, Allahdan istəyin ki, bizə kömək etsin ya yedizdirsin bizi, ya da bizi doğru yola yönəltsin". Necə ki, ölən peyğəmbərlərə və salehlərə belə demək olmaz: "Ey Allahın Peyğəmbəri! Ey Allahın razı qaldığı şəxs! Mənim üçün Allaha dua et və Ondan məni bağışlamasını dilə". Həmçinin, demək olmaz ki: "Mən sənə günahlarımdan, ruzimin azalmasından, düşmənin hücumundan şikayət edirəm və ya mənə zülm edən filankəsdən sənə şikayət edirəm" və buna bənzər şeyləri, kitab əhlinin və müsəlmanların bidətindən demək olmaz. Necə ki, xristianlar öz kilsələrində, müsəlman bidətçilər də bunu peyğəmbərlərin və saleh insanların qəbirləri başında və ya onların yoxluğunda edirlər. Bütün bunların batil olduğu açıq-aydındır və İslam dinində bu məlumdur və şübhəsiz ki, bu məlumat müsəlmanlardan da nəql olunur. Onların yekdil rəyi budur ki, nə Muhəmməd peyğəmbər ﷺ, nə də ondan əvvəlki peyğəmbərlər bunu dində qanuni saymayıblar və səhabələrdən də və onların ardıcıllarından da heç biri bunu etməyiblər. Müsəlman imamlarından heç biri və məşhur məzhəblərin dörd imamından heç biri bunu icazəli hesab etməmişdirlər*".[1]

Həmçinin Şeyxül-islam buyurur ki: "*Bütün bu cür müraciətlər, mələklərə, peyğəmbərlərə və saleh insanlara vəfat etdikdən sonra və ya onların yoxluğunda, həmçinin onların surətlərinə üz tutmaq ən böyük şirk növlərindəndir. Bu cür şirk, kitab əhlindən olmayan müşriklər arasında, eləcə də kitab əhlindən və müsəlmanlardan olan bidət əhli arasında mövcuddur*".[2]

Əvvəl də dediyimiz kimi, onların dində qeyri-qanuni, məxluqatın izzəti və haqqı ilə, təvəssülü sübut etməkdə məqsədləri yalnız, bir gözəl məqamda qanuniliyini bərqərar edib, sakitcə növbəti mərhələyə keçməkdir. Ona görə də, biz bu fəsildə onların dəlilləri ilə, sadəcə üzdən

---

[1] "Qaidə Cəlil" 53-60-cı bəndlər kiçik ixtisarlarla.
[2] "Qaidə Cəlil" 304-305 bəndlər.

tanışlıqla kifayətlənmədik. Hörmətli oxuyucunun da gördüyü kimi, onlar həqiqətən də sözlərimizi təsdiqi olaraq, hiss olunmadan, ölülərin özlərinə müraciət etməyin icazəli olmasını sübut etməyə keçdilər.

Hiss edilməzlik ondadır ki, onlar bunu Təvəssül fəslindən ayrılmadan edirlər, və bunun həmin qanuniləşdirilmiş Təvəssül olduğunu, heç şirk olmadığını təlqin etməyə çalışaraq edirlər. Və bütün bunları, təvəssül haqqında kitabda yazırlar. Və bütün bunların təsdiqi olaraq, onların "Təvəssül – İslamda vasitəçiliklə dua" kitabının sonunda "**Ölülərə təvəssülün caiz olması haqqında**" başlıqlı bir fəsillə rastlaşırıq. Bununla da oxuyucunu inandırmaq istəyirlər ki, ölülərə müraciət etmək də eyni təvəssüldür. Lakin onların bu məkrli hiylələri, Allahın izni ilə, nəticə verməyəcək.

Allah buyurur: **"Onlardan öncəkilər də hiylə qurmuşdular. Sonra Allah onların tikililərini özülündən dağıtdı, tavanları başlarına uçdu və əzab onlara gözləmədikləri yerdən gəldi"** (Quran 16:26).

Və həmçinin: **"Onlardan əvvəlkilər də hiylə qurdular. Halbuki bütün hiylələr Allaha aiddir. O, hər kəsin nə qazandığını bilir. Kafirlər, Axirət yurdunun, kimin olacağını biləcəklər"** (Quran 13:42).

Və həmçinin**: "Onlar hiylə qurdular, Allah da hiylə qurdu. Allah hiylə quranların ən yaxşısıdır"** (Quran 3:54).

Onların dəlilinə gəlincə isə, bunun cavabı belədir:

Malik əd-Dar — naməlum şəxsdir. O səbəbdən, bu hədis **zəifdir**. Bilal ibn əl-Haris kimi bir şəxsin adının çəkildiyi, həmin rəvayətdə, Seyf ibn Ömər ət-Təmimi adlı rəvayətçinin adı hallanır, amma mühəddislər onun zəifliyi mövzusunda yekdildirlər. Üstəlik, İbn Hibban, onun haqqında demişdir ki: "*O, hədisləri uydururdu*".

"Təvəssül" kitabına gəldikdə, onlar bu hədisi belə nəql etmişlər:

*«İmam Buxari, belə bir əhvalat rəvayət edir*[1]*: Bir dəfə*[2]*, Ömərin dövründə, insanlar quraqlıqdan əziyyət çəkəndə, bir nəfər, Peyğəmbərin* ﷺ *qəbrinin yanına gəlib, dedi: "Ya Peyğəmbər! Allaha dua et ki, ardıcıllarına, davamçılarına yağış yağdırsın. Onlar, fəlakət qarşısındadırlar". Bundan sonra o adam, yuxuda Peyğəmbəri*[3] ﷺ*, ona belə deyərkən gördü: "Ömərin yanına get və məndən ona salam çatdırdıqdan sonra, yağış yağacağını xəbər ver, sonra de: "cəld və bacarıqlı ol." Ömər bunu eşidəndə, belə dedi: "Allahım! Əlimdən gələni edəcəyəm". Bu adam, Allah Rəsulunun* ﷺ *müəzzini Bilal idi»*.[4]

Biz tərəfdən göstərilən bu dəlillər, onların kitablarında, ən çox rast gəlinən dəlillərdirlər və bunlar, qarşı tərəfin sahib olduğu ən güclü şeylərdirlər. Qalan dəlillərə gəlincə isə, onların batilliyi, zəifliyi və axmaqlığı, o qədər aşkardır ki, onlara cavab verməklə, bu bölümü uzatmağın mənası yoxdur.

## BÖLÜM 7. PEYĞƏMBƏRİN ﷺ İZZƏTİ İLƏ, TƏVƏSSÜLÜ İNKAR ETMƏK, PEYĞƏMBƏRİN ﷺ İZZƏTİNİ VƏ ONUN HÖRMƏTİNİ İNKAR ETMƏK SAYILMIR

Şirk və bidət yayanların, hiylələrindən biri də odur ki, onlar əllərindən gələni edirlər ki, tövhid və sünnə tərəfdarlarının surətini, insanların gözündə pis etsinlər. Bunun səbəbi, dəlil gətirməkdə və Quran və

---

[1] Əslində Buxari, öz "Səhih"ində heç vaxt, yalan hekayələr nəql etməmişdir və bu hədisi, İbn Əbi Şeybdən başqa heç kəs nəql etməmişdir. Bu hədisi, Buxariyə aid etməklə, oxuyucunu bu hədisin tamamilə səhih olduğuna inandırmaq istəyirlər, çünki Buxarinin məcmuəsindəki bütün hədislər səhihdirlər.

[2] Diqqət yetirin ki, bu hədisi sitat gətirərkən, onun Malik əd-Dar tərəfindən nəql edildiyini qeyd etmədilər, amma bu hədisdən əvvəl hər bir hədisin ravisinin kim olduğunu mütləq qeyd etmişlər. Çünki onlar, Malik əd-Darın naməlum olduğunu başa düşdülər və hədisin zəif olması məhz ona görədir.

[3] Əslində hədisdə, onun yuxuda kimi gördüyü, tam olaraq bildirilmir.

[4] Onların cahillikləri o qədər dərindir ki, onlar Bilal ilə - Rəsulullahın ﷺ müəzzini, adı Bilal ibn Rəbah, (o, Əbu Bəkrin azad etdiyi şəxsdir) hədisdə adı keçən Bilal ibn əl-Haris əl-Muzanini (Peyğəmbərin ﷺ müəzzini olmayan) səhv salırlar.

Sünnədən gələn biliklərə əsaslanan, mövqelərini isbat etməkdə, haqq tərəfdarları ilə rəqabət apara bilməmələridir. Elmi mübahisədə, biabırçı məğlubiyyətdən sonra, hücum etməkdən və qorxutmaqdan, eyni zamanda onların mövqeyi ilə razılaşmamağa cəsarət edən, hər kəsə palçıq atmaqdan başqa seçimləri yoxdur.

Hənəfi məzhəbinin imamlarından olan, İmam əl-Bərqavi (981-ci hicri) bu məqamı açıqlayaraq deyir ki: *"Ən böyük fitnə, səhabələr və onların tərəfdarlarının dediyi kimi, müşriklərin dininin əsasını təşkil edən, qəbirpərəstlərin fitnəsidir. Şeytan, onlara hansısa böyük şəxsiyyətin, dəfn olunduğu yerə işarə edir, bundan sonra bu qəbir, Allahla bərabər ibadət edilən bütə çevrilir. Sonra şeytan, öz ardıcıllarına təlqin edir ki: bu saleh insandan kömək diləməyi qadağan edən, daim onun qəbrinin başına toplaşıb, onu bütə çevirməyi qadağan edən adam, bunu etməklə bu saleh insanı alçaldır, onun haqqına hörmət etmir. Bundan sonra, bu cahillər, bu saleh insanın qəbri başına toplaşmağı qadağan edənlərlə, düşmənlik etməyə və onu küfrdə ittiham etməyə başlayırlar. Lakin o şəxs heç bir günah işlətməyib, ancaq Allahın və Rəsulunun ﷺ buyurduqlarını onlara əmr etdi, Allah və Rəsulunun ﷺ qadağan etdiklərini onlara qadağan etdi"*.[1]

Burada, başa düşmək lazımdır ki, sufilərin bu ittihamları, həqiqətə uyğun olmayan, növbəti yalan ifadələrdir. Bizim, sünnənin tərəfdarları olaraq, Peyğəmbərin ﷺ haqqı və izzəti ilə, Allaha üz tutmağın qanuniliyini inkar etməyimiz, heç də o demək deyil ki, biz Peyğəmbərin ﷺ hörmət və izzətini inkar edirik, ona hörmət və ehtiram göstərmirik. Burada, bizim mütləq anlamağımız çox vacibdir ki, Uca Allah Öz Elçisini, doğru yola bələdçi olacaq, dini bərqərar etmək üçün göndərib və hər şey üçün, öz yerini və mövqeyini müəyyən edib. Həmçinin, Uca Allah, bizdən əvvəlkilərin azmasına səbəb olan, bütün yol və əməllərdən bizi xəbərdar edib ki, biz də onlar kimi azmayaq. Deməli, bizdən əvvəlkilərin azmasının ən mühüm səbəblərindən biri də, peyğəmbərlərə layiqincə hörmət göstərməmələri, onları yalançı adlandırmaları, qovmaları və öldürmələri idi.

[1] "Ziyarət əl-Kubur" səh. 82.

Digərləri isə əksinə, Peyğəmbərləri ucaltmaqda, bütün hədləri elə aşdılar ki, tədricən bu əməl, onları ona gətirib çıxardı ki, peyğəmbərləri Allahın övladları adlandırmağa başladılar və buna görə də, peyğəmbərlərin özlərini də ilahi sifətlərə sahib olduğlarını dedilər. Müttəqilərə gəlincə isə, müşriklər onları özləri ilə, Allah arasında vasitəçi etdilər və onları əslində tutmadıqları bir məqama yerləşdirdilər. Bəziləri deyə bilər ki, heç kim Muhəmməd peyğəmbəri ﷺ Allahın oğlu adlandırmır və ona ilahi xüsusiyyətlər aid etmir. Biz isə deyirik ki, bir çox sufi təriqətlərinin nümayəndələri, açıq-aşkar ona Allahın oğlu deməsələr də, ona ilahi xüsusiyyətlər aid edirlər. Çünki onlar, Peyğəmbərin ﷺ öz ruhu ilə onların yığıncaqlarında iştirak etdiyinə inanırlar. Həmçinin onlar, onun məzarının başında ona müxtəlif dillərdə və eyni zamanda müxtəlif xahişlər edirlər, buda onların Peyğəmbərin ﷺ onları eşitdiyinə, dillərini başa düşdüyünə və eyni vaxtda tələffüz edilməsinə baxmayaraq səslərini və istəklərini fərqləndirdiyinə, əminliklərini göstərir. Onlardan bəziləri hesab edirlər ki, Peyğəmbər ﷺ müəyyən təbiət hadisələrini idarə edir, qeybi, gizli bilikləri bilir və xoşbəxtlik və bədbəxtlik gətirməyə qadirdir. Biz burada, onların bütün bu inanclarının açıq mətnlə, ifadə olunduğu mənbələrə və kitablara istinad etmədən, nəql edirik, çünki biz, bu mənbələri və kitabları **"Mövlid – ən təhlükəli bidətlərdən biri və hənəfilər niyə onu keçirmirlər"** kitabında qeyd etmişik. Burada, bir məsələyə də diqqət yetirmək lazımdır ki, bidətçilərin fikirlərini təkzib edərkən, onların mənbələrinə və kitablarına istinad etmək çox vacibdir, çünki bununla biz özümüzü, onların əleyhinə yalanlar qurmaqla bağlı ittihamlarından qoruyuruq. Həmçinin bununla biz, oxucunu öyrədirik ki, hər hansısa iddia və ittiham havadan götürülməməlidir, əksinə əsaslandırılmalıdır və bundan sonra, oxucu həqiqət tərəfdarlarını, sufilər və başqaları kimi bidətçilərdən ayırmağa başlayar. Bu ona görədir ki, sufilərin kitablarına, məsələn, "İman" nəşriyyatı tərəfindən nəşr olunan kitablara nəzər salan, hər kəs görəcək ki, onların kitablarında, istifadə etdikləri mənbələrə dair, heç bir istinad və işarə yoxdur. Məsələn, sufilər iddia edirlər ki, sələfilər səmaya ibadət edirlər və ya Uca Allahın bədən üzvlərinin olmasını deyilər və Ona məkan verirlər. Sufilər, bunları guya Sələfilərin icmasının yekdil rəylərindən sitat gətirirlər, amma eyni zamanda, sünnə tərəfdarları arasında, belə

azğın fikirlərə harada rast gəldiklərini heç bir yerdə göstərmirlər. Oxuyucu başa düşməlidir ki, bu cür əsassız şəkildə, hər bir şeyi uydurmaq mümkündür, bütün böyük günahlarda və hətta küfrdə ittiham etmək mümkündür, xüsusilə nəzərə alsaq ki, sufilər özlərini İslama aid edən, nəinki sünnə əhlinə böhtan atmaqdan çəkinməyən, hətta müqəddəs mətnləri, tamamilə təkəbbürlü və vicdansız şəkildə təhrif edərək, Allaha və Rəsuluna böhtan atmaqdan çəkinməyən, ən batil məzhəblərdən birinin nümayəndələridirlər və oxuyucu da artıq bunları anlamışdır.

Bundan sonra, bu insanlardan nə gözləmək olar?! Ona görə də, biz onlardan tələb edirik ki, kitablarını yazarkən, sünnə əhlinin kitablarının və ya məlumat götürdükləri öz kitablarının mənbəyini və istinadlarını göstərsinlər və heç bir sübutla dəstəklənməyən, boş söhbətlərlə, sadəcə vərəqləri tərcümə etməsinlər. Sufilərin öz cinayətlərini, cəzasız törədə bildikləri, ağıllarına gələni edə bildikləri dövrlər artıq geridə qaldılar.

Əgər ziyarətgahlara və digər dəfn yerlərinə, səfərlərin təşkilatçıları belə bir inancın olmadığını bəyan etməyə başlasalar, o zaman onlara cavabımız, bir neçə bənddə ifadə ediləcək:

1. Məsələ budur ki, bu inanclar, birdən birə meydana çıxmırlar. Onların yayılması və təsdiqlənməsi yavaş-yavaş, addım-addım baş verir. Necə ki, dini paltar geyinib, bədənini tamamilə örtən dindar qadın, dərhal dənizə, yalnız alt paltarı ilə getmədiyi kimi. Qadın, əvvəlcə rəngarəng paltarlar geyinməyə başlayır, sonra dar, sonra qollarını qısaldır, sonra yaylıq taxma tərzini dəyişir və sair, abırını tamamilə itirənə qədər. Bütün bunlar, şeytanın izi ilə getmək adlanır. Buna görə də, Uca Allah buyurur: **“Ey iman gətirənlər! Şeytanın izi ilə getməyin. Kim şeytanın izi ilə getsə, (bilsin ki,) o (şeytan) iyrənc və yaramaz işlər görməyi əmr edir”** (24:21).

Buna görə də, pis sonun ilk əlamətlərini görən elm sahibləri, bu kiçik, ilkin sapmaları pisləməyə başladıqda, dar düşüncəli insanlar, bunda heç bir qəbahət görmədiklərini və heç bir səhv etmədiklərini iddia etməyə başlayırlar. Bundan əlavə, biliyi olanları, savadlı insanları həddi aşmaqda, sərtlikdə və səriştəsiz olmaqda ittiham edirlər.

Burada da tamamilə eyni mənzərə. Birincisi şeytan, saleh şəxsin haqqı və izzəti ilə, Allahdan istəməyi bu saleh insana hörmət və ehtiramın göstəricisinin olduğunu söyləyərək insanı aldadır. Sonra insan, əməlisalehin özündən istəməyə başlayır ki, Allah yanında onun üçün şəfaət etsin. Sonra o, artıq salehin Allah qarşısında şəfaət etməsini vacib saymır, əksinə, salehin özü kifayətdir deyir. Kim buna şübhə edirsə, yadına salsın ki, xristian missionerləri, insanlara necə izah edirlər ki, kim İsaya iman gətirərsə İsa onu sevəcək, onu düz yola yönəldəcək və sair. Axı xristianlar da, İsanı nə Allahın oğlu, nə də ilahi keyfiyyətlərə malik hesab etmirdilər.

Buna əsaslanaraq, oxuyucu aşağıdakıları başa düşəcəkdir:

Ömər (radiyallahu anhu) rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu: ***"Xristianların Məryəm oğlu İsanı ucaltdıqları kimi, siz də məni ucaltmayın. Mən sadəcə bir bəndəyəm, ona görə deyin: "Allahın qulu və Rəsulu".***[1]

Əgər onlar desələr ki: *"Xristianların, İsanı ucaltdıqları kimi, biz də Peyğəmbəri ﷺ ucaltmırıq, çünki onlar, onun Allahın oğlu olduğunu deyirlər, amma biz bunu demirik".*

Onda, onlara cavab verərik ki: bu hədisdə söhbət, peyğəmbəri ﷺ nə dərəcədə ucaltmağın qadağan olmasından deyil, xristianların etdiyi üsulda, tərzdə, şəkildə Peyğəmbəri ﷺ ucaltmağın qadağan olmasından gedir.

Bunun dəlili aşağıdakı hədisdir:

Ənəs rəvayət edir ki, insanlar, Rəsulullahın ﷺ yanına gəlib, dedilər: *"Sən, bizim ən xeyirlimizsən, ən xeyirlimizin oğlusan".* Onda, Allah Rəsulu ﷺ buyurdu: ***"Ey insanlar! Sözlərinizi və ya sözlərinizin bir hissəsini danışın, amma şeytanın sizi zəifləməsinə imkan verməyin! Mən***

---

[1] Hədis səhihdir; Buxari 3445.

***Muhəmməd, Allahın qulu və Rəsuluyam və Allahın məni ucaltmağından yuxarı ucaldılmağı sevmirəm".***[1]

Bu hədisdən göründüyü kimi, insanlar ona, Allahın oğlu deməmişlər və hətta buna yaxın bir şey söyləməmişlər, lakin Allah Rəsulu ﷺ, onlara bunu qadağan etmiş və bunu şeytandan zəifləmə adlandırmışdır, çünki bu əməl son nəticədə, insanı daha da və daha da çox ucaltmağa gətirib, çıxarır.

Və həmçinin, onu da deyəcəyik ki, siz bu gün Muhəmməd Allahın oğludur deməsəniz də, sabah deyəcəksiniz, ya da nəvələriniz deyəcək, çünki xristianlar da İsanı, bir anda Allahın oğlu adlandırmayıblar. Bunun dəlili budur ki, siz artıq, hədsiz ucaltmaq yoluna qədəm qoymusunuz və gec-tez xristianların çatdığı məqama çatacaqsınız, çünki bu yol eynidir.

Əbu Səid əl-Xudri rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurdu: ***"Şübhəsiz ki, siz, sizdən əvvəlkilərin adət-ənənələrinə qarış-qarış, qulac-qulac əməl edəcəksiniz. Əgər onlar, kərtənkələnin dəliyinə girsələr belə, siz mütləq onların arxasınca gedəcəksiniz".*** Biz ondan soruşduq: ***"Ey Allahın Rəsulu! Yəhudi və xristianları nəzərdə tutursanmı?"*** O dedi: ***"Başqa kim olacaq?"*** [2]

2. Həmçinin, onların dediklərinə cavab belə olacaq ki, sözsüz ki, onlar Peyğəmbərə ﷺ ilahi sifətlər aid edəcək qədər irəli gedəcəklər. Bunun dəlili budur ki, onlar bütün kitablarını və əməllərini, tam olaraq, eyniylə ərəb ölkələrindəki liderlərindən təkrarlayırlar. Buna əsaslanaraq, biz əmin ola bilərik ki, təqlid etdikləri, dünyadakı sufi təriqətlərinin başçıları kimi, onlar lazımi xəttdə dayanmayacaqlar.

Dağıstanda, Türküstanda, Suriyada, Misirdə və sair İslamın qəbul edilməsi şərəfinə, bu cür dinc məclislərdə, sufilərin nələr etdiklərinə baxmaq kifayətdir. Torpaqlarımızın, sufilərinə nə mane olacaq, əgər dünya sufilərinə mane ola bilməyibsə?!

---

[1] Hədis səhihdir; Nəsai "Əməl əl-yəum vəl-ləylə"də 248; Əhməd 3/153, 241, 249 və s.; Şeyx Muqbil "Səhihul-Müsnəd" 121-də hədisi səhih adlandırmışdır.

[2] Hədis səhihdir; Buxari 3456; Muslim 2669; Əhməd 11800 və başqaları.

3. Və son məsələ odur ki, ziyarətgahlara və digər dəfn yerlərinə, səfərlərin təşkilatçılarından bəziləri, artıq bu inanclardan bəzilərinə malikdirlər. Daha dəqiq desək, bu inanc, onların məclislərində Peyğəmbərin ﷺ iştirak etdiyinə inanmalarında ifadə olunur. Buna görə də, bu təşkilatçıların özlərini yalandan aid etdikləri, Hənəfi məzhəbinin alimləri belə deyiblər: *"Kim desə ki, şeyxlərin (salehlərin) ruhları orada iştirak edir və baş verənlərdən xəbərdardır — o kəs kafir olar"*.[1]

Bütün deyilənlərdən aydın olur ki, onların əməllərinin Peyğəmbərə ﷺ məhəbbəti və onun hörməti ilə heç bir əlaqəsi yoxdur, xüsusən də Peyğəmbərin ﷺ özü belə demişdir: ***"Allahın məni ucaltdığından yuxarı, ucaldılmağı sevmirəm".*** Bəs siz, Peyğəmbərin ﷺ sevmədiyi bir şeyi edərkən, necə onu sevdiyinizi iddia edirsiniz?!

Tövhid tərəfdarlarına gəlincə isə, onlar Peyğəmbərin ﷺ izzətinin, Allah yanında ən böyük olduğunu təsdiq edirlər. Daha əvvəl, bütün müsəlmanların bu barədə yekdil rəyini qeyd etdik.

Buna görə də, Şeyx əl-Albani deyir ki: "*Hər kim Peyğəmbərin ﷺ izzəti ilə, təvəssülün dində qanuni olmasından danışarsa, bunun üçün, şəriətdən dəlil gətirməyə məcburdur. Biz isə, baxdıq və gördük ki, məsələn; səcdə və rüku yalnız Allahdan başqa heç kim üçün yerinə yetirilə bilməz. Peyğəmbər ﷺ insanlara, bir birinə səcdə və rüku etməyi qadağan etmişdir. Həmçinin sünnədə gördük ki, insanlar onun qarşısında ayağa qalxanda, Peyğəmbərin ﷺ xoşuna gəlmirdi, bu da bunun icazəli olmadığına dəlalət edir.*

*Buna əsaslanaraq, kimsə deyə bilərmi ki, əgər biz Peyğəmbərə ﷺ səcdə etməyin qadağan olmasından danışsaq, Peyğəmbərin ﷺ izzət və məqamını inkar etmiş olarıq?! Xeyr və yenə də xeyr! Və həmçinin, kimsə Peyğəmbərin ﷺ izzət və ya məqama malik olmasına əsaslanaraq, deyə bilərmi ki, buna əsaslanaraq, Peyğəmbərə ﷺ səcdə və rüku etmək qanunidir?! Xeyr və yenə də xeyr! Bununla, şübhəsiz məlum oldu ki, Peyğəmbərin ﷺ izzətinin təsdiqi ilə, onun izzəti ilə, təvəssülün dində*

[1] Bax, əl-Bəhr ər-Raiq 5/134.

*qanuniləşdirilməsi arasında, heç bir əlaqə yoxdur, çünki şəriətdə bunun üçün heç bir dəlil yoxdur”*.[1]

[1] “Təvəssül” səh. 116–117.

FƏSİL 16

# ALLAH DƏRGAHINDA, ŞƏFAƏT ETMƏLƏRİNİ İSTƏMƏK ÜÇÜN, ÖLÜLƏRƏ ÜZ TUTMAĞIN YOLVERİLMƏZLİYİ HAQQINDA

## BÖLÜM 1. QƏBİRPƏRƏSTLƏR İNANIRLAR Kİ, VASİTƏÇİ OLMADAN, BİRBAŞA ALLAHA ÜZ TUTMAQ YANLIŞDIR

Bu bölümdə, kuburi-sufilərinin kitablarından, onların vasitəçilik məsələlərində, etiqadlarını açıqlayan, bəzi sitatları qeyd etmək lazımdır.

1. Qəbirlərə ibadət edənlərin rəhbərlərindən, Yusif ən-Nəbhani (1350 hicri il) demişdir: “*Bir gün, mənim seyyidim, Məhəmməd əl-Hənəfi öz xalçasını, dənizin dalğalarına sərdi və müridinə dedi ki: “De: “Ey Hənəfi!” və suyun üzərində gəz”. Murid, dəniz suyunda Məhəmməd əl-Hənəfinin ardınca getdi və sonra ağlına bir fikir gəldi: “Mən niyə deyirəm: “Ey Hənəfi!”? “Allahım!” demək daha yaxşı deyilmi?” — sonra dedi: "Allahım!" və boğulmağa başladı. Onda Şeyx (Hənəfi) onun əlindən tutub dedi: “Sən hələ heç Hənəfini tanımırsan, o ki, qalsın Allahı tanıyasan. Nə vaxt ki, Allahı*

*tanıyarsan, onda deyərsən: "Allahım!"* Nəbhani sözünə davam etdi: *"Bununla şeyx ona işarə etdi ki, vasitəçilər olmadan olmaz!"*[1]

2. Hənəfi imamlarından biri - İmam əl-Əlusi (hicri 1270) demişdir: "Bir dəfə mən kiçik olanda, sufi şeyxlərindən biri, mənə dedi ki: "Əgər başına bir bəla gəlsə, heç bir halda Allaha üz tutma. Həqiqətən, Allah sənə kömək etməyə tələsmir və vəziyyətinin çətinliyinə biganədir. Ancaq ölü salehlərə (övliya) müraciət etməlisən, çünki onlar sənə kömək etməyə tələsəcəklər, çünki vəziyyətinin çətinliyi, onları çox narahat edir. İmam əl-Əlusi sözünə davam edərək dedi: "Və onun sözü qulaqlarıma, düşüncələrimə və ağlıma təsir etdi və sonra Allaha dua etdim ki, məni və digər müsəlmanları belə açıq-aşkar azğınlıqdan qorusun".[2]

3. Sufi qəbirpərəstlərindən biri olan, Əbdülqəni ən-Nəblusi (hicri 1143) vasitəçiliyin zəruriliyini sübut edərək demişdir: "İmamlardan biri, Məruf əl-Kürxi öz səhabələrinə dedi: "Əgər Allahdan bir istəyiniz varsa, mənim adımla, Ona and verin və Allahdan Onun adları ilə istəməyin". Sonra səhabələri, ondan soruşdular: "Niyə?" O cavab verdi: "Çünkü siz hələ Allahı tanımırsız, O, sizə cavab verməz, ancaq Allahı tanıdığınız zaman sizə cavab verməyə başlayacaq".[3]

4. Qəbirpərəstlərin başçılarından biri – əl-Kuzai demişdir: "İnsanların, Peyğəmbəri vasitəçi etmədən, birbaşa Allahdan istəmələri dişsiz açar və ya dişləri düzəlməmiş açar kimidir. Və məlumdur ki, dişsiz açar qapıları açmaz!"[4]

---

[1] "Şəvahid əl-Haqq" səh. 447.
[2] "Ruh əl-məani" 14/166.
[3] "Kəşf ən-Nur" səh. 20.
[4] "Əl-Bərəxin" səh. 449.

# BÖLÜM 2. VASİTƏÇİLƏRLƏ ALLAHA ÜZ TUTMAĞIN BİDƏT VƏ ŞİRK OLDUĞU HAQQINDA, HƏNƏFİ MƏZHƏBİ İMAMLARININ SÖZLƏRİ

Bu bölümdə Hənəfi məzhəbinin imamlarının, vasitəçilərdən istifadə edərək, Allaha üz tutmağın, bidət və şirk olduğu barədə, sözlərini sitat gətirmək lazımdır. Bu sözlər, yalandan özlərini hənəfi məzhəbinin bir hissəsi hesab edən, ziyarətgahlarda (pir-ocaqlarda) məclis təşkilatçıları üçün dəlil olacaqlar.

1. İmam Əbu Hənifənin (hicri 150), inancını izah edən İmam Neyləvi, belə buyurmuşdur: «*Bir gün, İmam Əbu Hənifə, qəbirlərə yaxınlaşıb, salam verən, sonra onlarla danışıb, onlara xitab edən bir nəfər gördü. Onda İmam Əbu Hənifə ona dedi ki: "Onlar sənə cavab verdilərmi?" O isə dedi: "Xeyr". Sonra imam buyurdu: "Vay olsun sənə! Sənə cavab verməyən, heç nəyə sahib olmayan və səsini eşitməyən ölülərlə necə danışırsan?" Sonra ona bunları oxudu:* **"Sən isə qəbirlərdə olanlara eşitdirə bilməzsən."** (Quran 35:22)».[1]

2. Hənəfi məzhəbinin imamlarından biri — İmam Əhməd ər-Rumi (1043), şirkin müxtəlif növlərini izah edərək, belə demişdir: *"Üçüncü növ şirk "yaxınlaşma" şirkidir. Bu növ şirk, insanın Allahdan başqasına ibadət etməsindən ibarətdir ki, həmin bu ibadət edilən kimsə ibadət edəni Allaha yaxınlaşdırsın deyə. Bu şirk növü — ilk müşriklərin şirkidir. Onların inancı belə idi ki, Uca Yaradana birbaşa ibadət etmək üçün, onlar çox dəyərsiz və əhəmiyyətsizdirlər və bu əməl, Yaradana qarşı böyük təhqirdir. Buna əsaslanaraq, onlar Yaradan qarşısında, özlərindən daha yüksək məqama malik olanlara sitayiş etməyə başladılar"*.[2]

3. Sufi qəbirpərəstləri, müşriklərin yolu ilə gedirlər, beləliklə, özləri ilə aləmlərin Rəbbi arasında vasitəçi götürdüklərini izah edərək, dövrünün Hənəfi imamı İmam Vəliullah əd-Dəhləvi (h. 1176) buyurur:

---

[1] "Şifa əs-Sudur" səh. 44, həmçinin: "Ər-rəqqul-mənşur" səh. 92.

[2] "Məcəlis əl-əbrar" səh. 118–120.

*"Onlardan bəziləri, Allahın — aləmlərin Rəbbi, hökmdarı olduğuna inanır, lakin eyni zamanda Allahın, salehlərdən bəzilərini şərəfləndirmiş olduğuna, onlara izzət və ilahilik bəxş edərək, bəzi təbiət hadisələri idarə etmək hüququnu, onların əlinə vermiş olduğuna inanırlar. Eyni zamanda, onlar inanırlar ki, Uca Yaradan bəzi insanlara görə, onların şəfaətini qəbul edir. Beləliklə onlar, Allaha padşahların şahı, salehlərə isə yerli varlığı idarə edən, bəzi valilər vəzifəsi təyin etdilər. Bu inanclar — yəhudilərin, xristianların və müşriklərin, eləcə də bu gün Muhəmməd ümmətindən olan, bəzi münafiqlərin inanclarından başqa bir şey deyildir".*[1]

4. İmam İbn Əbil-İzz "Şərh əqidə ət-təhaviyyə" kitabında, təsdiq etmişdir ki, bu növ vasitəçilik və şəfaət, həm də cahiliyyət dövrünün ərəblərinin, şirklərinin əsasını da təşkil etmişdir, həmçinin hinduların, türklərin və bərbərlərin şirklərinin əsasını da təşkil etmişdir.[2]

5. Bağdadın öz dövrünün, Hənəfi müftisi İmam Mahmud əl-Əlusi (hicri 1270) demişdir: *"Məxluqata müraciət etmək və onları vasitəçiyə çevirmək, onlardan Allaha dua etmələrini istəyərək, şübhəsiz ki, icazəlidir, əgər xitab olunan diridirsə, amma ölmüş və ya qeyb olsa, heç bir alim bunun caiz olmadığına və bidətlərdən olmasına şübhə etməz. Müsəlmanların ilk nəsillərindən, heç biri bunu etməyib. Heç bir xəbər gəlməyib ki, səhabələr ölülərdən bir şey istəyiblər, çünki səhabələr başqalarından daha çox xeyir üçün çalışırdılar".*[3]

6. Müəllifi Əbu Cəfər ət-Tahavi (hicri 321) olan "Əqidə ət-Tahaviyya" kitabının əvvəlində deyilir: *"Bu, İmam Əbu Cəfər ət-Tahavinin, sünnə tərəfdarlarının və vahid icmanın (Əhli Sünnə vəl-Cəmaə), aşağıda adları qeyd olunan camaat imamlarının məzhəbinə əsaslanaraq, əqidələrini izah edərək, nəql etdiyidir: Əbu Hənifə ən-Numan ibn Sabit əl-Kufi, Əbu Yusif Yəqub ibn İbrahim əl-Ənsari, eləcə də Əbu Əbdillah Məhəmməd ibn əl-Həsən əş-Şeybani, Allah onlardan razı olsun. Bu izah, yuxarıda adı çəkilən imamların, dinin əsaslarında, hansı etiqadlara malik olduqlarının və bu etiqadlarını aləmlərin Rəbbinin hüzurunda yerinə yetirmələri haqqında izahdır". Bundan sonra, Əbu Cəfər ət-Tahavi, Allaha şərik qoşmadan, yalnız*

[1] "Xuzətu Lləhi əl-bəliğə" 1/61.
[2] Bax "Şərh 'Əqidə ət-Tahaviyya" səh. 21.
[3] "Ruh əl-məani" 6/125.

*Ona yönəlməyin vacibliyini izah edərək dedi: "Allahu Təalə duaları qəbul edər və çətinlikləri asanlaşdırar. O, hər şeyə sahibdir, Ona isə heç bir şey sahib deyildir. Biz, Allahsız bir an belə yaşaya bilmərik. Kim bir anlıq da olsa, Allahsız keçinməyini zənn edərsə, kafir olmuşdur".*[1]

7. Hənəfi alimləri "Əqidə ət-təhaviyyə"dən bu hissəni izah edərək, demişlər: *"Allahu Təalə, bəndələrinə dua ilə Ona üz tutmağı əmr etmişdir və onlara cavab verəcəyinə söz vermişdir. O, bəndələrini Ona şərik qoşmadan, yalnız Ona yönəlməyə təşviq edir. Çünki Allah Təvazökardır, Səxavətlidir və əllərini uzadıb, Ona dua edən qulunun duasını cavabsız qoymaqdan utanır. Buna görə də, Uca Allah bəndələrinə çətin vəziyyətlərdə, yalnız Ona üz tutmağı dəfələrlə əmr etmişdir. Quran və sünnədə bunu təsdiq edən, çoxlu mətnlər vardır. Onlar, insanları çətin vəziyyətlərdə, aləmlərin Rəbbi olan Allaha yönəlməyə təşviq edir və yaradılmışların hər hansı birinə üz tutmağı qadağan edirlər. Çünki hər şey, yalnız Allaha məxsusdur və Onun üçün qeyri-mümkün heç bir şey yoxdur və quluna Ondan istədiyini vermək çətin deyil. Həm də ona görə ki, Allah - Təvazökar, Səxavətli, Rəhmli, Mərhəmətli, Bəxş edəndir — bəxş edir və cavab verir və insanların çətinliklərini yüngülləşdirməyə qadirdir. O, mərhəmət keyfiyyətləri ilə təsvir olunub. Buna görə də, heç kim Allahsız bir an belə keçirə bilməz, nə müsəlman, nə də kafir. Axı, hətta müşriklərin də Ona ehtiyacları var. Qul, yalnız Allahı çağırdıqda, Allahın Mövcud olduğunu, Zəngin olduğunu, Eşidən, Bilən, Səxavətli, Rəhmli olduğunu, hər şeyə qadir olduğunu təsdiq edər, çünki heç kim mövcud olmayanı, kasıbı, karı, xəsisi, zalımı və acizi çağırmaz. Allahu Təalə, bəndələri Onu çağırdıqda, Ondan dilədikdə və Ona ehtiyaclarını bildirdikdə sevinər. Çətin anlarda, Ondan istəməyən və Ona sığınmayanlara gəlincə isə, Allah, belə insanları sevməz və əksinə onlara qəzəblənər. Buna görə də, Allaha möhtac olmadığına inanan, Ondan üz döndərən və yalnız Ondan başqasına üz tutan kəs kafir olar və onun sığınacağı yer — əbədi oddur. Bundan pis nə ola bilər?! Bu ona görədir ki,*

[1] "Əqidə Təhaviyyə" səh. 56.

*Allaha dua etməyən kəs, Allahı tanıdığını iddia etsə də, Allahı tanımamışdır”*.[1]

8. İmam Vəliyullah əd-Dəhləvi (1176) buyurur: *“Cahiliyyət dövrünün müşrikləri, öz problemlərini həll etmək, xəstəlikləri müalicə etmək, yoxsulları zənginləşdirmək və sair üçün məxluqata üz tuturdular. Allah müsəlmanlara bu ayəni nazil etdi ki, onlar namazlarında belə desinlər:* **“Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik”**. (1:5) *və həmçinin:* **“Allahdan başqa heç kəsə dua etməyin!”** (72:18)[2]

9. İmam Şükri əl-Əlusi buyurur: *“Bizim dinimiz, eləcə də ağıl və fitri xüsusiyyətlər, bizə deyirlər ki, Uca Yaradanın, Öz pak, kamil şəriətində, ölülərə və qeybdə olanlara dua edib və onlardan istəmək icazəsini nazil etməsi qeyri-mümkündür. Necə ki, xristianlar deyirlər: “Ey İsanın anası! Allah qarşısında, bizim üçün şəfaət et” və ya: “Ey İsa! Mənə filan şeyi ver”. Qəbirlərə ibadət edənlər də, eyni şeyi deyirlər: “Ya Əli Ya Hüseyn! Ey Abbas! Ey Əbdülqadir! Ey Aydarus! Ey Bədavi! Ey filankəs!” və buna bənzər şirk kəlmələri, hansı ki, içərisində Allaha şərik qoşmaq və məxluqatı Ona bərabər tutmaq vardır – Allah, Ona nisbət edilənlərdən daha böyükdür. Buna bənzər bir din, heç vaxt gəlməyib. Əksinə, bu əməl, açıq-aydın bütpərəstliyin bir qoludur və Qüdrətli, Bağışlayan Allahın qəzəbinə düçar olmağa və əbədi Cəhənnəmə düşməyə səbəb olur. Bu barədə islam alimləri danışıblar”*.[3]

Bunlar, İmam Əbu Hənifənin, onun tələbələrinin, eləcə də Hənəfi məzhəbinin ən böyük imamlarından bəzilərinin sözləri idilər. Yəni həqiqətənmi bundan sonra ziyarətgahlara və başqa məzarlıqlara səfərlərin təşkilatçıları – "yalançı hənəfilər" iddia edəcəklər ki, “vəhhabilər” və “fundamentalistlər”dən başqa heç kim onların əməllərini məzəmmət etmir?!

Həqiqətənmi bu böyük imamların üzərinə bu biabırçı, çirkli etiketləri asmağa cürət edəcəklər?!

---

[1] Bax, “Şərh ‘Əqidə ət-Tahauiya” İbn Əbil-‘İzz səh. 519–524; "ən-Nur əl-Lami'" səh. 115; “Şərh Təhaviyyə” Quneymi əl-Maydani səh. 131–132.
[2] “Xucətu Llahi əl-bəliqə” 1/62.
[3] “Fəth əl-Mənnan” səh. 445, 449.

**“Mömin kişiləri və mömin qadınları, etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üzərlərinə böhtanla bərabər açıq-aydın ağır bir yük götürmüşlər.”** (33:58).

Və həmçinin: **“O zaman siz, bunu dilinizə gətirir, bilmədiyiniz sözü danışır və onu əhəmiyyətsiz bir şey hesab edirdiniz. Halbuki bu, Allah yanında çox böyük günahdır.”** (Quran 24:15).

# BÖLÜM 3. ALLAHU TƏALƏ ÇOX ƏFV EDƏNDİR VƏ RƏHMLİDİR

Əziz oxucu, bilin ki, insanları ölülərə tərəf dönməyə sövq edən əsas səbəb, Uca Yaradanın onların tövbəsini, peşmançılığını və bağışlanma diləyini qəbul etməyəcəyinə inamdır. Onlar hesab edirlər ki, Uca Allahın bağışlanmasına və rəhmətinə nail olmaq, ancaq o biri dünyada onlara şəfaət edən, salehlərin vasitəçiliyi ilə mümkündür. Onların inancı budur ki, əgər birbaşa Allaha üz tutsalar, Uca Allah onlara baxmaz və dualarını qəbul etməz. Bu inancları təkzib etmək üçün, bəzi ayə və hədisləri göstərmək kifayətdir.

Ayələrə gəlincə, Uca Allah buyurur:

**1. «(Qullarıma mənim bu sözümü) de: “Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!”»** (39:53)

**2. “Hamınız, Allaha tövbə edin ki, bəlkə nicat tapasınız”** (24:31).

**3. “Həm də Rəbbinizdən bağışlanma diləyəsiniz, sonra da tövbə edəsiniz”** (11:3).

**4. “Məgər onlar bilmirlər ki, Allah, qullarından tövbəni qəbul edir, sədəqələri götürür və Allah tövbələri qəbul Edəndir, Rəhmlidir?”** (9:104)

Qardaşım, həqiqətənmi bu əzəmətli ayələrdən sonra, sən bu yalançılara inanmağa davam edəcəksən ki, guya biz, arada vasitəçi olmadan Rəbbimizin bağışlanmasına nail ola bilmərik?!

Allah onları məhv etsin, onlar necə də döndərilirlər!

Məhz bu bütpərəstlərin, inanclarının əsaslarını dağıtmaq üçün, öz qövmlərinə gələn bütün peyğəmbərlər və elçilər Allahın rəhmətini və bağışlanmasını, onlara izah edirdilər. Onlar öz xalqlarına başa salırdılar ki, bu vasitəçilərə müraciət etməklə, onları ilaha çevirir və onlara sitayiş edirlər. Peyğəmbərlər, insanlara izah edirdilər ki, bu vasitəçilərə ehtiyac yoxdur, çünki Uca Allah, bəndələrini eşidir və onlara bağışlanma Əlini uzadır.

Buna əmin olmaq istəyirsinizsə, gəlin birlikdə baxaq:

1. Uca Allah, Nuh peyğəmbər və onun dəvəti haqqında belə buyurur:

**“Həqiqətən, Biz Nuhu öz qövmünə göndərdik (və dedik): “Sən öz qövmünü, onlara ağrılı-acılı bir əzab gəlməmişdən əvvəl xəbərdar et!” O dedi: “Ey qövmüm! Şübhəsiz ki, mən sizi aydın bir tərzdə xəbərdar edənəm!Allaha ibadət edin, Ondan qorxun və mənə itaət edin!(Belə etsəniz,) O sizin günahlarınızdan keçər və sizə müəyyən vaxtadək möhlət verər. Həqiqətən, Allahın (müəyyən etdiyi) vaxt gəlib çatdıqda, əsla təxirə salınmaz. Kaş biləydiniz!” O dedi: “Ey Rəbbim, mən xalqımı gecə də, gündüz də dəvət etdim. Amma dəvətim onların (haqdan) qaçmalarını daha da artırdı. Sən onları bağışlayasan deyə, mən hər dəfə onları (imana) dəvət etdikdə, onlar barmaqlarını qulaqlarına tıxayır, paltarlarına bürünür, (küfrlərində) israr edir və ötkəm-ötkəm təkəbbürlənirdilər. Sonra mən, onları aşkarcasına dəvət etdim. Sonra mən, onlara (həm uca səslə), (həm də) gizlicə bildirib, dedim: “Rəbbinizdən bağışlanmağınızı diləyin! Həqiqətən, O, çox Bağışlayandır!”** (71:1-10).

Lakin onun qövmü, birbaşa Allaha üz tutmaqdan imtina etdi, amma vasitəçilərdən isə imtina etmədi:

**“Nuh dedi: “Ey Rəbbim! Onlar mənə asi oldular və var-dövləti, övladı özünə zərərdən başqa bir şey artırmayan, bir adama tabe oldular. Onlar (mənə qarşı) böyük bir hiylə işlətdilər və (özlərinə tabe olanlara) dedilər: “Öz məbudlarınızı tərk etməyin; Vadd-i, Suva-nı, Yəğus-u, Yəuq-u və Nəsr-i tərk etməyin!”** (71:21-23).

Bəs siz necə düşünürsünüz, ey oxuyucumuz, Uca Allah onların günahlarını bağışladımı, məbudlarının şəfaəti onlara fayda verdimi?

**“Onlar öz günahlarına görə, suya qərq edildilər və oda atıldılar. Onlar özlərinə, Allahdan savayı köməkçilər tapmadılar”** (71:25).

Bundan yapış, qardaşım, həqiqətən, nadir hallarda tövhid və bütpərəstliyin mahiyyətinin, bu qədər ətraflı və aydın izahını tapa bilərsən.

2. Allah, Hud peyğəmbərin dəvəti haqqında isə, belə buyurur:

**“Ad qövmünə də qardaşları Hudu (göndərdik). O dedi: “Ey qövmüm! Allaha ibadət edin. Sizin, Ondan başqa ilahınız yoxdur. Siz ancaq iftira yaxırsınız”** (11:50).

Ad qövmü, Allaha qarşı hansı iftiralar uydururdular?

**“Ey qövmüm! Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq məni yaradana aiddir. Məgər anlamırsınız? Ey qövmüm! Rəbbinizdən bağışlanma diləyin, sonra da Ona tövbə edin ki, göydən sizə bolluca yağış yağdırsın və gücünüzü daha da artırsın. Günahkarcasına üz çevirməyin”** (11:51-52).

Nə üçün onlar, Allahdan üz çevirdilər və nə üçün Uca Allah onları günahkar adlandırdı?!

**“Onlar dedilər: “Ey Hud! Sən bizə açıq-aydın bir dəlil gətirmədin, biz də sənin sözünlə tanrılarımızı tərk edən deyilik. Biz sənə inanmırıq”** (11:53).

Tanrılardan imtina nədir?

**“Biz ancaq onu deyə bilərik ki, tanrılarımızdan biri səni bəlaya düçar edib”. O dedi: “Həqiqətən, mən Allahı şahid çağırıram, siz də şahid olun ki, mən sizin şərik qoşduqlarınızdan uzağam. Ondan başqa (tapındıqlarınızın hamısından uzağam)”** (11:54-55).

Allahı qoyub bu tanrılara ibadət etmələrində məqsəd nə idi?

**“Hamılıqla mənə qarşı hiylə qurun və mənə heç möhlət də verməyin. Mən, öz Rəbbim və sizin Rəbbiniz olan, Allaha təvəkkül etdim. Elə bir canlı yoxdur ki, (Allah) onun kəkilindən tutmuş olmasın. Həqiqətən, Rəbbim ədalətlidir. Əgər üz çevirsəniz, (bilin ki) mənə əmr olunanı sizə çatdırdım. Rəbbim yerinizə başqa bir camaat gətirər və siz də Ona heç bir zərər yetirə bilməzsiniz. Şübhəsiz ki, Rəbbim hər şeyi hifz edir”** (11:55-57).

Onların vasitəçiləri, Ad qövmünə kömək etdimi və Allah onların şəfaətini qəbul etdimi?

**“Əmrimiz gəldikdə, Hudu və onunla birlikdə iman gətirənləri, Öz mərhəmətimizlə xilas etdik və onları ağır bir əzabdan qurtardıq. Bu Ad qövmü idi! Onlar Rəbbinin ayələrini inkar etdilər, Onun elçilərinə asi oldular və hər bir inadcıl, təkəbbür sahibinin əmrinə uydular. Onları həm bu dünyada, həm də Qiyamət günündə lənət təqib edəcəkdir. Həqiqətən, Ad qövmü öz Rəbbini inkar etdi. Məhv olsun Hudun qövmü Ad!”** (11:58-60).

3. Uca Allah, Öz elçisi Salehin dəvəti haqqında, bizə belə xəbər verdi:

**“Səmud qövmünə də qardaşları Salehi (göndərdik). O dedi: “Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa ilahınız yoxdur. O sizi torpaqdan yaratdı və sizi orada sakin etdi. Elə isə ondan**

**bağışlanma diləyin, sonra da Ona tövbə edin. Şübhəsiz ki, Rəbbim Yaxındır, (çağırışa) cavab verəndir”** (11:61).

Sizcə, Saleh onlara nə üçün, Uca Allahın Yaxın və Cavab verən olduğunu söylədi?!

Qövmü ona nə cavab verdi?

**“Onlar dedilər: “Ey Saleh! Sən bundan əvvəl, içərimizdə ümid edilən bir kimsə idin. Doğrudanmı atalarımızın ibadət etdiyinə ibadət etməyi bizə qadağan edirsən? Doğrusu, biz sənin bizləri dəvət etdiyin (əqidə) barəsində şübhə doğuran şəkk içindəyik”** (11:62).

Onların, bu tanrılara ibadəti nədən ibarət idi? Və bu qəbirlərə, övliyalara və saleh insanlara, Allah dərgahında onlar üçün şəfaət diləmələrini istəməyə davam etdikləri üçün, onların başına nə gəldi?

**“Əmrimiz gəldikdə, Salehi və onunla birlikdə iman gətirənləri, Öz mərhəmətimizlə (əzabdan) və o günün rüsvayçılığından qurtardıq. Həqiqətən, Rəbbin Qüvvətlidir, Qüdrətlidir. Zülm edənləri isə, qorxunc bir səs yaxaladı və onlar öz evlərində üzüqoylu düşüb, qaldılar. Sanki orada heç yaşamamışdılar. Həqiqətən, Səmud qövmü, öz Rəbbini inkar etdi. Məhv olsun Səmud qövmü!”** (11:66-68).

4. Şüeyb peyğəmbər isə, öz qövmünə belə demişdir:

**“Ey qövmüm! Qoy mənimlə olan ixtilafınız, Nuh qövmünün, yaxud Hud qövmünün, yaxud Saleh qövmünün başına gələnlərin eynisini sizin də başınıza gətirməsin. Lut qövmü də sizdən uzaq deyildir”. Rəbbinizdən bağışlanma diləyin, sonra Ona tövbə edin. Həqiqətən, Rəbbim Rəhmlidir, Sevəndir (həm də Sevilədir)”** (11:89-90).

Yəqin ki, oxucumuz başa düşdü ki, Şüeyb nə üçün öz qövmünə, Allahın Rəhmli və Sevən olduğunu demişdi?!

Bəs qövmü ona nə cavab verdi?

**“Onlar dedilər: “Ey Şueyb! Dediklərinin çoxunu anlamırıq. Biz səni aramızda zəif görürük. Əgər qəbilən olmasaydı, səni daşqalaq edərdik. Sən bizim üçün heç də böyük bir adam deyilsən”** (11:91).

Onda Şueyb onlara dedi:

**“O dedi: “Ey qövmüm! Məgər mənim qəbiləm sizin üçün, Allahdan da əzizdirmi? Siz Onu saymayıb unutdunuz. Şübhəsiz ki, Rəbbim sizin nə etdiklərinizi əhatə edir”** (11:92).

Onların, Allahı unutmaları nəyə görə idi?!

Onların vasitəçiləri, Mədyənlilərə kömək etdimi?

**“Əmrimiz gəldikdə, Şueybi və onunla birlikdə iman gətirənləri, Öz mərhəmətimizlə xilas etdik. Zülm edənləri isə, qorxunc səs yaxaladı və onlar öz evlərində üzüqoylu düşüb, qaldılar. Sanki orada heç yaşamamışdılar. Səmud qövmü məhv olduğu kimi Mədyən qövmü də məhv olsun!”** (11:94-95)

5. İndi İbrahim peyğəmbərin dəvətinə baxın:

**“Kitabda, İbrahimi də xatırla! Həqiqətən, o, sadiq insan və peyğəmbər idi. Bir zaman o, atasına demişdi: “Atacan! Nə üçün eşitməyən, görməyən və sənə heç bir faydası olmayan bir şeyə sitayiş edirsən? Atacan! Həqiqətən, sənə gəlməyən bir elm, mənə gəlmişdir. Arxamca gəl ki, səni doğru yola yönəldim. Atacan! Şeytana ibadət etmə! Həqiqətən, şeytan ər-Rəhmana çox asi oldu. Atacan! Qorxuram ki, ər-Rəhmandan sənə bir əzab toxunsun və beləcə şeytana yoldaş olasan”** (19:41-45).

Əgər fikir verdinizsə, nədənsə İbrahim öz çağırışında həmişə Rəhman olan Allahın adını vurğulayır! Həmçinin yuxarıdakılara əsaslanaraq və bu ayədən şeytana ibadətin nə olduğunu başa düşürsüz. Ona görə də, indi siz Uca Allahın Sözlərini başa düşəcəksiniz:

**“Ey Adəm övladları! Məgər Mən sizə buyurmadımmı ki, şeytana ibadət etməyin, o sizin açıq-aydın düşməninizdir, Mənə ibadət edin!**

**Doğru yol budur! Artıq (şeytan) içərinizdən bir çoxlarını yoldan çıxartmışdır. Məgər dərk etmirdiniz?”** (36:60-62)

İndi təəccüblənməyəcəksiniz ki, Uca Allah Quranın bütün surəsini niyə “ər-Rəhman” adlandırıb.

6. İndi isə, İbrahimin öz qövmünə dediklərinə qulaq asın:

**“Həqiqətən, İbrahim onun ardıcıllarından idi. Bir zaman o, öz Rəbbinin yanına, pak bir qəlblə gəldi. Onda o, öz atasına və qövmünə dedi: “Siz nəyə sitayiş edirsiniz? Allahı qoyub uydurma məbudlarımı diləyirsiniz?Aləmlərin Rəbbi barəsində nə düşünürsünüz?”** (37:83-87).

Onlar, hansı yalanı uydurdular, Rəbbi haqqında hansı fikirlərə sahib oldular?!

**“Sizin öz Rəbbiniz barəsində bu zənniniz sizi məhv etdi və siz ziyan çəkənlərdən oldunuz”** (Quran 41:23).

Biz, Quranın gözəl rəvayətlərindən, yalnız bəzi hissələri verdik, qalanlarına gəldikdə isə, onlar buna bənzərdirlər.

**“Bu, sənə söylədiyimiz məmləkətlər haqqında hekayətlərin bəzisidir. Onlardan (izi) qalanı da vardır, yerlə-yeksan olanı da. Biz, onlara zülm etmədik, lakin onlar, özləri özlərinə zülm etdilər. Rəbbinin əmri gəldikdə, Allahdan başqa çağırdıqları bütlər, onları heç nədən qurtara bilmədilər. (Bütlər), onların ancaq tələfatını artırdı. Rəbbin, haqsızlıq edən məmləkətləri yaxaladığı zaman, belə yaxalayır. Onun yaxalaması, həqiqətən də üzücüdür, şiddətlədir. Həqiqətən bunlarda, axirət əzabından qorxanlar üçün bir ibrət vardır. Bu, insanların bir yerə toplanacağı bir gündür. Bu həm də hamının şahid olacağı bir gündür”** (11:100-103).

İndi başa düşürsünüzmi ki, bütpərəst ayinlərin canlanması hansı sonluğun başlanğıcıdır?!

İndi isə, Muhəmməd peyğəmbərin ﷺ dediklərinə qulaq asın:

1. Ənəs ibn Malik rəvayət edir ki, Allah Rəsulu ﷺ buyurdu: ***"Həqiqətən, Allah tövbə edərək, Ona tərəf dönən bəndəsinin tövbəsinə — sizdən bir kəs dəvəsi ilə səhrada gəzdiyi zaman, dəvəsi azuqə və su ilə ondan qaçdığı zaman və sahibinin isə onu tapmaqdan ümidini kəsərək bir ağacın yanına gəlib, kölgəsində uzandığı və daha dəvəsini görməyə ümid etmədiyi an, dəvəsini taparkən sevindiyindən — daha çox sevinir. Və dəvəsini itirən adam, bu vəziyyətdə olduğu zaman, birdən dəvənin onun yanında dayandığını götür və onun cilovundan tutub deyir: "Allahım, Sən mənim qulumsan, mən də sənin Rəbbinəm!" – ona gələn şiddətli sevincə görə, səhv edir".***[1]

2. Əbu Musa əl-Əşari rəvayət edir ki, Allah Rəsulu ﷺ buyurdu: ***"Həqiqətən, Allahu Təalə gündüzləri günah edənlərin tövbəsini qəbul etmək üçün gecələr əlini uzadır, gecələr günah edənlərin tövbəsini qəbul etmək üçün isə, gündüzlər əlini uzadır. Günəş qərbdən çıxana qədər də belə olacaq"***.[2]

3. Cabir ibn Süleym belə dedi: "Peyğəmbərə ﷺ dedim ki: ***"Sən Allahın elçisisənmi?" O mənə belə cavab verdi: "Mən o Allahın Elçisiyəm ki, əgər sənə bir müsibət üz verərsə və sən dua ilə Ona tərəf yönəlsən, O, bu bəlanı səndən götürər. Əgər quraqlıq bir il gələrsə və Ona üz tutsan, O, vəziyyəti düzəldər"***.[3]

4. Əbu Hureyrə rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu: "***Allah Ondan istəməyənə qəzəblənər"***.[4]

5. Salman əl-Farisi rəvayət edir ki, Allah Rəsulu ﷺ buyurdu: ***"Həqiqətən, sizin Rəbbiniz (O Müqəddəsdir və Ucadır) Həyalıdır, Səxavətlidir. Ona əlini açıb dua edən quluna, heçnə ilə cavab verməməkdən həya edir".***[5]

---

[1] Hədis səhihdir; Muslim 2747.
[2] Hədis səhihdir; Muslim 2759.
[3] Hədis səhihdir; Əbu Davud 4/344; Tirmizi 5/72; bax əl-Mişkat 1/599.
[4] Hədis yaxşıdır; Tirmizi 5/456; Buxari "Ədəbül-Mufrad"da 224 və başqaları, bax "Səhihə" 2654.
[5] Hədis yaxşıdır; Əbu Davud 2/156; İbn Hibban 3/160.

# BÖLÜM 4. ÖLÜLƏR QƏBİRLƏRİNDƏ EŞİTMİRLƏR

Məhz bu ideologiya insanları qəbirlərə getməyə və ölülərdən şəfaət istəməyə sövq etdiyi üçün ölülərin məzarlarında eşitdiyi inancını məhv etmək çox vacibdir. Ona görə də, əgər insana aydın olarsa ki, ölülər onu eşitmirlər, nə qədər onlara müraciət etsə də, Allahla yanaşı onlara müraciət etməsinin heç bir mənası yoxdur.

## 1. Qəbirlərə ibadət edənlərin, ölülərin öz qəbirlərində insanları eşitdiyinə inanmaları

Sufi qəbirpərəstləri (kuburilər), ölülərin — insanların söhbətlərini eşitdiyinə, onları çağıranların müraciətlərini eşitdiyinə inanırlar.

Onlar hesab edirlər ki, salehlərin (övliya) eşitməsi, görməsi və biliyi, öldükdən sonra həyatda olduğundan daha güclü olur. Bu, onunla əlaqədardır ki, həyatda ikən, salehlərin gizli qabiliyyətləri, bədən əsarətində olur, qılınc qınında olduğu kimi, lakin ölümdən sonra, salehlərin ruhu bu sıx qandallardan azad olur və onun imkanları dəfələrlə artır. Onlar ölülərin məzarlarını ziyarət edənlərin, sözlərini eşitdiyini hesab edirlər.

Onlar iddia edirlər ki, Quran harda oxunsa da ölülər onu eşidirlər və dirilərin salamını eşidirlər. Üstəlik, onlar salehlərin qəbirlərində ölü olduqlarına inanmırlar. Onları, yer üzündə gəzən adi canlı insanlar kimi diri hesab edirlər. Bu inanclara əsaslanaraq, deyirlər: *“Əgər salehlərin eşitməsi təsdiq olunubsa, onlara müraciət etməyə və onları çağırmağa nə mane olur?!”* Məhz bu nəticəni əldə etmək üçün ölülərin eşitdiyini sübut etməyə çalışırlar.

Kuburi sufiləri, bu mövzuda çoxlu kitablar yazmışlar, Təqiuddin əl-Subuqinin (hicri 756) ardınca, hansı ki, bu mövzuda ilk kitablardan birini yazmışdır – "Şifa əs-Sikəm".[1]

## 2. Ölülərin qəbirlərində eşitmədiklərinə dair dəlillər və onlara şərhlər

Qardaşım bil ki, ölülərin qəbirlərində eşitmədiyinə dair dəlillər şübhəsiz, aydın və etibarlıdırlar. Məhz buna görə də, məşhur məzhəb alimlərinin heç biri, onlara etiraz etməyiblər. Burada, o dəlillərdən bəzilərini, qısa şərhlərlə təqdim edirik.

1. Uca Allah buyurur: **"(Sənin çağırışını) ancaq (diqqətlə) dinləyənlər qəbul edər. Ölülərə gəldikdə isə, Allah onları diriləcək, sonra da onlar Onun hüzuruna qaytarılacaqlar"** (6:36).

Bu ayədən də göründüyü kimi, Uca Allahu Təalə, insanları iki kateqoriyaya ayırmışdır:

1) O kəslər ki, eşidirlər.

2) Ölülər.

Və əgər ölülər eşidənlərdən olsaydılar, bu bölgü düzgün edilmiş olmazdı.

2. Uca Allah buyurur: **"Sözsüz ki, sən nə ölülərə (haqqı) eşitdirə bilərsən, nə də dönüb, gedən karlara çağırışı çatdıra bilərsən"** (27:80).

Quranın bütün təfsirçiləri, bu ayədəki ölülər və karlar — sağ olan (diri) kafirlərdir dedilər. Uca Allah onları ölü və karla müqayisə etdi, çünki onlar ölü və kar kimi, tövhid çağırışına cavab vermirlər. Axı siz, ölü və ya

[1] Oxuyucu, bu sufi inanclarını, aşağıdakı kitablarda tapa bilər: "əl-Minha əl-Vahbiyə" - İbn Circisə; "Sulh əl-İxvan"; "Baraxin" əl-Kuzai; "əl-Bəsair" əl-Dəcəvi; "Şəms məkalat fi səma'ul-amvat"; "Səma əl-məvtə" və sair.

kar bir insana üz tutub, nəyəsə dəvət etsəniz, sizə cavab verməz, çünki o, sizi eşitmir və başa düşmür.

Buna görə də, ayələrin birində, Uca Allah Təalə buyurur: **“Həqiqətən, kafirləri qorxutsan da, qorxutmasan da, onlar üçün fərqi yoxdur, iman gətirməzlər. Allah onların qəlblərini və qulaqlarını möhürləmiş, gözlərinə də pərdə çəkmişdir. Onlar üçün böyük bir əzab vardır”** (2:6-7).

Buna əsaslanaraq, kuburi-sufiləri, yuxarıdakı dəlilə belə cavab verdilər ki, bu ayədə, "ölülər və karlar deyidikdə", qəbirlərindəki ölü salehlər deyil, dəvəti dərk etmədikləri üçün, ölü kimi olan kafirlər nəzərdə tutulur.

Onların iddiasına cavab belə olacaq:

1. Ayə, ümumi məna daşıyır və onu hərfi mənada dərk etməyə heçnə mane olmur.

2. Əgər bu ayədə, Uca Allahın ölü və karlarla müqayisə etdiyi kafirlərdən bəhs edildiyini desək, onda bizim məsələdə daha güclü dəlildir. Əgər biz “Əhməd, şir kimi cəsurdur” desək, bu müqayisədən nə başa düşə bilərik? Buradan anladığımız odur ki, şir Əhməddən daha cəsurdur, əks halda Əhmədi, şirlə müqayisə etməyin mənası olmazdı.

Eynilə, “Kafirlər də, ölülər kimi, ibadəti anlamır və eşitmirlər” desək, bu müqayisədən nə başa düşə bilərik?

Bundan iki şeyi başa düşürük:

1) Ölülərin eşitməməkdə və anlamamaqda kafirlərdən betər olması, əks halda ölülər eşitsəydi, kafirləri onlarla müqayisə etməyin mənası olmazdı.

2) Bu müqayisədən başa düşürük ki, ölülərin eşitməməsi, insanlar arasında mütləq bir aksiomadır, çünki Quranın nazil olduğu insanlar ölülərin eşitmədiyinə əmin olmasalar, onlara bu şübhəli müqayisəni gətirməyin mənası olmazdı.

Buna görə də, Hənəfi məzhəbinin imamlarından olan, İmam Cəncuhi (hicri 1323) bu ayənin təfsirində belə demişdir: "*Burada Uca Allah, kafirləri eşitmədikləri üçün, ölülərlə müqayisə etdi. Buradan başa düşürük ki, ölülər eşitmirlər, əks halda müqayisə düzgün olmazdı*".[1]

Həmçinin bu ayədə, ölü ilə kar arasında incə bir xətt çəkilmişdir.

Bu ondan ibarətdir ki, Allah ölülərdən danışarkən, buna heç bir şey əlavə etməmiş, lakin karlardan danışarkən, belə buyurmuşdur: **"Nə də dönüb gedən karlara çağırışı çatdıra bilərsən".** Niyə Uca Allah, karların çağırışı eşidə bilməməsini anlatarkən, dedi ki, bu eşitməmə, yalnız o halda olar ki, onlar geriyə dönsələr, yəni çox uzaqlara getsələr?! Axı kar insan, uzaqda və ya yaxında olmasından asılı olmayaraq, eşidə bilməz. Çünki eşitmə qabiliyyəti olmayan şəxs, müraciət zamanı yaxınlıqda olarsa, əl hərəkətləri və mimika ilə çağırışın mahiyyətini anlaya bilər, amma uzaqlara getsə, o zaman bu hərəkətləri və mimikaları görməyəcək. Buna əsaslanaraq, aydın olur ki, ölü insan eşidə bilməməsində və anlamamasında kardan betərdir, çünki ölü - kardan fərqli olaraq, nə eşidir, nə də görür.

Bu incə xətti, Hənəfi imamlarından biri olan, İmam ən-Nəsəfi (hicri 710) "əl-Mədərik" kitabında izah etmişdir.[2]

3. Allah buyurur: **"Dirilərlə ölülər də eyni deyillər. Şübhəsiz ki, Allah istədiyinə (haqqı) eşitdirir. Sən isə, qəbirlərdə olanlara eşitdirə bilməzsən"** (35:22).

Hənəfi imamı ət-Taftazani (hicri 792) bu ayəni şərh edərkən, deyir: "*Uca Allah, bu ayədə, kafirləri ölülərlə müqayisə etmişdir. Və heç bir ixtilaf yoxdur ki, ölülər eşitmirlər*".[3]

Bu Hənəfi imamının sözləri, bizi təəccüblü bir nəticəyə gətirir. Ölülərin eşitmədiyinə heç bir ixtilaf olmamasına baxmayaraq, özlərini Hənəfi məzhəbinin bir hissəsi hesab edən, kuburi sufiləri, nədənsə yüksək səslə

[1] "Əl-Kövqab əd-Durriy" səh. 319.
[2] "Əl-Mədarik" 3/20.
[3] "Şərh əl-Məqasid" 5/116.

yalan fikirlərini müdafiə etməyə çalışırlar ki, ölülər eşidirlər, həmdə dirilərdən yaxşı, üstəlik onlara müraciət etmək, Allaha yönəlməkdən daha faydalıdır.

4. Allah buyurur: **“O, gecəni gündüzə, gündüzü də gecəyə qatır. O, günəşi və ayı ram etmişdir. Onların hər biri, müəyyən olunmuş vaxtadək hərəkət edir. Bu, sizin Rəbbiniz olan Allahdır. Mülk Onundur. Sizin Ondan başqa yalvardıqlarınız, xurma çəyirdəyinin pərdəsinə belə sahib deyillər. Əgər siz onları çağırsanız, onlar sizin duanızı eşitməzlər, eşitsələr də cavab verə bilməzlər. Özləri də Qiyamət günü, sizin (onlara) ibadət etdiyinizi danacaqlar. Heç kəs (hər şeydən) Xəbərdar olan (Allah) kimi, sənə xəbər verə bilməz”** (35:13-14).

Sufilər, bu dəlillərə belə cavab vermişlər ki, bu ayə, cahiliyyət dövrünün müşriklərinin müraciət edib, sitayiş etdikləri daşlara, bütlərə və həkk olunmuş surətlərə işarə edir. Ancaq bunun cavabı, belə olacaq: **“Çağırdığınız kəslər isə”** ifadəsi, müşriklərin ağıllı varlıqları çağırdıqlarını bildirir, çünki əgər söhbət daşlardan və bütlərdən getsəydi, Uca Allah belə deyərdi: "çağırdığınız şey isə". Həmçinin, **“Sizin onlara ibadət etdiyinizi danacaqlar”** ifadəsi də bildirir ki, müşriklərin çağırdıqları peyğəmbərlər, mələklər və saleh insanlar, qiyamət günü dirildildikdən və bu müşriklərin, Allahı qoyub, özlərinə ibadət etdiklərini öyrəndikdən sonra, onların ibadətlərini danacaqlar. Dini mətnlərdən məlum olduğu kimi, daş və bütlərə gəlincə, onlar “həyat” və “ölüm” xüsusiyyətləri ilə təsvir olunmadığı üçün, Qiyamət günü dirilməyəcəklər.

Buna görə də, buna bənzər ayələrdə, Uca Allah buyurur: **“O gün (Allah) onların hamısını toplayacaq, sonra da mələklərə buyuracaq: “Bunlar sizəmi ibadət edirdilər?” (Mələklər) deyəcəklər: “Sən paksan, müqəddəssən! Onlar deyil, Sənsən bizim Hamimiz! Xeyr, onlar cinlərə ibadət edirdilər. Əksəriyyəti də məhz onlara iman gətirmişdi”** (34:40-41).

Və həmçinin: **“Allah deyəcəkdir: “Ey Məryəm oğlu İsa! Sənmi insanlara: “Allahı qoyub məni və anamı iki tanrı qəbul edin!” —**

**demişdin?" İsa deyəcək: "Sən pak və müqəddəssən! Haqqım olmayan bir şeyi demək, mənə yaraşmaz. Əgər bunu demiş olsaydım, əlbəttə, Sən onu bilərdin. Sən mənim qəlbimdə olanları bilirsən, mən isə Sənin Özündə olanları bilmirəm. Şübhəsiz ki, qeybləri bilən Sənsən!"** (5:116)

Və həmçinin: **"O gün (Allah) onları və onların Allahdan başqa, sitayiş etdiklərinin hamısını, məhşər ayağında cəm edərək, deyəcək: "Mənim bu qullarımı (haqq) (yoldan) sizmi azdırdınız, yoxsa onlar özləri azdılar?" Onlar deyəcəklər: "Sən pak və müqəddəssən! Sənin əvəzinə, özümüzə başqa himayədarlar götürmək bizə yaraşmaz. Lakin Sən, onlara və atalarına o qədər firavanlıq nəsib etdin ki, axırda Zikri də yaddan çıxartdılar və məhvə məhkum olunmuş bir zümrəyə çevrildilər". (Kafirlərə deyiləcəkdir:) "Onlar, sizin dediklərinizi təkzib etdilər. Artıq siz, nə (əzabı özünüzdən) dəf edər, nə də başqa bir əlacınız qalmamışdır. Zülm edənlərinizə, böyük bir əzab daddıracağıq"** (25:17-19).

Həmçinin, istinad etdiyimiz ayədə dəlil budur ki, əgər bu ölmüş salehlər (övliya) insanların danışıq və müraciətlərini eşitsəydilər belə, bu müraciətlərə cavab verə bilməzdilər. Çünki eşitmə qabiliyyəti, özündən sonra cavab vermək qabiliyyətini gətirmir.[1]

Buna görə də, Hənəfi imam əl-Alusi demişdir: "**Və eşitsələr belə**"— *yəni, bunu təsəvvür etsək belə,* **"sizə cavab verməzlər"**, *çünki ölülərdə danışmaq qabiliyyəti yoxdur və eşitmə qabiliyyətinin olması, cavab vermək qabiliyyətinin olması demək deyil*".

5. Allah buyurur: **"Allahı qoyub, Qiyamət gününədək, özünə cavab verə bilməyən əşyalara yalvaran, kimsədən daha çox azmış kim ola bilər? Halbuki (o bütlər), onların yalvarışından xəbərsizdirlər.**

[1] "Ruh əl-məani" 22/182.

**İnsanlar bir yerə toplanılacaqları zaman, (bütlər) onlara düşmən kəsiləcək və onların ibadətini inkar edəcəklər"** (45:5-6).

6. Allah buyurur: **"Və ya (damları) uçulub, xarabalığa çevrilmiş bir kəndin yanından keçən, kimsənin (hekayətini) bilmirsənmi? O demişdi: "Allah bu kəndi ölümündən sonra necə dirildəcək?" Allah onu öldürüb, yüz il saxladı, sonra da dirildib, dedi: "Nə qədər qaldın?" O dedi: "Bir gün, yaxud bir gündən də az qaldım! (Allah) dedi: "Əksinə, sən yüz il qaldın. Öz yeməyinə və içdiyin suya bax, hələ də xarab olmayıb. Uzunqulağına da bax! Biz səni insanlar üçün, bir dəlil etdik. Sümüklərə bax, gör Biz onları necə bir-birinə birləşdirir, sonra da onların üstünü ətlə örtürük". Ona (həqiqət) bəlli olduqda: "Mən artıq bilirəm ki, Allah hər şeyə qadirdir!"– dedi"** (2:259).

Hənəfi imam əl-Fincifiri demişdir: *"Bu, Üzeyir peyğəmbər idi.*[1] *Uca Allah ölüləri necə dirildir, ona göstərmək üçün, onu öldürdü. O, yüz il dəfn edilmədən, yer üzündə qaldı. Sonra, Allah onu diriltdi və soruşdu: "Nə qədər qaldın?", Üzeyir şübhə ilə təxmin etdi: "Bir gün yaxud bir gündən də az". Və o bilmirdi ki, yüz ildir belə qalıb. Bu, onu deməyə əsas verir ki, bu böyük peyğəmbər gecə ilə gündüzün dəyişməsini, nəsillərin necə dəyişdiyini hiss etməmişdir. Ona görə də, onun torpağa basdırılmadan, ölü olaraq yer üzündə qalması, ölülərin eşitmədiyinə dair məhz bu hadisə dəlildir. Həmçinin, bu hadisə, peyğəmbərlərin öldükdən sonra, ruhlarının bədənlərində olmadığına və onların ölümünün — həqiqi ölüm olduğuna və qəbir həyatının — adi, cismani həyat deyil, başqa, qeyri-adi həyat olduğuna dair bir dəlildir".*[2]

Bu hekayəyə əsaslanaraq, başa düşürük ki, ölən Peyğəmbərlər, bu dünyada baş verənlər haqqında, heç nə eşitmirlər və heç nə bilmirlər. Bu

---

[1] İmam İbn Kəsir, bu ayənin təfsirində demişdir: "Alimlər bu yoldan keçənin, kim olması barədə ixtilaf ediblər," sonra onun Üzeyir peyğəmbər olduğuna dəlil gətirdi və sonra dedi: "Və bu daha məşhur bir fikirdir." Oranın hansı şəhər olduğuna gəlincə, İmam İbn Kəsir belə demişdir: "Daha geniş yayılmış fikir budur ki, bu Qüds idi. Novoxudonosor oranı məhv etdikdən sonra, Üzeyir oradan keçirdi" ("Tafir İbn Kəsir" 1/437).

[2] "Cəvahir əl-Quran" 1/127.

peyğəmbərlərə aiddir, sıravi, saleh insanları heç demirik. Əgər kimsə buna baxmayaraq, salehlərin bu qabiliyyətlərində, peyğəmbərlərdən fərqli olduğunu və onların dünyada nə baş verdiyini eşidib, görüb və bilməyini güman edirsə, o zaman Allahın bu kəlamlarını oxusun:

7. Allah buyurur: **"Biz mağarada, onların qulaqlarını, illərlə qapalı saxladıq (onları yuxuya verdik). Beləcə onları oyatdıq ki, (nə baş verdiyini) bir-birindən soruşub öyrənsinlər. Onlardan biri: "(Burada) nə qədər qaldınız?"– dedi. (Bəziləri:) "Bir gün yaxud günün bir hissəsi qədər qaldıq"– dedilər. (Digərləri də) dedilər: "Qaldığınız müddəti, Rəbbiniz daha yaxşı bilir. Birinizi bu gümüş pulunuzla, şəhərə göndərin. Qoy baxsın, ən təmiz yemək hansıdırsa, ondan sizə azuqə gətirsin. Amma o, gizlicə hərəkət etsin və qətiyyən sizi heç kimə sezdirməsin! Onlar mağarada üç yüz il, üstəlik doqquz (il də) qaldılar. De: "Onların nə qədər qaldıqlarını, Allah daha yaxşı bilir. Göylərin və yerin qeybi ancaq Ona məxsusdur. O, necə gözəl görür, necə də yaxşı eşidir! Onların, Ondan başqa heç bir himayədarı yoxdur. O, Öz mülkünə heç kəsi şərik etməz!"** (18:11,19,25-26)

Bu ayələr, ölülərin eşitmədiyinə dəlildir. Bu ona görədir ki, bu cavanlar ölməmiş, sadəcə dərin yuxuda yatmışdılar. Bəs ölənlər haqqında nə demək olar?!

8. Əbu Təlhə rəvayət edir ki, Bədr döyüşü günü, Peyğəmbər ﷺ Qüreyşin iyirmi dörd (24) başçısının cəsədini Bədr xəndəyinə atmağı əmr etdi. Adətən, Peyğəmbər ﷺ bir döyüşdə, qələbə qazandıqda, üç gün döyüş meydanında qalırdı, lakin Bədr döyüşündən sonra, üçüncü gün yola düşməyə hazırlaşdı. O minik heyvanını hazırlamağı əmr etdi, sonra ona mindi, yola düşdü və səhabələri də onun ardınca getdilər. Onlar bir-birlərinə dedilər: "*Mütləq ki, vacib bir şey olub*". Peyğəmbər ﷺ bu xəndəyin yanından keçirdi, onun kənarında dayandı və ölən qureyşlilərə adları və atalarının adları ilə müraciət etməyə başladı: "***Ey filankəsin oğlu filankəs! Ey filankəsin oğlu filankəs! İndi dünyaya qayıdıb, Allah və Rəsuluna tabe olmaq istərdinizmi? Həqiqətən, biz Rəbbimizin bizə vəd etdiyini, haqq olaraq gördük, bəs siz Rəbbinizin sizə vəd etdiyini gördünüzmü?***" Onda Ömər (Allah ondan razı olsun), Peyğəmbərə ﷺ üz

tutub dedi: "*Ey Allahın Rəsulu!* ﷺ *ruhdan məhrum bədənlərə, necə müraciət edirsən?*" Sonra Rəsulullah ﷺ buyurdu: ***"Muhəmmədin canı əlində Olana and olsun ki, siz mənim dediklərimi onlardan daha yaxşı eşitmirsiniz".*** Qatadə demişdir ki: *"Uca Allah onları diriltdi ki, onun sözlərini eşitsinlər, daha böyük zillət, utanc, intiqam və peşmançılıq üçün"*.[1]

Rəvayətlərin birində: ***"İndi onlar mənim dediklərimi eşidirlər"***.[2]

Başqa bir rəvayətdə: *"Ey Allahın Rəsulu! Onlar səni necə eşidə bilərlər? Onlar sənə necə cavab verəcəklər, axı onlar, artıq çürümüşlər?"*[3]

Təəccüblü olan, kuburi-sufilərinin məntiqidir ki, onlar bu hədisi ölülərin eşitdiyinə dair dəlil kimi gətirirlər, halbuki bu hədis ölülərin eşitmədiyinə açıq aydın bir dəlildir.

Bunun izahı belədir:

1. Allah Rəsulunun ﷺ "İndi mənim dediklərimi eşidirlər" kəlamı, onu yalnız o anda eşitdiklərini göstərir, əks halda bu hadisədə "indi" kəlməsinin işlətməyin mənası yoxdur.

2. Peyğəmbər ﷺ Ömərin (Allah ondan razı olsun)təəccübünə etiraz etmədi və ona demədi: "Məgər bilmirsən ki, ölülər dirilər kimi eşidirlər?"

Əksinə, Peyğəmbər ﷺ Ömərə (Allah ondan razı olsun) təəccübünün münasib olduğunu, lakin bu hadisənin möcüzə bölməsindən olduğunu bildirdi.

3. Bu hədisdə dəlil budur ki, səhabələrin möhkəm inancı, ölülərin eşitmədiyini bilmələridir və buna görə də heç kim bu hədisi ölülərin eşitdiyinə dəlil kimi göstərə bilməz.

4. Qatədənin sözləri göstərir ki, Uca Allah onları diriltdi və o anda onlar ölməmişdilər və buna uyğun olaraq heç kim bu hədisi, ölülərin eşitdiyinə dəlil kimi gətirə bilməz.

---

[1] Hədis səhihdir; Buxari 4/1461.
[2] Rəvayət səhihdir; Buxari 7/242.
[3] Rəvayət səhihdir; Müslim 4/2203

5. Əsas odur ki, ölülər heç vaxt və heç kimi eşitməzlər, lakin bu əhvalat Peyğəmbərin ﷺ möcüzələrindən biri idi ki, Uca Yaradan onları həmin anda diriltdi. Məhz buna görə də, Xətib ət-Tibrizi bu hədisi "əl-Mişkat" kitabında (5983) "Möcüzələr haqqında" fəslində qeyd etmişdir.

6. Öldükdən sonra, kafirlərə xitab etmək — peyğəmbərlərin ﷺ qədim adətlərindəndir ki, bu kafirlərin peşmançılığını və utancını daha da artırsın.

Allah, Saleh peyğəmbər və onun qövmünün, ölümü haqqında belə buyurdu: **«Onları, dəhşətli bir sarsıntı yaxaladı və onlar öz evlərində, üzüqoylu düşüb, qaldılar. (Saleh) onlardan üz çevirib, dedi: "Ey qövmüm! Mən, Rəbbimin mənə vəhy etdiyi hökmünü, sizə çatdırdım və sizə öyüd-nəsihət verdim. Lakin siz nəsihət verənləri sevmirsiniz"»** (Quran 7:78-79), həmçinin, Şueyb haqqında Allah buyurdu: **«Onları dəhşətli bir, şiddətli sarsıntı yaxaladı və onlar öz evlərində, üzüqoylu düşüb, qaldılar. Şueybi yalançı sayanlar, sanki orada yaşamamışdılar. Şueybi yalançı sayanların özləri, ziyana uğrayanlardan oldular. (Şueyb) onlardan üz çevirib, dedi: "Ey qövmüm! Mən Rəbbimin mənə vəhy etdiyi hökmlərini sizə çatdırdım və sizə öyüd-nəsihət verdim. Kafir tayfadan ötrü, mən necə heyfsilənə bilərəm?"»** (Quran 7:91-93)

Deməli, biz bu bölümdə, qəbirlərdə olan ölülərin eşitmədiyinə dəlillər gətirmişik və həmçinin praktiki olaraq, hər bir ayə və hədisə, Hənəfi məzhəbi alimlərinin sözlərinə istinad etmişik ki, oxuyucu əmin olsun ki, məsələ müəyyən maraqlara aid olduqda, dırnaq arası "rəhbərlərimiz" hansı məzhəbə mənsub olduqlarını, tamamilə unudurlar. Həmçinin oxuyucu bir daha əmin olsun ki, "vəhhabiliklə mübarizə" şüarı - sadəcə olaraq, arxasına gizlənmək üçün, istifadə oluna bilən, növbəti pərdədir. Həmd, aləmlərin Rəbbi olan — Allaha məxsusdur.

# 3. Qarşı tərəfin şübhələri və onlara cavab

Müxtəlif sufi təriqətlərinin nümayəndələri, öz mövqelərini təsdiq etmək üçün, yuxarıda verilən aydın, birmənalı ayə və hədislərə göz yumaraq, onların fikrincə, "güclü", dəlillər təqdim etməyə çalışırlar. Qardaşım, bil ki, bu yol, bütün dövrlərin bidətçilərinin yoludur – gözlərini yumub, aydın, başa düşülən mətnləri görməmək və şəriət mətnlərində ən azı uzaqdan da olsa, onların yalan bəyanatlarının düzgünlüyünü göstərəcək bir şey tapmağa çalışmaq. Gəlin onların şübhələrini nəzərdən keçirək.

1. Ənəs ibn Malik rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurdu: ***"Həqiqətən, Allahın qulu qəbrə qoyulduqda və dostları ondan uzaqlaşdıqda, ölü, onların səndəllərinin səsini eşidir və onun yanına iki mələk gəlir…"***.[1]

**Onların çıxartdığı nəticə:** Peyğəmbər ﷺ rəvayət edir ki, dəfn edilən şəxs, ondan ayrılan insanların ayaqqabılarının səsini eşidir, ona görə, ölülər də, buna müvafiq olaraq eşidirlər.

Cavab:

1) İmam Əhmədin və Əbu Davudun, Bəra ibn Azibdən nəql etdikləri hədisdə də, eyni məqam açıqlanır. Bu hədisin çox mühüm bir parçası: ***"Və sonra ruh onun bədəninə qayıdır və onun yanına iki mələk gəlir…".*** Bu hissədən başa düşülür ki, ruh dəfn edilmiş şəxsin bədəninə qayıdır və şəxs, artıq ölülər sırasında deyil və bu mələklərin suallarına cavab verənə qədər, ruh onun bədənində qalır. Buna görə də, bu hədis heç bir halda ölülərin eşitməsinin lehinə bir dəlil deyildir, əksinə, mələklərin suallarına cavab vermək üçün, ruhunun ona qaytarılması sözləri, belə bir nəticəyə gəlir ki, əgər ruh onun bədəninə qaytarılmamış olsaydı, o zaman mələklərin suallarını eşitməz və onlara cavab verə bilməzdi.

2) Hənəfi alimlərindən Əbdüssəlam ər-Rüstəmi, bu hədisə gorə, belə cavab verdi: *"Bu hədis, dəfn edilmiş şəxsin, yalnız insanların səndəllərinin səsini eşitməsinə dəlalət edir. Bu hədisdə, onun insanların ona müraciətini*

[1] Hədis səhihdir; Buxari 1/462–463; Muslim 4/2200–2201.

*eşitdiyinə və ya onların müraciətini başa düşdüyünə işarə yoxdur. Bu, damın altında olan və damın üzərində gedən birinin ayaq səsini eşidən, lakin onun sözlərini eşitməyən və başa düşməyən kimsəyə bənzəyir”.*[1]

3) Həmçinin, əksəriyyəti əşəri və matrudilərdən ibarət olan, bu kuburi sufilərinin, bu hədisi dəlil olaraq gətirmələri də təəccüblüdür. Axı onların inancı budur ki, mütəvatir dərəcəsinə çatmamış hədis, ideoloji məsələlərdə dəlil ola bilməz, bu hədisin zahiri nəticəsinin, Quranın aşkar, çoxsaylı ayələri ilə ziddiyyət təşkil etdiyi halı hələ demirəm.

Bəs onları, bu hədisdən yapışmağa və öz əsillərini “unutmağa” nə vadar etdi?!

Nə olursa olsun, bu hədis Qurana zidd deyil və orada ölülərin eşitdiyinə dair heç bir dəlil yoxdur.

Həmd yalnız Allaha məxsusdur.

2. Əbu Hüreyrə deyir ki, Peyğəmbər ﷺ Uhud döyüşündən qayıdarkən, Musəb ibn Umeyr və digər səhabələrin qəbrinin üstündə dayanıb, dedi: “***Şəhadət verirəm ki, onlar Uca Allah yanında diridirlər, onları ziyarət edin və salam verin. Canım əlində olana and olsun ki, onlara salam verənlərə, Qiyamət gününə qədər cavab verəcəklər”.***

Bu hədis, imam Zəhəbi, İbn Rəcəb və başqalarının dediyi kimi səhih deyil. Üstəlik, bu hədisin zəifliyi, bu səviyyəyə çatmasa da, İmam Zəhəbi hətta onu yalan adlandırmışdır.[2]

3. Əbu Hureyrə rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurdu: ***“Hər kim sağlığında tanıdığı, möminin qəbrinin yanından keçsə və ona salam versə, o mərhum onu tanıyar və salama cavab verər”.***[3]

Bu hədis, öz isnadında əvvəlki hədisdən daha güclü deyildir, onun isnadında Əbdürrəhman ibn Zeyd ibn Əsləm – çox zəif bir rəvayətçidir. Hafiz əl-Həkimin haqqında isə, "Mədxəl"də (1/180) demişdir ki, o hədislər uydururdu və atasından nəql edirdi. Buna görə də, İmam İbn

[1] “Ət-Tibyan” səh. 140.

[2] Bax, əd-Daifə 5225.

[3] Hədis rədd edilmişdir; əl-Xətib “Tarix”də 6/137; bax əd-Daifə 4493

Rəcəb demişdir: “Hədis zəifdir, üstəlik də, rədd edilmişdir”. Bu dərəcədə zəif olan hədislər, dəlil gətirmək üçün uyğun deyillər.

4. Zeyd ibn Əsləm demişdir: “*Bir gün, Əbu Hüreyrə, dostu ilə, qəbrin yanından keçirdi və dedi: “Ona salam ver”. Dostu cavab verdi: “Qəbirə salam verməkmi?” Onda Əbu Hureyrə dedi: “Əgər bu şəxs, səni dünyada heç olmasa bir dəfə görübsə, şübhəsiz ki, indi səni tanıyacaqdır”*.[1]

Bu hədis, əvvəlki iki hədisdən çox zəifdir, çünki bu hədis, sadəcə zəif deyil, həm də yalandır, çünki onun zəncirində, Yəhya ibn əl-Əla var – hədisləri uyduran şəxs.

5. Əbu Hureyrə rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu: ***“Hər kim mənə salam verərsə, Allah, şübhəsiz ki, ruhumu bədənimə qaytarar və mən də ona cavab verərəm”.***[2]

Bu hədisdə, Peyğəmbərin ﷺ ona salam verənlərin, salamını eşitdiyinə dair heç bir dəlil yoxdur, lakin Uca Allah onun ruhunu qaytarır və Peyğəmbərə ﷺ həmin salama cavab vermək imkanı verir. Bu hədisə, əsasən başa düşülür ki, Peyğəmbərin ﷺ ruhu onun bədənində deyil, Allah yanındadır və Peyğəmbər ﷺ insanların nitqini eşitmir və onlara kömək etmək iqtidarında deyil. Ancaq olan odur ki, onun ruhu bədənə qayıdır və o, salama cavab verir. Bunun necə baş verdiyi məlum deyil, çünki bu dünya gizlidir.

Peyğəmbərin ﷺ ona salam verənləri və ona salavat diləyənləri, eşitməməsinə başqa bir dəlil də, Əbu Hureyrənin danışdığı hədisdir: “Allahın Rəsulu ﷺ buyurdu: ***“Mənim qəbrimi daimi məclislər yerinə çevirməyin, mənə salavat gətirin, həqiqətən, harda olursunuzsa olun, salavatınız mənə çatdırılar”.***[3] Peyğəmbərin ﷺ ***“mənə çatdırılar”*** kəlamı açıq-aydın göstərir ki, o, bu salavatları eşitmir.

---

[1] Hədis batildir, uydurmadır; Əbdürrəzzaq Müsənnəfdə 6723.

[2] Hədis yaxşıdır; Əbu Davud 1/319; Bəyhaqi 5/245; Əhməd 2/227; Təbərani "əl-Avsat"da 449; bax əs-Səhihə 2266.

[3] Hədis yaxşıdır; Əbu Davud 2042; Əhməd 2/367.

***“Hər kim, mənim qəbrimin yanında, mənim üçün xeyir-dua diləsə, onu eşidərəm, kim uzaqdan xeyir-dua diləsə, mənə çatdırılar”*** hədisinə gəlincə, bu hədis **batildir**.

Onun isnadında, Muhəmməd ibn Mərvan əs-Suddi var – o yalançı idi və hədislər uydururdu. Buna görə də, İmam İbn əl-Cövzi “əl-Məvduat” (1/302-303), yalançı hədislər toplusunda, bu hədisi nəql etmişdir. Həmçinin əd-Daifə 203-ə baxın.

6. Əgər ölülər eşitmirlərsə, qəbri ziyarət edəndə, onlara salam vermək nəyə lazımdır?!

Cavab:

Qəbirləri ziyarət edərkən, ölənləri “*Ey (bu) diyarın mömin və müsəlman sakinləri! Sizə salam olsun!”* sözləri ilə salamlamaq, ölülərin salamı eşitdiyinə görə edilmir, bu onlar üçün əmin amanlıq və bağışlanma duasıdır.

Beləliklə, biz belə bir mühüm, ideoloji məsələni sübut etməyə çalışan, kuburi sufilərinin şübhələrini təqdim etdik. Burada qeyd etmək lazımdır ki, onların, ölülərin eşitdiyinə inanmaları, ideologiyalarının ən mühüm sütunlarından biridir və onun üzərində sonradan edəcəkləri bütün əməlləri qururlar, ölülərdən istəmək, onlara ibadət etmək, məzarlarına hörmət göstərmək və sairə kimi əməllər. Onlar hesab edirlər ki, din bundan ibarətdir və qəbirlərlə əlaqəli olmayan, bir dini təsəvvür edə bilmirlər. Biz də, onlardan soruşuruq: əgər ölülərin eşitməsi məsələsi dində bu qədər mühümdürsə, bəs nə üçün bu barədə etibarlı, təkzibedilməz, açıq-aydın bir hədis olmadığı kimi, həmçinin Quranda da, ölülərin eşitdiklərini təsdiq edən bir ayə də yoxdur?! Axı bu məsələ, o qədər vacib olsaydı və dinin əsası olsaydı, müqəddəs kitab, bunun sübutu ilə dolu olardı. Çünki məsələ nə qədər əhəmiyyətli olsa, mətnlərdə bir o qədər təfərrüatlı şəkildə işıqlandırılır. Ona görə də, biz "dəstəmaz, namaz, həcc, oruc" və sair şeylər haqqında yüzlərlə, minlərlə hədislər görürük.

Hənəfi imamı, İbn Əbil-'İzz demişdir: *“Buna görə də, insanların müəyyən bir məsələni dərk etmə ehtiyacı, nə qədər çox olarsa, həmin məsələ*

*ilə bağlı mətnlər də, Allahın yaratdıqlarına qarşı olan rəhməti olaraq, bir o qədər də açıq-aydın görünürlər”.*[1]

## 4. Digər məzhəblərin nümayəndələri, hənəfilərin fikrini dəstəkləyirlər ki, ölülər eşitmirlər

Hənəfi məzhəbinin alim və imamlarının, ölülərin eşitmədiyini açıq-aydın şəkildə bildirdiklərini bəyan etdikdən sonra, digər məzhəblərin nümayəndələrinin də, adlarını çəkmək lazımdır ki, oxuyucu bu fikrin təkcə hənəfi məzhəbi ilə məhdudlaşmadığına əmin olsun. Amma bu alimlərin açıqlamalarını nəql etməklə, onsuz da uzun-uzadı olan fəsli, həddən artıq uzatmamaq üçün, biz ancaq onların adlarını çəkməklə, söz və ifadələrinə rast gələn mənbələri göstərməklə, kifayətlənəcəyik.

Beləliklə, ölülərin eşitmədiyi fikrini həmçinin ifadə etdilər:

1) Əbul-Valid Süleyman əl-Baji (hicri 474).[2]

2) Məhəmməd ibn ‘Əli əl-Məziri (hicri 536).[3]

3) Əbul Fəzl Qədi İyad (hicri 544).[4]

Onların hamısı, Maliki məzhəbinin, ən böyük imamlarındandır.

4) Qadi Əbu Yəlin (hicri 458-ci il).[5]

5) İbn Rəcəb əl-Hənbəli (hicri 795).[6]

6) Məhəmməd ibn Əhməd əs-Səfərini (hicri 1188).[7]

---

[1] “Şərx ‘Əqidə Təhaviyyə” səh. 93.
[2] Bax, əl-Müntəqa 1/69.
[3] Bax “əl-Mu’lim fi Şərh Muslim” 17/206.
[4] Bax “Şərx Zurkani ‘ala Muatta Malik” 1/63.
[5] Bax əl-Cami əl-Kəbir.
[6] Bax əl-Əhual əl-Kubur
[7] Bax əl-Bəhr əz-Zəcirə.

Onların hamısı Hənbəli məzhəbinin ən böyük imamlarındandır.

7) Əl-Hüseyn ibn Məhəmməd ət-Tibi.[1]

8) İbn Həcər əl-Əskaləni (hicri 852).[2]

9) Əbdürrəuf əl-Münavi (hicri 1031).[3]

Onların hamısı, Şafii məzhəbinin ən böyük imamlarındandırlar.

Mən, bu imamların adlarını, ona görə çəkmədim ki, onlardan başqa heç kim bu fikri dəstəkləməyib, sadəcə olaraq, onlar öz məzhəblərinin ən böyük imamlarından olduqları üçün, adlarını çəkdim.

# BÖLÜM 5. DUA İBADƏTDİR VƏ ONU ALLAHDAN BAŞQASINA ETMƏK OLMAZ

## Sufi qəbirpərəstləri, duanı ibadət hesab etmirlər

Qardaşım bil ki, sufi təriqətlərinin nümayəndələri, duanın ibadət olmadığına əmindirlər və buna uyğun olaraq, onların ölü salehlərə, səmimi dualarla müraciət etmələrində onların fikrincə pis bir şey yoxdur. Onlar, ölülərə etdikləri bu duanı — şirk, yəni Allaha şərik qoşmaq hesab etmirlər.

Kuburi sufilərinin rəhbərlərindən olan, İbn Circis (1299 hicri il) belə deyir: *"Həqiqətən, Allahın düşmənləri olan vəhhabilər, öz məzhəblərini, qəbirlərində olan ölülərə müraciət etmək, onlara dua etmək və Allah dərgahında onlardan şəfaət diləməyin — ibadət olduğu hökmü üzərində*

[1] Bax əl-Məfatih fi hillil-Məsabih.
[2] Bax, Fəth əl-Bari 3/182.
[3] Bax, Feyd əl-Qədir.

*qurublar. Onlar bunu, öz bidətlərini daha da yaymaq üçün və müsəlmanları küfrdə ittiham etmək istəyi ilə edirlər. Amma onların bu qaydası — həqiqətən əsl səhvdir. Çünki Peyğəmbər ﷺ, bizə ibadətin nə olduğunu öyrətmişdir. Cəbrailin hədisində gəldiyi kimi — ibadət dindir. Bu hədisə əsasən, ibadət — İslamın iki şəhadətini söyləmək, namaz qılmaq, zəkat vermək, oruc tutmaq və həcc etməkdir. Həmçinin — Allaha, mələklərə, kitablara, elçilərə və qədərə iman — ibadət etmək sayılır. İbadət — bu şeylərdə təcəssüm olunur. Və hər hansı bir müsəlmanın, yuxarıdakılardan hər hansı birini, Allaha həsr etməyəcəyini təsəvvür etmək mümkün deyil. Və heç kəs dua və vasitəçiliyin ibadət olduğunu söyləməmişdir və Peyğəmbər ﷺ də bu barədə, bizə məlumat verməmişdir".*[1]

Və demişdir ki: *"Vasitəçilik və duaya gəlincə, müsəlmanlardan heç biri, bunu ibadət hesab etmir. Bu əməl — nə dildə, nə şəriətdə, nə də insanların adətlərində ibadət hesab olunmur".*[2]

Ən maraqlısı odur ki, bu qəbirpərəst, özünü Hənəfi məzhəbinin mənsubu hesab edir, yəni onların çoxu elə hesab edirlər. Hənəfi imamı İbn Əbil-İzzin, hənəfi məzhəbinin ən məşhur ideoloji kitablarından biri olan "Əqidə ət-Təhaviyyə"nın, şirki izah edən şərhində, nə dediyinə qulaq asın:

*"Şirk — salehlərin, Allah yanında şəfaətçi olduğuna inanmaq, onları Allahla öz aralarında vasitəçi etmək və bu inanc əsasında onlara ibadət etməkdir. Ərəblərin cahiliyyət dövründəki şirklərinin əsası budur".*[3]

İbn Circisin sözlərinə əsaslansaq, bu böyük imam, Allahın düşməni, vəhhabi olub, hansı ki, öz bidətini daha da yaymaq istəyir və müsəlmanları küfrdə ittiham etməyə çalışırdı.

Həmçinin, görünür ki, bu qəbirpərəst "öz" məzhəbinin kitablarını düzgün oxumayıb. Bu, ona görədir ki, Hənəfi alimləri, açıq şəkildə belə deyirlər:

---

[1] "Sulh əl-İxvan" səh. 144.
[2] "Sulh əl-İxvan" səh. 142.
[3] "Şərh 'Əqidə ət-Təhaviyyə" səh. 20-21.

*"Allahdan başqa, heç kimin edə bilmədiyi bir iş üçün, Allahdan başqasına dua etmək — şirkin bütün təzahürlərinin anasıdır. Bu ona görədir ki, bu müraciətdə şirkin bir neçə növü var və onlardan ən aşkarı 3-dür:*

> *1) müraciət edənin, müraciət etdiyi şəxsin, gizli-qeybdə olanları bildiyinə əmin olması (yəni, ona müraciət edildiyini, problemin mahiyyətini və onu necə həll edəcəyini bilir);*
>
> *2) müraciət edənin, müraciət etdiyi şəxsin, onun dualarını və müraciətlərini eşitdiyinə əmin olması;*
>
> *3) bu saleh insanın, pisliyi aradan qaldırmağa və yaxşılığı yaxınlaşdırmağa qadir olduğuna inam.*

*Yoxsa bütün bu inanclar olmasaydı, ağzını açıb dua ilə bu saleh insanlara üz tutmazdı".*[1]

Məhz ona görə ki, bütün müsəlmanlar hər zaman bilirdilər ki, Allahdan başqasına dua etmək olmaz və bu şirkdir, hicrətin yeddinci (7) əsrinə qədər heç kim Allahdan başqasına dua etməyin icazəli olduğunu yazmayıb. Buna görə də, Peyğəmbərə ﷺ dua etmək icazəsi haqqında, bəhs edən ilk kitablardan birinin müəllifi, İbn Numan əl-Maliki əl-Məğribi (hicri 683) "Misbah uz-Zalyam" kitabını niyə yazmaq qərarına gəldiyini, belə etiraf etdi: *"İslamın bir çox imamları, artıq Allaha dua etməyin vacibliyi haqqında yazıblar, ona görə də, mən Allah Rəsulundan kömək istəmək üçün, ona dua etmək haqqında bir kitab yazmaq qərarına gəldim".*[2]

İbn Circisin sözlərinə görə, hicrətin yeddinci əsrdən əvvəl yaşamış, bütün imamlar da vəhhabidirlər, Allah düşmənidirlər!

---

[1] Bu və buna bənzər sözlərə, aşağıdakı Hənəfi kitablarında rast gəlmək olar: "Şərh Təhaviyyə" İbn Əbil-'İzz səh. 535–536; "Ruh əl-məani" 6/128; "Siyanat əl-insan" səh. 212; "Təqiyat əl-İman" səh. 31; "Risalət ət-Tövhid" səh. 65–67; "Cəla əl-Ayneyn" səh. 502; "əl-Qauaqib əd-Durriyyə" səh. 58-59 və s.
[2] Bax "Kəşf əz-Zunun" 2/1706–1707

Əziz oxuyucumuz, bilin ki, Quran ayələri, bu məsələnin mahiyyətini, o qədər aydın və başa düşülən şəkildə açıqlayır ki, duanın ibadət olduğunu sübut etmək üçün bu ayələrdən bir neçəsini göstərmək kifayətdir.

Allah buyurur: **“Şübhəsiz ki, məscidlər Allahındır. Allahdan başqa, heç kəsə dua etməyin! Allahın qulu, qalxıb Allaha dua etdikdə, (cinlər) az qala onun dövrəsində bir-birinə keçib, çəpər yaradırdılar. De: “Mən, yalnız öz Rəbbimə dua edirəm və kimisə Ona şərik qoşmuram!”** (Quran 72:18-20)

Bu ayədə, dəlil vardır ki, əgər insan, Allahın rəbbliyini tanıyarsa, ibadətini yalnız Ona həsr etməlidir. Həmçinin onda dəlil vardır ki, Allaha şərik qoşmaq — insanın Allahla yanaşı, başqasına da ibadət etməsindən ibarətdir, insanın Allahla yanaşı bir kəsi də Rəbb hesab etməsindən ibarət deyil. Bu ayə, həmçinin ondan bəhs edir ki, Allaha şərik qoşmaq — insanın, yalnız Rəbbinə dua etməməsindən ibarətdir.

**“Allahı qoyub, sənə nə bir fayda, nə də bir zərər verə bilməyən şeylərə yalvarma. Əgər belə etsən, sözsüz ki, zalımlardan olarsan. Əgər Allah sənə bir zərər toxundursa, bunu Ondan başqa heç kəs aradan qaldıra bilməz. Əgər sənə bir xeyir diləsə, heç kəs Onun lütfünün qarşısını ala bilməz. O, bunu Öz qullarından istədiyinə nəsib edər. O, Bağışlayandır, Rəhmlidir”** (Quran 10:106-107).

Bu ayədə dəlil vardır ki, əgər insanların ən yaxşısı olan Peyğəmbər ﷺ Allahdan qeyrisini çağırmaqla, ibadətdə Allaha şərik qoşsaydı, zalımlardan olardı.

**“O, Allahı tərk edərək, özünə nə zərər, nə də xeyir verə bilməyənə yalvarır. Dərin azğınlıq da elə budur. Həm də zərəri xeyrindən daha yaxın olana yalvarır. O, nə pis köməkçi, nə pis yoldaşdır! Allah, iman gətirib, yaxşı işlər görənləri (ağacları) altından çaylar axan, Cənnət bağlarına daxil edəcək. Şübhəsiz ki, Allah istədiyini edər”** (Quran 22:12-14).

Bu ayədə, dəlil vardır ki, Allahdan başqasına dua etmək — dərin bir azğınlıqdır. Həmçinin: **"...iman gətirib..."** kəlməsi, ancaq Allahın kömək edə biləcəyi bir işdə, Allahdan başqasına dua etməyin — küfr və iman gətirməyənlərin əməli olduğunu bildirir.

**"Allahı qoyub, Qiyamət gününədək, özünə cavab verə bilməyən, əşyalara yalvaran kimsədən, daha çox azmış kim ola bilər? Halbuki (o bütlər) onların yalvarışından xəbərsizdirlər. İnsanlar, bir yerə toplanılacaqları zaman, (bütlər) onlara düşmən kəsiləcək və onların ibadətini inkar edəcəklər"** (Quran 46:5-6).

Bu ayələrdən çıxan nəticə budur ki, müşriklərin yalvarıb, dua etdiyi kəslər, özlərinə xitab olunduğunu belə bilmirlər. Həmçinin, onlardan gələn nəticə budur ki, bu salehlərə müraciət etmək - Allahla yanaşı başqasına ibadətdir. Buna görə, Allah: **"...yalvaran kimsədən"** buyurdu, sonra dedi: **"...ibadətini inkar edəcəklər"** və yalvarmağı ibadət adlandırdı.

**"Odur ki, Allahla yanaşı, başqa bir tanrıya ibadət etmə, yoxsa əzaba düçar edilənlərdən olarsan"** (Quran 26:213).

Bu ayədən, biz başa düşürük ki, Allahdan qeyrisinə dua etmək, əzaba səbəb olur, həmçinin insanlar, məhz bu əməlisaleh insanlara dua etməklə onları **"Allahdan başqa ilahlara"** çevirirlər.

**"Sən, (bu) Kitabın sənə nazil olacağına ümid etmirdin. (Bu), ancaq Rəbbindən bir mərhəmətdir. Odur ki, heç vaxt kafirlərə arxa olma! Allahın ayələri, sənə nazil edildikdən sonra, (muğayat ol ki), onlar səni bu ayələrdən döndərməsinlər. Sən, Rəbbinə dəvət et və müşriklərdən olma! Allahla yanaşı, başqa bir məbuda yalvarma! Ondan başqa (ibadətə layiq olan), heç bir məbud yoxdur. Onun Üzündən başqa, hər şey məhv olacaqdır. Hökm Onundur və siz Ona qaytarılacaqsınız"** (Quran 28:86-88).

Bu ayə, duanın ibadət olduğuna dair, ən açıq dəlillərdən biridir. Axı Allah, burda buyurmuşdur ki: **"Allahla yanaşı, başqa bir məbuda yalvarma! Ondan başqa (ibadətə layiq olan) heç bir məbud yoxdur."**

Həmçinin Allah buyurur: **“De: “Allahdan başqa yalvardıqlarınıza ibadət etmək, mənə qadağan edilmişdir”. De: “Mən, sizin nəfsinizin istəklərinə uymaram. Əks halda, mən (haqq yoldan) azar və doğru yola yönəlmişlərdən olmaram”** (Quran 6:56).

Bu ayə, göstərir ki, onların məbudları, onlara dualarla xitab olunmağa başladıqdan sonra, ilahlara çevrilmişdirlər.

**“Rəbbiniz dedi: “Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər, Cəhənnəmə zəlil olaraq girəcəklər”** (Quran 40:60).

Bu ayə də, həmçinin duanın ibadət olduğuna dair, ən açıq dəlillərdən biridir. Belə bir fikir yaranır ki, bu İbn Circis heç vaxt Quran oxumayıb.

**“Əgər sən onlardan: “Göyləri və yeri kim yaratmışdır?”– deyə soruşsan, onlar mütləq: “Allah!”– deyəcəklər. De: “Bir deyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allahdan başqa ibadət etdikləriniz, Onun zərərini aradan qaldıra bilərlərmi? Ya da O, mənə bir mərhəmət göstərmək istəsə, onlar Onun mərhəmətinin qarşısını ala bilərlərmi?” De: “Mənə Allah yetər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edirlər!”** (Quran 39:38).

Bu ayədə deyilir ki, əgər insan göyləri və yeri yalnız Allahın yaratdığını təsdiq edərsə, yalnız Ona dua etməlidir. Allahdan başqasına dua edən isə, Allahı kifayət saymayan kəslərdəndir və onun şirki də bundan ibarətdir.

**“Onlar, heç bir şey yaratmayan, özləri xəlq edilmiş olan şeyləri (Allaha) şərik qoşurlar? (Bütlər), nə onlara yardım edə bilər, nə də özlərinə kömək edə bilərlər. Siz, onları doğru yola çağırsanız, sizin ardınızca gəlməzlər. Onları çağırsanız da, sussanız da sizin üçün fərqi yoxdur. Allahdan savayı çağırdıqlarınız da, sizin kimi qullardırlar. Əgər doğru deyirsinizsə, çağırın onları, sizə cavab versinlər. Məgər onların ayaqlarımı var, onunla yerisinlər? Yoxsa onların əllərimi var, onunla tutsunlar? Yoxsa onların gözlərimi var, onunla görsünlər? Yoxsa onların qulaqlarımı var, onunla eşitsinlər? De: “Çağırın şəriklərinizi! Sonra mənə qarşı hiylə qurun və mənə heç möhlət də verməyin! Həqiqətən, mənim himayədarım, Kitabı nazil**

**edən Allahdır. O, əməlisalehlərə himayəçilik edir. Ondan savayı çağırdıqlarınız nə sizə yardım edə bilər, nə də özlərinə köməkçi ola bilərlər”** (Quran 7:191-197).

Fikir verin ki, Uca Allah bu insanların şirkini, məhz onların bu yalançı bütlərə müraciət etmələri ilə əlaqələndirir. Uca Allah burada, onların o bütlərə namaz və ya oruc həsr etdiklərinə görə, müşrik olduqlarını qeyd etmir. Bu, onu göstərir ki, dua ilə müraciət etmək — ibadət adlandırılmağa daha layiqdir, amma nədənsə İbn Circis bununla razılaşmır.

**“Sizi, quruda və dənizdə hərəkət etdirən Odur. Siz, gəmilərdə olduğunuz, (gəmilər də) içindəkiləri xoş bir küləklə, apardığı və onlar buna sevindikləri zaman, birdən fırtına qopar və dalğalar hər yandan onların üstünə gələrlər. Dalğaların, onları bürüyəcəyini yəqin etdikdə isə, Allaha — dini məhz Ona aid edərək yalvarıb, deyərlər: “Əgər bizi bundan xilas etsən, əlbəttə, şükür edənlərdən olarıq”. (Allah) onları xilas etdikdə isə, dərhal haqsız olaraq, yer üzündə azğınlıq edərlər. Ey insanlar! Azğınlığınız, yalnız sizin öz əleyhinizədir. (Bunlar), dünya həyatının keçici zövqləridir. Sonra isə, dönüşünüz Bizə olacaq, Biz də nə etdikləriniz barədə sizə xəbər verəcəyik”** (Quran 10:22-23).

Bu ayədə deyilir ki, hər kim Allahla yanaşı, başqa bir kəsə dua edərsə, o adam, imanını şirkdən təmizləmiş olanlardan sayılmır.

**“İnsana, bir zərər toxunduqda, Rəbbinə üz tutub, təkcə Ona yalvarır. Sonra Allah, Özündən insana bir nemət verəndə o adam, əvvəlcə kimə yalvardığını unudur və (insanları) Allahın yolundan çıxartmaq məqsədilə, Ona şəriklər qoşur. De: “Küfrünlə (bu dünyada) bir az dolan. Şübhəsiz ki, sən Cəhənnəm sakinlərindənsən!”** (Quran 39:8)

Baxın görün, necə Uca Allah, Tək Ona ibadət etməməyi, Ona şərik qoşmaq adlandırıb, baxmayaraq ki, bu insan öz məbudunu, Allahla bərabər heç bir cəhətdən tutmamışdır belə. Bundan sonra, Uca Allah qeyd edir ki, bu şəxs Cəhənnəm əhlindən olacaq.

**“Zəkəriyyanı da (yada sal!) Bir zaman o yalvarıb, demişdi: “Ey Rəbbim! Məni tənha buraxma. Sən varislərin ən yaxşısısan!” Biz, onun duasını qəbul etdik, ona Yəhyanı bəxş etdik və zövcəsini ona (uşaq doğmağa) qadir etdik. Həqiqətən, onlar yaxşı işlər görməyə tələsər, ümid və qorxu ilə, Bizə yalvarardılar. Onlar Bizə müti (qullar) idilər”** (Quran 21:89-90).

Burada, Uca Allah, Zəkəriyya peyğəmbəri, dualarında Allaha yönəldiyinə görə tərifləyir.

**“Ayələrimizə, ancaq o kəslər iman gətirirlər ki, ayələrimiz onlara xatırlanarkən təkəbbür göstərmədən, səcdəyə qapanır, Rəbbinə həmd-səna ilə tariflər deyirlər. Onlar (gecə namazını qılmaq üçün) böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən (Allah yolunda) xərcləyirlər. Etdikləri əməllərin mükafatı kimi, onlar üçün, gözlərinə sevinc gətirəcək, nələr saxlandığını heç kəs bilmir. Məgər möminlə, fasiq eynidirmi? Onlar eyni ola bilməzlər!”** (Quran 32:15-18)

Bu ayədə, səmimi qəlbdən duasını, yalnız Allaha yönəldən şəxsin, mömin olduğuna və fasiqlərlə bərabər olmadığına dəlil vardır.

**“Onlar, gəmiyə mindikləri zaman, dini yalnız Allaha məxsus edərək, Ona yalvarırlar. (Allah) onları xilas edib, quruya çıxaran kimi, yenə də (Ona) şərik qoşurlar”** (Quran 29:65).

Diqqət yetirin, Uca Allah necə buyurdu: **“...dini yalnız Allaha məxsus edərək, Ona yalvarırlar”** və sonra belə buyurdu: **“onları xilas edib, quruya çıxaran kimi, yenə də (Ona) şərik qoşurlar”**, yəni tək Allaha yalvardıqdan sonra, Allahdan başqasına yalvarmağa başlayırlar.

Əgər kimsə, bu ayələrdəki “dua” və “yalvarmaq” kəlmələrinin — səcdə, rüku, qurban kəsmək, namaz və sair kimi şeylərin, ümumi ibadət mənasında olduğunu deyərsə və bu ayələrdə qadağan olunan, yalnız məhz bu cür ibadətin olduğunu deyərsə, amma dua və yalvarmaq isə qadağan deyil deyərsə, onda o adam, aşağıdakı ayələrə necə cavab verəcək:

**“Qullarım, səndən Mənim barəmdə soruşsalar, Mən (onlara) yaxınam, Mənə yalvaranın dua-sını, yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da, Mənim çağırışımı qəbul edib, Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər”** (Quran 2:186).

**“İnsana bəla üz verdikdə, uzananda da, oturanda da, ayaq üstə olanda da, Bizi çağırar. Bu bəlanı ondan sovuşdurduqda isə, sanki ona üz vermiş bəladan ötrü, Bizi çağırmamış kimi çıxıb, gedər. Həddi aşanlara, etdikləri əməllər, beləcə gözəl göstərildi”** (Quran 10:12).

**“Qoca vaxtımda, mənə İsmaili və İshaqı bəxş edən Allaha həmd olsun! Həqiqətən, Rəbbim duaları eşidəndir”** (Quran 14:39).

**“Bir zaman o, öz atasına və tayfasına: “Nəyə ibadət edirsiniz?”— demişdi. Onlar dedilər: “Biz bütlərə ibadət edir və onlara tapınmaqda davam edirik”. O dedi: “Onlara yalvardığınız zaman sizi eşidirlərmi? Yaxud sizə xeyir və ya zərər verirlərmi?” Onlar dedilər: “Xeyr, amma biz, öz atalarımızın belə etdiklərini gördük”** (Quran 26:70-74).

**“Bu, sizin Rəbbiniz olan Allahdır. Mülk Onundur. Sizin Ondan başqa yalvardıqlarınız, xurma çəyirdəyinin pərdəsinə belə sahib deyillər. Əgər siz, onları çağırsanız, onlar sizin duanızı eşitməzlər, eşitsələr də cavab verə bilməzlər. Özləri də, Qiyamət günü, sizin (onlara) ibadət etdiyinizi danacaqlar. Heç kəs, (hər şeydən) Xəbərdar olan (Allah) kimi, sənə xəbər verə bilməz”** (Quran 35:13-14).

Buna görə də, Şeyx Əbdürrəhman ibn Həsən demişdir: *"Və əksər hallarda "dua" sözü — Quranda, sünnədə, ərəb dilində və səhabələrin ifadələrində və onlardan sonra gələn alimlər arasında "istəklə, diləklə edilən şifahi müraciət" mənasında işlənir"*.[1]

Bu, İbn Circisin dediklərinə gəlincə: "*Və heç kim, heç vaxt dua və vasitəçiliyin, ibadət olduğunu söyləməmişdir və Peyğəmbər ﷺ də, bu barədə bizə məlumat verməmişdir"* onun cavabı aşağıdakı hədis olacaqdır:

Numan ibn Bəşir, Peyğəmbərin ﷺ belə dediyini rəvayət edir: ***"Dua — ibadətdir"***.[2]

Kuburi sufiləri, belə asanlıqla və sadə şəkildə, bəyan edirlər ki, "heç vaxt, heç kim söyləməmişdir" və "Peyğəmbər də bu barədə bizə məlumat verməmişdir", "müsəlmanların heç biri, bunu ibadət hesab etmir", "nə dildə, nə şəriətdə, nə də insanların adətlərində belə deyil" və sair, özündən sonra heç bir dəlil və sübut olmayan, şişirdilmiş ifadələr. Bu, bir daha təsdiq edir ki, sufilər ən yalançı insanlardır və onlar üçün, Allaha qarşı, Kitabına qarşı, Peyğəmbərinə ﷺ qarşı və öz mənafeyi tələb etdiyi təqdirdə müsəlmanlara qarşı yalan uydurmaq heç də çətin deyil.

Buna görə də, Hənəfi imamı Şükri əl-Əlusi (hicri 1342) demişdir: "*Və heç bir şübhə yoxdur ki, hətta xəvariclər və rafizilər də, nadanlıq və Allaha, Onun Rəsuluna ﷺ və müsəlmanlara qarşı yalan söyləməkdə, qəbirpərəstlərin çatdığı dərəcəyə çatmamışlar*".[3]

Bu bölümü, Hənəfi məzhəbinin imamlarından olan, İmam əl-Xucəndinin (hicri 1379) kəlamı ilə bitirmək lazımdır və onun kəlamından, gözəl nə ola bilər: *"Hər kim, Allahın kitabının "ibadət" və "dua" məfhumları arasındakı əlaqədən bəhs edən, ayələri üzərində düşünsə və həmçinin ibadət zamanı, insanın əhval-ruhiyyəsi üzərində düşünsə, şübhəsiz ki, duanın — ən canlı, həqiqi ibadət olduğunu, özü üçün kəşf edər. Dua — insanın fitri xüsusiyyətidir, hansı ki, onunla insan ürəyinin dərinliklərindən, öz rəbbinə yalvarır, xüsusilə həyatın çətin vəziyyətlərində. Digər ibadət*

[1] "Fəth əl-Məcid" səh. 286.
[2] Hədis səhihdir; Əbu Davud 2/161; Tirmizi 5/211; Nəsai əl-Kubrada 6/450; İbn Macə 2/1258; Əhməd 4/267 və başqaları.
[3] "Qayət əl-Əmani" 1/215.

*növlərinə gəldikdə isə, onların hamısı və ya çoxu, icrası əmr olunduğu üçün, insanlar tərəfindən yerinə yetirilirlər. İnsan, bu ibadət növlərini, güclə yerinə yetirir və çox vaxt xüsusi hisslər keçirmir. Məgər görmürsənmi ki, namazdan sonra, Allahı zikr edən kəs, çox vaxt sadəcə dilini tərpədir, ürəyi isə kənar fikirlərlə məşğul olur?! Amma ən canlı, təbii və həqiqi ibadət — qəlbin ən uzaq dərinliklərindən və nəfsin gizli yerlərindən dilə gələn, duada özünü göstərir — və bu, ixlas libasına bürünmüş pak duadır. Ona görə də, biz deyirik ki, dua ibadətdir, onun beyni və əsasıdır”.* [1]

[1] “Miftəh əl-Cənnə” səh. 69–70.

# FƏSİL 17

# QƏBİRPƏRƏSTLƏRİN İNANCLARI VƏ ƏMƏLLƏRİ — PEYĞƏMBƏR ﷺ DÖVRÜNÜN MÜŞRİKLƏRİNİN İNANC VƏ ƏMƏLLƏRİ İLƏ EYNİDİR

Qardaşımız bil ki, indiki qəbirpərəstlərin (hansı ki, əksəriyyəti sufi və rafizilərdən ibarətdir) inanc və əməlləri, Peyğəmbər ﷺ dövrünün müşriklərinin, inanc və əməlləri ilə tamamilə eynidir. Buna əmin olmaq üçün, bu fəsli bir neçə bölümə bölmək lazımdır ki, onların hər biri, bu fəsildə ayrıca, mühüm məsələni izah edəcək.

## BÖLÜM 1. SUFİ QƏBİRPƏRƏSTLƏRİ «ŞİRK», «TÖVHİD» VƏ «İBADƏT» TERMİNLƏRİNİ NECƏ BAŞA DÜŞÜRLƏR

Sufi qəbirpərəstləri "şirk", "tövhid" və "ibadət" terminlərini, özlərinin xüsusi başa düşmələri ilə, müsəlmanların əksəriyyətindən çox fərqlənirlər.

Bu sual, bu kitabın ən vacib suallarından biridir və dərin anlayış tələb edir. Onun əhəmiyyəti nədir? Bu kitabın ilk fəsillərində, tövhidə dəvətin və onun mahiyyətinin, insanlara təfərrüatlı şəkildə izah edilməsinin, böyük əhəmiyyətindən və zəruriliyindən danışdıq və eyni şeyi şirk haqqında da dedik. Bununla biz öyrəndik ki:

1) Allahu Təalə, insanları və cinləri yalnız tövhidi həyata keçirə bilmələri üçün yaratmışdır.

2) İnsan tövhid etiqadında olmayana qədər, Allahu Təalə ondan yaxşı əməlləri qəbul etməz.

3) Məhz insanların tövhidə etiqad edib, şirkdən uzaqlaşması üçün, Uca Allah Quranı nazil etmiş və bütün elçiləri göndərmişdir.

4) Tövhid, insanların çağırılmalı olduqları və mahiyyətinin onlara izah etməli olduqları ilk və son şeydir.

5) Uca Allah şirkdən başqa insanın bütün günahlarını bağışlayır, yalnız ölmədən əvvəl tövbə edən insana şirk bağışlanar.

6) Şirk ən böyük günah, ən böyük haqsızlıq və ən dərin azğınlıqdır.

7) Şirk etmək, insanın əbədi olaraq cəhənnəm odunda qalmasına və heç vaxt oradan çıxmamasına səbəb olur.

8) Əgər insan, şirkə aid olan hər hansısa bir şeyi etsə, onun ömrü boyu etdiyi bütün yaxşılıqlar puç olar.

Bütün bunlardan, belə nəticəyə gəlirik ki, insanın bu həyatda ən mühüm vəzifəsi — tövhidin nə olduğunu və şirkin nə olduğunu və bu sözlərlə nəyin nəzərdə tutulduğunu düzgün dərk etməkdir. Bunu anlamaq insan üçün, Uca Yaradanın onu nə üçün yaratdığını insan tərəfindən həyata keçirib-keçirməməsi və bununla əbədi, daimi Od əzabından xilas olub-olmaması bu anlayışdan asılıdır. Bunun səbəbi odur ki, əgər insan, tövhidin mahiyyətini səhv başa düşsə, o adam, tövhid əhli ola bilməz.

Eləcə də, əgər insan, şirkin mahiyyətini səhv başa düşsə, o zaman tövhid əhlinin camaatından çıxmaqdan və müşriklərin sayını artırmaqdan özünü qoruya bilməz, bununla da dünya və axirət həyatını itirməkdən amanda olmaz.

Məsələ burasındadır ki, müsəlmanların əksəriyyəti "tövhid" və "şirk" terminlərini, kuburi sufilərinin bu terminləri başa düşdüyündən, tamamilə fərqli şəkildə başa düşürlər. Sufilərə gəlincə, onlar şiddətlə iddia edirlər ki, məhz onların bu məfhumları dərk etməsi düzgün və doğrudur.

Bu ixtilafı aradan qaldırmaq üçün, sufilərin və sünnə tərəfdarlarının ixtilaf etmədiyi və onun doğruluğunda həmfikir olduğu ortaq platforma müəyyən etmək lazımdır.

Bu ortaq platforma, ondan ibarətdir ki, həm sufilər, həm də sünnə tərəfdarları yekdil fikirdədilər ki, Peyğəmbər ﷺ dövründə, onun tövhidə dəvət etdiyi, müşrik adlandırdığı, vuruşduğu müşriklər — müşrikdirlər və tövhid əhli olmayıblar. Başqa sözlə desək, əgər müşriklərin kimlər olduğunu, onların inanc və əməllərinin nə olduğunu bilmək istəyiriksə, o zaman Peyğəmbərin ﷺ zamanında yaşamış, Allah və Rəsulunun onları müşrik hesab edib, müşrik adlandırdıqları insanların ideologiyasını və əməllərini öyrənmək kifayətdir.

Biz təsdiq edirik ki, indiki sufilərin bir çoxunun, inanc və əməlləri Peyğəmbər ﷺ dövrünün müşriklərinin inanc və əməlləri ilə tamamilə eynidir.

Gəlin görək, sufilərin inancı nədir.

## 1. Onların "tövhid" termininin tərifi

Sufilərin anlayışında **"tövhid"** — "*Hər şeyin Yaradıcısı və idarə edən Hökümdarı — yalnız Allah olduğuna inamdır*".[1]

[1] Bax, Əhməd əl-Qumarinin "İhya əl-məkbur" səh. 29.

Bu tərifə əsasən, mövcud olan hər şeyi, yalnız Allahın yaratdığına və onlara yalnız Onun nəzarət etdiyinə və Ondan başqa heç kimin yaratmağa və idarə etməyə qadir olmadığına əmin olan hər kəs, tövhid əhlidir. Başqa sözlə desək, bir insandan: *"Mövcud olan hər şeyi, kim yaradıb və hər şeyi kim idarə edir?"* – deyə soruşsaq, bu şəxs bizə: "*Bütün bunları, yalnız Allah yaratmışdır və hər şeyi yalnız O idarə edir"* deyə cavab verirsə, bu insan tövhid əhlidir və bu adam, Uca Allah onu nə üçün yaradıbsa onu həyata keçirir.

Buna görə də, kuburi sufilərinin, rəhbərlərindən biri olan, əl-Quzai, eləcə də İbn Mərzuk demişdir: "*Lə iləhə illəllah" şəhadətinin mənası – Allahdan başqa "Rəbb" (yəni yaradan və hökmdar) yoxdur." Və bu anlayış, bütün müsəlmanların qəlbində saxlanılır"*.[1]

Burada, iki fərqli anlayışı ayırd etmək lazımdır:

1. Uca Allahın Rəbbliyi, hansı ki, göyləri, yeri və onların arasında olan hər şeyi, yalnız Allahın yaratmasından ibarətdir. Bizi və bizdən əvvəlkiləri yalnız O yaradıb. Varlıq üzərində qüdrət və nəzarət yalnız Onun əlindədir. Günəşi və ayı bizə tabe edən Odur. O, məxluqatın həyatı üçün, buludları yerindən tərpədər və yağış yağdırar. Yalnız O, dirildir və öldürür, məxluqatını qidalandırır və onları həyatda saxlayır. Yuxarıda deyilənlərin hamısı və daha çoxu, Uca Allahın Rəbbliyinin göstəricisidir və Onun "ər-Rəbb" (Rəbb) adının göstəricisidir. Bu İsmə əsaslanaraq, alimlər tövhiddə (rububiyyə) tövhidini fərqləndirirlər. Başqa sözlə desək, əgər bir şəxs yalnız Allahın yaratdığını, hökm verdiyini, yağış yağdırdığını və sair təsdiq edərsə və Allahdan başqa heç kimin, səltənətə qadir olmadığını təsdiq edərsə, bu şəxs Allahın rəbbliyi mövzusunda tövhid əhlidir.

2. Uca Allahın İlahiliyi. Hökm xislətlərinin yalnız Allaha məxsus olduğunu, ehtiyacımız olan hər şeyi bizə yalnız Onun verdiyini, sahib olduğumuz hər şeyi bizdən almağa qadir olduğunu əsas götürərək, bizim qəlblərimiz Allahı ilahiləşdirir və əzələlərimizlə birgə Allaha ibadət etməyə başlayırlar. İnsanın qəlbi, yalnız Allahı sevməyə başlayır, yalnız Ondan qorxmağa, yalnız Ona ümid və təvəkkül etməyə başlayır, tövbə edərək yalnız Allaha qayıtmağa başlayır və sair. Yalnız Allahın

[1] "Əl-Bərəxin" əl-Quzai səh. 375 və "Təvəssül bi-n-nəbiy" İbn Mərzuk səh 20.

ilahiləşdirilməyə layiq olduğunu və ibadətlərin yalnız Ona həsr olunduğunu qəlbi və əzələləri ilə təsdiq edən şəxs, Allahın ilahiliyi mövzusunda tövhid əhlidir. Bu ikinci anlayış “əl-İlah” (İlah) adından gəlir. Alimlər “əl-İləh” adına əsaslanaraq, ilahiləşdirmə və ibadətdə (*uluhiyyə*) tövhidini vurğulayırlar.

Bu bölgüyə əsasən, aydın olur ki:

1) Allahu Təalənın rəbbliyi, Onun bizə qarşı əməlləridir.

2) Allahu Təalənın ilahiliyi, bizim Ona münasibətdə əməllərimizdirlər.

Əgər hörmətli oxuyucu yuxarıdakıları yaxşı başa düşübsə, onda biz bir daha kuburi sufilərinin “tövhid” anlayışına qayıda bilərik.

Beləliklə, onların “tövhid” anlayışı: “*Hər şeyin yaradıcısı və hakiminin — yalnız Allah olduğuna inanmaq*.”

Onların tərifinə əsasən, aşağıdakı nəticəyə gəlirik ki:

Allahı —rəbblikdə təkləşdirən, hər şeyi yalnız Onun yaratdığını və hər şeyə nəzarət etdiyini dərk edən şəxs, hətta qəlbi ilə Allahın ilahiliyinin tək olmasını tanımasa və ibadətini yalnız Ona həsr etməsə belə, tövhid əhlidir.

Biz isə deyirik ki, insan həm Allahın hökmranlığını, həm də Onun ilahlığının tək olmasını tanımadıqca, ibadətini yalnız Allaha həsr etmədikcə — İslama daxil olmaz və tövhid əhli olmaz. Başqa sözlə, biz qəbul edirik ki, insan Allahı rəbblikdə təkləşdirməsə, tövhid əhli ola bilməz, lakin eyni zamanda Allahı rəbblikdə təkləşdirsə də belə, Allahı ilahlıqda və ibadətdə təkləşdirmədikcə (tək Onu ilah saymadıqca və yalnız Ona ibadət etmədikcə) tövhid əhli sayılmaz.

Dəyərli oxuyucunun da gördüyü kimi, sufilər arasında tövhid dairəsi, sünnə tərəfdarları ilə müqayisədə daha genişdir. Sufilərin tərifinə əsaslansaq, yer üzündəki insanların demək olar ki, hamısı tövhid əhlidir, istisnalar isə ancaq kafir-ateistlərdir.

Əgər oxuyucu desə ki: “*Bu daha yaxşıdır axı, qoy müşrik olmaqdansa, hamı tövhid əhli olsun. İnsanlara pislik arzulamaq nəyə lazımdır*?!”, — onda biz cavab verəcəyik ki: təbii ki, biz insanlara yaxşılıq arzulayırıq və onların müşrik olmasını istəmirik, lakin bütün məsələ budur ki, tövhid əhli - Allahın tövhid əhli adlandırdığı şəxslərdirlər, sufilərin dedikləri şəxslər deyillər və Allahın müşrik adlandırdığı şəxs isə müşrikdir, hətta özünü tövhid əhli hesab etsə də belə. Bunu bir sadə misalla başa düşmək olar. Təsəvvür edək ki, bir şirkətdə yüz (100) nəfər işləyir. Onların hər biri, bu şirkətdə öz yerini tutur — kimisi direktor, kimisi isə daha aşağı vəzifədədir. İşçilərinə yazığı gələn direktor — hamıya "direktor, müdir" adı verir. Hər şey yaxşıdır, amma maaşların verilməsi vaxtı gələndə isə, hər kəs öz peşəsinə görə maaş alır, “direktor” adı isə ancaq kağız üzərində qaldı.

İndi məlum olur ki, insanların hamısı belə olmasalar belə, hamını tövhid əhlinə aid edən sufilər - insanlara yaxşılıq arzulayan deyillər. İnsanlar üçün xeyirli olanı isə, insanların əməldə tövhid əhli olmasını, bununla da əbədi Cəhənnəmdən xilas olmasını və tövhidin məskəni olan Cənnət əhlinə çevrilməsini istəyən sünnə əhli arzulayır.

Beləliklə, belə bir nəticəyə gəldik ki, sufilərin inancı ondan ibarətdir ki, “*İnsanın İslama daxil olması və cəhənnəmdən xilas olması üçün, Allahı rəbblikdə təkləşdirməyi kifayətdir”*.[1]

## 2. Sufilər arasında “şirk” termininin tərifi

Sufilərin anlayışında **“şirk”** belədir: “*Allahdan başqa, Allaha möhtac olmadan, həyatı idarə edən və hadisələrə təkbaşına təsir edən, bir Rəbbin olduğuna inanmaq.”* Sufilər arasında “şirk”in daha ətraflı tərifi:

“*Şirk — insanın hər hansısa bir kəsi, Allaha şərik (ortaq) qoşmasından ibarətdir. O insan hesab edir ki, kimsə Allah ilə bərabər yarada bilir, idarə edir, öldürür və dirildir. Şirk — Allahdan başqasının, Allahdan asılı olmadan, özlüyündə xeyir və zərər verə biləcəyinə inanmaqdır. İnsan hesab*

[1] “əl-Bərəxin” əl-Quzai səh. 377 və “Təvəssül bi nnəbiy” İbn Mərzuk səh. 21 və s.

*etdikdə ki, Allah icazə verməsə də belə, insanın Allaha şərik qoşuduğu kimsə, insanın istəklərini həyata keçirməyə qadirdir, o zaman bu şirkdir*".[1]

Bu tərifə əsaslanaraq, görürük ki, sufilər arasında müşrik - yalnız Allaha hər cəhətdən bərabər olan və ya ilahlığının hər hansı bir xüsusiyyətində, Allaha bərabər olan birinin olduğuna inanan kimsədir. Sufilərin "Allaha şərik qoşmaq" termini haqqında, başa düşdükləri də budur.

Sünnə tərəfdarları isə, deyirlər ki, şübhəsiz ki, bu şirkdir, buna heç bir şübhə yoxdur, lakin şirk bununla məhdudlaşmır.

Deməli, oxuyucu görür ki, sünnə tərəfdarlarının fikrincə, sufilər tövhid hüdudlarını həddən artıq genişləndirmiş və şirk anlayışını çox daraltmışlar.

Bunun nəticəsi budur ki, sufi Quranı oxuyarkən, bu terminləri özünəməxsus şəkildə başa düşür, Allah isə bu anlayışlara tamamilə fərqli mənalar qoyub.

Sünnə ardıcıllarının "şirk" anlayışı haqqında başa düşdükləri şeylər, Allahın izni ilə kitabda daha sonra açıqlanacaq, burada isə oxuyucudan yalnız sufi qəbirpərəstlərinin anlayışını anlayıb, yadda saxlamaq tələb olunur.

[1] Bax "Kəşf əl-İrtiyab" əl-Amili səh. 105–106; "Kəşf un-Niqab" ən-Nəqəvi səh. 44-50; "əl-Həkaiq əl-İslamiyyə" ibn Davud səh. 44 və s.

## 3. Sufilər arasında "ibadət" termininin tərifi

Sufilərin anlayışında "**ibadət**" belədir: "*İlahlıqda tək olan, fayda və zərər vermək qabiliyyətində tək hesab edilən, heç kimə möhtac olmadan və heç kimin ona qadağan edə bilmədiyi şəkildə öz istəklərini həyata keçirə bilən varlıq qarşısında, insanın ən yüksək dərəcədə mütilik göstərməsi*".

Sufilər, bu tərifə əsaslanaraq, deyirlər: "*İbadət ayinlərini yerinə yetirmək və onları kiməsə həsr etmək, o şeyə ibadət etmək sayılmır, ancaq ibadət edilən varlığın — tək ilah olduğuna inandığı halda ibadət saya bilər*".[1]

Bu ümumiləşdirilmiş təriflər, sufilərin kitablarında konkret misallarla açıqlanır: "*Əgər insan kiməsə səcdə edirsə, ancaq o zaman kafir olar ki, əgər səcdə etdiyi şəxsi öz Rəbbi hesab edərsə*".[2]

Onlar dua, qurban, nəzir və sair haqqında da eyni şeyi deyirlər. Bütün yuxarıda deyilənlərə əsaslanaraq, sufilər ölü salehlərə ibadətlərini ibadət kimi hesab etmirlər. Onlar hesab edirlər ki, bu saleh insanlar, təbiət hadisələrini idarə edir, onlara müraciət edənləri eşidir və görürlər, fayda və zərəri aradan qaldırırlar, qeyb elminə malikdirlər, diriltməyə və öldürməyə qadirdirlər və sair, lakin eyni zamanda bütün bunları şirk adlandırmırlar, çünki onlar iddia edirlər ki, bu saleh insanlar bütün bu xüsusiyyətlərə özü özlüyündə malik deyillər, onlara bu xüsusiyyəti Allahu Təalə bəxş etmişdir. Onlar öz ilahlıqlarında tək deyillər və Allaha möhtacdırlar. Ona görə də, onlara ibadət etmək, məhz Allaha ibadət etməkdir.[3]

---

[1] Bax, əl-Şifa əs-Sikəm, əl-Subuqi səh. 175; "Kəşf ən-Niqab" ən-Nəqəvi səh. 44–51; "Məfahim" Məlikiy s. 103-105 və s.

[2] "Əl-Bərəxin" əl-Quzai səh. 377 və "Təvəssul bi-n-nəbiy" İbn Mərzuk səh. 21 və s.

[3] Bax, əl-Bərəxin səh. 392.

# BÖLÜM 2. PEYĞƏMBƏR ﷺ ZAMANINDA, ŞİRK NƏDƏN İBARƏT İDİ?

Sonuncu bölümdə, qeyd etdik ki, həm sünnə əhli, həm də sufilər yekdildirlər ki, Uca Allah Öz Rəsulunu ﷺ, müşrik insanlara göndərmişdir. Peyğəmbər ﷺ qureyşlilərin[1] arasında yaşayırdı və ilk müraciət etdiyi insanlar qureyşlilər idilər.

Allah Rəsulu ﷺ bu insanları tövhidə dəvət etmiş, inanc və əməllərinin şirk olduğunu onlara izah etmiş və onları müşrik adlandırmışdır.

Bu platformaya əsaslanaraq, bu insanların inanc və əməllərinin mahiyyətinin nədən ibarət olduğuna baxmaqdan başqa çarəmiz yoxdur. Onların inanc və əməllərini öyrəndikdən sonra, şirkin nə olduğunu və onun sərhədlərinin nə olduğunu anlayacağıq.

## 1. Qüreyşlilər, Allahın varlığını və Onun ilahlığını qəbul edirdilər

Ondan başlamaq lazımdır ki, Qureyşlilər, Allahın varlığına inanırdılar və ateist deyildilər. Üstəlik, onlar təkcə Onun varlığına inanmırdılar, həm də Onun ilah olduğuna  inanırdılar. Bunun bir çox dəlili var. Biz onlardan yalnız bir neçəsini göstərməklə kifayətlənəcəyik.

Uca Allah buyurur: **"Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?"– deyə soruşsan, onlar hökmən: "Allah!"– deyəcəklər. De: "Həmd olsun Allaha!" Lakin onların çoxu (bunu) bilmir"** (Quran 31:25).

[1] "Qüreyşlilər" ərəblərin ən hörmətli qəbilələrindən birinin adıdır. Muhəmməd peyğəmbər ﷺ Qureyşlilərdən idi və dəvətini onlara yönəldərək başladı, çünki qureyşlilər şirk dinində idilər. Daha sonra mətnlərdə, peyğəmbər ﷺ dövrünün müşriklərini — qureyşlilər adlandıracağıq.

Bu ayədə açıq-aydın deyilir ki, Peyğəmbərin ﷺ tövhidə dəvət etdiyi insanlar, Allahın varlığına, göyləri və yeri yaradanın Allah olduğuna əmin idilər. Bu ayəni başqa cür anlamaq mümkün deyil.

Həmçinin, Uca Allah buyurur: **«De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs (belə olduğu halda) (Allahdan) qorxmursunuzmu?"»** (Quran 10:31)

Bu ayədə, açıq aydın dəlil vardır ki, Qureyşlilər, özlərini Allahın yedizdirdiyinə və hər şeyə Onun nəzarət etdiyinə əmin idilər.

Allah buyurur: **«De: "Əgər bilirsinizsə, (deyin görüm) yer və onun üstündə olanlar kimindir?" Onlar: "Allahındır!"– deyəcəklər. De: "Bəs düşünüb, ibrət almayacaqsınız?" De: "Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?" Onlar: "Allahdır!"– deyəcəklər. De: "Bəs qorxmursunuzmu?" De: "Əgər bilirsinizsə, (deyin görüm) hər şeyin hökmü əlində olan, himayə edən, Özünün isə himayəyə ehtiyacı olmayan kimdir?" Onlar: "Allahdır!"– deyəcəklər. De: "Bəs necə olur ki, aldanırsınız?"»** (Quran 23:84-89)

Bu ayə şərh tələb etmir.

Buna görə də, Hənəfi imamlarından biri, əs-Səhsavani (hicri 1326) demişdir: "*Bil ki, Allah, elçiləri və Kitabları məxluqlarına göndərməmişdir ki, Özünün yaradıcı və onlara ruzi verən olduğunu bildirsin. Çünki hər bir müşrik, bunu hələ elçilər onlara gəlməmişdən əvvəl təsdiq etmişdir*".[1]

Hətta bir çox ateistlər də, bu kainatın bir Yaradıcısının olduğunu ürəklərinin dərinliklərində etiraf edirlər, lakin dilləri ilə yaradıcının varlığını inkar edirlər. Firon və Nəmrud, qəlblərində Allahın var olduğunu və hər şeyin bir Rəbbi olduğunu başa düşürdülər. Uca Allah, onlar haqqında buyurur: **"Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər"** (Quran 27:14).

[1] "əs-Siyanat əl-İnsan" səh. 164.

## 2. Qüreyşlilər, Allaha ibadət edirdilər

Beləliklə, biz belə nəticəyə gəldik ki:

1) Dünyada Allahın varlığını, qəlbi ilə inkar edən heç kim yoxdur, çünki Yaradanın varlığını qəbul etmək insanların fitri xüsusiyyətidir. Yeganə istisna, yalnız hər şeyin təbiət tərəfindən yaradıldığını söyləyən, bəzi materialist ateistlərdir.

2) Dünyada elə bir kəs yoxdur ki, kimisə hər cəhətdən Allaha bərabər tutsun və desin ki, kimsə tamamilə Allah kimidir.

3) Hər bir müşrik qəbul edir ki, Allah bu dünyanın Rəbbidir, ona sahibdir və ona nəzarət edir.

İndi biz daha da irəli gedərək, Peyğəmbər ﷺ dövrünün müşrikləri arasında olan, başqa bir hadisəni nəzərdən keçirəcəyik.

Qüreyşlilər təkcə Allahın varlığını və Onun ilahlığını qəbul etmirdilər, onlar həm də Ona ibadət edirdilər. Onlar İbrahim peyğəmbərin dininin qalıqlarına etiqad edərək yaşayırdılar, ona görə də onlar Allahın evini[1] həcc edirdilər, Məscidülhəramı abadlaşdırırdılar və zəvvarlara yaxşılıq edirdilər. Onlar dua ilə Allaha üz tutur, Onu zikr edir, döyüşlərdə Ondan kömək istəyirdilər. Onlar Allaha nəzir edir, Ona səcdə edir, qüsl və dəstəmaz alır, Allaha qurbanlar gətirirdilər. Onlarda zəkata oxşar bir şey var idi. Onlar qonağa və müsafirə hörmət göstərirdilər. Onlar qohumluq əlaqələri saxlayır, kasıblara sədəqə paylayırdılar. Onlar qohumlarla evlənməyi qadağan sayırdılar. Onlar qisasa görə, diyə görə (öldürülənlərin fidyəsi) və oğurluğa görə cəzaları tətbiq edirdilər. Hətta sünnət də edirdilər. Onlar indiki bir çox müsəlman xalqlarından daha dindar idilər.

Yuxarıda göstərilənlərin hamısı üçün, dəlillər məlumdur və çoxdur. Ona görə də, biz onlardan yalnız bir neçəsini göstərməklə kifayətlənəcəyik:

---

[1] Qəbirlərə həcc etməyə çağıran, müsəlman "rəhbərlərimizdən" fərqli olaraq.

1. Allah buyurur: **“Doğrudanmı siz hacılara su verməyi və Məscidulharamı abadlaşdırmağı Allaha və Axirət gününə iman gətirib, Allah yolunda cihad edənlərlə eyni tutursunuz? (Bilin ki,) onlar Allahın yanında bərabər sayılmırlar. Allah zalım milləti doğru yola yönəltməz”** (Quran 9:19).

Bu ayədə dəlil vardır ki, müşrik Qüreyşlilər, zəvvarlara yaxşılıq etmiş və Məscidülhəramı abadlaşdırmışlar.

2. Əbu Hüreyrə demişdir: *“Əbu Bəkr əs-Siddiq məni bir qrup ilə göndərdi ki, Qurban bayramı günü, insanlar arasında elan edim ki: “Bu ildən sonra, heç bir müşrik həcc etməməlidir”*.[1]

Bu hədisdə dəlil vardır ki, Qureyşlilər, həcc ziyarəti edirdilər.

3. Ömər ibn Xəttab dedi: *“Ey Allahın Rəsulu ﷺ! Bir dəfə cahiliyyədə olarkən, mən nəzir etdim ki, Haram Məsciddə etikaf edəcəm (Məsciddən ayrılmadan orda bir müddət qalmaq)”*. Allah Rəsulu ﷺ ona dedi: **“Nəzirini yerinə yetir”**.[2]

Bu hədisdə, müşriklərin Allaha nəzir etdiklərinə və onları pozmaqdan və ya yerinə yetirməməkdən qorxduqlarına işarə vardır. Və həmçinin, məscidlərdə Allah rizası üçün onların etikaf etmələrinə işarə vardır.

Müşriklərin, Allaha ibadət etməsinin lehinə, başqa bir dəlil, İbrahim peyğəmbərin öz qövmünə dediyi sözlərdir: **«Bir zaman, İbrahim öz atasına və qövmünə demişdi: “Mən sizin ibadət etdiklərinizdən uzağam. Yalnız məni yaradandan başqa! Şübhəsiz ki, O məni doğru yola yönəldəcəkdir”»** (Quran 43:26-27).

Bu ayədə, açıq-aydın dəlil vardır ki, İbrahim qövmü, Allaha ibadət edirdi, lakin Onunla birlikdə başqa tanrılara da ibadət edirdilər. Buna görə də, Allahu Təalə istisna olmaqla, İbrahim onların ibadət etdiklərinin hamısından imtina etdi. Əgər onlar, Allaha ibadət etməsəydilər, belə deməyin mənası olmazdı: **“Yalnız məni yaradandan başqa”**.

---

[1] Hədis səhihdir; Muslim 1347.

[2] Hədis səhihdir; Muslim 1656.

Buna görə də, bu ayəni izah edərək: **“Mən sizin ibadət etdiklərinizdən uzağam. Yalnız məni yaradandan başqa”**, Qatadə demişdir: *“Bu ona görədir ki, onlar deyirdilər: “Allah bizim Rəbbimizdir”,* necə ki, Allah bu haqda belə buyurmuşdur: **“Əgər onlardan, özlərini kimin yaratdığını soruşsan, əlbəttə: “Allah!”– deyərlər”** (Quran 43:87). *Bunu dərk edərək, İbrahim bir istisna etdi və Allahdan uzaq durmadı”*.[1]

Bu ayəni şərh edərək: **“Onların çoxu ancaq şərik qoşaraq, Allaha iman gətirir”** (Quran 12:106), Mücahid ibn Cəbr demişdir: *“Onların, Allaha imanları ondan ibarətdir ki, onlar deyirlər: “Allah bizi yaradıb, yedizdirir və öldürür”. Bu, onların Allaha imanlarıdır, lakin şərik qoşmaları, Onunla yanaşı başqa tanrılara da ibadət etmələridir”*.[2]

Bu ayənin eyni şərhi, İbn Abbas[3] və Atanın[4] sözlərindən də nəql olunur.

Həmçinin Uca Allah buyurur: **“İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini (Ona) tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər”** (Quran 2:165).

Bu ayədə işarə vardır ki, müşriklər Allahı sevirlər, lakin Onunla birlikdə öz məbudlarını da sevirlər. Kimisə Allaha bərabər tutmaq da bundan ibarətdir. Bunun mənası, hər cəhətdən Allaha bərabər olan bir məbudun varlığını kiminsə iddia etməsi deyil, müşriklərin Onun ilahlığını dərk edərək, Allahla birlikdə başqa tanrılara ibadət etmələridir.

Allahu Təalə qiyamət günü, müşriklərin sözlərini xəbər verərək buyurdu: **“Allaha and olsun ki, biz açıq-aydın azğınlıq içində idik – o vaxt ki, biz sizi aləmlərin Rəbbinə tay tuturduq”** (Quran 26:97-98).

---

[1] Xəbər səhihdir; İbn Cərir 43-cü surənin 26-cı ayəsinin təfsirində.
[2] Xəbər səhihdir; İbn Əbi Hatim və İbn Cərir 12-ci surənin 106-cı ayəsinin təfsirində.
[3] Xəbərin isnadı etibarlıdır; İbn Əbi Hatim bu ayənin təfsirində.
[4] Xəbərin isnadı etibarlıdır; İbn Cərir; Səid ibn Mənsur 5/411.

Bu məsələni izah edən, çoxlu sayda oxşar dəlillər var və onların ətraflı nəzərdən keçirilməsi, ayrıca bir əsərin yazılmasını tələb edir.[1]

Buna görə də, bizə hənəfi məzhəbinin daha bir imamı olan — İmam Əli əl-Qarinin (1014) sözlərini misal gətirərək, bölümü tamamlamaqdan başqa bir şey qalmır: “Ən böyük məqsəd — Allahdan başqa hər kəsdən, ilahiliyi inkar etdikdən sonra, Onun ilahiliyini təsdiq etməkdir”.

Daha sonra o demişdir: “Ağıl sahibləri arasında, Allahu Təalənın İlah olması barədə ixtilaf yoxdur, amma kafir olan insan isə, Allah ilə yanaşı başqasının ilahlığını təsdiq edəndir”.[2]

## 3. Qüreyşlilərin şirki, nədən ibarət idi?

Ətrafımızdakı müsəlman xalqların, etnik nümayəndələrindən olan, insanlara nəzər salsaq görərik ki, onların bəziləri Allahın varlığına şübhə ilə yanaşırlar, çoxları mövcud olan hər şeyi, kimin yaratdığını və hamısına kimin sahib olduğunu və nəzarət etdiyinin — sualına dəqiq cavab verə bilmirlər. Bu insanların çoxu, Allaha heç bir zahiri ibadətlə ibadət etmirlər. Və eyni zamanda, özlərini müsəlman adlandırırlar. Baxın, Qüreyş müşrikləri, Allahın varlığına, Onun ilahlığına necə əmin idilər və Ona çox ibadət edirdilər, lakin eyni zamanda, Uca Allah onları müşrik adlandırıb və onlara əbədi Cəhənnəm vəd edib. Onların şirki nədən ibarət idi?

Məsələ bundadır ki, "müsəlman tövhid əhli" olmaq üçün, ancaq Allaha ibadət etmək kifayət deyil. İslama girmək üçün, ancaq Allaha ibadət etmək deyil, Ondan başqasına ibadət etmədən, yalnız Allaha ibadət etmək lazımdır.

---

[1] Ola bilsin ki, Allahu Təalə, Qureyşlilərin yuxarıdakı ibadət növlərinin hamısına dair dəlilləri, ayrıca bir əsərdə toplamağı asanlaşdırsın. Hələ ki, bu dəlillərə, Hənəfi imamlarının aşağıdakı kitablarında rast gəlmək olar: “Xüccətu Lləhi əl-Bəliqə” 1/124–127; “Fəuz əl-Kəbir” 14-15; “Buluğ əl-Ərəb” 2/286–300; “Fəth əl-Mənnan” səh. 643 və s. 2 “ət-Təcrid” 29, 32.

[2] “Ət- Təcrid” 29,32

Ona görə, Uca Allah buyurur: **“Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və icra etdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!”** (Quran 18:110).

Diqqət edin, Uca Allah ancaq saleh əməllərə təşviq etməklə kifayətlənməyib, eyni zamanda Özü ilə bərabər kiməsə ibadəti tərk etməyi şərtləndirib.

Hənəfi imamı İbn Əbil-İzz demişdir: *“Əgər insan, Allahın ilahlıqda təkliyini təsdiq edərsə, (bunu da filosofların bir çoxu təsdiq edirlər və bir çox sufilər bu növ tövhidi son əsas məqsədə çevirərək bu barədə danışırlar), lakin eyni zamanda, tək Allaha ibadət etməyəcəksə və Allahla yanaşı başqa kiməsə ibadət etməkdən çəkinməyəcəksə, o zaman bu adam müşrik olacaqdır”*.[1]

Qüreyşlilərə gəlincə, onların şirkləri, dünyasını dəyişmiş, saleh insanlara, mələklərə və Allah yanında məqamı olan, digər varlıqlara ibadət etmələrindən ibarət idi. Uca Allah, onların əqidəsini açıqlayarkən belə buyurur: **“Onlar Allahı qoyub, özlərinə nə bir zərər, nə də bir fayda verə bilənlərə ibadət edir və: “Onlar, Allahın dərgahında bizim şəfaətçilərimizdir!”– deyirlər”** (Quran 10:18). Və həmçinin: **“Doğrusu, əsl din ancaq Allaha məxsusdur. Allahı qoyub, başqalarını özlərinə dost tutanlar: “Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik”– (deyirlər.) Əlbəttə ki, Allah ziddiyyətə düşdükləri şeylər barəsində, onların arasında Öz hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah yalançı və kafirləri doğru yola yönəltməz”** (Quran 39:3).

Bu ayələrdən göründüyü kimi, qüreyşlilərin son əsas məqsədi, Allahın razılığını qazanmaq və Ona yaxınlaşmaq idi. Onlar, bu ibadət obyektlərinin, Allah yanında onlar üçün şəfaətçi olduğuna inandıqları üçün, onlara ibadət edirdilər.

---

[1] “Şərh Tahaviyya” səh. 83.

İbn Abbas, qüreyşlilərin məbudları haqqında danışarkən, əl-Lat məbudunun adını qeyd etdi və dedi: "əl-Lat, zəvvarlar üçün savik[1] hazırlayan bir adam idi və kim bu savikdən yesəydi, mütləq kökələrdi. Sonra insanlar ona ibadət etməyə başladılar".[2]

Mücahid ibn Cəbr demişdir: "əl-Lat, savik hazırlayan bir adam idi, o vəfat etdikdən sonra, insanlar onun qəbri başına toplaşıb, orada vaxt keçirməyə başladılar".[3]

Mücahidin sözləri, insanların bu saleh insana necə ibadət etməyə başladığını izah edir. Bu, məhz onun məzarı başında, görüşlər və onun yanında vaxt keçirməklə başladı.

Müxtəlif təfsirlərdə deyilir ki, bu adam vəfat etdikdən sonra, onun qəbri başına toplaşmağa başladılar və bir müddət sonra, bu aşağıdakı sözləri deyərək, ona ibadət etməyə başladılar: **"Onlar Allah yanında bizim şəfaətçilərimizdir",** və həmçinin: **"Biz onlara, ancaq bizi Allaha yaxınlaşdırsınlar deyə ibadət edirik".**

İbn Cərir, qüreyşlilərin "əl-Uzza" məbudu haqqında danışarkən, demişdir: *"Onların bu ilahı, bir ağac idi, onun üzərində tikili tikib, üstünə örtü çəkdilər. O, Nəxlə şəhərində — Məkkə ilə Taif arasında yerləşirdi. Qureyşlilər bu ağacı ucaldırdılar, ona görə də, Uhud döyüşü günü, Əbu Süfyan dedi: "Bizim Uzzamız var, sizin isə Uzzanız yoxdur." Allah Rəsulu ﷺ belə buyurdu:* ***«De: "Allah bizim himayədarımızdır, sizin isə himayəçiniz yoxdur"».***[4]

Bu ağacın ucaldılması, ondan ibarət idi ki, onlar bu ağacın bərəkətini almaq ümidi ilə, onun üzərinə parça və digər əşyalar asırdılar. Eyni şeyi, bu gün də, ziyarətgahlarda və digər "müqəddəs yerlər" adlanan yerlərdə, ağaclarla edirlər. **Allah, Ona şərik qoşulanlardan daha böyükdür.**

---

[1] Yağdan və xurmadan hazırlanan, bir yeməyin adı, amma əgər ona arpa əlavə etsəniz, xays alınar.

[2] Yaxşı isnadlı rəvayətdir; Bu barədə, Fəth əl-Bari hədisində, 4859-da, İbn Əbi Hatim təfsirinin, hal-hazırda itirilmiş hissəsində deyilmişdir.

[3] Xəbər etibarlıdır; İbn əl-Münzir və Əbd ibn Humeyd, "Nəcm" surəsinin 19-cu ayəsi təfsirində "Durr əl-Mənsur"da deyildiyi kimi.

[4] Hədis səhihdir; Buxari 3039, Bəra ibn 'Azib sözlərindən.

Əbu Saleh demişdir: "*Onlar, bu ağacdan, dəri və yun parçaları asırdılar*".[1]

Eyni zamanda, qüreyşlilər də, kuburi sufiləri kimi, öz məbudlarının Allaha möhtac olmadan, özbaşına xeyir və ya zərər gətirə biləcəklərinə inanmırdılar. Əksinə, onlar inanırdılar ki, Uca Yaradan, bu saleh insanlara olan məhəbbətinə görə, onlara müəyyən hadisələri idarə etmək qabiliyyəti və bacarığı bəxş etmişdir.

Əgər sufi təriqətlərinin nümayəndələri, buna şübhə edirlərsə, qoy Hənəfi imamlarının kitablarını, xüsusən də onların təfsirlərini oxusunlar.[2]

İbrahimin atası və xalqı ilə söhbətindən danışaraq, Uca Allah buyurur: **"Bir zaman o, öz atasına və tayfasına: "Nəyə ibadət edirsiniz?"– demişdi. Onlar dedilər: "Biz bütlərə ibadət edir və onlara tapınmaqda davam edirik". O dedi: "Onlara yalvardığınız zaman, sizi eşidirlərmi?Yaxud sizə xeyir və ya zərər verirlərmi?" Onlar dedilər: "Xeyr, amma biz öz atalarımızın belə etdiklərini gördük"** (Quran 26:70-74).

Bu ayədə, açıq-aydın dəlil vardır ki, müşriklər ibadət etdiklərinin, Allaha möhtac olmadan özlərinə fayda və zərər verə biləcəklərinə inanmırdılar.

Lakin, bununla belə, onlar inanırdılar ki, vasitəçilərlə Allaha yaxınlaşmaq, Allahın razı olduğu dindir. Buna görə də, Peyğəmbərlə ﷺ döyüşməzdən əvvəl, Allahdan onlara döyüşdə kömək etməsini istəyirdilər. Onlar, Peyğəmbərin ﷺ, Allahın razı olmadığı yeni bir dinlə gəldiyini hesab edirdilər. Peyğəmbər ﷺ isə, onları vasitəçi olmadan, Allaha ibadət etməyə çağırırdı. Uca Allah bu haqda buyurur: **"Onlar dedilər: "Yanımıza gəlmisən ki, atalarımızın ibadət etdiklərini**

---

[1] Xəbərin isnadı etibarlıdır; Əbd ibn Humeyd təfsirinin hal-hazırda itirilmiş hissəsində, Durrul-Mənsur 14/33-də deyildiyi kimi; Bu xəbərin əsası, İbn Cərirdə 22/48 dədir və bütün həmd yalnız Allaha məxsusdur!

[2] Bax əl-Kəşşaf 2/275–276; "əl-Mədərik" 2/64; "İrşad əl-əql" 4/217; "Ruh əl-məani" 2/82.

**buraxıb, tək Allaha ibadət edək? Əgər doğru danışanlardansansa, bizə vəd etdiyin əzabı gətir"** (Quran 7:70).

Necə ki, bu gün bizim torpaqlarımızda olan sufilər deyirlər ki, biz onlara yeni bir din gətirmişik və guya Allah ondan razı deyil, buna vəhhabilik, ekstremizm və sair deyirlər. Eyni zamanda, onlar Qureyşlilərlə eyni inanclara sahibdirlər, hesab edirlər ki, ziyarətgahlarda və ya başqa məzarlıqlarda olan saleh şəxslər, fayda və zərər gətirməkdə müstəqil deyillər, həmçinin hesab edirlər ki, bu əməlisaleh insanlara hörmət edərək, Allaha yaxınlaşmaq Allahın razı olduğu dindir. Buna görə də, onlar kitablarında "vəhhabilər"lə mübarizədə, Allahdan kömək diləyirlər və indi başqa bir "sələfi" termini əlavə edərək, onlara xoş olmayan hər kəsi, ona aid edirlər. Onlar həmçinin öz inanclarının arxasında, var qüvvələri ilə dayanırlar və haqlı olduqlarını dəstəkləmək üçün, yalnız aşağıdakı sözləri sitat gətirirlər: *"Amma biz atalarımızın belə etdiyini görmüşük".* Qüreyşlilərə gəlincə, onlar İbrahim peyğəmbərin dininin dəyişdirilmiş qalıqlarını, bizim sufilərimiz isə atalarından və əcdadlarından qəbul etdikləri, sufizm dinini qəbul edirlər.

Qüreyşlilərin məbudlarının, müstəqil olduğuna və Allaha möhtac olmadığına inanmadıqlarının ən açıq dəlillərindən biri də həcc zamanı, söylədikləri təlbiyyələridir. Onlar həcc ibadətini yerinə yetirdikdə, deyirdilər ki: *"Allahım, biz Sənin hüzurundayıq! Sənin heç bir şərikin yoxdur,"* Peyğəmbər ﷺ onlara dedi: "***Vay halınıza, davam etməyin, orada dayanın!"*** Onlar isə davam etdilər: *"Sənin sahib olduğun şərikdən başqa, ....".*[1]

Həcc zamanı, onların bu nidası, inanclarının mahiyyətini açıq şəkildə ortaya qoyur. Bu təlbiyyədə, bir neçə mühüm məqam var:

1) Qüreyşlilər bilirdilər ki, sözün əsl mənasında, Allahın şəriki yoxdur, yəni heç bir cəhətdən şəriki yoxdur.

2) Qüreyşlilər hesab edirdilər ki, hörmət etdikləri insanlar, müəyyən təbii hadisələrə sahibdirlər.

---

[1] Hədis səhihdir; Muslim 1185, İbn Abbasın sözlərindən

3) Qüreyşlilər əmin idilər ki, onların bu məbudları, bunu müstəqil şəkildə idarə etmirlər, lakin onlar bilirdilər ki, Allah bu işin tək sahibidir və O, Öz mərhəmətindən, onlara yalnız bəzi hadisələri idarə etməyi bəxş etmişdir.

4) Üstəlik, onlar hesab edirdilər ki, bütün bu şəriklərin hamısının sahibi Allahdır.

Ərəblər arasında "**sahibdir**" anlayışına gəlincə, bu anlayış, digər xalqlarda olduğu kimi, onlar arasında da: "*hər hansı bir şeyi tam istifadə etmək və onu idarə etmək hüququ*" deməkdir.[1]

Həmçinin burada, cahiliyyə dövrünün, qüreyş müşriklərindən olan, Aus ibn Həcərin[2] şeirinin bir bəndini nəql etmək yerinə düşərdi və o belə demişdir: "*And olsun əl-Lata və əl-Uzzaya və onların dinində olanların hamısına və Allaha and olsun, həqiqətən, Allah onlardan böyükdür*".[3]

Bütün bu dəlillər, Peyğəmbər ﷺ dövrünün, Qüreyş müşriklərinin inanclarının mahiyyətini açıq şəkildə ortaya qoyur. Oxuyucu bu dəlilləri təhlil etdikdən sonra gördü ki, Qüreyşlilərin və sufilərin inanc və əməlləri arasında heç bir fərq yoxdur.

Əgər oxuyucu hələ də buna şübhə edirsə, o zaman Peyğəmbər ﷺ dövrünün müşrikləri haqqında, Allahın bizə xəbər verən aşağıdakı kəlamlarını oxusun: **"(Dağların saldığı) kölgələr kimi dalğalar, onları çulğadığı zaman, onlar dini məhz Allaha məxsus edərək Ona yalvararlar"** (Quran 31:32).

Oxşar ayələr, Quranda dəfələrlə təkrarlanır. Bu ayələr göstərirlər ki, müşriklər ümidsiz bir vəziyyətdə, artıq vasitəçilərə deyil, birbaşa Allaha üz tuturdular, çünki vasitəçilərə müraciət edib, onlardan cavab gözləməyə vaxtlarının olmadığını başa düşürdülər.

---

[1] Bax "Ta'rifat" əl-Curcani" 1476, səh. 295.

[2] Bənu Təmim qəbiləsinin, cahiliyyə şairlərindən biri. Hicrətdən əvvəl 2-ci ildə vəfat etmişdir. (Bax: İbn Quteybin "Şi'r və şşu'ara", 84-87, həmçinin Zurkali, "əl-Ə'ləm" 2/31).

[3] Aus ibn Həcərin divanı, şeir 36.

Allahın: **“Məgər Allah, Öz qulunu qane etmirmi? Onlar isə, səni Ondan başqaları ilə qorxudurlar. Allahın, zəlalətə saldığı kimsəyə isə, (doğru) yol göstərən olmaz”** (Quran 39:36) və ya **“Biz, ancaq onu deyə bilərik ki, bəzi tanrılarımız, səni bəlaya düçar edib”** (Quran 11:54) kəlamına gəldikdə isə, onlar müşriklərin öz tanrılarının, zərər vermək bacarıqlarının, öz gücləri ilə olduğuna iman etmələrini bildirmirlər. Onlar ancaq inanırdılar ki, Uca Allah bu ölü, saleh insanlara, Allahın düşmənlərinə zərər vurmağa icazə verib, çünkü onlar inanırdılar ki, özləri Allahın dinindədirlər, Peyğəmbər ﷺ isə — Allahın düşmənidir və Allahın razı olduğu dini dəyişməyə gəlmişdir.

Eyni şeyi, bu gün qəbirpərəstlərdən də eşitmək olar, onlar tez-tez iddia edirlər ki, filan “**vəli**” onun hörmətini aşağı salan birinə zərər vermişdir. Onlara deyildikdə ki: *"Həqiqətən bu vəlinin, zərər verə biləcəyini demək istəyirsizmi?"* — onlar cavab verirlər: *"Xeyr, özü-özlüyündə zərər verə bilməz, lakin bu güc, Allahın ona bəxş etdiyi kəramətdir (möcüzə, şərəfdir)".*

Buna görə də, İmam İbn Əbil-İzz demişdir: *“Şirk, salehlərin Allah yanında şəfaətçi olduğuna inanmaq, onları Allahla öz aralarında vasitəçi etmək və bu inanc əsasında onlara ibadət etməkdir. Cahiliyyət dövründəki ərəblərin, şirklərinin əsası da budur”*.[1]

Qüreyşlilərin inanclarını, dinlərini və əməllərini aydınlaşdırdıqdan sonra, sufilərin bəzi şübhələrinə aydınlıq gətirməyə və onlara cavab verməyə davam edə bilərik.

# BÖLÜM 3. SUFİLƏRİN BƏZİ ŞÜBHƏLƏRİ VƏ ONLARA CAVABLAR

Müxtəlif sufi təriqətlərinin nümayəndələri, onların inanc və əməllərinin Qüreyş müşriklərinə bənzəməsi ilə razılaşmırlar. Mövqeylərini sübut etmək üçün, çoxlu dəlillər və hökmlər gətirirlər.

[1] “Şərh ‘Əqidə ət-Tahaviyya” səh. 20-21.

Allahın izni ilə, onların əsas dəlillərini burada təqdim edəcəyik və onlara cavab verəcəyik:

**1.** Uca Allah, Quranda daim, Öz hökmranlığından, əzəmətindən, yalnız Özünün her şeyi yaratdığından, idarə etdiyindən, yedirtməyindən və sair şeylərdən bəhs edir. Bütün bunlar, müşriklərin Allahın ilahlığını inkar etdiyi üçündür, ona görə də, Onun ilahlığını təsdiq edən şəxs, hənif olar və cəhənnəm əzabından xilas olar.

Cavab:

Bəli, həqiqətən Uca Allah, öz ilahlığından daim bəhs edir və bunu heç kim inkar etmir. Lakin bunun səbəbi, müşriklərin Onun ilahlığını inkar etmələri deyil, bunun səbəbləri aşağıdakılardır:

1) Uca Allah, müşriklərə xitab edərək, onları aydın bir nəticəyə çatdırmaq üçün, daim Öz ilahlığından bəhs edir: Əgər Mənim ilahlığımı qəbul edirsinizsə və ancaq Mənim sizi yaratdığımı, hər şeyi idarə etdiyimi, yedizdirdiyimi və bu işdə heç kəsin Mənə kömək etmədiyini qəbul edirsinizsə, bəs nə üçün eyni zamanda, Məndən başqasını ilahiləşdirib, bu tanrılara ibadət edirsiz?!

Bunu, Allahın kitabında, xüsusi ayələrə nəzər salmaqla başa düşmək olar:

**“Ey insanlar! Sizi və sizdən öncəkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə (Allahdan) qorxasınız. O, sizin üçün yer üzünü döşəmə, göyü isə tavan etdi. Göydən su endirib onunla sizin üçün (növbənöv) məhsullardan ruzi yetişdirdi. Siz də (bunu) bildiyiniz halda (heç kəsi) Allaha tay tutmayın”** (Quran 2:21-22).

İmam İbn Kəsir buyurur: *“Bu ayənin mənası budur ki, Allah yaradan, ruzi verən, məxluqatın və bu məxluqatda yaşayanların Rəbbidir. Əgər belədirsə - o zaman deməli Allah, yalnız Ona ibadət etməyinizə və bu işdə Ona şərik qoşmamağınıza layiqdir”*.[1]

[1] “Təfsir İbn Kəsir” 1/99.

Bundan sonra, İmam İbn Kəsir davam etdi: **"Ona görə də, bilə-bilə heç kəsi Allaha bərabər tutmayın"** – *yəni nə fayda, nə də zərər verməyən heç kəsi, Allaha şərik qoşmayın, çünki bilirsiz ki, sizə ruzi verən başqa Rəbbiniz yoxdur*.[1]

Uca Allah bu və buna bənzər ayələrlə, müşrikləri öz axmaqlıqları və haqsızlıqları üzərində düşünməyə çağırır: Onlar hər şeyi, yalnız Allaha borcludurlar, lakin buna baxmayaraq, tək Ona ibadət etmirlər.

Hənəfi İmam əl-Əlusi (hicri 1342) demişdir: *"Düşünün, Allahu Təalə yalnız Özünün ilahiləşdirməyə və ibadətə layiq olduğuna dair, necə dəlil gətirir. Müşriklərə, Allahın ilahlığını və bunda Onun təkliyini, qüdrət, yaradılış, idarə və təsir etməkdə müstəqilliyini qəbul etdiklərini xatırladaraq – Onları ilahiləşdirmə və ibadətdə də Onun təkliyini qəbul etməyə məcbur edir. Və görəcəksən ki, bu əməl, Quranın adətidir: O, bu inkaredilməz və aşkar dəlili daim təkrarlayır"*.[2]

2) Uca Allahın, daim öz ilahlığından bəhs etməsinin ikinci səbəbi, bununla müsəlman möminlərin imanının artmasıdır. Bu ayələr, Allaha ümidi, qorxunu, Allaha sevgini, yalnız Ona təvəkkül etməyi və sair gücləndirir. Çünkü adətən Rəbbini daha yaxşı tanıyan, Ona daha yaxşı, daha səmimi və daha çox ibadət edər.

3) Müşriklərin, Allahın ilahlığına dair imanı və elmi ümumi idi, amma onlar Allahın ilahlığına dair bəzi xüsusi, əqidə məsələlərini bilmirdilər. Həmçinin bir çox müsəlmanlar da, bu mövzunun bəzi incə məsələlərini bilmir və xəbərsizdirlər. Buna əsaslanaraq, Allahu Təalə Öz kitabında, insanlara bu haqda məlumat verir. Lakin bu xüsuslardan xəbərsiz olmaq, Allahın ilahlığına dair ümumi inancın etibarlılığına heç bir zərər vurmaz və onu pozmaz.

**2.** Allahın varlığına və Onun ilahlığına, Qüreyşlilərin inanmadıqlarına, kuburi-sufilərinin sübut kimi gətirdiyi, növbəti dəlili, aşağıdakı ayələrdir:

---

[1] Əvvəlki mənbə.

[2] Fəth əl-Mənnan 447–448, 452.

**“Allahı necə inkar edirsiniz ki, siz ölü idiniz, O sizi diriltdi. Sonra O sizi öldürəcək və yenə dirildəcək, daha sonra isə, siz Ona qaytarılacaqsınız”** (Quran 2:28).

**“Beləliklə, Biz səni özündən əvvəl neçə-neçə ümmətlər gəlib-getmiş bir ümmətə göndərdik ki, onlar ər-Rəhmanı inkar etdikləri halda, sənə vəhy etdiyimizi onlara oxuyasan”** (Quran 13:30).

**«De: “Doğrudanmı siz yeri iki gündə yaradanı inkar edirsiz”»** (Quran 41:9).

**Onların nəticələri:** Bu ayələr, açıq-aşkar göstərirlər ki, Qüreyşlilər, Allahın varlığına inanmırdılar, Onun yeri iki gündə yaratdığına inanmırdılar, yəni Onun ilahlığına inanmırdılar.

Cavab:

Bu ayələr də, əvvəlki ayələr kimi açıqlanır. Bu ayələrin mənası ilə bağlı, hənəfilərin sözləri bunlardır: *“Allaha küfr dedikdə, Ona şərik qoşmaları nəzərdə tutulur”*[1], buna görə də **“Allahı necə inkar edirsiniz”** mənası, yəni *“Onunla birlikdə, başqasına necə ibadət edə bilərsiniz?!”*[2]

Ona görə də, ayələrin mətnini, sona qədər oxumaq lazımdır. **«De: “Doğrudanmı siz, yeri iki gündə yaradanı inkar edir və (bütləri) Ona tay tutursunuz?”»** Ayənin sonundan: **“Və (bütləri) Ona tay tutursunuz”** başa düşülür ki, Allahı inkar etmək dedikdə, Onun varlığını inkar etmək nəzərdə tutulmur. Lakin belə bir sual qalır: “Və (bütləri) Ona tay tutursunuz” — Rəbblikdə yoxsa İlahlıqda? Sufilər, iddia edirlər ki, Rəbblikdə, biz isə İlahlıqda olduğunu deyirik. Uca Allah, bu ayədən sonra, Rəbblik xüsusiyyətlərindən, bir neçəsini daha sadalayır və ondan sonra buyurur: **“Onlara, önlərindən və arxalarından: “Yalnız Allaha ibadət edin!”(deyə əmr edən) elçilər gəlmişdi”** (Quran 41:14). Buradan, belə başa düşülür ki, onlar başqalarını Allaha bərabər tutdular, onlara ibadət etdilər və Allahla birlikdə ilahiləşdirdilər, amma Allahla yanaşı heç kəsi Rəbb hesab etmədilər.

---

[1] Bax “Tənvir əl-Əzxan” 1/144; “Məcd əl-ulum” Səmərqəndi 1/306.

[2] “Cəvahir əl-Quran” 1/29.

Allahın **“onlar ər-Rəhmanı inkar etdikləri halda”** kəlamına gəlincə isə, həqiqətən, əgər onlar Allahın onların tövbələrini qəbul etmədiyinə inanırlarsa və onlara şəfaətçilərin və vasitəçilərin iştirakı olmadan rəhm etmədiyinə inanırlarsa, onlar Rəhman Allaha necə iman gətirə bilərlər?!

Ona görə də, *“Allahı inkar edir”* ifadəsi insanın, Allahın varlığını və ilahlığını inkar etməsi mənasına gəlmir. Məgər görmürsüzmü ki, Peyğəmbərin ﷺ əmisi Əbu Talib, qardaşı oğlu Muhəmmədin ﷺ peyğəmbər olduğunu, Allahın onunla göndərdiyi dinin isə, haqq olduğunu, qəlbində qəbul edirdi, lakin eyni zamanda, qövmünün məzəmmətindən qorxaraq, dili ilə İslam şəhadətini söyləməkdən imtina etdi. Ona görə də, onun haqqında belə deyilir: “O, Rəsulullaha iman gətirmədi”. Bu ifadə, o demək deyil ki, Əbu Talib, Peyğəmbərin ﷺ varlığına və peyğəmbərliyinə inanmayıb.

**3.** Allahın varlığına, hətta Onun ilahlığına müşriklərin inanmadıqlarını, Sufilərin əsas gətirdikləri daha bir dəlil də, Allahın bu kəlamlarıdır: **«Onlar dedilər: “(Həyat) ancaq bizim dünya həyatımızdır. (Kimimiz) ölür, (kimimiz də) doğulur. Bizi öldürən ancaq zamandır”»** (Quran 45:24).

**Sufilərin gəldiyi nəticə:** Qureyşlilər materialist idilər və Allahın varlığına inanmırdılar.

Cavab: Bu ayədə, Qureyşlilərin materialist olmasına işarə yoxdur. Bu ayədə, onların qiyamət gününə inanmadıqlarına və Uca Allahın onları dirildəcəyinə inanmadıqlarına işarə vardır. Hənəfi alimlərinə gəlincə isə, onlar bu şübhəyə daha bir cavab vermişlər. Bu cavab, ondan ibarətdir ki, ərəblər arasında, ateizmi və materializmi qəbul edən bir qrup ateist var idi. Ancaq bununla belə, onların ateizmi yalnız dillərində özünü göstərirdi, qəlblərinə gəlincə, onlar Allahın varlığını qəbul edirdilər.[1]

[1] Bax, Əhkam əl-Quran əl-Cəssas 3/478.

Buna dəlil, Allahın bu kəlamıdır: **“Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu!”** (Quran 27:14)

Yalnız onu əlavə etmək qalır ki, bu cavabların hər ikisi düzgündür və bir-biri ilə ziddiyyət təşkil etmir.

**4.** İnsanın ancaq, Allahın Rəbbliyini qəbul etməklə, müsəlman olmasını sübut etmək üçün, sufilər elə ayələri və hədisləri misal gətirirlər ki, orada “Rəbb” kəlməsi vardır.

Allah buyurur: **“Onlar ancaq “Rəbbimiz Allahdır”– dediklərinə görə, haqsız yerə yurdlarından çıxarıldılar”** (Quran 22:40).

Və həmçinin: «**De: “Allah hər şeyin Rəbbi olduğu halda, mən Ondan başqa tanrımı axtaracağam?”»** (Quran 6:164)

Və həmçinin: **«Həqiqətən də: “Rəbbimiz Allahdır!”– deyib, sonra düz yol tutan kəslərə, mələklər nazil olub (deyirlər:) “Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin!”»** (Quran 41:30).

**Sufilərin gəldiyi nəticə:** bu və buna bənzər ayələr, tövhidin - Allahın Rəbbliyini qəbul etməkdən ibarət olduğunu göstərir.

Ona görə də, Allahın tək Rəbb olduğunu qəbul edən şəxs, mələklərin nazil olduğu tövhid əhlidir.

Cavab:

Bu şübhəyə əsas cavab budur ki, müqəddəs mətnlərdə, bir neçə mənanı birləşdirən, çoxlu terminlər var.

Məsələn, müqəddəs mətnlərdə “iman” (iman) və “islam” (islam) terminlərinin hər birinin öz mənası var. Əgər “iman” və “islam” anlayışları eyni ayə, hədis və ya eyni məzmunda birləşirsə, “iman” sözü insanın daxili imanını, “islam” isə zahiri ibadəti ifadə edir. Amma ayədə bu iki anlayışdan yalnız biri keçərsə, ikincinin mənası birincinin mənasına daxil olur.

Başqa sözlə desək, əgər ayədə yalnız “iman” kəlməsi gəlirsə, o söz, sadəcə yalnız daxili iman mənasını deyil, daxili iman əsasında qurulan, zahiri ibadət mənasını da daşıyır.

Əgər yazılarda, yalnız “İslam” sözü gəlirsə, bu söz, ancaq zahiri ibadət mənasında deyil, daxili imandan gələn zahiri ibadət deməkdir.

Bu halda da eyni şeydir. İki fərqli termin "Rəbb" və "İlah", hər birinin öz mənası var.

Ona görə də, əgər Uca Allah deyirsə ki: **«De: “Sığınıram insanların Rəbbinə, insanların Hökmdarına, insanların məbuduna!”»** (Quran 114:1-3), onda “Rəbb” dedikdə, burda hər şeyi yaradan və hər şeyə nəzarət edən, nəzərdə tutulur. “Allah” dedikdə isə, ilahiləşdirilən və ibadət olunan nəzərdə tutulur.

Amma müqəddəs yazılarda yalnız “Rəbb” kəlməsi gəlirsə, o söz, həm rəbblik, həm də ilahiləşdirmə mənasını ehtiva edir.

Bu şübhənin izahını, İbn Əbil ‘İzza əl-Hənəfinin **“Şərh ‘Əqidə ət-Təhaviyyə”** əsərində tapmaq olar (s. 390-394).

Allahın: **“Onlar ancaq “Rəbbimiz Allahdır”– dediklərinə görə, haqsız yerə yurdlarından çıxarıldılar”** (Quran 22:40) kəlamına gəlincə, onların izahı daha sadədir.

Allah Rəsulu ﷺ və səhabələrinin sadəcə: **“Rəbbimiz Allahdır”** dedikləri üçün, haqsız yerə yurdlarından qovulmalarına heç kəs şübhə etmir. Ancaq gəlin görək, Peyğəmbər ﷺ və onun səhabələri **“Rəbbimiz Allahdır”** ifadəsi ilə nə demək istəyirdilər. Bununla nəzərdə tutulurmu ki, müsəlmanlar, Allahın Rəbbliyini qəbul edirdilər, qureyşlilər isə qəbul etmədiklərinə görə, müsəlmanları qovub, hicrətə məcbur etdilər?

Yoxsa müsəlmanlar, Allahla yanaşı kiməsə ibadət etməkdən imtina edərək, onların Rəbbi yalnız Allahdır, dediklərinə görə və yalnız O ibadətə layiqdir dedikləri və qüreyşlilərin bununla razılaşmadıqları üçün qovuldularmı?

Bu sualın cavabı, qüreyşlilərlə Roma hökmdarı - Herakl arasında baş verən əhvalatda var. Herakl hələ müşrik ikən, Əbu Süfyandan soruşdu: *"Bu adam (yəni Muhəmməd peyğəmbər ﷺ) sizi nəyə çağırır?"* Əbu Süfyan, belə cavab verdi: «*O, bizə buyurur:* ***"Allaha şərik qoşmadan, yalnız Ona ibadət edin və atalarınızın sizə dediyini tərk edin"***».[1]

Əbu Süfyan, Peyğəmbərin ﷺ onlara: **"Lə iləhə illəllah"— deyin, o zaman uğur qazanarsınız!"** — dediyini bax bu cür başa düşmüşdür.[2]

Əbu Süfyanın, Peyğəmbərin ﷺ bu sözlərini necə başa düşdüyünə diqqət yetirin: **"Deyin: "Lə iləhə illəllah" – Əbu Süfyan dedi:** "O, bizə buyurur: **"Ona şərik qoşmadan, yalnız Allaha ibadət edin".**

Buna əsaslanaraq, məlum olur ki, Peyğəmbər ﷺ və onun səhabələri: **"Rəbbimiz Allahdır"** deyərkən, **"Biz ancaq Allaha ibadət edirik"** demək istəyirdilər və buna görə də, haqsız yerə öz yurdlarından qovulmuşlar.

Digər oxşar ayələr də, eyni şəkildə izah edilir.

Ona görə də, bu ayələrdə sufilərin batil inancına heç bir dəlil yoxdur. Həmd yalnız Allaha məxsusdur.

**5.** Sufi qəbirpərəstləri, Qureyşlilərin Allaha hörmət etmədiklərini və Onu ən uca məbud hesab etmədiklərini sübut etmək üçün, aşağıdakı ayəni gətirirlər:

**"(Müşriklərin) Allahdan başqalarına tapındıqlarını söyməyin. Yoxsa onlar da elmsiz olaraq, düşməncəsinə Allahı söyərlər"** (Quran 6:108).

**Onların nəticələri:** Əgər Qüreyşlilər, Allaha ehtiram göstərsəydilər və Onu ən uca məbud hesab etsəydilər, onu söyməzdilər.

---

[1] Hədis səhihdir; Buxari 7; Muslim 1773, Əbu Süfyanın sözlərindən.
[2] Hədis səhihdir; İbn Əbi Şeybə 14/300; İbn Xuzeymə 1/82; İbn Hibban 6562; Darakutni 3/44 və s.

Bu ayədən, belə başa düşülür ki, onlar Allaha hörmət etmirdilər, yalnız öz məbudlarına hörmət edirdilər.

Cavab.

Bu qənaət yanlışdır. Sufilərin bu şübhəsinə, üç məqamda cavab vermək olar ki, onların hər biri doğrudur və digəri ilə ziddiyyət təşkil etmir.

1) Əvvəl də dediyimiz kimi, Qureyşlilər Allahı sevir, Ona hörmət edir və Ona ibadət edirdilər.[1] Onlar səmimiyyətlə inanırdılar ki, Allaha birbaşa ibadət etməyə cəsarət göstərməyərək, yalnız vasitəçilərlə Ona üz tutaraq, Allahı ucaldırlar. Onlar Allahu Təalənın, onların tərəfində olduğuna, onlara dəstək olduğuna və dinlərindən razı qaldığına ürəkdən inanırdılar. Onlar hesab edirdilər ki, İbrahimin dininə etiqad edənlər, məhz onlardırlar, Peyğəmbər ﷺ isə Allaha yaxın hesab etdikləri və Onun tərəfindən sevilən, saleh qövmlərini alçaldaraq, Allaha qarşı böhtan və iftira ilə gəlmişdir.

Buna əsaslanaraq, səhabələr Qüreyşlilərin məbudları olan, vasitəçiləri söysələr, onlar da Peyğəmbərin ﷺ onları çağırdığı Allahı söyərdilər. Eyni zamanda, onlar Allahı söydüklərini düşünmürdülər, çünki onların fikrincə, Muhəmməd onları həqiqi, böyük Allaha dəvət etmirdi, əksinə, onları vasitəçi olmadan müraciət edə biləcək qədər kiçik olan Allaha çağırırdı. Amma əslində, bunu başa düşməsələr də, məhz aləmlərin Rəbbi olan Allahı söyürdülər. Ona görə də, Uca Allah buyurdu: **“elmsiz olaraq”**.

2) Eyni fikirlərə əsaslanaraq, onlar cavab olaraq, Allah Rəsulunu təhqir etməyə başladılar, onu yalançı, sehrbaz, dəli, şair və sair adlandırmaqla. Eyni zamanda, onlar Allah Rəsulunu təhqir etdiklərini düşünmürdülər, əksinə, Allahın düşmənini təhqir etdiklərinə və bunun Allahın dininə kömək olduğuna inanırdılar. Və yenə də buna görə, Uca Allah buyurdu: “**elmsiz olaraq**”.

[1] Bunun sübutunu əvvəlki bölümlərdə vermişdik.

3) O ki, qaldı qureyşli qrupuna hansılar ki, qəlblərinin dərinliyində Muhəmmədin ﷺ haqq ilə gəldiyini və həqiqətən də Allah tərəfindən göndərilmiş bir elçi olduğunu anlayırdılar, lakin təkəbbür və ya Qüreyşlilərin rüsvayçılığından qorxaraq, İslamı qəbul etmirdilər, Allah onlar haqqında buyurur: **“Əslində onlar səni yalançı hesab etmirlər. Lakin zalımlar, Allahın ayələrini inadla inkar edirlər”** (Quran 6:33).

Deməli, bu Qüreyşli qrupu da həmçinin, vasitəçilərinin söyülməsinə cavab olaraq, Allahı söyürdülər, lakin onlar bunu elmsizcə deyil, **“düşmənçilikdən”** edirdilər.

Düşünürəm ki, hər birimiz, həyatımızda bununla qarşılaşmışıq.

Məsələn, əgər hər hansısa bir müsəlman, bir xristianla mübahisə edərsə və xristian Muhəmməd peyğəmbəri ﷺ söyməyə başlayarsa, bu müsəlman fərqinə varmadan, bu xristiana qarşı düşmənçilik hissi ilə, İsa peyğəmbəri söyməyə başlayır.

Amma bu o demək deyil ki, bu müsəlman, İsanın (aleyhi salam) peyğəmbərliyinə inanmır və ya onu sevmir və hörmət etmir.

Eyni şey, sünni ilə rafizi arasında, emosional mübahisə zamanı da baş verir. Rafizilər, Əbu Bəkri və Öməri təhqir etməyə və söyməyə başlayanda, sünnilər də fərqinə varmadan, rafizini qəzəbləndirmək istəyi ilə, Əli ibn Əbi Talibi söyməyə başlayırlar, amma bu o demək deyil ki, bu sünni Əlini sevmir.

Buna görə də, Uca Allah buyurur: **“düşmənçilikdən”.**

Həmd yalnız Allaha məxsusdur.

**6.** Kuburi sufiləri, öz mövqelərini təsdiq etmək üçün, Əbu Süfyanın dediyi sözləri dəlil gətirirlər ki, o müşrik olduğu zaman, Uhud döyüşü günü demişdir ki: *"Hibl uca olsun".*

Onların gəldiyi nəticə: qüreyşlilər, Allaha hörmət etmirdilər, ancaq öz məbudlarının ucalığını istəyirdilər. Əgər onların qəlblərində, Allah

qorxusu olsaydı, o zaman öz məbudlarının Allah üzərində ucalmalarını və qələbə qazanmalarını istəyib bu cür nidalar söyləməzdilər.

Cavab:

Bu şübhənin cavabı, əvvəlki şübhəyə cavab verərkən, haqqında danışdığımız, əsas üzərində qurulur. Əbu Süfyan, bu nidanı, Hibli Allahdan üstün tutmaq və ya onun qələbəsini və Allahın dininin məğlubiyyətini istəyərək, dilə gətirmədi. Amma Hibli ucaltmaq dedikdə, o məhz Allahın dininin qələbəsini nəzərdə tutmuşdur, çünki Hiblin, Allahın ən yaxın övliyalarından biri olduğuna və özünün də Allahın dini uğrunda vuruşduğuna inanırdı və bu dinin qələbəsi də məhz bu vasitəçilərin qələbəsi ilə ifadə olunduğuna inanırdı.

Məhz buna görə də, Peyğəmbər ﷺ onun nidasına ***"Allah daha uca və hörmətlidir"*** deyə cavab verdikdən sonra, Əbu Süfyan susdu və heç nə ilə cavab verə bilmədi, çünki o da Allahın daha uca və daha hörmətli olduğuna inanırdı.

**7.** Sufilərin inanc və əməllərinin, qüreyşlilərin inanc və əməlləri ilə bərabər olmadığını sübut etməyə çalışan sufilər, bəyan edirlər ki: Biz onlardan fərqli olaraq, Allah Rəsuluna ﷺ, Qurana, Qiyamət gününə, ümumiyyətlə, elçilərə iman gətirdiyimiz halda, bizi qureyşlilərlə necə bərabər tutursuz? Biz qureyşlilərdən fərqli olaraq, Peyğəmbəri ﷺ sevirik və onunla döyüşmürük və onu qovmuruq, Qurana inanırıq və onu rədd etmirik, qiyamət gününə inanırıq və ona istehza etmirik! Bəs siz, bizi qüreyşlilərlə müqayisə etməyə necə cürət edirsiz?!

Cavab:

Bil ki, qardaşımız, onların bu şübhəsi, sadə xalq qarşısında özlərinə haqq qazandırdıqları və sünnənin tərəfdarlarını pis bir şəkildə göstərdikləri, ən güclü şübhələrdəndir.

Ancaq Allahın izni ilə, onların bu şübhəsinin cavabı çox sadədir. Məsələ burasındadır ki, biz sufi qəbirpərəstləri ilə, Qureyşlilər arasında hər cəhətdən tam oxşarlıq iddiasında deyilik. Bəli, həqiqətən də, onlar

Qurana, Qiyamət gününə, Peyğəmbərə ﷺ və sair şeylərə iman gətirmələri ilə, qureyşlilərdən fərqlənirlər və bunu qureyşlilər haqqında demək olmaz. Amma biz, şirk məsələlərində, sufilərlə qüreyşlilər arasında oxşarlıqların olduğunu iddia edirik. Çünkü qüreyşlilər, hələ Rəsulullah ﷺ onlara gəlməmişdən əvvəl, Quran onlara nazil olmamışdan əvvəl və sair müşrik idilər.

Bu o deməkdir ki, qureyşlilər Quranı, Peyğəmbəri ﷺ inkar etdikləri və qiyamət gününə inanmadıqları üçün, müşrik olmadılar. Bununla onlar, öz küfrlərini göstərdilər, lakin bundan əvvəl də, artıq müşrik idilər.

Buna görə də, biz deyirik ki, sufilərin şirk və tövhid məsələlərindəki inancları, Qureyşlilərin inancı ilə tamamilə eynidir, baxmayaraq ki, sufilər Qureyşlilərdən Qurana, qiyamət gününə iman məsələlərində fərqlidirlər, lakin bütün bunlar, iman və küfr məsələləridir, tövhid və şirk məsələləri deyil.

Sadə dillə desək, qarşımızda iki nəfər varsa: onlardan biri inanılması lazım olan hər şeyə inanır, bütün ibadətləri yerinə yetirir və sair — lakin eyni zamanda, o adam, yalnız Allahdan gələn bir elçiyə — Nuh peyğəmbərə inanmır. İkincisi isə, heç bir şeyə inanmır, ateist-materialistdir və daim dini pisləyir. Onun inanmadığı şəxslərin ümumi siyahısına, Saleh peyğəmbər də daxildir. Buna əsaslanaraq, bu iki nəfərin küfrdə bərabər olduğunu demirik, lakin eyni zamanda, hər ikisi, Saleh peyğəmbərə iman gətirməməsi baxımından bərabərdirlər. Və bu ikisi barəsində, Uca Allahın hökmü nədir? Onların hər ikisini “kafir” ifadəsi birləşdirir və hər ikisini son mənzili – əbədi atəş birləşdirir.

Eynisi də burada. Qəbirpərəst sufilər, hər cəhətdən qüreyşlilərlə bərabər olmasalar da, onların hamısında ortaq bir cəhət var. Onlar şirk etmək, şərik qoşmaq, ilahiləşdirmək və ibadət məsələlərində, inanc və əməllərində eynidirlər.

**8.** Həmçinin, sufilər deyirlər: Bizi qüreyşlilərlə necə eyniləşdirə bilərsiniz, halbuki onlar daşa, ağaca və bütlərə sitayiş edirdilər, biz isə Allahın ən yaxın övliyalarına hörmət və ehtiram göstəririk?!

Cavab:

Bu şübhəyə bir neçə cür cavab vermək olar:

1) Qureyşlilər daşlara və bütlərə sitayiş etmirdilər. Bunu anlamaq üçün Quranın bir neçə ayəsini göstərmək kifayətdir:

**“Allahdan başqa tapındıqları (bütlər), heç bir şey yarada bilməzlər. (Çünki) onlar özləri yaradılmışlar. (Onlar) ölüdürlər – diri deyillər və nə vaxt dirildiləcəklərini də bilmirlər”** (Quran 16:20-21).

**«O gün, onların hamısını (bir yerə) toplayacaq, sonra da müşriklərə: “Siz də, şərikləriniz də yerinizdə qalın!”– deyəcəyik. Biz, onları ayıracağıq. Onların şərikləri deyəcəklər: “Siz bizə ibadət etmirdiniz. Bizimlə sizin aranızda, Allahın şahid olması yetər. Doğrudan da biz, sizin ibadətinizdən xəbərsiz idik”»** (Quran 10:28-29).

**“Allahdan savayı çağırdıqlarınız da, sizin kimi qullardır. Əgər doğru deyirsinizsə, çağırın onları, sizə cavab versinlər”** (Quran 7:194).

**“Olmaya, kafirlər Məni qoyub, qullarımı özlərinə dost tutacaqlarını güman edirdilər? Həqiqətən, Biz Cəhənnəmi kafirlər üçün mənzil hazırlamışıq”** (Quran 18:102).

**“Onların yalvardıqları tanrıların özləri də, Rəbbinə – hansı daha yaxın olacaq deyə vəsilə axtarırlar, Onun rəhmətini umurlar, əzabından qorxurlar. Həqiqətən, Rəbbinin əzabından qorunmaq gərəkdir”** (Quran 17:57).

**“Allahı qoyub, Qiyamət gününədək özünə cavab verə bilməyən, əşyalara yalvaran kimsədən, daha çox azmış kim ola bilər? Halbuki (o bütlər) onların yalvarışından xəbərsizdirlər. İnsanlar bir yerə toplanılacaqları zaman, (bütlər) onlara düşmən kəsiləcək və onların ibadətini inkar edəcəklər”** (Quran 46:5-6).

Gördüyümüz kimi, Quranda bütövlükdə müşriklərin, xüsusən də qüreyşlilərin ibadət obyektlərindən danışarkən, canlı varlıqlara aid işlədilən ifadələr vardır. Üstəlik, daşların və ağacların, qiyamət günü dirilməyəcəkləri məlumdur, çünki onlar “həyat” və “ölüm” kimi ifadələr ilə təsvir edilmirlər.

2) Hənəfi məzhəbinin alimləri, öz kitablarında — qüreyşlilərin ibadət etdiklərini, yalnız daha yaxşı təsəvvür etmək üçün, özlərinə daşlardan və saleh adamlarının surətlərindən, bütlər düzəltdiklərini — izah etmişlər. Eyni ilə necə ki, xristianlar indi edirlər. Onlar, taxta ikonalara sitayiş etmirlər, ancaq onları istehsal edirlər ki, bu ikonlar onlara dualarında üz tutduqları istiqamət kimi, bu duaları "göydəki şəfaətçilərinə" yönəldərək xidmət etsin.

3) Qüreyşlilərin daşlara sitayiş etdikləri, sufilərin isə salehlərə "ehtiram" göstərməklə məşğul olduqları ilə razılaşsaq belə, axı Uca Allah, biri ilə digəri arasında fərq qoymamış və bütün bunları, vahid "Allaha ibadətdə şərik qoşmaq" termini altında birləşdirmişdir.

**9.** İbn Ömər rəvayət edir ki, Allah Rəsulu ﷺ buyurdu: ***"Mənə, insanlar Allahdan başqa, ibadətə layiq, haqq ilah olmadığına, Muhəmmədin ﷺ Allahın rəsulu olduğuna şəhadət verənə, namaz qılıb zəkat verəcəklərinə qədər, onlarla döyüşmək əmr olundu. Əgər onlar bunu etsələr, İslam haqqı istisna olmaqla, öz qanlarını və mallarını məndən qoruyarlar və onların hesabı Allahu Təalə yanındadır".***[1]

Usamə ibn Zeyd dedi: "*Bir dəfə Allah Rəsulu ﷺ bizi hərbi səfərə göndərdi. Döyüş zamanı, müşriklərdən birinə yetişdim və o: "Lə iləhə illəllah" dedi, lakin buna baxmayaraq, mən onu öldürdüm. Bu hərəkətim, məni narahat etməyə başladı və bu hadisəni Peyğəmbərə ﷺ danışdım. Onda Allah Rəsulu ﷺ dedi:* **"Həqiqətənmi o "Lə ilahə illəllah" dedikdən sonra sən onu öldürdün?!"** *Mən dedim: "Ey Allahın Rəsulu! O bunu ancaq ölüm qorxusundan dedi". Allah Rəsulu ﷺ buyurdu:* **"Məgər sən onun qəlbini açdınmı ki, o, həqiqətən də ürəkdən "Lə iləhə illəllah" deyib, ya yox?"** *Peyğəmbər ﷺ bu sözü mənə o qədər təkrar etdi ki, nəhayət, mən: "Kaş mən bu gün İslamı qəbul etmiş olsaydım"- deyə təmənna etdim*".[2]

[1] Hədis səhihdir; Buxari 1399; Muslim 20.
[2] Hədis səhihdir; Buxari 4269; Muslim 96.

**Onların çıxartdığı nəticə:** bu hədislər, iman və küfrün, başqalarına məlum olmayan, daxili bir məsələ olduğuna işarə edir. Buna görə də "Lə iləhə illəllah" deyən kəsi İslamdan çıxarmaq və ya kafir adlandırmaq olmaz. Sizə gəlincə, siz bizi bununla İslamdan çıxararaq, Peyğəmbər ﷺ dövrünün müşrikləri ilə müqayisə edirsiz. Və bu da bizim "La ilahə illəllah" deməyimizə baxmayaraq baş verir.

Şübhəsiz ki, "Lə iləhə illəllah" deyən kəs, bu şəhadətin mənasını düzgün başa düşərək, onun mənasını qəlbən, səmimi və doğru olaraq təsdiq edərək və İslamın şəhadətinin digər məlum şərtlərini yerinə yetirərək, İslama daxil olur.

Lakin bu o demək deyil ki, İslama şəhadət edən hər kəs heç bir şəraitdə İslamı tərk edib, kafir ola bilməz. Məsələn, bir şəxs Allahı və ya Rəsulunu lənətləməyə başlasa, Quranı natəmiz yerə atsa və ya yalnız Allahın kömək edə biləcəyi bir işdə, Allahdan başqasına dua etsə, o kəs küfr ittihamının bütün şərtlərini yerinə yetirərək və küfr ittihamına mane olan hallar olmadığı halda, İslamı tərk edər və kafir olar. Və bilmək lazımdır ki, küfrdə ittiham etmək, xəvariclərə xas xüsusiyyət deyil. Amma xavariclər isə, böyük günahlar edənləri, İslamdan çıxartmalarına görə fərqlənirlər, sünnə əhli isə bunu etmir.

Hənəfi məzhəbinin alimlərinə gəlincə, onlar açıq-aydın bildirirlər ki, kimsə dindən tamamilə məlum olanı inkar etmədikcə, heç bir müsəlmanı küfrdə ittiham etmək olmaz. İslamdan çıxaran, hər hansı bir əməli və ya inancı edən hər kəs Hənəfi alimləri tərəfindən kafir sayılır. Üstəlik, bir çox hənəfilər, dindən çıxmaqla bağlı hökmlər verərkən cəhaləti üzr saymırlar, hətta insan həyatı boyu yalnız Allaha ibadət etsə də belə.[1]

---

[1] Bütün bunlar, Hənəfilərin kitablarında aydın və birmənalı şəkildə ifadə edilmişdir. Məsələn, bax "əl-Məqasid" onun şərxi Taftazani ilə birlikdə 2/268; "an-Nibras" Faryahari s. 572; "Şərh əş-Şifa" Xufaci 4/509; "əl-Fətava əl-'Əziziya" 1/156; "Rədd əl-Muxtar" Şami 1/377; "Minə əl-Əzhər" Qari səh. 241–242; "Məzmu' əl-Fətava" Luknəvi 2/45 və s.

Üstəlik, danılmaz fakt ondan ibarətdir ki, hənəfi məzhəbinin nümayəndələri, istər qədim dövrlərdə, istərsə də müasir dövrdə, küfrlə bağlı ittihamlar məsələsində, həmişə ən sərt mövqedə olmuşlar. Hənəfi alimləri, elə əməllərə görə küfrdə ittiham edirlər ki, başqa məzhəb alimləri buna görə küfrdə ittiham etməyə cəsarət etmirlər. Buna dəlil odur ki, hənəfilərin bir çox kitablarında, çoxlu fəsillər vardır ki, orada dindən çıxmaq haqqında hökm verilən hərəkət və əməllər nəzərdən keçirilir. Həmçinin ayrı-ayrı fəsillər də var ki, orada küfr haqqında kəlmələri var ki, onları dilə gətirdikdə insan İslamı tərk edir.[1]

Hənəfilərin bu məsələlərdən bəhs edən kitablarını oxuyan hər kəs, onlarda çoxlu təəccüblü şeylər tapacaq.[2]

Həmçinin kitab boyu, hənəfilərin kitablarından bir çox yerlərə istinad etmişik ki, orada namazı Allahdan başqasına həsr edənin, yaxud Allahdan qeyrisinə qurban kəsənin və yaxud özü ilə Allah arasında vasitəçi götürənin və sair hərəkət edənin - küfrünü açıq şəkildə bəyan edir.

Lakin bütün bunlar o demək deyil ki, hər hansısa müəyyən şəxsləri, dəlil gətirmədən və onların üzrlü səbəblərinin olmadığına əmin olmadan, küfrdə ittiham etmək olar. Üstəlik, müəyyən şəxsləri küfrdə ittiham etmək, alimlərin işidir ki, biz də onlardan deyilik və buna uyğun olaraq da, bunu etmirik. Bu kitabdakı dəlillərdən, verdiyimiz hər şey, yalnız şirkin təhlükəsini və onun növlərinin və göstəricilərinin çoxluğunu izah etmək üçün verilmişdir ki, müsəlmanlardan heç biri, bu sərhədləri heç bir şəkildə keçməsin.

Allah ürəklərdə olanı bilir.

---

[1] Məsələn, bax: "əz-Zəvacir" Heytəmi 1/29; "əl-'İlm əl-Şamix" əl-Muqbili 221–222; "Cəla əl-ayneyn" səh. 450–451; "Qayət əl-Əmani" 1/253–254, 297.

[2] Məsələn, bax Tahir ibn Əhməd əl-Buxarinin "Xulyasa əl-Fətava" 4/379–390; Həsən ibn Mənsur əl-Fərqani tərəfindən "əl-Fətava əl-Haniyyə" 3/571–580; "Cami' əl-Vajiz" 6/315–350, İbn Bəzzaz əl-Kürdi; "əl-Bəhr ər-Raik" 5/119–125.

**10.** Bu şübhə, bu fəsildə təqdim edəcəyimiz, sufi qəbirpərəstlərin sonuncu şübhəsidir. Bu, həmdə bütün dövrlərin sufilərinin, dəlil gətirdikləri və dəlil gətirməkdə davam etdikləri, ən ciddi şübhələrdən biridir.

Sufilər deyir ki, Uca Allah buyurmuşdur: **«Allahı qoyub, başqalarını özlərinə dost tutanlar: "Biz, onlara ancaq, bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik"– (deyirlər)"»** (Quran 39:3).

**«Onlar, (mənə qarşı) böyük bir hiylə işlətdilər və (özlərinə tabe olanlara) dedilər: "Öz məbudlarınızı tərk etməyin; Vəddi, Suvaı, Yəğusu, Yəuqu və Nəsri tərk etməyin!"»** (Quran 71:22-23)

Onların gəldiyi nəticə: Bizi müşriklərlə necə müqayisə edə bilərsiniz ki, onlar açıq-aşkar ehtiram göstərdikləri, varlıqların **"ilah"** olduğunu bəyan edib, öz əməllərini **"ibadət"** adlandırırlar.

Biz, onlardan fərqli olaraq, öz salehlərimizi ilah adlandırmırıq və onlara ibadət etdiyimizi demirik.

Cavab:

Bu şübhəyə, bir neçə məqamda cavab vermək olar:

1) İslam alimləri arasında, sabit olan bir fikir budur ki, **"bəzi şeylərin mahiyyəti, adlarına uyğun gəlmir"** və ya **"ad dəyişdirməklə mahiyyət dəyişməz"**.[1]

Buna görə də, əgər kimsə zinaya "vətəndaş nikahı" deyirsə, bu əməl zina olmaqdan çıxmır. Və bunun, bir çox nümunəsi var.[2]

---

[1] Hənəfilərə gəlincə isə, bu qaydanın izahını Fəthul-Mənnan səh. 481-də tapmaq olar.

[2] Bu məsələnin yaxşı təhlilini, Hənəfi imam Vəli-ullah əd-Dəhləvi "Budurul-Bəziyə" səh. 169-da tapmaq olar. Həmçinin, Fincifirinin gözəl təhlili var ki, orada o, qəbirpərəstlərin bir çox terminlərin mənalarını dəyişdirərək və adlarını dəyişdirərək, Allahın dinini necə dəyişdirdiklərini izah edir. Bax "Usul əl-Sünnə" səh. 138.

2) Müqəddəs mətnlərə gəlincə, bu fikir üçün çoxlu dəlillər var. Onlardan yalnız bir neçəsini təqdim edirik:

Uca Allah buyurur: **“Allah deyəcəkdir: “Ey Məryəm oğlu İsa! Sənmi insanlara: “Allahı qoyub, məni və anamı iki tanrı qəbul edin!”– demişdin?” İsa deyəcək: “Sən pak və müqəddəssən! Haqqım olmayan bir şeyi demək, mənə yaraşmaz. Əgər bunu demiş olsaydım, əlbəttə, Sən onu bilərdin. Sən, mənim qəlbimdə olanları bilirsən, mən isə Sənin Özündə olanları bilmirəm. Şübhəsiz ki, qeybləri bilən Sənsən!”** (Quran 5:116).

Burada, başa düşmək çox vacibdir ki, xristianlar və ya onların əksəriyyəti, İsanın anası Məryəmi ilah hesab etmirlər.

Onlar hesab edirlər ki, ilahi qüvvəyə Uca Allah malikdir (hansı ki, onlar onu Allah və ya Ata adlandırırlar), eləcə də İsa malikdir (oğul adlandırdıqları İsa) və həmçinin Cəbrail mələk (Müqəddəs ruh adlandırdıqları, baş mələk Cəbrail) malikdir. Onların inancı budur ki, Allah bu üç təzahürün vəhdətidir.

Amma Məryəmə gəlincə, onlar, onu Müqəddəs, bakirə Məryəm, Müqəddəs Məryəm, ya da ilah anası adlandırırlar, lakin onun ilahi qüvvəyə malik olduğuna inanmırlar. Ancaq buna baxmayaraq, Uca Allah, onu "tanrı" adlandırdı, çünki xristianlar onu həm özləri ilə Allah arasında vasitəçi, həm də Allah qarşısında şəfaətçi hesab edirlər.

Diqqət yetirin — əksər xristianların, onu tanrı adlandırmamasına və onun ilahi qüvvəyə malik olduğuna inanmamasına baxmayaraq, Uca Allah, onu özləri üçün tanrı kimi qəbul etdiklərini göstərdi. Bu ona görədir ki, hər hansısa bir şeyi, özü ilə Allah arasında vasitəçi və ya şəfaətçi hesab edən, ona dua edən və ya başqa ibadət edən şəxs, bununla da bu obyekti tanrıya çevirir, bunu etiraf etsə də, etməsə də.

Şəriət terminologiyasına gəlincə, şəriətdə **"tanrı"** istər haqq olaraq, istərsə də nahaq olaraq, ibadət edilməsindən asılı olmayaraq, ibadət edilən hər hansı bir varlıqdır.[1]

Ona görə də, biz Allahu Təalə haqqında danışarkən "haqq məbud" deyirik, amma insanların Ondan başqa, ibadət etdikləri şeylər haqqında danışarkən isə, "yalançı məbud" (tağut) deyirik.

* Əbu Vaqid əl-Leisi demişdir: "Bir dəfə, biz hələ İslamı yeni qəbul edənlərin arasında olarkən, Allah Rəsulu ﷺ ilə, Huneynə tərəfə, hərbi yürüşə getmişdik. Yürüş zamanı, müşriklərin ağacının yanından keçdik, onlar onun yanında vaxt keçirib, silahlarını o ağaca asırdılar. Onlar, ona "Zətu Ənvat" (Müşriklərin üstündən silahlarını asdıqları böyük bir Sidr ağacı) deyirdilər. Onun yanından keçərkən, dedik: *"Ey Allahın Rəsulu ﷺ! Bizə də, onlarınki kimi "Zətu Ənvat" düzəlt".* Allah Rəsulu ﷺ buyurdu: ***"Allah böyükdür! Həqiqətən də, bunlar keçmiş xalqların adətləridir. Canım əlində olan Allaha and olsun ki, siz də Bəni-İsrail qövmünün, Musaya (aleyhi salam) dediyi sözü dediniz:*** **"Ey Musa! Onların tanrıları olduğu kimi, bizim üçün də bir tanrı düzəlt"** (Quran 7:138)**.** ***Siz, şübhəsiz ki, sizdən əvvəlkilərin adətlərinə əməl edəcəksiniz".***[2]

Diqqət edin, Peyğəmbər ﷺ bu iki ifadəni necə eyniləşdirdi: səhabələrin ifadəsi və Bəni-İsrailin ifadəsi. Səhabələrə gəlincə, onlar dedilər: *"Bizə də, onlarınki kimi "Zətu Ənvat" düzəlt"*, Bəni İsrail qövmünə gəlincə, onlar isə dedilər: **"Onların tanrıları olduğu kimi, bizim üçün də bir tanrı düzəlt".**

Burada diqqət etmək lazımdır ki, səhabələr ağacı məbud deyil, "Zətu Ənvat" adlandırmışlar, üstəlik də, bu ağacın məbud olmasına fikir verməmişlər, axı onlar buna fikir versəydilər, bunu Peyğəmbərdən ﷺ istəməzdilər, lakin buna baxmayaraq Peyğəmbər ﷺ buyurdu: ***"siz də eyni sözü dediniz".*** Ona görə ki, onların hər ikisi, Allahdan başqa ibadət edəcəkləri bir şey istədilər. Və onların sözləri fərqli olsa da, sözlərinin

[1] Bax "Muxtar əs-Sihah" səh. 9; "Tac əl-Arus" 9/375; "Miat Masail" səh. 15;

[2] Hədis səhihdir; Tirmizi 2180; Əhməd 5/218; Əbu Ya'lya 1441; İbn Əbi Şeybə 15/101; Nəsai əl-Kübra 11185 və s.

mənası eynidir. Ona görə də **“adın dəyişdirilməsi məna və mahiyyəti dəyişmir”.**

Buna əsasən, müşrik öz şirkini necə adlandırsa da müşrikdir, hətta ölülərə dua etməyi, onlara qurban kəsməyi, nəzir etməyi və sair şeyləri – “**ehtiram**” və “**hörmət**” adlandırsa da.

Hənəfi İmamı, əl-Bərqavi (981-ci hicri) demişdir ki: *“Kim tövhiddən üz döndərsə, istəsə də, istəməsə də müşrik və kafirdir. Sünnədən üz döndərən isə, istəsə də, istəməsə də azmış bidətçidir”.*[1]

**• «O gün, (Allah) onların hamısını toplayacaq, sonra da mələklərə buyuracaq: “Bunlar sizəmi ibadət edirdilər?” (Mələklər) deyəcəklər: “Sən paksan, müqəddəssən! Onlar deyil, Sənsən bizim Hamimiz! Xeyr, onlar cinlərə ibadət edirdilər. Əksəriyyəti də məhz onlara iman gətirmişdi”»** (Quran 34:40-41).

Bu ayədə dəlil vardır ki, bu insanlar, mələklərə ibadət etdiklərini düşünsələr də, əslində cinlərə ibadət edirlər. Bu onu göstərir ki, insanların nəyə inandıqları və güman etdikləri deyil, əslində nə baş verdiyi önəmlidir.

3) Burada, onu da qeyd etmək lazımdır ki, bir çox cahillər öz beyinlərində Peyğəmbər ﷺ dövrünün müşriklərinin və ümumiyyətlə bütpərəstlərin, reallıqda olmayan, hansısa qeyri-adi varlıqlara sitayiş etdiklərini təsəvvür edirlər. Burada, nəhayət başa düşmək lazımdır ki, qüreyşlilər adi, saleh insanlara sitayiş edirdilər və adi ağacları vasitəçi kimi götürürdülər. Əvvəlki bölümlərin birində, artıq qeyd etmişdik ki, qureyşlilərin əsas tanrıları, əl-Lat və əl-Uzzadır — bu adam, sağ ikən yağ və xurmadan ibarət olan, adi bir yeməyi hazırlayan və sadəcə yun və dəridən olan parçalar asdıqları, adi bir ağacdan başqa bir şey deyil. Tamamilə eyni şey, bu gün ziyarətgahlarda və digər “müqəddəs yerlər” adlanan yerlərdə baş verir.

Bütün problem ondadır ki, indiki müsəlmanlar, Quran oxuyurlar, amma eyni zamanda orda yazılan hər şeyi elə təsəvvür edirlər ki, bunlar

[1] “Ziyarət əl-Kubur” səh. 45.

keçmiş xalqları maraqlandıran, lakin bugünkü reallıqla heç bir əlaqəsi olmayan, bəzi əhvalatlar və hekayələrdirlər.

İmam İbn əl-Qeyyim buyurur: *"Quran oxuyan insanların çoxu, oxuduqları ayələrin müasir həqiqətə aid olduğunu hiss etmirlər. Onlar elə düşünürlər ki, bu ayələr öz dövrünü artıq yaşamış və özlərindən sonra, heç bir nəsil qoymayan, bəzi ayrı-ayrı xalqlara aiddirlər. Məhz bu fikir, Quranın dərk edilməsi ilə insan qəlbi arasında maneəyə çevrilir. Başa düşmək vacibdir ki, bu xalqlar artıq keçmiş olsalar da belə, onların inancları, özlərindən sonra gələnlər tərəfindən mənimsənilmişdir və bu nəsillər birincilərə bənzəyirlər, ya onlardan daha pisdir, ya da bir balaca yaxşıdırlar, Quran isə onların hər ikisini əhatə edir"*.[1]

4) Qüreyşlilərin nə üçün "ilah" və "ibadət" sözlərindən istifadə etməsinə, kuburi sufilərinin isə, bu terminləri işlətməməsinə gəlincə, bunun səbəbi aydın və təbiidir.

Peyğəmbər ﷺ dövrünün müşrikləri, başa düşürdülər ki, onların öz salehlərinə qarşı etdikləri, onlara həqiqi ibadət etmək və onları ilaha çevirməkdir. Onlar, İslamın şəhadətinin mənasını başa düşürdülər və bu şəhadətin dilə gətirilməsi — onların dualarını, qurbanlarını və nəzirlərini — vasitəçi tutduqlarına, şərik qoşduqlarına etməməyə məcbur edəcəyini bilirdilər.

Ona görə də, bu dəlilləri qəbul etməkdən qəti şəkildə imtina etdilər. Sufilərə gəlincə, onlar "Lə iləhə illəllah"ın mənasını, eləcə də "ilah" və "ibadət" məfhumlarının mənasını, düzgün dərk etmirlər. Onlar, İslam şəhadətini yüzlərlə, hətta minlərlə dəfə oxuyurlar, lakin başa düşmürlər ki, bu şəhadətin oxunması, onları öz salehlərinə qarşı etdikləri əməllərdən əl çəkməyə məcbur edir.

Məsələ burasındadır ki, Peyğəmbər ﷺ tövhid çağırışı ilə, qüreyşlilərin yanına gəldikdə, onlar İbrahimin (aleyhi salam) dinində olduqlarına inanırdılar. Onlar, etdiklərinin şirk olduğunu başa düşürdülər, amma bunda pis bir şey olduğunu düşünmürdülər, çünki onlar inanırdılar ki, bu, Allahın razı olduğu və İbrahim (aleyhi salam)

[1] "Madarij Salikin" 1/343.

peyğəmbərlə göndərdiyi səmavi dindir. Sufilərimizə gəlincə isə, onların inanc və əməlləri qureyşlilərin inanc və əməlləri ilə tamamilə eynidir, amma problem ondadır ki, sufilər — müsəlmanlarla əlaqələndirilən və özünü Muhəmməd peyğəmbərin ﷺ dini hesab edən bir cəmiyyətdə doğulub böyüyüblər. Buna görə də, onlar da qüreyşlilər kimi, inanc və əməllərində səhv bir şey görmürlər, çünki onlar, Uca Allahın, Muhəmməd peyğəmbər ﷺ ilə göndərdiyi səmavi dinə etiqad etdiklərinə inanırlar.

Yeganə fərq odur ki, qüreyşlilərdə, İbrahim (aleyhi salam) peyğəmbərdən kitab və hədis yox idi ki, orada şirkin haram olması haqqında oxusunlar, ona görə də "şirk", "ibadət", "ilah" terminlərini işlətməkdə problem görmürdülər, xüsusən də ərəb dili bu işdə onlara dəstək idi. Sufilərə gəlincə, onlarda Quran və hədislər var ki, onlar "şirk", "ibadət" və "ilah"ların haram olmasından bəhs edirlər. Buna görə də, bütün bunları başqa terminlərlə adlandırıb deyirlər: "təvəssül", "ehtiram", "hörmət", "övliyya", "məşaix" və sair.

Allaha and olsun ki, bu məfhum və terminlərin mənası, sufilərə açıqlandıqda və İslam şəhadəti onları öz "övliyya", "Məşaix" və digər salehlərə qarşı, etdikləri əməlləri tərk etməyə məcbur etdikdə, onlar bu şəhadəti qəbul etməməkdə və inkar etməkdə, etdikləri israrlılıq, Peyğəmbərin ﷺ dəvətlə xitab etdiyi, sufilərin ilk müşrik qardaşlarının etdiklərindən az deyildir.

Və yekun olaraq, gəlin birlikdə nəzər salaq ki, qüreyşlilər, peyğəmbər ﷺ tövhid çağırışı ilə, onların yanına gəldikdə, ona nə dedilər.

Allah buyurur: "**Öz aralarından, onlara xəbərdarlıq edən, (bir peyğəmbər) gəldiyinə təəccüb edərək, kafirlər dedilər: "Bu, yalançı bir sehrbazdır! O, bütün məbudları bir məbudmu etdi? Həqiqətən, bu, əcaib bir şeydir". Onların adlı-sanlı adamları çıxıb, gedərək (dedilər): "Gedin öz məbudlarınızla, səbrlə davranın. Doğrusu, bu (sizdən) istənilən bir şeydir. Biz, bunu axırıncı dində də eşitməmişik. Bu, uydurmadan başqa bir şey deyil. Məgər içimizdən, təkcə onamı Zikr vəhy edilmişdir?" Xeyr, onlar Mənim Zikrimə şəkk gətirirlər. Xeyr, onlar Mənim əzabımı hələ dadmayıblar"** (Quran 38:4-8).

Qafqaz respublikalarının, eləcə də keçmiş sovet məkanındakı respublikaların sufiləri də, bu gün eyni şeyi deyirlər. Onlara, öz aralarından xəbərdar edən, bir peyğəmbər gəldiyi zaman: "Bu, yalançı vəhhabidir!" – deyərlər.

"Həqiqətənmi o, bizim övliyalarımız vasitəsilə Allaha müraciəti birbaşa Ona müraciətlə əvəz edibmi?" "Həqiqətən, bu əməl, əcaib bir şeydir". Onların arasından ağsaqqallar və "mənəvi liderlər" bu sözlərlə ayrıldılar: "Gedin, nahaq yerə incitdiyiniz övliyalarınızla səbrlə davranın. Həqiqətən də, bu tələbənin ərəb ölkələrindən gətirdiyi şey, Səudiyyə Ərəbistanın düşündüyü bir növ plandır. Biz atalarımızdan, əcdadlarımızdan bu barədə eşitməmişik, axı biz onların adət-ənənələrinə və əsaslarına ciddi əməl edirik. Bu fundamentalistin dedikləri, uydurmadan başqa bir şey deyil. Həqiqətənmi o adam, demək istəyir ki, bu gün bütün atalarımız, bütün xalqımız yanılır, amma yalnız bu adam, haqlıdırmı?!"

Bu sadəcə bir misaldır, əziz qardaşımız, ancaq Quranı açıb, Allahın elçiləri ilə onların qövmlərinin nümayəndələri arasında, baş verən dialoqları oxusanız, o zaman baş verənlərlə, indi baş verənlər arasında, heyrətamiz oxşarlıqlar tapa bilərsiniz.

Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur!

# MÜNDƏRİCAT

GİRİŞ .......... 3
FƏSİL 1
TÖVHİDƏ DƏVƏT ETMƏYİN VƏ İNSANLARA TÖVHİDİN MƏHİYYƏTİNİ TƏFƏRRÜATI İLƏ İZAH ETMƏYİN VACİBLİYİ HAQQINDA .......... 8
FƏSİL 2
İNSANLARA ŞİRKİN MAHİYYƏTİNİ VƏ ONUN NÖVLƏRİNİ ƏTRAFLI İZAH ETMƏYİN ZƏRURİLİYİ HAQQINDA .......... 18
FƏSİL 3
ŞİRKİN HƏYATA KEÇİRİLMƏSİNİN MƏRHƏLƏLƏRİ .......... 21
FƏSİL 4 ŞİRKİN YAYILMASININ ƏSAS SƏBƏBİ HAQQINDA .......... 28
FƏSİL 5
SALEH ƏCDADLARA HƏDDİNDƏN ARTIQ HÖRMƏT — ŞİRKƏ APARAN İLK ADDIMDIR .......... 35
FƏSİL 6
ŞƏRİƏTDƏ QƏBİRLƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ (TANINMASI) ARZU OLUNANDIRMI? .......... 42
FƏSİL 7
DÜNYADA BİR ÇOX SAXTA VƏ YA EHTİMAL EDİLƏN QƏBİRLƏRİN MÖVCUD OLMASI HAQQINDA .......... 45
FƏSİL 8
BƏZİ ƏŞYALARIN, TORPAQLARIN VƏ ZAMANLARIN BƏRƏKƏTLİ OLDUĞUNA DAİR İNSANLARIN İNANCLARI .......... 48
BÖLÜM 1. MƏSƏLƏYƏ AİD OLAN, TERMİNLƏRİN İZAHI .......... 51
BÖLÜM 2. BÜTÜN NEMƏTLƏR, XEYİR VƏ BƏRƏKƏT, YALNIZ ALLAHIN ƏLİNDƏDİR .......... 52

BÖLÜM 3. ALLAHU TƏALƏ, ÖZ YARATDIQLARINDAN BƏZİLƏRİNİ AYIRIB, SEÇİB ONLARI BƏRƏKƏTLİ EDİR ..... 54

BÖLÜM 4. ALLAHDAN BAŞQA HEÇ KİM, HƏR HANSI BİR ŞEYİ BƏRƏKƏTLİ EDƏ BİLMƏZ ..... 55

BÖLÜM 5. MÜQƏDDƏS YAZILARDA GÖSTƏRİLMƏDİYİ HALDA, HEÇ KİM HƏR HANSI BİR ŞEYİN İLAHİ BƏRƏKƏTİNİN OLDUĞUNU İDDİA EDƏ BİLMƏZ ..... 56

BÖLÜM 6. TƏBƏRRÜKÜN — İCAZƏLİ OLAN VƏ İCAZƏLİ OLMAYANA BÖLÜNMƏSİ ..... 56

BÖLÜM 7. BƏRƏKƏT NƏDƏ (HARDA) VAR VƏ ONUN HANSI NÖVLƏRİ VAR ..... 57

1. Müəyyən yerlərdə bərəkət ..... 57

2. Müəyyən fəsil və vaxtlarda olan bərəkət ..... 60

3. Məscidlərin bərəkəti ..... 62

4. Çayların və bulaqların bərəkəti ..... 65

5. Peyğəmbərlərin bərəkəti ..... 66

MUHƏMMƏD PEYĞƏMBƏRİN ﷺ BƏRƏKƏTİ ..... 66

1. Peyğəmbərin ﷺ sağlığında, səhabələrin onun bədən üzvləri ilə təbərrükü ..... 67

2. Səhabələrin Peyğəmbərin ﷺ bədənindən ayrılanlarla təbərrük etməsi ..... 68

3. Peyğəmbərin ﷺ vəfatından sonra, ondan qalan əşyalar ilə səhabələrin təbərrük etməsi ... 70

4. Peyğəmbərin ﷺ əşyalarından hər hansı bir şey, bu gün qalıbmı? ..... 71

6. Salehlərlə təbərrük ..... 72

6.1 Əməlisalehlərlə fiziki təbərrük icazəlidirmi? ..... 72

6.2 Salehlərə təbərrük etməyin qanuniləşdirilmiş forması ..... 76

FƏSİL 9

MÜƏYYƏN BİR HADİSƏNİN ŞƏRƏFİNƏ, İNSANLARIN MÜƏYYƏN BİR YERDƏ, MÜTƏMADİ OLARAQ, VAXTAŞIRI TOPLANTILARI ..... 77

FƏSİL 10

QURAN VƏ SÜNNƏ MƏTNLƏRİNDƏ, MÜQƏDDƏSLİYİNƏ İŞARƏ

EDİLMƏDİYİ HALDA, HANSISA YERİN MÜQƏDDƏS VƏ YA MÜBARƏK ELAN EDİLMƏSİ ....... 81

FƏSİL 11

ŞƏRİƏTDƏ, İBADƏT ÜÇÜN NƏZƏRDƏ TUTULMAYAN BƏZİ YERLƏRƏ, İBADƏT MƏQSƏDİ İLƏ SƏFƏR ETMƏK ....... 85

BÖLÜM 1. YAŞADIĞINIZ YERİN QƏBİRİSTANLIĞINI ZİYARƏT ETMƏYƏ İCAZƏ VERİLİRMİ? ....... 85

BÖLÜM 2. İSLAMDA UZUN MÜDDƏT QƏBİRLƏRİ ZİYARƏT ETMƏK QADAĞAN EDİLMİŞDİ, LAKİN SONRA İCAZƏLİ OLDU ....... 86

BÖLÜM 3. NİYƏ UZUN MÜDDƏT QƏBİRLƏRİ ZİYARƏT ETMƏK QADAĞAN EDİLMİŞDİR? ....... 87

BÖLÜM 4. NƏ ÜÇÜN ŞƏRİƏT ƏVVƏLCƏ QƏBİRLƏRİ ZİYARƏT ETMƏYİ QADAĞAN ETDİ, SONRA QANUNİLƏŞDİRDİ? ....... 88

BÖLÜM 5. QƏBİRİSTANLIĞI ZİYARƏT EDƏRKƏN, NƏ ETMƏK LAZIMDIR? ....... 89

BÖLÜM 6. QƏBİRİSTANLIĞI ZİYARƏT ETMƏK ÜÇÜN BAŞQA YERƏ GETMƏK OLARMI? ....... 90

BÖLÜM 7. QARŞI TƏRƏFİN BƏZİ ŞÜBHƏLƏRİ VƏ ONLARA CAVAB ....... 95

BÖLÜM 8. PEYĞƏMBƏRİN ﷺ QƏBRİNİ ZİYARƏT ETMƏK OLARMI? ....... 97

BÖLÜM 9. PEYĞƏMBƏRİN ﷺ QƏBRİNİ ZİYARƏT ETMƏK ÜÇÜN SƏFƏRƏ ÇIXMAQ OLARMI? 101

BÖLÜM 10. QƏBİRLƏRƏ GEDƏNLƏRİN, PROBLEMLƏRİNİN HƏLLİ, O DEMƏK DEYİL Kİ, ONLARIN YANINA GETMƏYƏ İCAZƏ VERİLİR ....... 106

BÖLÜM 11. FƏSİL HAQQINDA ÜMUMİ NƏTİCƏ ....... 111

FƏSİL 12

QADINLARIN, QƏBİRLƏRİ ZİYARƏT ETMƏLƏRİ HAQQINDA ....... 115

BÖLÜM 1. QADINLARA, YAŞADIQLARI YERİN QƏBİRLƏRİNİ ZİYARƏT ETMƏK İCAZƏLİDİRMİ? ....... 116

BÖLÜM 2. QADINA MÜTƏMADİ VƏ VAXTAŞIRI QƏBİRLƏRİ ZİYARƏT ETMƏYƏ İCAZƏ VERİLİRMİ? ....... 119

BÖLÜM 3. YAXIN QOHUMU (MƏHRƏMİ) YANINDA OLMADAN QADININ SƏFƏRƏ ÇIXMASI ....... 119

BÖLÜM 4. KİŞİLƏRİN VƏ QADINLARIN, BİR YERDƏ OLMASININ, QADAĞAN EDİLMƏSİ. ....... 120

FƏSİL 13

PEYĞƏMBƏRLƏRİN VƏ SALEH İNSANLARIN YAŞADIQLARI VƏ İBADƏT ETDİKLƏRİ YERLƏRDƏ, İBADƏT ETMƏK ÜÇÜN SƏY ETMƏK, BU YERLƏRİN AXTARIŞI VƏ DƏQİQLƏŞDİRİLMƏSİ........................................123

BÖLÜM 1. ÜMUMİ MÜDDƏALAR ........................................................................................ 123

BÖLÜM 2. PEYĞƏMBƏRİN ﷺ İBADƏT ETDİYİ YERLƏRİ, İBADƏT ÜÇÜN TƏYİN ETMƏDİYİ HALDA, HƏR HANSISA TORPAQLARIN İBADƏT ÜÇÜN TƏYİN EDİLMƏSİNİN, QANUNİ OLMADIĞINA DAİR DƏLİLLƏR........................................................................................................ 127

BÖLÜM 3. QARŞI TƏRƏFİN, BƏZİ  ŞÜBHƏLƏRİ VƏ ONLARA CAVAB............................................ 129

FƏSİL 14

DƏFN YERLƏRİNİN İBADƏT YERİNƏ ÇEVRİLMƏSİNİN QADAĞASI......133

BÖLÜM 1. GİRİŞ ........................................................................................................ 133

BÖLÜM 2. QƏBİR YERLƏRİNDƏ ALLAHA İBADƏT ETMƏYİN QADAĞAN EDİLMƏSİ HAQQINDA MÜQƏDDƏS MƏTNLƏR ........................................................................................ 135

BÖLÜM 3. NƏ ÜÇÜN ALLAH VƏ RƏSULU ﷺ, QƏBİRLƏRİN YANINDA ALLAHA İBADƏT ETMƏYİ QADAĞAN EDİBLƏR?........................................................................................ 140

BÖLÜM 4. DƏFN YERLƏRİNİ İBADƏT YERİNƏ ÇEVİRMƏK NƏ DEMƏKDİR?.................................. 142

BÖLÜM 5. İSTƏR MƏSCİD OLSUN, İSTƏRSƏ DƏ BAŞQA BİR ŞEY OLSUN, QƏBİR ÜZƏRİNDƏ HƏR HANSI BİR ŞEYİN UCALDILMASININ QADAĞAN OLMASI HAQQINDA .................................... 142

1. Qəbirin hündürlüyünün səviyyəsi........................................................................ 142

2. Qəbirlər üzərində, hər hansı tikililərin tikilməsi ...................................................... 146

3. İslam alimlərinin yekdil rəyi budur ki, qəbirlər üzərində ucaldılan hər hansı tikili dağıdılır. ...... 147

4. Qarşı tərəfin bəzi şübhələri və onlara cavab ............................................................ 151

BÖLÜM 6. İBADƏT ZAMANI, MÜŞRİKLƏRƏ ZAHİRİ BƏNZƏMƏNİN QADAĞAN OLMASI HAQQINDA........................................................................................................ 156

BÖLÜM 7. QƏBİR YERLƏRİNDƏ, QADAĞAN OLUNAN BƏZİ İBADƏT NÖVLƏRİ ............................ 156

3. Qəbirin yanında, özünüz üçün dua etmək.............................................................. 165

4. Quran oxumaq .......... 168

5. Qəbirlərin ətrafında təvaf etmək .......... 170

6. Lütf (bərəkət) almaq üçün və ya ilahiləşdirmə və izzətdən ötrü, qəbri və ya başqa bir şeyi öpmək .......... 170

7. Qəbrə toxunmaq və sürtünmək .......... 172

8. Qəbir yerlərində, xütbə oxumaq .......... 174

BÖLÜM 8. FƏSİL HAQQINDA ÜMUMİ NƏTİCƏ .......... 174

FƏSİL 15

TƏVƏSSÜL — BİR ŞEY VASİTƏSİLƏ, ALLAHA YAXINLAŞMAQ .......... 180

BÖLÜM 1. GİRİŞ .......... 180

BÖLÜM 2. TƏVƏSSÜL NƏDİR? .......... 181

BÖLÜM 3. "TƏVƏSSÜL" TERMİNİNİ SUFİ NÖQTEYİ-NƏZƏRİNDƏN İZAHININ PİS NƏTİCƏLƏRİ .......... 185

BÖLÜM 4. ZƏNCİRİN İZAHI: QANUNSUZ TƏVƏSSÜL (BİDƏT) — ŞÜBHƏLİ ŞİRK —AŞKAR ŞİRK .......... 187

BÖLÜM 5. TƏVƏSSÜLÜN İCAZƏLİ NÖVLƏRİ .......... 196

1. Allaha, Onun gözəl adları və yüksək .......... 196

sifətləri ilə yaxınlaşmaq .......... 196

2. Yaxşı əməllərinizlə Allaha yaxınlaşmaq .......... 197

3. Saleh, diri insanın duası ilə, Allaha yaxınlaşmaq .......... 198

4. Acizliyini və zəifliyini etiraf etməklə, Allaha yaxınlaşmaq .......... 199

5. Günahını və haqsızlığını etiraf etməklə, Allaha yaxınlaşmaq .......... 200

BÖLÜM 6. SUFİLƏRİN KİTABLARINDA, MÜQƏDDƏS MƏTNLƏRİN TƏHRİF EDİLMƏSİ FAKTLARINA DƏLALƏT EDƏN, QARŞI TƏRƏFİN BƏZİ ŞÜBHƏLƏRİ VƏ ONLARA CAVAB .......... 201

BÖLÜM 7. PEYĞƏMBƏRİN ﷺ İZZƏTİ İLƏ, TƏVƏSSÜLÜ İNKAR ETMƏK, PEYĞƏMBƏRİN ﷺ İZZƏTİNİ VƏ ONUN HÖRMƏTİNİ İNKAR ETMƏK SAYILMIR .......... 225

FƏSİL 16

ALLAH DƏRGAHINDA, ŞƏFAƏT ETMƏLƏRİNİ İSTƏMƏK ÜÇÜN, ÖLÜLƏRƏ ÜZ TUTMAĞIN YOLVERİLMƏZLİYİ HAQQINDA .......... 233

BÖLÜM 1. QƏBİRPƏRƏSTLƏR İNANIRLAR Kİ, VASİTƏÇİ OLMADAN, BİRBAŞA ALLAHA ÜZ TUTMAQ YANLIŞDIR ........ 233

BÖLÜM 2. VASİTƏÇİLƏRLƏ ALLAHA ÜZ TUTMAĞIN BİDƏT VƏ ŞİRK OLDUĞU HAQQINDA, HƏNƏFİ MƏZHƏBİ İMAMLARININ SÖZLƏRİ ........ 235

BÖLÜM 3. ALLAHU TƏALƏ ÇOX ƏFV EDƏNDİR VƏ RƏHMLİDİR ........ 239

BÖLÜM 4. ÖLÜLƏR QƏBİRLƏRİNDƏ EŞİTMİRLƏR ........ 247

1. Qəbirlərə ibadət edənlərin, ölülərin öz qəbirlərində insanları eşitdiyinə inanmaları ........ 247

2. Ölülərin qəbirlərində eşitmədiklərinə dair dəlillər və onlara şərhlər ........ 248

3. Qarşı tərəfin şübhələri və onlara cavab ........ 257

4. Digər məzhəblərin nümayəndələri, hənəfilərin fikrini dəstəkləyirlər ki, ölülər eşitmirlər ........ 261

BÖLÜM 5. DUA İBADƏTDİR VƏ ONU ALLAHDAN BAŞQASINA ETMƏK OLMAZ ........ 262

Sufi qəbirpərəstləri, duanı ibadət hesab etmirlər ........ 262

FƏSİL 17

QƏBİRPƏRƏSTLƏRİN İNANCLARI VƏ ƏMƏLLƏRİ — PEYĞƏMBƏR ﷺ DÖVRÜNÜN MÜŞRİKLƏRİNİN İNANC VƏ ƏMƏLLƏRİ İLƏ EYNİDİR.....273

BÖLÜM 1. SUFİ QƏBİRPƏRƏSTLƏRİ «ŞİRK», «TÖVHİD» VƏ «İBADƏT» TERMİNLƏRİNİ NECƏ BAŞA DÜŞÜRLƏR ........ 273

1. Onların “tövhid” termininin tərifi ........ 275

2. Sufilər arasında “şirk” termininin tərifi ........ 278

3. Sufilər arasında “ibadət” termininin tərifi ........ 280

BÖLÜM 2. PEYĞƏMBƏR ﷺ ZAMANINDA, ŞİRK NƏDƏN İBARƏT İDİ? ........ 281

1. Qüreyşlilər, Allahın varlığını və Onun ilahlığını qəbul edirdilər ........ 281

2. Qüreyşlilər, Allaha ibadət edirdilər ........ 283

3. Qüreyşlilərin şirki, nədən ibarət idi? ........ 286

BÖLÜM 3. SUFİLƏRİN BƏZİ ŞÜBHƏLƏRİ VƏ ONLARA CAVABLAR ........ 292